AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Layihə Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

TƏHSİL İNSTİTUTU
Azərbaycan Respublikasının Təhsil İnstitutu

İxtisasın adı: Təhsil psixoloqu



# PSİXODİAQNOSTİKANIN HƏYATA KEÇİRİLMƏSİ

Bakı 2020

Bu modul dərs vəsaiti Avropa İttifaqının texniki yardımı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyini dəstəkləmək üçün “Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək” (EuropeAid/138339/DH/SER/AZ) layihəsi tərəfindən hazırlanmışdır. Modulda ifadə olunan fikirlər və məlumatlara görə Avropa İttifaqı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İnstitutu məsuliyyət daşımır.

Modul dərs vəsaiti müvafiq təhsil proqramları (kurikulumlar) üzrə bilik və bacarıqların verilməsi məqsədilə hazırlanmışdır və ali təhsil səviyyəsində müvafiq modulların tədrisi üçün tövsiyə edilir. Modul dərs vəsaitinin istifadəsi ödənişsizdir və kommersiya məqsədi ilə satışı qadağandır.

**Müəlliflər:** Aytən Ağayeva

**Modul üzrə məsləhətçi:** Aynur Kərimova

© Bakı – 2020
Modulda ifadə olunan fikirlər müəllifə aiddir, istifadə olunmuş fotolar açıq mənbələrdən götürülmüşdür. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması modul müəlliflərinin məsuliyyətidir.

# MÜNDƏRİCAT

**ƏSAS ANLAYIŞLAR** ... 8
**GİRİŞ** ... 9
**MODULUN SPESİFİKASİYASI** ... 10
**TƏLİM NƏTİCƏSİ 1: PROSES ÜÇÜN HAZIRLIQ İŞLƏRİNİ HƏYATA KEÇİRMƏK** ... 11
1.1. Psixodiaqnostikanın prinsip və məqsədlərini sadalayır ... 12
1.1.1. Yaş normalarının müqayisəsi prinsipi ... 13
1.1.2. Psixoloji yeni törəmələr ... 16
1.1.3. Aparıcı fəaliyyət ... 18
1.1.4. Kompleks yanaşma prinsipi ... 19
1.1.5. Diaqnostikanın məqsədləri ... 20
Tələbələr üçün fəaliyyətlər ... 22
Qiymətləndirmə ... 23
1.2. Uşağın inkişaf anamnezini müvafiq qaydada toplayır ... 24
1.2.1. Psixoloji anamnezin tərtib sxemi ... 25
1.2.2. Valideynlə müvafiq qaydada effektiv ünsiyyət yaradılması ... 28
Tələbələr üçün fəaliyyətlər ... 31
Qiymətləndirmə ... 32
1.3. Anamnezin nəticələrinə uyğun psixodiaqnostik proses üçün müvafiq metodları müəyyən edir ... 33
1.3.1. Müvafiq metodların müəyyən edilməsi üçün əsaslar ... 34
1.3.2. Söhbətin psixoloji metod kimi spesifikası ... 36
1.3.3. Test metodu ... 36
1.3.4. Proektiv metodikalar ... 54
1.3.5. Uşağın məktəbə psixoloji hazırlıq səviyyəsinin diaqnostikası üçün seçilmiş metodlar ... 61
1.3.6. Peşə maraqlarının və bacarıqlarının psixodiaqnostikası ... 68
Tələbələr üçün fəaliyyətlər ... 83
Qiymətləndirmə ... 85
**TƏLİM NƏTİCƏSİ 2: PSİXODİAQNOSTİKANI HƏYATA KEÇİRMƏK** ... 87
2.1. Uşaqla müvafiq qaydada ünsiyyət qurur ... 88

Tələbələr üçün fəaliyyətlər ... 98
Qiymətləndirmə ... 99
2.2. Psixodiaqnostika prosedurunu tamamlayır ... 101
Tələbələr üçün fəaliyyətlər ... 104
Qiymətləndirmə ... 105
**TƏLİM NƏTİCƏSİ 3: PSİXOLOJİ DİAQNOZU TƏRTİB ETMƏK ... 107**
3.1. Diaqnostika nəticələrinin kəmiyyət və keyfiyyət təhlilini edir ... 108
3.1.1. Veksler test nəticələrinin təhlili ... 108
3.1.2. Raven testi ... 121
3.1.3. Dembo-Rubinşteyn test nəticələrinin təhlili ... 124
3.1.4. Benderin göz-motor geştalt-test nəticələrinin (V.V. Lebedinski) təhlili ... 124
3.1.5. Xarakterin aksentuasiyası metodikası (A.S.Leonqard və Q.Şmişek) üzrə test nəticələrinin təhlili ... 139
3.1.6. Basa-Darki test nəticələrinin təhlili ... 142
3.1.7. “Dost seçmə motivi” metodikası üzrə test nəticələrinin təhlili ... 143
3.1.8. Temperament düsturu (A. Belov) metodikası üzrə test nəticələrinin təhlili ... 143
3.1.9. Sosial frustrasiya səviyyəsinin diaqnostikası (L.İ.Vasserman V.V.Boykon) üzrə test nəticələrinin təhlili ... 144
3.1.10. “Suisid riski kartı” metodikası üzrə test nəticələrinin təhlili ... 145
3.1.11. “Ailə rəsmi” test (Q.T. Homentauskas) nəticələrinin təhlili ... 148
3.1.12. “2 çiçək” proyektiv metodikası üzrə test nəticələrin təhlili ... 155
3.1.13. «İki ev» metodikası (İ.Vandvik, P.Ekblad) üzrə test nəticələrinin təhlili ... 155
3.1.14. “Mövcud olmayan heyvan” metodikası üzrə test nəticələrinin təhlili ... 156
3.1.15. Əl testi (Hand test) nəticələrinin təhlili ... 159
3.1.16. “Mən kiməm?” metodikası (M.Kuna və T.Makpartlenda) üzrə test nəticələrinin təhlili ... 159
3.1.17. “Tamamlanmamış cümlələr” test nəticələrinin təhlili ... 160
3.1.18. Məktəb həyəcanı səviyyəsinin diaqnostika (Fillips) nəticələrinin təhlili ... 161
3.1.19. “Dördüncü artıqdır” metodikası üzrə test nəticələrinin təhlili ... 163
3.1.20. “Labirint” metodikası üzrə test nəticələrinin təhlili ... 163
3.1.21. Məktəb kamilliyinin istiqamət test (A. Kern – Y. Irasek) nəticələrinin təhlili ... 164
3.1.22. ““Hə” və “yox”, “bəli” və “xeyr” demə” oyun metodikası üzrə test nəticələrinin təhlili ... 166

3.1.23. Psixososial yetkinliyin ölçülməsi, test nəticələrinin təhlili ..... 166
Tələbələr üçün fəaliyyətlər ..... 169
Qiymətləndirmə ..... 173
3.2. Psixoloji diaqnozu qaydalara uyğun tərtib edir ..... 176
3.2.1. Psixoloji müayinənin əsasında psixoloji rəyin tərtibi ..... 176
Tələbələr üçün fəaliyyətlər ..... 179
Qiymətləndirmə ..... 180
3.3. Valideyn, müəllim və tərbiyəçilərə müvafiq qaydada tövsiyələr verir ..... 181
Tələbələr üçün fəaliyyətlər ..... 189
Qiymətləndirmə ..... 190
**CAVABLAR ..... 191**
**ƏDƏBİYYAT SİYAHISI ..... 192**

## ƏSAS ANLAYIŞLAR

**Eksperimentator** - eksperimenti aparan şəxsdir.

**IQ** (ingiliscə intelligence quotient - IQ "ay-kyü") - intellekt əmsalı (ingiliscə "intelligence quotient" - IQ "ay-kyü"). İnsanın malik olduğu intellekt qabiliyyətinin kəmiyyət göstəricisidir. Verilmiş şəxs eyni zamanda cəmiyyətdə orta statistik insanın malik olduğu intellektə nisbətən müqayisə olunur. Bunun üçün xüsusi testlər mövcuddur. IQ testləri bilik səviyyəsini yox, düşünmə qabiliyyətini aşkar etməyə xidmət edir. İntellekt əmsalı ümumi intellekt faktorunun qiymətləndirilməsi üçün tətbiq edilir.

**İmpulsivlik** - fəaliyyətin sonunda nə olacağını düşünmədən onu davam etdirmək deməkdir.

**Minimal beyin disfunksiyası** - baş beynin erkən, lokal zədələnməsi kimi qiymətləndirilir. Həmçinin disontogenezin xüsusi forması olub, ali psixi funksiyaların ayrı-ayrı hissələrinin yaşa görə formalaşmasının ləngiməsi ilə xarakterizə olunur.

**Mutizm** - səssiz, susqun mənasına gələn mutizm latın dilində " mutus" ifadəsindən yaranmışdır. Bir uşağın danışıq yaşı keçir və o, hələ də danışmırsa, bu hal uşağın ya nitq aparatında yaranan problemlərlə bağlıdır, ya da danışa bildiyi halda danışmağa istəksizdir. Uşağın danışma bildiyi halda danışmaqdan imtina etməsi psixoloji problemdir və bu m Mutizm adlanır.

**Patogen faktor** - hər hansı bir xəstəlik və ya problemin yaranmasına səbəb ola bilən ətraf mühitin istənilən faktoruna deyilir.

**Persepsiya** - qavrayış anlamını daşıyır.

**Rigid insan** - eyni templi həyat axarına vərdiş etmiş insandır. Həyatda baş verən istənilən yeniliklər bu tip insanda gərginlik və stress yaradır.

**Temperament** - insanın anadangəlmə elə bir xüsusiyyətləridir ki, onlar intensivliyin, təsirə cavab vermə sürətinin dinamik xarakteristikalarının emosional qıcıqlanma və tarazlıq dərəcəsini, ətraf mühitə uyğunlaşma xüsusiyyətlərini şərtləndirir.

# GİRİŞ

Təhsil müəssisələrində psixoloji işin aparılması yalnız təhsil alan uşaqlar üçün deyil, bütün cəmiyyət üçün də əhəmiyyətli rol oynayır. Yeniyetmə nəsildə vaxtında aşkarlananıb, düzgün müəyyən edilən problemlər effektiv müdaxilə nəticəsində onların sağlam ruhda formalaşmasını təmin edir. Sağlam uşaq sağlam gələcək deməkdir. Bu həssas sağlamlığın qorunması üçün zəruri olan psixodiaqnostika proseduru bu modulda öz əksini tapmışdır.

Bu modul 3 təlim nəticəsini əhatə edir və hər bir təlim nəticəsi üzrə qiymətləndirmə meyarlarının məzmunu açıqlanmış, verilən məzmunun möhkənləndirilməsini təmin edən “Tələbələr üçün fəaliyyətlər" və təhsilalanın məzmunu hansı səviyyədə qavradığını qiymətləndirmək üçün "Qiymətləndirmə" bölməsi verilmişdir.

İlk təlim nəticəsi psixodiaqnostikanın prinsipləri və məqsədlərini, uşağın inkişafının anamnezini müvafiq qaydaya uyğun toplanılmasını, anamnezin nəticələrinə əsasən psixodiaqnostik proses üçün uyğun metodun müəyyən edilməsi yollarını əks etdirir.

İkinci təlim nəticəsində tələbələr uşaqla müvafiq qaydada ünsiyyət qurmağı və psixodiaqnostik prosedurun tamamlanma prinsipləri ilə tanış olurlar.

Üçüncü təlim nəticəsində isə diaqnostik nəticələrdə kəmiyyət və keyfiyyət təhlilinin aparılması, psixoloji diaqnozun qaydalara uyğun tərtib edilməsi, valideyn, müəllim və tərbiyəçilərə müvafiq qaydada tövsiyələrin verilməsindən bəhs edilir.

Əziz təhsilalanlar! Unutmayın ki, gələcək fəaliyyətinizin yüksək səviyyədə qurulmasının əsası, sizə təqdim olunan materialların həm nəzəri, həm də praktiki cəhətdən mənimsənilməsindən çox asılıdır.

**Qeyd:** Testlərin stimul materialları əlavə faylda təqdim edilmişdir.

# MODULUN SPESİFİKASİYASI

| | |
|---|---|
| **Modulun adı:** | Psixodiaqnostikanın həyata keçirilməsi |
| **Modulun kodu:** | SS-2020-35 |
| **Modulun ümumi məqsədi:** | *Bu modulu tamamladıqdan sonra tələbə anamnezin nəticələrinə uyğun psixodiaqnostikanı həyata keçirməyi və əldə olunan nəticələrə uyğun olaraq psixoloji diaqnozu tərtib etməyi bacaracaqdır.* |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Proses üçün hazırlıq işlərini həyata keçirmək | ➢ Psixodiaqnostikanın prinsip və məqsədlərini sadalayır;<br>➢ Uşağın inkişafının anamnezini müvafiq qaydada toplayır;<br>➢ Anamnezin nəticələrinə uyğun psixodiaqnostik proses üçün müvafiq metodu müəyyən edir. |
| 2. Psixodiaqnostikanı həyata keçirmək | ➢ Uşaqla müvafiq qaydada ünsiyyət qurur;<br>➢ Psixodiaqnostika prosedurunu tamamlayır. |
| 3. Psixoloji diaqnozu tərtib etmək | ➢ Diaqnostika nəticələrinin kəmiyyət və keyfiyyət təhlilini edir;<br>➢ Psixoloji diaqnozu qaydalara uyğun tərtib edir;<br>➢ Valideyn, müəllim və tərbiyəçilərə müvafiq qaydada tövsiyələr verir. |

# TƏLİM NƏTİCƏSİ 1

# PROSES ÜÇÜN HAZIRLIQ İŞLƏRİNİ HƏYATA KEÇİRMƏK

## 1.1. Psixodiaqnostikanın prinsip və məqsədlərini sadalayır

### Psixodiaqnostikanın prinsip və məqsədləri

Psixodiaqnostika insanların psixi xassə, proses və halətlərinin inkişaf xüsusiyyətləri və onlar haqqında əsaslı məlumat əldə etməyə imkan verən metodların köməyilə qiymətləndirilməsinin nəzəriyyəsi və praktikası ilə məşğul olur.

Psixodiaqnostika prosedurunun səmərəli şəkildə həyata keçirilməsi üçün hər praktik psixoloq aşağıdakı **prinsiplərə** ciddi əməl etməlidir:

1. **Uşaq maraqlarının qorunma prinsipi.** Uşaq ilə aparılan psixoloji işin özəlliyi ondan ibarətdir ki, psixoloqa uşağın özü deyil, onun valideyni, qohumları və ya müəllimləri ehtiyac duyduqda müraciət edir. Yəni psixoloq birbaşa uşaq ilə deyil, valideyn-uşaq və ya müəllim-uşaq konsepsiyası çərçivəsində işləyir. Psixodiaqnostika zamanı valideynlərin və müəllimlərin istəkləri deyil, yalnız uşağın inkişafının müayinəsi diqqət mərkəzində olmalıdır;

2. **Diaqnozun stereoskopikliyi prinsipi.** Diaqnozun stereoskopikliyi prinsipi ilk dəfə ailə psixologiyası çərçivəsində formalaşdırılmışdır. Mövcud problemə uyğun olaraq psixoloqun obyektiv baxışından əlavə ailəyə daxil olan digər bütün üzvlərin bu problemə dair subyektiv fikirləri nəzərə alınmalıdır. Uşaqların psixodiaqnostikası zamanı bu prinsip onların mövcud olduğu sosial mühitdə şəxslərarası münasibətlərin təfərrüatlı şəkildə öyrənilməsi ilə həyata keçirilir. Psixoloq valideyn problemin yaranmasına və mövcud situasiyaya olan münasibətindən əlavə, bu situasiyaya uşağın da münasibətini öyrənib, nəzərə almalıdır;

3. **Uşağın şəxsiyyətinə hörmət və konfidensiallıq prinsipi.** Konfidensiallıq və uşağın şəxsiyyətinə hörmət prinsipi ondan ibarətdir ki, psixoloq uşaq ilə manipulyasiya edə bilməz və valideynlər tərəfindən uşağın şəxsiyyətinin dəyişdirilməsi ilə bağlı olan sorğuların qəbul edilməsi də yolverilməzdir. Məsələn, ana şikayət edir ki, uşağı çox astagəldir. Söhbət əsnasında valideynin özünün də astagəl olduğunu öyrənirik. Valideyn uşağının özü kimi olmasını, bundan əziyyət çəkməsini istəmədiyini vurğulayır və deyir: "İstəyirəm o, cəld və zirək olsun";

4. **Sətiraltı mənaların analizi prinsipi**. Bu prinsipə əsasən, psixoloq müraciətin əsl motivlərini aydınlaşdırmalıdır. Müraciətin əsl motivləri isə, çox vaxt şikayətlərin analizi zamanı aşkar edilir;

5. **Uşağın fərdi həyat yolunun analizi psinsipi.** Uşağın fərdi həyat yolunun analizi prinsipinin həyata keçirilməsi üçün psixoloq ontogenezin daha əvvəlki pillələrində həyata keçən prosesləri də nəzərə almalıdır;

6. **Yaş normalarının müqayisəsi prinsipi.** Bu prinsipə riayət etmək üçün psixoloji yaş termininə nəzər yetirmək vacibdir;

7. **Kompleks yanaşma prinsipi.**

İlk beş prinsip psixoloji iş üçün vacib olsa da, ümumidir. Yaş normalarının müqayisəsi

prinsipi və kompleks yanaşma prinsipi uşağın psixodiaqnostikası prosesində etibarlı nəticələrin əldə edilməsi üçün riayət olunmalı əsas prinsiplərdir. Həmin prinsiplərin unikallığını nəzərə alaraq onların komponentlərini daha ətraflı təhlil edək.

### 1.1.1. Yaş normalarının müqayisəsi prinsipi

Uşağın müayinəsi iki növ yaşa əsasən, aparılır:

1. Xronoloji yaş - bu yaş zamanla bağlıdır. Psixoloq müayinə günü üçün uşağın yaşını tam şəkildə (il, ay) qeyd etməlidir;
2. Psixoloji (psixi) yaş – bu anlayış ilk dəfə rus alim-psixoloq L.S.Vıqotski tərəfindən yaranmışdır. Onun fikrincə, psixoloji yaş inkişafın göstəricisidir və xronoloji yaş ilə müqayisədə zamanla birbaşa asılılığı yoxdur.

Xronoloji yaş ilə psixoloji yaş bərabər olmaya bilər. Bunun səbəbi, psixoloji və bioloji yaşın inkişaf dinamikasının fərqli olmasıdır. Uşağın ilk yaşlarda inkişaf tempi yüksək, yetkinlik yaşlarına doğru isə, bu temp nisbətən aşağı düşür. Bu fenomenə inkişaf heteroxronluğu, yəni, qeyri-bərabərliyi deyilir. Vıqotski yazır ki, uşağın ilk ilində baş verən fundamental dəyişikliklər digər illərdə olan inkişafla müqayisə edilməyəcək qədər yüksək olur. Bu prinsipə tam şəkildə əməl edilməsi üçün psixoloji yaş anlayışının komponentlərini bilmək vacibdir.

Psixoloji yaş bütöv və dinamik struktura malikdir və 3 əsas komponentdən ibarətdir. (Sxem 1.1):

1. İnkişafın sosial şəraiti;
2. Psixoloji yenitörəmələr;
3. Aparıcı fəaliyyət.




**Sxem 1.1. Psixoloji yaş komponentləri**

İnkişafın sosial vəziyyəti – L.S.Vıqotskiyə görə inkişafın sosial situasiyası – özünəməxsus və hər yaş üçün spesifik olan, uşaq və onu əhatə edən sosial mühit arasında yeganə təkrar olunmayan münasibətlərdir. Bu cür yanaşma onu göstərir ki, inkişafın əsas stimulu həm mühit, həm də uşağın öz aktivliyidir. Bu fikir biheivoristlərin inkişaf haqqında olan fikirlərinə tamamilə ziddir. Biheivoristlərin fikirlərinə görə, inkişafın yeganə stimulu mühitdir.



**Şəkil 1.1. Ailə**

İnkişafın sosial vəziyyəti 3 tip münasibətdən ibarət ola bilər:

- Yaxın qohum – uşaq. Uşağın tərbiyəsində yer alan valideynlər, qohumlar (nənə, baba) və dayə aid edilir. Həmçinin siblinqlər (bacı, qardaş) da aid edilir (Şəkil 1.1);
- Qohum olmayan digər böyüklər: bağça tərbiyəçisi, müəllimələr (Şəkil 1.2);
- Həmyaşıdlar: sinif və qrup yoldaşları, dostlar (Şəkil 1.3).





**Şəkil 1.2. Müəllim və şagird**

Yuxarıda sadalanan 3 müxtəlif qrup insanlar uşağın inkişafının sosial şəraitini təşkil edir. Hər uşaq üçün inkişafın sosial şəraitinin komponentləri müxtəlif ola bilər.



**Şəkil 1.3. Uşaq dostları ilə birgə**

Misal: 4 yaşlı uşağın inkişafının sosial şəraiti yalnız ata və anadan ibarət ola bilər. Amma 8 yaşında kiçik məktəblinin inkişafının sosial şəraitində isə, həm məktəbli, həm həmyaşıdları, həm də qohum olmayan böyüklər (müəllimlər) yer almalıdır. Lakin evdə təhsil alan və müəyyən fizioloji çətinlikləri olan uşaqlar həmyaşıdları ilə ünsiyyətdən məhrum olur. Buna görə də onun inkişafının sosial şəraiti xüsusi qeyd edilməlidir.

***Yaxın qohum – uşaq***

Sosial şəraitində ən mühüm rolu ailə oynayır. Valideynlərarası münasibətlər, konfliktlər uşaqda stress, depressiya, yüksək həyəcanlılıq kimi halların yaşanmasına səbəb olur. Bəzi uşaqlar daha aqressiv davranış nümayiş etdirir, bəziləri isə özlərinə qapanırlar. Natamam ailələr iki cür olur: boşanmış və əvvəlcədən tək valideyni olan ailələr. Hal-hazırda

dünyada 16 yaşına qədər hər 4-cü uşaq natamam ailədə böyüyür. Valideynləri boşanmış 3-4 yaşlı uşağın mövcud vəziyyətə psixoloji adaptasiyası üçün minimum 2 il vaxt tələb olunur.

Uşaqlar müxtəlif səbəblərdən bəzi hallarda valideyn diqqətindən kənar qalırlar. Bu zaman, uşaq valideynin sevgi və qayğısından məhrum olur. Əksər valideyinlər uşaqlarına qarşı məsuliyyəti 3-cü şəxsə (nənə, dayə və b.) həvalə edirlər. Bu da bir patogen faktordur.

Bəzi ailələr tam olsalar belə, tərbiyədə böyük səhvlərə yol verirlər. Bu cür patogen tərbiyə üsulları aşağıdakılardır:

- **Hiperqayğı.** Valideynlər hər zaman uşaqlarını hər şeyin ən yaxşı ilə təmin etmək istəyirlər və təbii olaraq, onları hər növ qayğı və problemdən uzaq tuturlar. Lakin valideynlər unudurlar ki, onların qarşısında duran ən vacib məsələ övladlarını sərbəst və yaş dövrünə aid olan normativ problemləri həll edə bilməyi öyrətməkdir. Bu cür böyüyən uşaqlar istənilən çətinlik zamanı kənardan yardım axtarırlar.

- **Hipoqayğı.** Yuxarıdakı tərbiyə növünün tam əksidir. Bu cür tərbiyə zamanı valideynlər ən yaxşı halda uşağının yaşam minimumunu təmin edirlər: yatmaq üçün yer, yemək və geyim. Belə tərbiyə növü yüksək gəlirli ailələrdə də müşahidə olunur. Faktiki olaraq valideyn uşağın fundamental ehtiyaclarını təmin etsə də, uşaq ilə emosional kontakta girmir, tərbiyəvi söhbətlər aparmır, uşaq tamamilə öz-özünə buraxılır, uşaqla qurulan söhbətlər əsasən bu tipdə olur: "Yemək yedin?", "Dərsini oxudun?", "Zibili atdın?" və s. Araşdırmalara görə tam ailədə böyüyən uşaqların 20 faizi hipoqayğı tərbiyəsi alırlar.

Hipoqayğının bir neçə səbəbi var:

- **Erkən nikahlar.** Bəzən çox gənc yaşda ailə quranlar uşaq sahibi olmaq üçün hazır deyillər. Onlarda yüksək dərəcədə infantilizm müşahidə olunur. Uşağa görə həyat tərzini dəyişmək istəmirlər və onlar düşünürlər ki, uşaq özü hər şeyi öyrənəcək. Bu cür ailələrdə uşaqlar özlərini bədbəxt və lazımsız hiss edirlər.
- **Rigid valideynlər.** Bu səbəb yaşla bağlı deyil. Bu cür insanlar ailələrinə yeni üzv qəbul etməyə hazır olmurlar və onlara "rigid" insanlar deyilir. Onlar uşağa görə öz vərdişlərindən imtina etmir və övladlarını yük kimi görürlər.
- **Uşağı psixoloji olaraq qəbul etməmək.** Buna səbəb istənilməyən hamiləliklər, ailənin boşanması, ananın karyerasını dayandırmaq məcburiyyətində qalması və s. kimi hallar ola bilər. Bu valideynlər övladlarını qəbul etmədikləri üçün uşaqları ilə kontaktı minimuma endirməyə çalışırlar.
- **Valideynlik hissi yaranmamış insanlar.** Təəssüflər olsun ki, uşağın dünyaya gəlişi ilə valideynlərdə avtomatik olaraq ana və ata instinkti yaranmır. Bu tip valideynlər uşağın dünyaya gəlməsini müsbət emosiya ilə qarşılaya bilmirlər. Buna səbəb sağlamlıq problemləri və ya ailə münaqişələri ola bilər.

Hipoqayğının əlamətləri:

1. Valideyn uşağın problemlərinə əhəmiyyət vermir;
2. Valideyn uşağa kömək etmək istəmir;

3. Valideyn uşağın hər bir davranışına qıcıqlanır;
4. Valideyn eqoizmi;
5. Valideyn uşaqla ünsiyyət qurmamaq üçün bəhanələr gətirir.

Hipoqayğı ilə böyüyən uşaqlar həm diqqət, həm də sevgidən məhrum qalırlar. Bu cür uşaqlarda şəxsiyyət deformasiyaları müşahidə olunur. Onların sosial və emosional inkişafı pozulur.

***Qohum olmayan digər böyüklər***

Bu tip münasibətlərin qurulmasında ilk təəssürat və ilk təcrübə çox önəmlidir. Qohum olmayan və sosial əhəmiyyət daşıyan böyüklər ilə ünsiyyət qurmaq bacarığı uşaqlarda məktəbli dövrünə başlamazdan öncə inkişaf etdirilməlidir. Məktəbə qədəm qoyan uşaq yad olan böyüklərdən özünə qarşı tamam fərqli və vərdiş etmədiyi münasibət görür. Müəllim-şagird münasibətləri müəyyən qaydalar çərçivəsində formalaşır. Bu tip münasibətlər valideyn-uşaq münasibətindən emosional cəhətdən daha çox fərqlənir. Uşağın yeni formatda ünsiyyət qurmaq bacarığı onun məktəbə adaptasiya prosesində yeni rol oynayır. Əgər uşaq qohum olmayan və sosial əhəmiyyət daşıyan böyüklə məktəb çərçivəsində ünsiyyət qura bilməsə, o zaman aşağıdakı hallar baş verə bilər:

- Tədrisdən geri qalma;
- Daim emosional stabilsizlik: acıq etmək, qiymətlərə görə küsmək və digər hallar. Bu cür uşaqlar müəllim tərəfindən emosional qəbul edildiyini hiss etməlidir. Müəllim uyğun vaxtda uşağı tərifləməlidir;
- Sistematik davranış pozuntusu.

Bu tip münasibətlər iki formada müşahidə edilir – aktiv və passiv proseslər.

- Aktiv proseslərə – məktəbdən imtina, məktəb öncəsi göz yaşları;
- Passiv proseslərə – enurez, nevroz, diareya, qızdırma və mutizm kimi hallar aid edilir. Həmçinin məktəb dezadaptasiyası zamanı müdafiə mexanizmi kimi – məktəbi qiymətdən salma da müşahidə oluna bilər.

***Həmyaşıdlar***

4 yaşadək uşaqların normal inkişafı üçün həmyaşıdları ilə mütəmadi ünsiyyətdə olması şərt deyil. Məktəbəqədər yaş dövrünün ortasında uşaq həmyaşıdları ilə ünsiyyət nəticəsində onları dinləməyi və bölüşməyi öyrənir. Uşaq həmçinin öz həmyaşıdlarına uyğunlaşır. Bu yaşda həmyaşıdları ilə ünsiyyətdən kənar qalan uşaqlarda kommunikativ bacarıqları zəif inkişaf edir, onlar ürəksiz, qorxaq və utancaq olurlar.

### 1.1.2. Psixoloji yeni törəmələr

Müəyyən yaşda yenicə formalaşan emosional və ya intellektual sferaya aid ediləcək yeniliklərə "yeni yaş törəmələri" deyilir. Yeni törəmələr inkişafın sosial situasiyasından meydana gəlir. Yəni, yeni törəmə uşağın yeni bacarıq qabiliyyəti deməkdir.

Müxtəlif yaşlarda fərqli yeni törəmələr yaranır. Məsələn, körpəlik dövrünün ilk 6

ayında anaya bağlılıq – yeni törəməsi formalaşır. Anaya bağlılıq mövzusunda bir çox elmi araşdırmalar olsa da, onlardan ən geniş yayılmışı C.Boulbinin "Bağlılıq nəzəriyyəsi"dir. Boulbiyə görə uşaq və ana arasında olan emosional bağlılıq uşağın dünyaya qarşı təhlükəsizlik hissini formalaşdırır. Böyük və yad olan dünya uşağı qorxutmur. Həmçinin bu tip bağlılıq insanlar ilə daxili ünsiyyət tələbini təmin edir. Ana ilə münasibətdə körpə ilk dəfə şəxsiyyətlər arası münasibət qurmuş olur və bu bağlılıq formalaşmasa, psixi inkişaf mümkünsüz sayılır. Bu baxımdan bağlılığın formalaşması mühüm psixi, yeni törəmədir və inkişafın normativ gedişatı üçün şərtdir. Lakin tədqiqatlar zamanı müəyyən edilmişdir ki, bir çox uşaqlarda bağlılığın keyfiyyət baxımından fərqli növləri mövcuddur. Ən azı 4 bağlılıq tipi mövcuddur və onlar aşağıdakılardır:

- Etibarlı bağlılıq – uşaq düşdüyü yeni mühiti (təcrübə otağı) kəşf etməyə hazırdır. Uşaq bu araşdırmanı apardığı zaman ana onun üçün etibarlı məlumat mənbəyidir. Ana ilə ayrılıq zamanı uşaq kövrəlir və məyuslaşır. Lakin ana geri qayıtdığı zaman onu sevinclə qarşılayır, gülümsəyir və ana tərəfə qollarını uzadır. Bəzi hallarda ananın geri dönüşü göz yaşları ilə qarşılana bilər, ancaq bu, uzunmüddətli olmur və uşaq anadan gözlədiyi diqqəti aldıqdan dərhal sonra sakitləşir və oyununa davam edir.
- Qaçınan bağlılıq – uşaq böyük həvəslə ətrafı ilə tanış olur və ana ilə bağlılığını heç bir formada göstərmir. Ayrılığa minimal distress reaksiyası göstərir. Ananın dönüşünə ana ilə təmasdan qaçış ilə reaksiya verir. Diqqətini oyuncaqlara yönəldir və ana uşağı qucağına aldığı zaman uşaq üzünü oyuncaqlar tərəfə çevirir. Uşaq sanki ana ilə göz-gözə gəlməkdən qaçır. Bu tip davranış uşaqda təhlükəsizlik hissinin yaranmamasına işarət edir.
- Ambivalent bağlılıq – tanış olmayan otağa (eksperiment otağı) daxil olan zaman uşaqlar distress nümayiş etdirirlər. Əksər hallarda qorxaq və passiv davranırlar, ətrafla tanış ola bilmirlər. Ana ilə ayrılıq zamanı uşaq yenidən distress reaksiya verir. Ana otağa qayıdanda isə uşaq həm onunla ünsiyyətə can atır (qollarını ona tərəf uzadır), həm də ona qarşı aqressiv davranır (üzündən vurur, dişləyir). Bu zaman sanki uşaq anada axtardığı təsəllini tapa bilmir. Bu davranış anaya olan ambivalent (həm müsbət, həm mənfi) hislərin göstəricisidir. Uşaqda əminlik və təhlükəsizlik hissi yaranmayıb, bu cür bağlılığa "həyəcanlı ambivalent" bağlılıq da deyilir.
- İntizamsız bağlılıq – bu cür bağlılıq zamanı yeni otaqda tək qalan uşağın davranışı məqsədsizdir və uşaq anaya bağlılığının olmadığını nümayiş etdirir. İntizamsız bağlılıq zamanı digər bağlılıqlara oxşar reaksiya verilsə də, valideyn otağa qayıtdığı zaman heç bir emosional reaksiya ilə rastlaşmır.

Psixoloq Merri Eynsvorld təsdiqləyir ki, uşağın anaya olan bağlılıq tipi ananın uşağa olan münasibətini əks etdirir. Etibarlı bağlılıq nümayiş etdirən uşaqların anaları daha həssas və diqqətlidirlər, körpələrinin bütün tələbatlarını qarşılayırlar.

Qaçınan bağlılıq nümayiş etdirən uşaqların anaları emosional baxımdan soyuq, diqqətsiz və hədsiz dərəcədə tələbkar olurlar. Ambivalent bağlılıq tipi nümayiş etdirən

uşaqların analarının davranışları və emosiyaları qeyri-stabildir. Bu cür analar verdiyi qərarları tez-tez dəyişirlər.

Merri Eynsvorldun fikrincə, ananın dəstəyi yalnız sevgi ilə kifayətlənməməlidir. Ana övladının sərbəstliyinə və spontanlığına da hörmətlə yanaşmalıdır. Onun fikrinə əsasən bağlılığın yaranması üçün uşağın aktivliyi lazımdır. Məhz uşağın ilk hərəkətləri (göz qırpma, təbəssüm, qığıldamaq) valideyn və ya onun qayğısına cavab reaksiyasına səbəb olur (danışmaq, gülmək, əzizləmək, lay-lay oxumaq və s.).

Bağlılıq obyekti bir və ya bir neçə insan ola bilər. Uzun müddət bağlılıq obyektindən uzaq qalmaq uşağın psixo-emosional vəziyyətinə mənfi təsir edir. Uşaq və ana arasında bağlılıq nə qədər etibarlı olsa, uşaq bir o qədər digər insanlara meyilli olur.

1 yaşa qədər uşaqlar psixoloq tərəfindən ana – uşaq diada (cütlük) çərçivəsində qəbul edilir. Anayla olan bağlılıq tipi gələcəkdə uşağın digər şəxslərlə qarşılıqlı ünsiyyətə daxil olma özəlliklərini müəyyən edir. Ana uşağın emosional inkişafına təsir edən ilk amildir.

Bağlılıq tipindən asılı olaraq uşaqda empatiya hissi, sevgi və yaxın münasibətlər qurma bacarığı inkişaf edir.

- Erkən uşaqlıq dövründə əsas psixoloji yeni törəmə özünə dəyər formalaşır və MƏN sistemi əmələ gəlir;
- Məktəbəqədər yaş dövrünün əsas psixoloji yeni törəmələrindən biri motivlərin iyerarxiyasının qurulmasıdır;
- Kiçik məktəbli dövründə psixoloji yeni törəmələr intellektual sferaya aiddir və uşaqda ixtiyarlılıq inkişaf edir.

### 1.1.3. Aparıcı fəaliyyət

Hər bir yaş dövrü üçün bir neçə fəaliyyət növü mövcuddur. Aparıcı fəaliyyət digər fəaliyyətlərə nisbətən daha çox zaman alır və uşağın psixo-emosional inkişafının əsasını təşkil edir. Məsələn, məktəbəqədər uşağın aparıcı fəaliyyətini sujetli və rollu oyunlar təşkil edir. İlk baxışda bu oyunlar böyüklər tərəfindən lazımsız vaxt itkisi kimi qiymətləndirilə bilər. Lakin məhz bu oyunlar vasitəsilə uşağın həm koqnitiv, həm emosional sferaları inkişaf edir. Digər heç bir fəaliyyət bu prosesi oyunlar qədər əvəz edə bilməz.

Kiçik məktəbli dövründə isə aparıcı fəaliyyət təlim-tədris fəaliyyətidir. Bu yaşda böyüklərlə münasibət "mən öyrənirəm, sən öyrədirsən" şablonu üzərində qurulur. Müəllim bu yaşda olan uşaqlar üçün "İdeal" obrazını daşıyır: o hər şeyi bilir və onun qiymətləri çox vacibdir.

Orta məktəbə keçid alanda isə aparıcı fəaliyyət dəyişir: artıq yeniyetməlik dövrünə keçən uşaqlarda aparıcı fəaliyyət həmyaşıdları ilə ünsiyyətdən ibarətdir. Bu dövrdə olan uşaqlarda müəllimləri ilə ünsiyyətdə də dəyişikliklər baş verir. Onlar müəllimlərlə mübahisə edir, özünün və dostlarının fikrini əsas götürürlər.

Yuxarıdakılara əsasən, aparıcı fəaliyyətdən asılı olaraq, uşağın gündəlik davranışının necə dəyişdiyini müşahidə edə bilərik.

### 1.1.4. Kompleks yanaşma prinsipi

Böyüklər ilə keçirilən psixodiaqnostika müxtəlif səmtlərdə aparıla bilər. Məsələn, işə qəbul zamanı stresə davamlılıq və ya xasiyyətin fərqli tərəfləri müəyyən edilə bilər. Lakin söhbət uşaqların psixodiaqnostikasından gedirsə, bu tip məhdud profilli müayinələrin nəticələrinin etibarlılığı olduqca aşağıdır.

İnkişaf bütöv bir prosesdir, yəni, bütün funksiyalar eyni vaxtda inkişaf edir. İnkişafın digər bir xüsusiyyəti də onun heteroxronluğundadır. Bu o deməkdir ki, inkişaf prosesi daimi olsa da müxtəlif funksiyalarda bu proses fərqli surətdə həyata keçir.

Psixodiaqnostikanın kompleks şəkildə aparılma prinsipi bir çox dövlətlərdə qanunvericilik səviyyəsində müəyyən olunub. Bu dövlətlərdə psixoloqun fəaliyyəti dövlət qanunları vasitəsiylə tənzimlənir. Məs.: Amerikanın bir çox ştatında psixodiaqnostikanın yalnız bir diaqnostik metodika əsasında aparılması qanuna ziddir. Uşaqların intellektual səviyyəsinin qiymətləndirilməsində özünü təsdiqləmiş dünyaca məşhur Veksler testinin belə diaqnostika məqsədilə tək istifadə edilməsi yolverilməzdir.

Psixoloq diaqnostika zamanı batareya-kompleks tipli yanaşmanı reallaşdırmalıdır. Kompleks tipli yanaşma problemin növündən asılı olmayaraq, uşağın hərtərəfli müayinə prinsipinə əsaslanmalıdır. Hətta bu tip diaqnostikaya uşağın bu zamana qədər inkişaf tarixçəsi aiddir. Tibbdə buna “anamnez” deyilir.

Psixoloqların fəaliyyətini tənzimləyən qanunlar böyük izdihama və səs-küyə səbəb olan məhkəmə proseslərindən sonra ərsəyə gəlib. Belə məhkəmə davalarının olmasına səbəb uşaqlara yanlış diaqnostik yanaşmadan vurulan ağır travmalar olub. Bu travmalar uşaqların psixoloji və fizioloji inkişafında öz fəsadını göstərmişdir. Amerikada bu cür qısa müddətli və bir metodikadan ibarət olan diaqnostikalar 90-ci illərin əvvəllərində mövcud idi və ekspress diaqnostika adlanırdı. Təəssüflər olsun ki, hal-hazırda ölkəmizdə ekspress diaqnostikalar mövcuddur. Psixoloqun fəaliyyətində bu cür səhvlər yolverilməzdir. Yalnız kompleks müayinə zamanı psixoloq problem və çətinliklərin yaranma səbəbini müəyyən etməlidir. Daha sonra isə çətinliyi törədən amillərə əsasən, individual psixoloji yardım (korreksiya) proqramını tərtib edib, həyata keçirtməlidir.

Beləliklə, uşağın kompleks müayinəsi onun həyatının 4 sferasını əhatə etməlidir. Buna aiddir – ünsiyyət, fəaliyyət, emosional və intellektual sfera (Sxem 1.2). Hər bir sfera üzrə uşağın xronoloji yaşına uyğun olaraq metodik vasitələr seçilib diaqnostika zamanı təqdim edilməlidir.




**Sxem 1.2. İnkişaf sferaları**

### 1.1.5. Diaqnostikanın məqsədləri

Psixodiaqnostika müxtəlif məqsədlərlə həyata keçirilə bilər. Bunlar aşağıdakılardır:

- Ümumi psixi inkişafın diaqnostikası (fərdi);
- Məktəbə psixoloji hazırlığın psixodiaqnostikası (fərdi və qrup şəklində);
- Proforiyentasiya (peşə yönümü) (fərdi və qrup şəklində).

*Ümumi inkişafın psixodiaqnostikası.* Bu tip diaqnostika digərləri ilə müqayisədə daha çətin və mürəkkəbdir, yalnız individual qaydada keçirilə bilər. Ümumi inkişafın psixodiaqnostikası 4 əsas və 1 əlavə mərhələdən ibarətdir. Bu tip diaqnostika məktəbəqədər və kiçik məktəbli yaş dövründə olan uşaqlarla və yeniyetmələrlə həyata keçirilə bilər. Bu diaqnostika bir neçə mərhələdə həyata keçirilir:

1. Birinci mərhələ - anamnezin toplanılması. Bu mərhələdə ilkin məlumatlar toplanılır. Psixoloq diqqətlə qulaq asır, aydın olmayan məlumatları dəqiqləşdirir. Anamnezin toplanılması olduqca mühüm bir mərhələdir və bu haqda modulun növbəti hissəsində bəhs olunacaqdır;
2. İkinci mərhələ birbaşa olaraq uşaqla keçirilir. Burada psixoloqun uşaqla düzgün ünsiyyət qurması əhəmiyyətli rol oynayır;
3. Üçüncü mərhələ – bu mərhələdə psixoloq əldə etdiyi məlumat və test nəticələrini analiz edir. İlkin hipotezlər yoxlanılır və uşaqla korreksion iş planının ilkin forması qurulur;
4. Dördüncü mərhələ isə, uşağın iştirakı olmadan, valideynlərlə keçirilir. Psixoloji diaqnoz və mümkün ola biləcək inkişafın variativ proqnozu barədə onlara məlumat verilir və ilkin tövsiyələr təqdim olunur;

5. Beşinci mərhələ fakultativdir. Bu mərhələ, həmçinin “katamnez” adlandırılır. Diaqnostik görüşdən bir müddət sonra psixoloq valideynlərlə əlaqə saxlayır və vəziyyətlə bağlı məlumat əldə edir. Lakin mərhələnin həyata keçirilib-keçirilməməsi psixoloqun istəyindən asılıdır.

*Məktəbə psixoloji hazırlıq səviyyəsi.* Bu tip diaqnostik iş həm fərdi, həm də kiçik qruplar şəklində aparıla bilər. Təhsil müəssisəsinin növündən asılı olaraq (ümumi, lisey, gimnaziya) testin çətinlik dərəcəsi dəyişdirilə bilər. Adətən bu test 5,5-6 yaşlı uşaqlar üçün keçirilir. Bu yaş uşağın 1-ci sinfə başlaması üçün ən uyğun yaş hesab olunur. Testdən keçən uşağın yaşı daha aşağıdırsa, o zaman bu fakt mütləq nəzərə alınmalıdır.

*Proforientasiya (peşə-yönümlü) tipli diaqnostika.* Bu tip diaqnostika həm fərdi, həm də qrup şəklində keçirilə bilər. Bu diaqnostikanın əsas məqsədi - yeniyetmənin potensialı, bacarığı və şəxsi keyfiyyətlərinə daha uyğun olan peşəni (fəaliyyət növünü) müəyyən etməkdir. Bu tip diaqnostika 8-ci sinifdən başlanıla bilər.

## Tələbələr üçün fəaliyyətlər

1. Psixikadiaqnostikanın prinsiplərinin əhəmiyyətini müzakirə edin.
2. Psixodiaqnostikanın 6 prinsipinə ayrı-ayrılıqda zidd olan müayinə üçün açar nümunələri tərtib edin.
3. Psixodiaqnostikanın yaranma tarixini araşdırın. Araşdırmalara əsasən kiçik bir esse yazın.
4. Sosial şəbəkələrdə yerli və xarici psixoloqların monitorinqini aparın. Rast gəldiyiniz prinsip pozuntularını qeyd edin sonra qrup şəklində müzakirə edin.
5. Psixikadiaqnostikanın məqsədlərinin əhəmiyyətini izah edin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Psixodiaqnostikanın prinsip və məqsədlərini sadalayır”.**

1. Psixodiaqnostikanın əsas prinsiplərini sadalayın.
2. Psixodiaqnostikanın əsas məqsədlərini sadalayın.
3. Psixoloji yaşın neçə komponentdən ibarət olduğunu sadalayın.
4. Aydanın 6 yaşı var və o ailənin tək övladıdır. Bağçaya gedir. Həftəsonu isə fortopiano dərsləri alır. Aydanın aparıcı fəaliyyəti nədir?

A) Məktəbə hazırlıq;
B) Oyun oynamaq;
C) Musiqi ilə məşğul olmaq.

5. Kompleks diaqnostika uşağın həyatının neçə sferasını əhatə edir?
6. Ekspress diaqnostika nəyə deyilir?

A) Qısa zamanda həyata keçirilən diaqnostika;
B) Yalnız bir-iki metodikanın əsasında həyata keçirilən diaqnostika;
C) Hər ikisi.

7. Namiqin 6 yaşı var. O, 1-ci sinif şagirdidir. Onun aparıcı fəaliyyətini müəyyən edin:

A) Oyun oynamaq;
B) Dərs oxumaq, ünsiyyət;
C) Əşyalarla manipulyasiya.

8. Hansı yaşdan etibarən uşağın normal sosiallaşması üçün həmyaşıdları ilə ünsiyyətdə olması şərtdir?

A) 3.
B) 4.
C) 5.
D) 6.

## 1.2. Uşağın inkişaf anamnezini müvafiq qaydada toplayır

Anamnez daha çox tibdə istifadə olunan termindir və tibbi müayinə zamanı sorğu vasitəsilə xəstənin özündən və ya yaxınlarından əldə olunan məlumatdır. Bu tip sorğu zamanı əsasən, xəstəliyin gedişatı haqqında məlumatlar əldə olunur (xəstəliyin ilkin simptomları və s.) (Şəkil 1.4). Anamnezin toplanması diaqnostikada istifadə olunan universal metoddur.



**Şəkil 1.4. Anamnezin toplanılması**

Psixologiyada isə anamnez ontogenezin müxtəlif mərhələlərində (prenatal və postnatal) uşağın inkişaf xüsusiyyətləri və inkişaf şəraitinə dair məlumatların toplanılmasına deyilir. Bu, psixodiaqnostikanın həyata keçirilməsi üçün mühüm bir metoddur. Başqa sözlə, anamnez uşağın bu zamana qədər harada, necə və hansı şəraitdə yaşayıb və təhsil almasına dair məlumatdır. Bu məlumatlar uşağın şəxsiyyətinin formalaşmasında mühüm rol oynayan mənbə, faktlar və mexanizmləri aşkar edir. Praktiki psixoloq aşkarlanan mənbə, faktlar, mexanizmlər və uşağın hazırki psixoloji durumu arasında səbəb-nəticə əlaqələrini qurmağı bacarmalıdır.

***Nümunə:***

7 yaşlı Nərminin anası məktəb psixoloquna müraciət edir. Müraciətin səbəbi uşağın sinif yoldaşlarının heç biri ilə ünsiyyət qurmaması olur. Lakin psixoloq uşaq ilə psixodiaqnostika keçirdiyi zaman heç bir problem aşkar etməyəcək. Ana ilə söhbət zamanı (anamnez topladıqda) məlum oldu ki, bu ailənin 7 ildir ki, övladı olmurdu. Ana hamiləlik zamanı böyük çətinliklər yaşayıb və onda uşağı itirmək qorxusu fonunda hiperqayğı əmələ gəlmişdir. Uşaq daima ana ilə olub və ana istəmədən onun həmyaşıdları ilə ünsiyyət qurmasına maneə törədib. Qeyd olunan nümunədə praktiki psixoloq anamnez topladığı zaman müşahidə olunan narahatlıq və ananın uşağı itirmə qorxusu arasında səbəb-nəticə əlaqələrini qurmalıdır. Burada psixodiaqnostikaya hazırlıq mərhələsində uşağın inkişaf xüsusiyyətlərində mühüm faktlar aşkar olundu və bu məlumatlar düzgün diaqnostik alətlərin seçilməsində önəmli rol oynayır.

Yeni anadan olmuş uşağın psixi fəaliyyəti və şəxsiyyəti ilk gündən formalaşmağa başlayır. Psixoloqa müraciət etməmişdən öncə uşağın həyatında sürətli inkişaf gedir.

Psixoloq müayinəsi aparılacaq uşağın müayinə gününədək inkişaf prosesinin gedişatını, özəlliklərini və xüsusiyyətlərini məhdud zaman ərzində öyrənməlidir. Bu proses olduqca həcmli və çətindir. Anamnez toplama prosesinin daha effektiv keçirilməsi üçün 2

əsas məqama xüsusi diqqət yetirmək tələb olunur:

- Anamnez müvafiq ardıcıllıqla toplanmalıdır. Hər bir psixoloq ardıcıllığı bilməli və düzgün əməl etməlidir.
- Valideynlə müvafiq qaydada effektiv ünsiyyət yaratmalıdır.

Məhdud müddətdə effektiv şəkildə həm anamnez toplamaq, həm də şikayətləri qeyd etmək yüksək peşəkarlıq tələb edir. Anamnezin toplanılması zamanı inkişafın gedişatı və şərtinin düzgün ardıcıllıqla toplanılması üçün xüsusi sxem yaradılmışdır. Hər bir psixoloq ardıcıllığı bilməli və düzgün əməl etməlidir. Psixoloji anamnezin tərtib sxemi yaş prinsipi əsasında qurulur və 9 bənddən ibarətdir:

### 1.2.1. Psixoloji anamnezin tərtib sxemi

1. Uşağın anket məlumatları və ailəsi ilə bağlı əsas məlumatlar (ailənin tam tərkibi, ailə üzvlərinin yaşları, təhsili və məşğuliyyətləri) əldə olunmalıdır. Ailə üzvləri ilə yanaşı, uşağın tərbiyəsində yer alan digər şəxslər (dayə və s.) haqqında yuxarıda qeyd olunan məlumatlar. Uşağın doğuşundan sonra ailə tərkibində baş verən dəyişikliklər. Maddi, məişət və yaşayış şərtləri haqqında məlumatlar (mənfi hallar aşkarlanarsa, onların daha ətraflı xarakteristikasını əldə etmək lazımdır);
2. Prenatal dövrdə uşağın inkişafının xüsusiyyətləri və postnatal dövrdə uşağın inkişafına dair ümumi məlumatlar (doğuş üsulu – təbii və ya qeysəriyyə). Uşaq və ananın səhhətində mövcud olan risk faktorları;
3. Müayinə günü üçün uşağın sağlamlıq durumu və keçirtdiyi xəstəliklər, əməliyyatlar, xroniki xəstəliklər və xəstəxanaya yerləşdirmə halları, psixonevroloq, psixiatr və ya digər həkimlərin qeydiyyatına düşmə halları, doğulan gündən yuxu və yemək rejiminin özəllikləri qeyd olunmalıdır;
4. Doğulduğu gündən uşağın harada və kim tərəfindən tərbiyə olunması, ilk iki ili ərzində ona qulluq edən şəxs haqqında məlumatlar, bağça və ya digər uşaq müəssisələrinə (loqoped, psixoloq, psixopedaqoq və s.) gedib-getməməsinə dair məlumatlar, bu müəssisələrə adaptasiya müddəti və müəssisədə olan uşaqlarla ünsiyyətin formalaşması, tərbiyəçi tərəfindən şikayətlərin mövcudluğuna dair məlumatlar, yaşayışında olan mühüm dəyişikliklər, valideynlərlə yaşanan mütəmadi və ya uzunmüddətli ayrılıqlar və uşağın bunlara reaksiyası qeyd olunmalıdır.
5. Körpəlikdə və kiçik yaşlarda (3 yaş daxil olmaqla) inkişaf özəllikləri:
   - Motorik bacarıqların inkişafı - ilk sensomotor reaksiyalar (oturmaq, durmaq və yerimək);
   - Nitqin inkişafı - ilk sözlər, söz birləşmələri və aktiv verbal ünsiyyətin yaranması, ətrafı kəşf etmə aktivliyi və marağı, yaxın və tanış olmayan böyüklərə olan reaksiya və münasibət;
   - Sərbəst yemək qəbulu və gigiyenaya riayət etmə, inadkarlığın və sərbəstliyin

nümayişi, davranışında müşahidə olunan çətinliklər, sevimli oyun və məşğuliyyətlər.

6. Uşağın məktəbə qədər inkişaf dövründə sevimli məşğuliyyəti - oyunu və kimlərlə oyun oynadığına dair məlumatlar, rəsm çəkməyə olan maraq, bu marağın hansı yaşda müşahidə olunması və çəkdiyi rəsmlərdə üstünlük verdiyi mövzular, nağıllara qulaq asmaq, şeir əzbərləmək və televizora baxmaq marağı, mətn oxuma bacarıqları, bu bacarıqların kim tərəfindən öyrədilməsini müəyyənləşdirmək; daha aktiv əlin (sağ və ya sol əl) müəyyən olunması, fiziki inkişafının özəllikləri (boy, çəki), evdə uşaq vəzifələrinin mövcudluğu, böyüklərlə ortaq məşğuliyyətə cəlb olunması, həmyaşıdları ilə münasibəti, ailə üzvləri ilə münasibəti, müşahidə olunan tipik konfliktlər, böyüklər tərəfindən verilən cəza və mükafatlar, uşağa qoyulan aktual qadağalar, uşağın xasiyyətinin xüsusiyyətləri, hər hansı məşğələlərə getməsi, asudə vaxtın keçirilmə forması, təşəbbüskarlığın mövcudluğu, qorxu və ya digər xoşagəlməz məqamların müşahidə olunması;
7. Kiçik məktəbli dövründə inkişaf - məktəbə neçə yaşda getməsi, məktəbə adaptasiyasının necə keçməsi, sinif dəyişikliyinin olub-olmaması, (olduğu halda bunun səbəbini araşdırmaq), uşağın bu dəyişikliyə olan reaksiyası, dərslərdə müvəffəqiyyət, sevdiyi və sevmədiyi fənlər, ev tapşırığını kim ilə və necə yerinə yetirməsi, sinif yoldaşları və müəllimləri ilə münasibəti, məktəb və sinif tədbirlərində iştirakın aktivliyi, məktəbdənkənar maraq və məşğuliyyətləri, davranışında müşahidə olunan sərbəstlik dərəcəsi, uşağın asudə vaxtında aktiv oyunları, kompüter və televizordan istifadəsi, evdə müşahidə olunan tipik konfliktləri;
8. Yeniyetməlik dövrünün inkişafı - fiziki inkişaf (adətən 5-7-ci siniflərdə qızlar oğlanlardan daha hündür olur), orta siniflərə keçid dövrünün özəllikləri, adaptasiya dövrü, uşağın öz böyüklüyünü və sərbəst olmaq istəyini ifadə etməsi, həmyaşıdları və müəllimləri ilə ünsiyyət formaları, asudə vaxtlarının keçirilməsi;
9. Uşağın inkişaf tarixçəsində valideynlər tərəfindən qeyd edilməsi vacib sayılan digər məqamlar:

Yuxarıda qeyd olunan siyahı sadəcə bir sxemdir. Bu sxem olduqca elastikdir və ehtiyac duyulan zaman onun ayrı bəndlərini daha da konkretləşdirmək üçün məzmuna uyğun sualları əlavə etmək olar. Ayrılıqda bu sxem proqnoz və ya diaqnostik məna kəsb etmir, lakin bu, psixodiaqnostikanın əvəz olunmaz bir hissəsidir. Valideynlərlə söhbət yekunlaşdıran zaman bir daha onları narahat edən məsələyə qayıtmaq tövsiyə olunur. Bu zaman onların şikayətini daha da konkretləşdirmək mümkün olacaqdır:

- Onlar problemi nədə görür?
- Arzu olunmayan davranış nə ilə bağlıdır?
- Bu problemin aradan qalxması üçün valideynlər bu günə qədər nə ediblər?
- Bu problemin yaranmasında valideynlərin rolu.

Bu cür geniş söhbət zamanı yalnız anamnez toplanmır, həmçinin valideynlərin uşağa və onun probleminə olan münasibətinə dair önəmli məlumatlar əldə edilir. Valideynlərlə düzgün təmas qurulduğu zaman anamnez həm daha dəqiq və ətraflı, həm də daha səmimi olur. Təcrübə onu göstərir ki, bəzən valideynlər problemi tam anlamır və ya həmin müraciətin əsas səbəbini gizlətməyə çalışaraq bunun əvəzinə digər ikinci dərəcəli səbəbləri qeyd edirlər. Bu hal psixoloji praktikada tez-tez baş verir.

***Nümunə:***

Yeniyetmənin anası psixoloqa müraciət edir. Ananın müraciətinə səbəb isə övladının zərərli vərdişlərə yönəlməsindən qorxmasıdır. Yeniyetmə məktəbdə nümunəvi davranış göstərir və dərslərində müvəffəqiyyətlidir. Psixoloqla söhbət zamanı yeniyetmədə yüksək şəxsi keyfiyyətlər müşahidə olunmuşdur. Belə ki, yeniyetmənin heç bir zərərli vərdişə meyilli olmaması, həmçinin onun həmyaşıdları arasında sağlam həyat tərzini təbliğ etməsi müəyyən olunmuşdur. Valideynlə növbəti görüş zamanı psixoloqun səyi nəticəsində onunla daha səmimi ünsiyyət yaradılaraq məlum olmuşdur ki, uşağın atası yeniyetməlik dövründə narkotik vasitələrdən istifadə edib, sonra isə uzun müddət müalicə alıb. Bu nümunədə biz valideynlə ilk görüşdən səmimi ünsiyyətin yaradılmasının diaqnostika üçün nə qədər əhəmiyyətli olduğunu bir daha görə bilərik.

Anamnezin konsultativ görüş zamanı toplanılması, heç bir halda valideynlərin sərbəst şəkildə konsultasiyadan kənar anamnez-anketin doldurulmasına bərabər tutula bilməz. İlkin müraciətdə anamnez-anket valideynlərə növbəti görüş vaxtı üçün tələb olunan məlumatları ətraflı şəkildə yadlarına salmaları üçün təqdim olunur. Valideyn (qəyyum) və digər yaxın qohumlar vasitəsilə uşağın inkişafının hərtərəfli xarakteristikası haqqında həcmli məlumat əldə olunur. Psixi inkişafın anamnezinin tamlığı (hərtərəfliyi) böyük əhəmiyyət kəsb edir. Anamnez mərhələsinin bu qədər əhəmiyyətli olması səbəbləri aşağıdakılardır:

- Müxtəlif istiqamətli hipotezlərin qurulmasının əsasıdır. Psixoloq problemin yaranma səbəbi ilə bağlı qurduğu hipotezlər bir neçə istiqamətdə olmalıdır və yalnız valideyn şikayətinə əsaslanmamalıdır.
- Əksər zamanlarda anamnez toplanmadıqda, psixodiaqnostikasının nəticələri etibarlı hesab edilmir.

Digər mühüm məqam isə anamnez məzmununun valideynlərin mövqeyi, motivləri və şəxsi xüsusiyyətlərindən asılı olmasıdır. Bunları nəzərə alaraq, uşağın psixoloji xüsusiyyətlərinin formalaşmasında mühüm olan amillər qeyd edilməlidir. Bununla yanaşı, ailədaxili münasibətlərin uşağın psixoloji xüsusiyyətlərinin formalaşmasında təsiri müəyyən edilməlidir. Bir sözlə, psixoloq maksimum dərəcədə öz obyektivliyini qorumaqla, valideynin subyektiv fikirlərinin təsiri altına düşməməlidir.

## 1.2.2. Valideynlə müvafiq qaydada effektiv ünsiyyət yaradılması


Şəkil 1.5. Psixoloq ilə etibarlı ünsiyyət

Diaqnostikanın sonunda uğurlu nəticə əldə etmək üçün ilk şərt valideynlərlə münasibətdə səmimi və etibarlı münasibət yaratmaqdır (Şəkil 1.5). Bu cür münasibətin əsasında təmənnasız hörmət dayanmalıdır. Bundan başqa, valideyn hiss etməlidir ki, psixoloq valideyni narahat edən amil və faktlar ilə razılaşır.

Uşağın diaqnostikası zamanı psixoloq bir neçə dəfə valideynlə söhbət edir. Bu həm qəbula yazıldıqda, həm anamnez toplandıqda, həm də müayinə nəticələri təqdim edildikdə baş verə bilər. Bu cür görüşlərin həm spesifik, həm də ümumi məqsəd və vəzifələri var. Psixoloq valideyn, uşağın tərbiyəsində iştirak edən digər qohumlar, tərbiyəçi və müəllimlər ilə qarşılıqlı münasibətinin yaranması üçün verilən ümumi prinsiplərə nəzər yetirməlidir:

- Valideyinlə empatiya qurma. Psixoloqun empatiya qurma bacarığı və uşağın qarşısında duran çətinlikləri aradan qaldırılmasında səmimi maraq göstərməsi, valideyn-psixoloq münasibətinin etibarlılığının artmasında son dərəcə effektiv olur.

***Nümunə:***

Müəllimin müraciəti əsasında psixoloq uşağın sinifdə davranışını müşahidə edir. müşahidə zamanı uşağın aqressiv davranışı ilə bağlı müəyyən faktları aşkar edib qeyd edir. Daha sonra söhbət üçün məktəbə dəvət olunmuş valideyn uşağı haqqında “o, əslində mülayimdir, sadəcə tez əsəbləşir” fikrini bildirir. Bu zaman psixoloq ona dərhal etiraz etməməli və onunla eyni fikirdə olmadığını büruzə verməməlidir.

**Tənqidsiz yanaşma prinsipi.** Valideynlərlə söhbət zamanı onların hərəkətlərini və tərbiyə strategiyalarını birbaşa və ya dolayı yolla təndiq etmək və onların pedaqoji səriştələrini sual altında qoymaq məqsədəuyğun deyildir. Bu cür rəylər daha neytral şəkildə və yalnız uşağın müayinəsindən sonra verilə bilər. Uşağı müəyyən etməmiş, psixoloq valideynlər tərəfindən tətbiq olunan tərbiyə üsulunun düzgün olub-olmamasını bildirə bilməz. Valideynlər psixoloqla ilk görüşlər zamanı öz davranışları və tərbiyə üsullarına qarşı mənfi reaksiya hiss etdikdə, onlarda güclü müdafiə mexanizmləri aktuallaşa bilər və bu halda problemin hərtərəfli və səmimi müzakirəsi mümkün olmur.

***Nümunə:***

8 yaşlı Namiqin atası psixoloqla ilk görüşündə bildirir ki, daim uşağına aktiv olmağı təbliğ edir. "Əgər səni vururlarsa, sən də vur, çəkinmə!" Təbii ki, bu cür yanaşma psixoloji cəhətdən yanlışdır. Lakin psixoloq ilk görüş zamanı bunu nə verbal şəkildə, nə də qeyri-verbal şəkildə (mimika və jestlərlə) büruzə verməməlidir. Əks halda valideyn tərəfindən

verilən məlumat öz həqiqiliyini itirmiş olacaq.

- Valideynin gözləntilərini aydınlaşdırmaq və psixoloqun iş prinsipləri ilə tanış etmək. Təcrübə onu göstərir ki, əksər valideynlərin psixoloqa müraciətlə bağlı yanlış gözləntiləri olur.

***Nümunə:***

Valideyn ilkin görüşlərə özü gəlsə də, uşaq müayinəyə nənəsi ilə gəlmişdir. Nənə öncə otaqdan çıxmaq istəmirdi, sonra isə otaqdan çıxıb qapıdan psixoloqun fəaliyyətini izləməyə başlamışdır. Müayinənin ortasında dəvətsiz olaraq otağa daxil olub psixoloqa bildirdi ki, uşaqla evdə özü də oynaya bilər və daha çox uşaqla söhbət edilməsini xahiş etdi. Onu da qeyd etmək lazımdır ki, uşaq 1-ci sinif şagirdidir. Göstərilən nümunədə psixoloqun fəaliyyəti zamanı qarşılaşa biləcəyi bir neçə çətinliklərə toxunulmuşdur. Bu nümunədə nənənin psixodiaqnostika haqqında olan gözləntiləri real psixodiaqnostikanın gedişatı ilə üst-üstə gəlmədiyinə görə nənə psixoloqun fəaliyyətinə müdaxilə edir. Nəticədə, uşağın diqqəti dağıldığı üçün müayinənin nəticələri əsassız hesab olunur. Beləliklə, müayinəyə uşağın valideyni özü gəlsə idi və ya nənənin diaqnostika ilə bağlı gözləntilər daha əvvəl aydınlaşdırılsaydı, bu çətinlik yaşanmazdı.

İlk görüş zamanı valideynlərə psixoloji konsultasiyanın ardıcıllığı haqqında da məlumat vermək lazımdır. Bu zaman onlarda müayinə müddəti ilə bağlı olan qeyri-müəyyənlik hissi ortadan qaldırılır. Eyni zamanda psixoloq valideynlərə uşağın problemlərinin birgə və hərtərəfli təhlili üçün təkan verməlidir. Valideynlərlə söhbət zamanı psixoloq gələcəkdə uşağın qarşısına çıxa biləcək çətinliklər və maneələr haqqında xəbərdarlıq etməlidir. Əksər vaxtlarda valideynlər psixoloji xidmətdən maksimum effektivliyi minimum zaman müddətində tələb edirlər. Bu cür gözləntinin olması valideynin psixoloqa olan etibarını sarsıda bilər, çünki əksər psixoloji problemlər uzunmüddətli (1-3 ay) korreksiya tələb edə bilər.

Yekun görüş zamanı valideynlərlə söhbət bir neçə məqsəd daşıyır:

1. Uşağın psixi-inkişaf səviyyəsinin ətraflı müzakirəsi, aşkarlanan çətinliklərin mənşəyi, dərəcəsi və xüsusiyyətləri haqqında məlumatlandırılma, inkişafın gələcəkdə müxtəlif şərtlər altında baş verə biləcək dəyişikliklərinə dair məlumatlandırılma;
2. Valideynlərlə birgə problemlərin həlli istiqamətində konkret davranış strategiyasının seçilməsi;
3. Valideyn-uşaq münasibətlərində olan çətinliklərin müzakirəsi. Valideynlərin bu çətinliklərə olan münasibəti;
4. Növbəti görüşlərin planlaşdırılması və ehtiyac görüldüyü zaman digər ixtisaslı mütəxəssislərə yönləndirilmə, əgər konsultasiya zamanı psixoloq digər sahənin mütəxəssisinin rəyinin olmasını vacib bilərsə, valideyn bunun xüsusi izahatını tələb edə bilər, bu zaman psixoloq əlavə rəyin vacibliyini öz müşahidələrinə, müayinənin nəticələrinə və təcrübəsinə əsaslandırmalıdır.

Həm ilkin, həm də yekun görüşlərdə hər iki valideynin iştirakı olduqca vacibdir. Bu

zaman psixoloq uşaq haqqında daha ətraflı və obyektiv məlumatlar əldə edib, valideynlərə uşağın taleyinə görə ortaq məsuliyyət daşıdıqlarını hiss elətdirir.

Söhbətin əvvəlində səmimiyyət və güvən hissi yaradan mühit əldə olunmalıdır. Bu zaman uşağın problemi daha açıq müzakirə olunur. Valideynlər onları daha çox narahat edən sualları verir. Psixoloq valideynlərdən problemi necə təsəvvür etdiklərinə dair məlumatlar almalı və uşağın qarşısına qoyula biləcək məqsədlər haqqında fikir öyrənməlidir. Daha sonra valideynlərə diaqnostik müayinə nəticələri təqdim edilərək izah olunur. Bu zaman psixoloq valideynlərdə mövcud olan problemin real təsəvvürünü yaratmalı və daha sonra onlarla xüsusi fəaliyyət proqramı müzakirə etməlidir. Təklif olunan tövsiyələrin həyata keçirilməsi üçün konkret addımlar müzakirə olunur. Bu söhbətlərin nəticəsində valideynlərdə problemə qarşı yeni münasibət yaranmalı və bu münasibətə doğru müzakirə aparılmalıdır. Növbəti görüşlər planlaşdırılır, əgər valideyn tam əminliklə ona verilən tövsiyələri həyata keçirirsə, konsultativ görüşün effektini yüksək qiymətləndirmək olar.

Valideynlərlə söhbət zamanı istifadə oluna biləcək taktikalar:

- Alınmış nəticələrin maksimal dərəcədə geniş müzakirə edilməsi. Bu zaman psixoloqun rəyi daha inandırıcı olur;
- Yekunlaşdırıcı görüşdə onlara asanlıqla başa düşülən formada yazılmış rəy təqdim edilməsi;
- Söhbət zamanı valideynlərin düzgün tərbiyə metodlarının dəstəklənməsi və vurğulanması, valideynlərlə konsultasiya müddətində, onlar məyusluq, həyəcan və günahkarlıq hissini keçirdiyi halda, mütləq onlara özlərini ifadə etməyə imkan yaradılmalıdır. Hesab olunur ki, günahkarlıq hissini yenə bilmək üçün ən effektiv üsul çətinliklərin təhlilidir.

## Tələbələr üçün fəaliyyətlər

1. Öz valideyninizdən (və ya qəyyumunuzdan) öz inkişaf anamnezini müvafiq qaydaya uyğun olaraq toplayın. Əldə olunan məlumatları yazılı hesabat formasında təqdim edin.

2. Situasiya ("case") ilə tanış olun:
   Yeniyetmənin anası psixoloqa müraciət edir. Ananın müraciətinə səbəb isə övladının zərərli vərdişlərə yönəlməsindən qorxmasıdır. Yeniyetmə məktəbdə nümunəvi davranış göstərir və dərslərində müvəffəqiyyətlidir. Psixoloqla söhbət zamanı yeniyetmədə yüksək şəxsi keyfiyyətlər müşahidə olunmuşdur. Belə ki, yeniyetmənin heç bir zərərli vərdişə meyilli olmaması, həmçinin onun həmyaşıdları arasında sağlam həyat tərzini təbliğ etməsi müəyyən olunmuşdur. Valideyn ilə növbəti görüş zamanı psixoloqun səyi nəticəsində onunla daha səmimi ünsiyyət yaradılaraq məlum olmuşdur ki, uşağın atası yeniyetməlik dövründə narkotik vasitələrdən istifadə edib, sonra isə uzun müddət müalicə almışdır.
   Ananın qorxularının əsaslı olub-olmadığı haqda müzakirə aparın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Uşağın inkişafının anamnezini müvafiq qaydada toplayın”.**

1. Anamnezin neçə tərkib hissəsi var?

2. Anamnezin toplanması zamanı körpəlik dövrünə aid olan hansı özəlliklər haqqında məlumat qeydə alınmalıdır?

3. Anamnezin toplanması zamanı məktəbəqədər yaş dövrünə aid olan hansı özəlliklər haqqında məlumat qeydə alınmalıdır?

4. Hansı məlumatın anamnezdə yer alması zəruri deyil?

A) Sevdiyi oyun;
B) Sevdiyi kitab;
C) Uşağın sevdiyi yemək növü;
D) Anasının işləyib-işləməməsi haqqında məlumat.

5. Valideynlərlə söhbət zamanı hansı texnikaları istifadə edərək daha səmimi mühit yaratmaq olar? Texnikaları sadalayın.

6. Anamnezin toplanılması üçün nə qədər vaxt sərf etmək olar?

A) 15 dəq.;
B) 25 dəq.;
C) 45-50 dəq.

## 1.3. Anamnezin nəticələrinə uyğun psixodiaqnostik proses üçün müvafiq metodları müəyyən edir

Valideynlər (və ya qəyyumlar) görüş zamanı psixoloqun topladığı uşağın inkişaf anamnezi, valideynlərin şikayəti və psixoloqun müşahidələri ilkin fərziyyələrin formalaşması üçün əsas rol oynayır. İlkin fərziyyələrin formalaşması psixoloqda böyük diqqət və peşəkarlıq tələb edir. İşə yeni başlayan psixoloqlara bu fərziyyələrin ilk olaraq kağız üzərində cədvəl şəklində qeyd etməsi tövsiyə olunur (Cədvəl 1.1). Verilən cədvəl 3 hissədən ibarətdir və fərziyyələrin qurulması təqdim olunacaq şəxslərə uyğun şəkildə aparılmalıdır.

| Şikayətlər | Risk fa toru | İlkin fərziyyələr |
|---|---|---|
| 1.<br>2.<br>3.<br>4. | 1.<br>2.<br>3.<br>4. | 1.<br>2.<br>3.<br>4. |

**Cədvəl 1.1. İlkin fərziyələrin tərtibi**

İlk olaraq valideynlə görüş zamanı psixoloq şikayətləri dəqiqləşdirib cədvəldə qeyd etməlidir. Valideynlər çox vaxt problemi ümumiləşdirdiyi üçün psixoloq dəqiqləşdirici suallar verməlidir.

***Nümunə:***

8 yaşlı Vəfanın anası şikayət edir ki, uşaq dərs hazırlayarkən çox diqqətsizdir. Yalnız bu fikrə əsasən şikayətlər bölməsində "diqqətsizlik" qeyd etmək düzgün deyil. Psixoloq bir neçə amili dəqiqləşdirməlidir. Aydınlaşdırmaq lazımdır ki, diqqətsizlik nədə özünü büruzə verir? Nə vaxt daha çox müşahidə olunur? (Uşaq daim diqqətsizdir, yoxsa fərqli vaxtlarda?). Bu cür aydınlaşdırıcı suallar düzgün diaqnostik metodikaların seçilməsində böyük rol oynayır.

Vəfanın anası ilə söhbət zamanı aydınlaşdırıcı suallar vasitəsilə məlum oldu ki, uşaq yalnız evdə dərs hazırlayarkən səhvlərə yol verir. Daha sonra məlum oldu ki, Vəfa dərslərini günorta nənəsi ilə hazırlayır. Nənə isə, Vəfaya kömək edərkən televizora baxır. Televizorun səsi azyaşlı uşağa maneə olduğu üçün o, bəzən səhvlərə yol verir. Burada psixoloq aydınlaşdırıcı suallarla valideyinin şikayətini uşağın psixoloji vəziyyətilə əlaqəli olmadığını müəyyən etmiş olur.

Kompleks psixoloji müayinənin prinsipinə əsasən biz bilirik ki, şikayətin növündən asılı olmayaraq, uşağın müayinə proqramında onun hər 4 sferasını əhatə edən metodikalar yer almalıdır.

Şikayətlər bölməsini dəqiqləşdirici sualların köməyilə doldurduqdan sonra 2-ci bölmə, yəni, **risk faktorlarına** keçid alınır. Bu və ya anamnez nəticəsində toplanılan materiallarda uşağın inkişafındakı risk faktorları qeyd edilir.

***Nümunə:***

Natamam ailə, boşanma ərəfəsində olan, ağır keçən hamiləlik dövrü, uşaqda müşahidə

olunan nevroloji problemlər, tez-tez dayələrin dəyişilməsi, fiziki zorakılıq və s..

Daha sonra üçüncü sütun doldurulur. Bu sütun, yəni **ilkin fərziyyələr** ilk iki sütunların analizi nəticəsində formalaşdırılır. Bu şikayətlərə əsasən uşağın intellektini yoxlamaq üçün yönəlmiş yüksək həcmli metodikaların istifadəsinə ehtiyac yoxdur. Psixoloq dəqiqləşdirici suallar verərkən metodik seçim zamanı aksenti intellektual testlərə deyil, şəxsi emosional sferanı müəyyən edən metodiklara uyğun verir.

Həddən artıq fiziki aktivlik və yuxu problemli şikayətlə qeyd olunan uşağın risk faktorunda qeysəriyyə əməliyyatı ilə dünyaya gəldiyi qeyd edilibsə, psixoloqun quracağı ilkin fərziyyə uşağın hiperaktiv olduğuna dair olmalıdır. Bu hal əgər şikayətlərdə kiçik qardaşına aqressiv davranış kimi, risk faktorlarında isə uşaqlar arasında yaş fərqinin az olması kimi qeyd olunubsa, psixoloqun quracağı ilkin fərziyyə siblinglərarası qısqanclıqla bağlı olacaqdır. Onu da qeyd edək ki, şikayət və risk faktorlarının əsasında bir və ya bir neçə ilkin fərziyyələr qurulmalı və onların hər biri müayinə zamanı yoxlanılmalıdır.

Şikayət və risk faktorlarına, əsasən, yaradılan fərziyyələrin yoxlanılması üçün metodik bazaya üz tutulmalıdır.

### 1.3.1. Müvafiq metodların müəyyən edilməsi üçün əsaslar

1. Valideyn (müəllim, qəyyum) tərəfindən olan şikayət və sorğu
2. Müayinə günü üçün uşağın yaşı.
3. Risk faktorları (natamam ailə).
4. Anamnezin analizi zamanı psixoloqda formalaşan hipotezlər.

İnkişafın fərdi diaqnostikası əsasında duran kompleks yanaşmanı təmin etmək üçün uşağın həyatının 4 sferasına aid olan metodik vasitələr seçmək zəruridir. Əsas anlam isə şikayət və hipotezlərin aid olduğu sferaya verilir. Problemli sferanı müəyyən etmək üçün diaqnostikanı müşahidə və söhbətdən başlamaq uyğundur.

Psixoloji müayinə zamanı psixoloqun qarşısında duran məqsədlərə çatmaq üçün müxtəlif tipli metodlardan istifadə olunur:

1. Müşahidə metodu
2. Söhbət metodu
3. Test metodu
4. Proektiv metodikalar.

Bu metodlar ilə daha detallı tanış olaq:

**Müşahidə**

Bu metod, psixi hadisələrin gedişinə qarışmadan, onları sadəcə olaraq izləmək yolu ilə empirik məlumatların əldə edilməsindən ibarət əsas tədqiqat metodudur. Psixoloqun şəraitə, psixi hadisələrin gedişinə qarışmaması, müdaxilə etməməsi müşahidə metodunu xarakterizə edən başlıca xüsusiyyətdir.

Müşahidə planlı, məqsədə müvafiq şəkildə həyata keçirilir. Müşahidə metodunun üstün cəhəti ondan ibarətdir ki, üzərində müşahidə aparılan şəxs bundan xəbər tutmur, müşahidə təbii şəraitdə (iş zamanı, oyun, dərs və s.) aparıldığına görə o, öz hərəkətində

dəyişiklik etmir. Müşahidə:

- Qısamüddətli və ya uzunmüddətli;
- Dövrü və sistematik ola bilir.

Qısamüddətli müşahidə dəqiqələr ərzində insan psixikası və davranışının təzahürünü izləməklə həyata keçirilir. Müəllimin izahına şagirdlərin münasibətini aşkara çıxarmaq üçün həmin anda onların üzərində aparılan müşahidə buna misal ola bilər. Uzunmüddətli müşahidəyə bütün dərs və ya bütün rüb ərzində aparılan müşahidələri aid etmək olar.

Dövrü müşahidəyə gəldikdə, bu, müəyyən dövrlərdə, məsələn, hər rübün sonunda eyni psixi hadisənin təzahürünü izləməkdən ibarətdir. Dövrü müşahidə psixi hadisənin inkişaf dinamikasını aşkara çıxarmağa imkan verir. Sistematik müşahidə də inkişaf dinamikasını aşkara çıxarmağa xidmət edir. Lakin burada müşahidə arası kəsilmədən uzun müddət, məsələn, bütün dərs ili, müəyyən yaş dövrü ərzində aparılır. Müşahidənin nəticələri qeydə alınır, sonradan təhlil və ümumiləşdirmə əsasında müvafiq nəticələr çıxarılır. Müşahidə əsasən obyektiv nəticələrə, psixi hadisələrin gedişini izləməyə imkan verir. Buna baxmayaraq müşahidə zamanı bəzi çətinliklər mövcud ola bilir. Hər şeydən əvvəl psixoloq müşahidənin həyata keçirildiyi şəraitdəki dəyişikliyi müəyyən dərəcədə görə bilsə də, ona tam nəzarət etmək imkanına malik olmur. Məhz buna görə də nəzarətdən kənarda qalan amillərin təsiri altında tam dəqiq məlumat əldə etmək çətinləşir. Bundan başqa müşahidə psixoloqun subyektiv mövqeyindən kənar qalmaya bilər. Burada psixoloqun elmi baxışları, təcrübəsi, peşə hazırlığı ilə yanaşı formalaşmış qiymətləndirmə stereotipi, etik prinsipləri, yanaşması və s. öz təsirini göstərə bilər. Şübhəsiz ki, müşahidə aparan psixoloq bu kimi təsirlərin aradan qaldırılmasına çalışmalıdır. Müşahidənin çətinliklərindən biri də bu və ya digər psixi hadisənin, müəyyən edilməsi üçün davranış tərzinin uzunmüddətli müşahidə tələb etməsidir.

Konsultativ söhbət praktik psixoloqun əsas fəaliyyətində böyük əhəmiyyətə malikdir. Psixoloq uşaqlarla, yeniyetmələrlə, böyüklərlə, müəllimlərlə və tərbiyəçilərlə mütəmadi söhbətlər aparır. Demək olar ki, söhbət praktik psixoloqun fəaliyyətinin fonunu təşkil edir. Psixoloji söhbət önəmli bir alətdir və psixoloqun əsas metodlarından biridir. Konsultativ söhbəti ikinci dərəcəli metod kimi qəbul etmək yanlışdır.

Psixoloji söhbət – intervü öncədən hazırlıq tələb edən bir prosedurdur. Lakin praktik psixoloqun fəaliyyətində bu cür söhbətlər həddən artıq çox olduğu üçün bəzən psixoloqun söhbət zamanı əldə etdiyi məlumat və reaksiyalara həssaslığı azalır. Nəticədə söhbətin effektivliyi aşağı düşür. Bunun qarşısını almaq üçün hər bir psixoloq özündə müxtəlif situasiyalar üçün hazır intervü planı saxlamalıdır.

Böyük və uşaqlarla söhbətin təşkilində ümumi prinsiplər yer alır. Lakin təcrübə onu göstərir ki, uşaqla söhbətin təşkili və keçirilməsi özünəməxsusluğu ilə fərqlənir. Böyüklərlə çox gözəl nəticə verən metodlar, artıq uşaqlar ilə effektiv olmur. Bunun bir neçə səbəbi var: uşaqların yaş xüsusiyyətləri, zəif refleksiya, analiz və sintezin zəifliyi, diqqət əksikliyi, yorulmaq, öz hisslərini sözlə ifadə etməkdə olan çətinliklər, motivasiyanın xüsusiyyətləri və s.

### 1.3.2. Söhbətin psixoloji metod kimi spesifikası

Adi söhbəti intervüdən fərqləndirən nədir? Psixoloji alət olaraq konsultasiya zamanı söhbət dar mövzunu əhatə edir və bu mövzu birbaşa olaraq respondentin şəxsi təcrübəsinə aid olur. Konsultasiya zamanı psixoloq daha çox sual verən, yeniyetmə isə daha çox cavab verən tərəf olaraq çıxış edir. İntervülərin böyük üstünlüyü ondadır ki, sorğu apararkən yalnız verbal deyil, həmçinin qeyri-verbal məlumat əldə etmək mümkündür. Respondenti daha yaxşı anlamaq olur, onda olan problem və narahatçılıqları ilə daha ətraflı tanış olmaq olur. Onların aradan qaldırılmasında respondent üçün ən optimal yolları seçmə imkanı əldə olunur.

Bir çox hallarda psixoloqlar uşaqların öz hislərini anlamadıqları və ya onların öz adlarından danışa bilmədikləri üçün çətinliklərlə rastlaşırlar. Bu zaman daha effektiv söhbət üçün proyektiv sualların istifadəsi məqsədəuyğundur. Sualların düzgün qurulması üçün müxtəlif texnikalar var. Bu texnikalardan istifadə edərək uşaq qarşısına qoyulan sualı cavablandıran zaman cəmiyyət tərəfindən mənfi qarşılana biləcək fikir və hislərini rahat çatdıra bilir.

Nümunə 1.

Uşağın digər insanlarla eyni hisləri keçirə və ya eyni hərəkətləri edə bilməsinə dair məlumat vermək:

- Bəzi uşaqlar fikirləşir ki... Bəs sən?
- Bəzən hər kəs dalaşmalı olur. Bəs sən?

Nümunə 2. Verilmiş suallara hər zaman alternativ cavab təqdim etmək:

- Sənin qardaşın pis hərəkət etsə, sən onu özün cəzalandırarsan, yoxsa anana deyərsən?
- Müəllim ilə yaxşı yola gedirsiz, yoxsa bəzən bir-birinizi başa düşmürsüz?

Nümunə 3. Sual elə formalaşdırılır ki, cavab daha yumşaq səslənsin:

- “Müəlliməyə xəbərçilik etmək” əvəzinə, “müəllimənin bunu öyrənməsinə şərait yaratmaq” ifadəsi işlətmək olar.

Nümunə 4. Xoşagəlməz reallığı olduqca sakit və normal hal kimi qarşılamaq. Bu zaman uşaq davranışını inkar etməyəcək:

- “Sən qardaşınla dalaşırsan?” sualının yerinə, ”qardaşınla daha çox nə səbəbdən dalaşırsan?” sualını vermək lazımdır.

Nümunə 5. Söhbətə ilk öncə pozitiv suallardan başlamaq, daha sonra neqativlərə keçmək olar:

“Məktəbdə daha çox nədən xoşun gəlir?” soruşub, daha sonra “Məktəbdə nəyi xoşlamırsan?” soruşmaq olar.

### 1.3.3. Test metodu

Test nədir? Test xüsusi metoddur və onun əsasında müqayisə durur. Test vasitəsilə bir fərdi norma ilə müqayisə edirik. Norma isə sıralanmış və reprezentativ seçmə üzərində əldə

olunmuş nəticələr hesab olunur. Test qısamüddətli, standartlaşdırılmış psixoloji sınaqdır. Testin köməyi ilə insanın psixikası və davranışının kəmiyyət və keyfiyyətcə dəqiq qiymətləndirilməsi əvvəlcədən verilmiş bir sıra standartlara – test normalarına nə dərəcədə uyğun olmasının müqayisəsi əsasında həyata keçirilir. Testlərin müxtəlif növləri vardır. Onlardan ən geniş yayılanları aşağıdakılardır: müvəffəqiyyət testləri, intellekt testləri, kreativ testlər, şəxsiyyət testləri, proyektiv testlər və s.

İlkin fərziyyələrə uyğun olaraq aşağıdakı testlərdən istifə edilə bilər:

| **Test haqqında ümumi məlumat** | |
|---|---|
| Testin adı | Veksler testi (WISC A.Y.Panasyukun adaptasiyası) |
| Diaqnostik istiqaməti | İntellektual inkişafın qiymətləndirilməsi |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | 5-15 yaş |
| Tələb olunan vaxt | 90 dəq. |
| Keçirilmə forması | Fərdi |

Test metodunu Vekslerin “ümumi əqli inkişaf” testi nümunəsində nəzərdən keçirək. Vekslerin intellektual testi 1939-cu ildə yaranmışdır. Biz bilirik ki, bu ilə qədər intellektual testlər artıq mövcud idi. Vekslerin tərtib etdiyi test isə onların hər birindən fərqli idi. Gəlin bu fərqlərə nəzər yetirək.

Vekslerdən öncə intellekt psixoloji yaş kimi qəbul olunurdu. Bu fikrin müəllifi ilk intellektual testin yaradıcısı - A.Bine idi. Daha əvvəl biz bu mövzuya artıq toxunmuşduq. A.Binedən sonra V.Ştern intellekt səviyyəsini müəyyən etmək üçün düstur yaratmışdı və intellektin səviyyəsi əqli yaşın fiziki yaşa nisbəti kimi qəbul edilirdi. Veksler isə öz müəllimi Ç.Spirmenin fikirlərinə əsaslanaraq öz nəzəriyyəsini formalaşdırmışdır. Veksler intellekti fərdin məqsədyönlü davranması, ağılla düşünməsi və ətraf mühit ilə qarşılıqlı əlaqədə olması kimi mürəkkəb və qlobal bir qabiliyyət olaraq təyin edir.

Veksler intellekti iki tərkib hissəyə ayırıb. Buraya verbal və qeyri-verbal intellekt daxildir. Birinci dünya müharibəsi dövründə amerikalı psixoloqlar orduya qəbul zamanı keçirilən hərbi alfa testindən bir çox yeni əsgərlərin keçə bilməməsi ilə üzləşmişdilər. Məsələ burasında idi ki, yeni çağırış zamanı ABŞ-a yaxın zamanlarda mühacir olunmuş şəxslər çoxluq təşkil edirdi və onların ingilis dili biliklərinin zəif olmasına görə testin təlimatını anlamaqda çətinlik çəkirdilər. Buna görə də onların göstərdikləri nəticə əsl intellektual səviyyələrini əks etdirmirdi. Bu səbəbdən onlar üçün bu testin ikinci versiyası tərtib olundu (“beta (betta?) test”). Bu test isə qeyri-verbal tapşırıqlardan ibarət idi. Vekslerin fikrinə görə intellektin ölçülməsi zamanı hər iki test tipindən istifadə olunmalıdır.

Veksler yaş-norma anlayışının müəllifidir. İlk dövrlərdə bu test klinikalarda müxtəlif tipli psixi pozuntular zamanı istifadə olunub. Qısa zamanda test bütün dünyada tanındı və bu gün də intellektual səviyyəni ölçmək üçün əvəzedilməz bir metod hesab olunur.

Vekslerin testinin bir neçə forması var:

1. WAIS (Wechsler Adult Intelligence Scale) 1939-cu ildə tərtib olunub və 16-70 yaş arası insanlar üçün nəzərdə tutulub.

2. WISC (Wechsler Intelligence Scale for Children) 1949-cu ildə yaradılıb və 5-15 yaş arası uşaqlar üçün nəzərdə tutulub (Şəkil 1.6).
3. WPPIS (Wechsler Preschool and Primary Scale of Intelligence) 4-6 yaş arası uşaqlar üçün nəzərdə tutulub.



**Şəkil 1.6. Veksler testi**

Özündə verbal və qeyri-verbal subtestləri birləşdirdiyi üçün Veksler digər testlərin qarşısında üstünlük əldə etmişdir. Bu test vasitəsilə intellektin yalnız ümumi səviyyəsi deyil, həmçinin intellektin strukturunun müəyyən xüsusiyyətlərini aşkar etmək olur. Bu halda biz uşaqda daha zəif inkişaf etmiş intellektual fəaliyyətin tərəfini rahatlıqla müəyyən edə bilərik. Daha sonra isə kompensasiyanın hansı fəaliyyət sahəsində baş verdiyini aşkar edə və onun nəticələrini orta norma ilə müqayisə edə bilərik. Subtestlərdə suallar asan suallardan başlayaraq çətinə doğru gedir.

**1-ci subtest - Ümumi məlumatlılıq**

Bu subtest uşağın ümumi dünya görüşünü, dünya haqqında olan biliklərini və onun uzunmüddətli yaddaşını müəyyən edir.

Subtestin keçirilmə qaydaları:

1. 8 yaşdan kiçik olan və əqli inkişafının normal gedişatına şübhə etmədiyimiz uşaqlar üçün subtest 1-ci sualdan başlayır.
2. 8 və daha yuxarı yaş qruplarına daxil olan və əqli inkişafının normal gedişatına şübhə etmədiyimiz uşaqlar üçün subtest 4-cü tapşırıqdan başlayır. Əgər uşaq 4, 5 və 6-cı tapşırıqların hər hansı birini səhv cavablandırarsa, bu zaman 1-ci tapşırıqdan başlamaq lazımdır. 4, 5 və 6-cı tapşırıqları düzgün cavablandırdığı halda növbəti, yəni 7-ci tapşırığa keçmək lazımdır.
3. Əgər uşaq ardıcıl olaraq 5 sualı səhv cavablandırarsa (buraya cavabın olmaması da aiddir) subtestin gedişatı dayandırılmalıdır.
4. Testə başlamamışdan öncə bir neçə dəfə sual və cavab nümunələri ilə tanış olmaq lazımdır, çünki test zamanı uşağın verdiyi cavabları cəld şəkildə qeydə almaq lazımdır.
5. Cavab zamanı uşağın verdiyi məlumatdan test üçün düzgün olan cavabların birini qeyd etmək kifayət edir.

Təlimat:

“Mən sənə müxtəlif suallar verəcəyəm. Öncə daha asan, sonra daha çətin. Diqqətlə qulaq as və sual ilə bağlı bildiyin hər bir şeyə cavab ver”.

Birinci subtestin sualları və düzgün cavablarının nümunəsi:

1. Sənin neçə qulağın var? - İki, bir cüt.
2. Bu barmağın adı nədir? (psixoloq uşağa öz işarət barmağını göstərir) – İşarət barmağı.

Müsadirə nə deməkdir? – Mülkiyyətin dövlət tərəfindən məcburi şəkildə alınması, məhkəmə qərarı ilə (qanunla) əmlakın əldən alınması, mülkiyyətin məcburi və əvəzsiz şəkildə əldən alınması.

**2-ci subtest – Dərrakəlik**

Subtestin keçirilmə qaydaları:

Test prosesi 3 ardıcıl səhv cavab verildikdə dayandırılır.

Təlimat:

“Sən mənə çox yaxşı cavablar verirsən. İndi mən sənə yenə bir neçə sual verəcəm. Çalış bacardığın qədər geniş cavab ver.” (Balaca uşaqlar üçün “geniş” ifadəsi “daha çox” ifadəsi ilə əvəz olunur).

Testin sualları və cavab nümunəsi cədvəl 1.2-də təqdim olunmuşdur:

| Sual | Düzgün cavabın məzmunu | Düzgün hesab etdiyimiz cavab | Qismən düzgün cavab | Səhv cavab |
|---|---|---|---|---|
| Əgər sən barmağını kəssən nə edərsən? | Yaraya sarğı qoymaq, yaranı t mizləmək | Yod sürtərəm. Bintlə (pambıqla) bağlayara . | Anama deyərəm. Həkimə gedərəm. | Ağlayaram. Evə gedərəm. Heç nə etmərəm. |
| Nəyə görə bir şeyi etmək üçün söz verdikdə, onu yerinə yetirmək lazımdır? | Çünki insanların bir-birinə inanc və etibarı bunun üzərində qurulub. Verdiyimiz sözü tutmadıqda qarşıdakı insana çətinliklər və məyusl q yaşadır. | Qeyd olunmuş əsas əlamətlərdə ən azı ikisini vurğulamalıdır. | Qeyd olunmuş əsas əlamətlərdən birini vurğulamalıdır | Çünki belə lazımdır. Bu mənəvi məsələdir. Pis hərəkətdir. |

**Cədvəl 1.2. 2-ci subtestin sualları və cavab nümunəsi (1-ci və sonuncu tapşırıq)**

**3-cü subtest – Arifmetika**

Testin keçirilmə qaydaları

1. 8 yaşdan daha böyük olan və əqli inkişafının normal gedişatına şübhə etmədiyimiz uşaqlar üçün bu subtest 4-cü sualdan başlayır. 4 və 5-ci tapşırıqları yerinə

yetirmədikdə, 1, 2 və 3-cü tapşırıqlara geri qayıdırıq. Uşağın 4 və 5-ci tapşırıqlardan ən azı birini həll edə bildiyi halda, ona 6 nömrəli tapşırığı veririk.

2. İlk 13 tapşırıq uşaqlar tərəfindən şifahi həll olunur. 14-16 arası suallar isə əvvəlcədən hazırlanmış kartlarda təqdim olunur və uşaqlar bu sualları özləri oxuyurlar. Əgər ehtiyac yaranarsa, həlli üçün onlara kağız və qələm verə bilərik.
3. Ardıcıl üç səhv buraxıldıqda subtestin keçirilməsi dayandırılır.
4. Vaxtın hesablanması, mətni oxuyub bitirdikdən sonra başlayır.
5. Uşağın xahişi ilə sualı təkrarlamaq və ya yenidən oxumaq olar. Bu halda biz testdə qeyd olunan vaxtdan kənara çıxmamalıyıq.

Təlimat:

Psixoloq deyir: "İndi mən sənə bir sıra asan və asan olmayan tapşırıqlar verəcəm. Mənə diqqətlə qulaq as".

Tapşırıqlar və cavablardan nümunə (1-ci və 16-cı test):

1. Bir sırada olan kubları say (uşağın qarşısında 9 ədəd kub düzülür).

Cavab: 9.

Vasif və Pərviz oyun oynamağa başlayırlar. Oyun oynayanda hər birində 27 ədəd maşın var idi. Onlar öz aralarında razılığa gəlirlər ki, hər oyunun sonunda məğlub tərəf onda qalan maşınların 1/3 hissəsini qalib tərəfə verəcək. İlk 3 oyunda Vasif qalib gəlir. 4-cü oyunun əvvəlində Pərvizin neçə maşını qalacaq? Vaxt: 120 s., Cavab: 8

**4-cü Subtest – Analogiya (oxşarlıq).**

8 yaşdan kiçik olan və əqli inkişafının normal gedişatına şübhə etmədiyimiz *uşaqlar üçün təlimat:*

"İndi mən sənə cümlə deyəcəm və səndə mənim dediyimin davamını gətir. Gəl cəhd edək:

Limon turşdur, qənd isə ...". Əgər uşaq səhv cavab verərsə, ona cümlənin düzgün sonluğunu səsləndirmək lazımdır. Daha sonra isə 2-ci tapşırığa keçmək olar. Əgər uşaq 2-ci tapşırığı yerinə yetirməkdə çətinlik çəkərsə, ona yenidən kömək etmək lazımdır. Növbəti tapşırıqlarda kömək etmək qadağandır. Əgər uşaq analogiya tapşırıqlarından heç olmasa ikisini cavablandırıbsa, o zaman oxşarlıq test tapşırıqlarına keçmək mümkündür. Əks təqdirdə bu subtestin gedişatını dayandırmaq lazımdır.

*Əqli inkişafın normativ gedişatına şübhə etmədiyimiz və yaşı 8-dən böyük olan uşaqlar üçün təlimat:*

"Mən sənə 2 əşyanın adını çəkəcəm, sən də onlarda eyni və oxşar olanları mənə de. Ağlına gələn bütün oxşarlıq və eynilikləri səsləndir. Gəl cəhd edək."

Uşağa 5 nömrəli tapşırıq təqdim olunur. Uşaq cavab verməkdə çətinlik çəksə ona köməklik olunur (onların nazik qabığı var, tumu var, onlar ağacda bitir və meyvədirlər). Daha sonra 6-cı tapşırığa keçid alırıq. Ehtiyac yarandığı halda uşağa yenidən köməklik edilir. Növbəti tapşırıqlarda köməklik etmək qadağandır. Əgər uşaq ardıcıl olaraq 3 tapşırığı səhv cavablandırsa, testi dayandırmaq lazımdır. Testi dayandırdığımız zaman (yəni, ardıcıl 3 səhv

cavab səsləndikdə) imtahan edilən uşağın oxşarlıq mərhələsi üçün ən azı 3 balı varsa, o zaman o, analogiya mərhələsi üçün 4 bal avans olaraq qazanır. Balları 3-dən az olduğu halda, biz uşaqla analogiya testlərini keçirməliyik.

Analogiya testləri üçün qiymətlər 1-0 şəklində, oxşarlıq testləri üçün 2-1-0 şəklində olur. Kömək etdiyimiz tapşırıqların balları ümumi nəticəyə əlavə olunmur.

Oxşarlıq tapşırığının həlli zamanı 2 bal ümumiləşdirici sözlərə görə, 1 bal isə əlavə xüsusiyyətlərin sadalanması üçün verilir.

*Sual və cavablardan nümunə:*

1. Limon turşdur. Qənd isə ..... (şirindir).
2. Ayaq ilə gəzirik. Əllər ilə ..... (götürürük).
3. Oğlanlar böyüyüb kişi olurlar. Qızlar isə ..... (qadın, arvad, xala, bibi).
4. Bıçaq və şüşə qırığı ... (hər ikisinə "iti" və ya "kəsicidir" cavabını verərsə, 1 bal, "eynidirlər" cavabına isə 0 bal hesablanır).
5. 49 və 121 ədədləri... (sadə, cüt olmayan ədədlərin kvadratı – 2 bal; 2-ə bölünmürlər, cüt deyillər, natural ədədlərdir, tam ədədlərdir – 1 bal; 7 və 11-in kvadratlarıdır – 0 bal hesablanır).

**5-ci subtest – Söz ehtiyatı**

*Təlimat (hər kəs üçün eynidir):*

"Mən indi sənə sözlər dəyəcəyəm, sən də çalış onların məsanını tam əhatəli izah et."

Subtestin keçirilməsi ardıcıl 5 səhvdən sonra dayandırılır.

Cavablar 0, 1 və 2 balla dəyərləndirilir.

0 - Cavab düzgün deyil

1 - Cavab qismən düzgündür (Həsrət – bir şey üçün cox darıxmaq – 1 bal).

2 - Tam cavab verilib (Həsrət – bir şeyi və ya birini bir daha görmək, qovuşmaq arzusu – 2 bal).

**6-cı subtest – Rəqəmləri təkrarla**

*Başdan say. Təlimat.*

"İndi mən sənə bir neçə rəqəm deyəcəyəm. Mən bitirən kimi sən rəqəmləri eyni ardıcıllıqla təkrarla. Yaxşı? Gəl başlayaq".

| Birin i seriya | İkinci seriya |
|---|---|
| 3-8-6 | 6-1-2 |
| 3-4-1-7 | 6-1-5-8 |
| 8-4-2 3-9 | 5-2 1-8-6 |
| 3-8-9-1-7-4 | 7-9-6-4-8-3 |
| 5-1-7- -2-3-8 | 9-8-5-2-1-6-3 |
| 1-6-4-5-9-7-6-3 | 2-9-7-6-3-1-5-4 |
| 5-3-8-7-1-2-4-6-9 | 4-2-6-9-1-7-8-3-5 |

**Cədvəl 1.3. 6-cı subtestin stimul materialı (başdan say)**

Stimul materialın nümunəsi (Cədvəl 1.3 və Cədvəl 1.4)

*Geriyə say. Təlimat:*

"İndi mən sənə bir neçə rəqəm deyəcəm. Sən onları yadında saxlamağa çalış və onları axırdan birinciyə doğru sadala. Məsələn, mən deyirəm "bir-iki" (bu zaman psixoloq əli ilə masanın müxtəlif hissələrini göstərir). Sən isə deməlisən "iki-bir" (bu zaman psixoloq masanın üzərində yenə əli ilə daha öncə göstərdiyi hissələri əks-ardıcıllıq ilə göstərir). Başa düşdün? Gəl cəhd edək."

| Birinci seriya | İkinci seriya |
|---|---|
| 2-5 | 6-3 |
| 5-7-4 | 2-5-9 |
| 7-2 9-6 | 8-4-9-3 |
| 4-1-3-5-7 | 9-7-8-5-2 |
| 1-6-5-2-9-8 | 3-6-7-1-9-4 |
| -5-9-2- -4-2 | 4-5-7-9-2-8-1 |
| 6-9-1-6-3-2-5-8 | 3- -7-9-5-4-8-2 |

**Cədvəl 1.4. 6-cı subtestin stimul materialı (geriyə say)**

*Subtest üçün ümumi qaydalar:*

1. Rəqəmlər son dərəcədə aydın tələffüz olunmalıdır və rəqəmlərin tələffüzü bir saniyəlik intervalla olmalıdır.
2. Təcrübəçinin saymağı bitirməsi və uşağa verilən sıranı başlaması arasında olan zaman kəsiyində heç bir əlavə səs olmamalıdır. Psixoloq uşağa "başla" komandasını əli ilə işarə verir.
3. Eyni sıranı iki dəfə təkrar etmək olmaz.
4. Birinci birbaşa sayırıq, sonra isə geriyə sayırıq.
5. Uşağa birinci sıranın birinci seriyası təqdim olunur.

Əgər uşaq bu sıranı düzgün səsləndirsə, onlara bu seriyadan növbəti tapşırıq təqdim olunur. Əgər birinci seriyada, hər hansı bir sıranın təkrarı zamanı uşaq səhv buraxıbsa, bu zaman ona ikinci seriyada analoji uzunluğu olan sıranı təqdim etmək lazımdır. Yox əgər uşaq sıranı düzgün deyibsə, o zaman birinci seriyada növbəti sətir təqdim olunur. Əgər həcminə görə eyni olan sıralar həm birinci, həm də ikinci seriyada səhv deyilirsə, o zaman geriyə sayma tapşırığına keçmək lazımdır. Geriyə saymada eyni hal baş verərsə, testi dayandırmaq lazımdır.

**7-ci subtest – Çatışmayan detallar.**

*Təlimat (hərkəs üçün eynidir):*

"İndi mən sənə şəkil göstərəcəyəm, bu şəkillərdə müxtəlif əşyalar olacaq və hər bir əşyada çatışmazlıq var, nəyisə çəkməyi unudublar. Sən isə çatmayan hissəni tapmağa cəhd etməlisən. Barmaq ilə də göstərə bilərsən. Yaxşı? Məsələn, bax burada nə çatmır?" (uşağa 1 nömrəli kart nümayiş olunur və saniyəölçən qoşulur). Birinci tapşırıqda çətinlik çəkən

uşağa köməklik göstərilir və növbəti şəklə keçilir. Çətinlik olduğu halda, uşağa yenidən köməklik göstərilir. Daha sonra isə üçüncü tapşırığa keçid edilir. Daha köməklik göstərmək qadağandır. Əgər uşaq ardıcıl 3 səhv buraxsa, test dayandırılır.

Stimul materialın nümunəsi (Şəkil 1.7 və Şəkil 1.8):



**Şəkil 1.7. Veksler testi, 7-ci subtest, daraq**



**Şəkil 1.8. Veksler testi, 7-ci subtest, qapı**

*Ümumi qaydalar:*

1. Uşağın şəkildə çatmayan hissənin adını deməsi mütləq deyil. Barmaq ilə göstərməsi də kifayətdir.
2. Uşaq digər çatışmayan detalları göstərirsə, o zaman psixoloq ondan cəld şəkildə soruşmalıdır – "Bəs başqa hansı çatışmazlıq var?"
3. Əgər uşaq desə ki – "Bu şəkildə hər şey var", o zaman ona yumşaq şəkildə etiraz edirik – "Hər əşyada çatışmayan bir hissə var".
4. Hər tapşırığa 15 saniyə verilir. Düzgün cavab 1 bal ilə qiymətləndirilir.

**8-ci subtest – Ardıcıl şəkillər.**

*8 yaşdan aşağı olanlar üçün.*

Tapşırığa "it" şəklindən başlanılır.

1. Şəklin hissələri uşağın qarşısına qoyulur.
2. Uşağa izah edərək, lazımi ardıcıllıq ilə şəkli düzürük.
3. Yenidən şəklin hissələrini qarışdırırıq.
4. Uşağa şəkli yenidən yığmağı təklif edirik – "İndi gəl sən şəkili elə düzəlt ki, itin şəkli bütövləşsin". Dərhal saniyəölçəni qoşuruq.

Uşaq tapşırığın öhdəsindən gəlsə, "B" şəklinə keçid alırıq. Əgər uşaq yığmağı bacarmasa, bir daha ona şəklin yığılmasını şərhsiz nümayiş edirik və uşağa bir daha yığmağı təklif edirik. Birinci dəfədən yığsa 2 bal, ikinci dəfədən yığsa 1 bal hesab olunur. Nəticədən asılı olmayaraq, "B" tapşırığına keçmək lazımdır.

"B" şəkli və "ana" şəkli eyni qaydada uşağa təqdim olunur və bu tapşırıqlar zamanı

psixoloq yığmaq formasını nümayiş etmir. Əgər tapşırığın öhdəsindən gəlinirsə, "C" tapşırığına keçid alırıq. Əgər bu tapşırıqların öhdəsindən gəlmirsə, o zaman düzgün yığım forması göstərilir və sonra "C" tapşırığına keçilir.

Əgər "A","B" və "C" şəkillərindən hər hansı ikisi düzgün yığılıbsa (1 və ya 2 bal) o zaman keçid alırıq "D" tapşırığına. Əks halda testi dayandırırıq.

"D" şəkli – yeni təlimat:

"Burada bir şəkil deyil, bir neçə şəkil var. Bu şəkillərdə kiçik hekayə əks olunub. Bu şəklə diqqətlə bax. Səncə, hekayə hansı şəkildən başlayır?" Saniyəölçən qoşulur. Seçilən şəkli 1-ci şəkil adlandıraraq qırağa qoyuruq və uşaqdan daha sonra nə baş verdiyini, hansı şəklin uyğun olduğunu soruşuruq. Seçilən şəkli 2-ci şəkil deyib, 1-ci şəklin yanına qoyuruq və uşaqdan sonra nəyin baş verdiyini soruşuruq. Daha sonra isə 3-cü şəkli sıraya qoyuruq. Əgər uşaq tapşırığı düzgün həll edirsə, ona 2 bal hesablayırıq. Əgər uşaq "D" tapşırığını səhv həll edibsə, lakin "C"-ni düzgün həll etmişdisə, ona "D" tipli tapşırıqları verməyə davam edirik. Uşaq ardıcıl 2 tapşırığı səhv həll etsə, testi dayandırırıq.

*8 yaşdan yuxarı və intellektual inkişafın normal gedişatında:*

Tapşırığa mübarizə hekayəsindən başlayırıq. Daha sonra 1 və 2 nömrəli tapşırıqlara keçirik. Əgər 1 və 2-ci tapşırıqlardan heç biri həll olunmayıbsa, "A", "B", "C", "D" tapşırıqlarına keçid alırıq. Əgər 1 və 2-ci tapşırıqlardan yalnız biri səhvdirsə, o zaman "A","B","C","D" tapşırıqları üçün 8 bal avans olaraq hesablayırıq. Tapşırığı ardıcıl 2 səhvə qədər davam etdiririk.



**Şəkil 1.9. Subtest 8, Stimul A**

Stimul materialın nümunəsi (Şəkil 1.9):

**9-cu subtest – Kublardan fiqurların düzəldilməsi**

8 yaşdan kiçik olan və əqli inkişafına şübhə etmədiyimiz *uşaqlar üçün təlimat:*

Öncə uşağı kublarla tanış edirik.

Tapşırığa "A" fiquru ilə başlayırıq. Rəsmi göstərmədən uşagın gözü önündə 4 kubdan "A" fiquru yığırıq və nümunə kimi masanın üzərində saxlayırıq. Uşağa əlavə 4 kubdan "A" fiquru yığmaq təklif edirik. Əgər uşaq ilk cəhtdən fiquru yığa bilməsə, o zaman onun qarşısında olan kublardan (nümunə kubları istifadə etmək olmaz) "A" fiquru yığılır-dağıdılır və uşağa yenidən fiquru yığmaq təklif olunur. Nəticədən asılı olmayaraq, "B" fiquruna keçid alırıq.

Qiymətləndirmə:

Əgər fiqur ilk cəhddən yığılarsa 2 bal, 2-ci cəhddən yığılarsa, 1 bal hesablanır.

"B" fiquru.

"B" fiquru yığıb uşağa hazır model kimi təqdim edirik (öncədən yığılmış şəkildə). Ona bu modeli yığmaq təklif edirik. Əgər uşaq fiquru yığa bilməsə, o zaman onun istifadə etdiyi kublardan "B" modelini yığıb-sokürük və uşağa yenidən cəht etməyi təklif edirik.

Qiymətləndirmə:

Əgər fiqur ilk cəhddən yığılarsa, 2 bal, 2-ci cəhddən yığılarsa, 1 bal hesablanır.

Əgər "B" fiquru üçün 0 bal hesablanarsa, "C" fiquruna keçmirik və tapşırıq dayandırılır.

"C" fiquru.

"C" fiqurun modeli uşağa kart formasında təqdim olunur. Masanın üzərinə kart yerləşdirib, deyirik: "Bax, mən indi bu kartdakı kimi fiqur yığacağam". 4 kubdan "C" fiquru yığıb-dağıdırıq. Daha sonra uşağa bu fiquru yığmaq təklif edirik. Əgər uşaq fiquru yığmaqda çətinlik çəkərsə, proseduru bir daha təkrar edirik.

Qiymətləndirmə:

Əgər fiqur ilk cəhddən yığılarsa, 2 bal, 2-ci cəhddən yığılarsa, 1 bal hesablanır.

Əgər "C" fiquru üçün 0 bal hesablanarsa, "№1" fiqura keçmirik və tapşırıq dayandırılır.

Figur "№1".

Bu fiqurdan başlayaraq, model yalnız şəkil formasında təqdim olunur. 2 ardıcıl səhv olarsa, tapşırıq dayandırılır.

"A", "B", "C", "№1", "№2", "№3" və "№4" fiqurlar dörd kub vasitəsi ilə yığılır. Digər fiqurlar 9 kub vasitəsi ilə yığılır.

*Məqsəd:* Uşağın məkana uyğunlaşma bacarığını müəyyənləşdirmək.

Bu metodun tətbiqi zamanı uşaq tərəfindən fiqurların sxemə görə analiz və sintezi aparılır. Müayinə zamanı 4-8 ədəd nümunə tipli kubik istifadə edilir.

Uşağa kubiklər (4 ədəd) və sxemlər verilir (4 ədəd). O, sxemə baxır, kubiklərin üzlərini münasib rənglərə görə seçərək sxemə uyğunlaşdırır. Əvvəl 4, sonra 8, 16 kubiklə işi davam etmək məqsədəuyğundur.

*Əqli inkişafın normativ gedişatına şübhə etmədiyimiz və yaşı 8-dən böyük olan uşaqlar üçün təlimat:*

Uşağı kublar ilə tanış edirik. Tapşırığa "C" fiquru ilə başlayırıq. Əgər uşaq tapşırığın öhdəsindın 1-ci və ya 2-ci cəhddən gələrsə, "A" və "B" tapşırıqlar üçün ona avans olaraq 4 bal hesablanır və "№1" fiqura keçid alınır. Ardıcıl 2 səhv zamanı tapşırıq dayandırılır.

Koos metodu uşağın əqli əməliyyatlar aparma bacarığını, analiz-sintez imkanlarını quraşdırma fəaliyyəti əsasında müəyyən etməyə imkan verir. Bu zaman nitqdən istifadə olunması vacib deyil. Metodika, uşaqdakı məkan pozuntularının diferensiyasını aparmaq üçün əlverişlidir. Qaydaya görə bu metod hər bir uşağa fərdi tətbiq edilir. Onların reaksiyası, hərəkətləri, müvəffəqiyyəti və ya müvəffəqiyyətsizliyi qeydə alınır, nəticələr diaqnostik tələblərə uyğun olaraq ümumiləşdirilir (Şəkil 1.10).



**Şəkil 1.10. Koos kubun açılışı**

Stimul materialın nümunəsi (Şəkil 1.11):

**10-cu subtest – Fiqurların yığılması**

*Ümumi qaydalar:*

1. Uşağın qarşısında detalları uyğun şəkildə düzmək lazımdır.
2. İlk iki fiquru dərhal adlandırırıq.
3. 3 və 4-cü fiqurları adlandırmaq olmaz.
4. Əgər uşaq fiqurların detallarının üst tərəfini tərsinə çevirsə, mülayim şəkildə ona bunun oyunun qaydalarına zidd olduğunu demək lazımdır.
   - Oğlan fiquru. Əgər fiqurun yalnız ayaqları səhv qoyulubsa, yəni sol və sağ ayaqlar tərs şəkildədirsə və ya dabanları yuxarı baxırsa – 3 bal. Ayaqlar yoxdursa və ya əllərin əvəzinə qoyulubsa – 2 bal. Bədənin yalnız yuxarı hissəsi düz yığılıb – 1 bal.
   - At, üz, avtomobil. Əgər iki element düz birləşibsə - 1 bal. Əgər bir element düz yerləşdirilibsə - 0.5 bal.




**Şəkil 1.11. Koos kubların yığımı**



**Şəkil 1.12. Subtest 10, Stimul material**

Bu subtest zamanı, həllindən asılı olmayaraq bütün tapşırıqlar təqdim olunur. Qiymətləndirmə vaxtdan asılı olur.

Stimul materialın nümunəsi (Şəkil 1.12):

**11-ci subtest – Şifrələmə**

*Yaşı 8-dən az olan və intellektual inkişaf səviyyəsindən asılı olmayaraq.*

*Təlimat:*

“Bura bax (testin açar hissəsi uşağa göstərilir). Görürsən burda ulduz çəkilib və ulduzun içində xətt var.” (Əl ilə göstərilir. Burada isə dairə çəkirik və dairədə 2 xətt var. Bu üsul ilə uşağa açar hissəsində olan bütün fiqurlar işarə olunur). “İndi isə gəl bura baxaq” (birinci sıra göstərilir). Burada biz görürük ki, fiqurlarımız var, lakin onların içinə işarələr qoyulmayıb. Gəl biz onları səninlə yuxarıdakı kimi dolduraq”.

İlk beş fiqur sınaq üçün nəzərdə tutulmuşdur. Üçüncü fiqurda uşaqdan daha cəld olmasını istəyirik. Beşinci fiqurdan sonra saniyəölçəni qoşuruq və uşağı müşahidə edirik. Birinci sətir bitdikdən sonra uşağa növbəti sətirlərə davam etməsini deyirik (əlimizlə 2-ci sətiri göstəririk). Əgər uşaq hansısa fiqurları buraxarsa və ya yalnız bir fiqurun işarələrini qoyarsa, o zaman ona ardıcıl sıra ilə davam etməsini bildiririk. Testin həlli üçün ayrılmış vaxt 120 saniyədir. İlk beş fiqur qiymətləndirməyə daxil deyil. Əgər ilk beş fiqurun həlli

zamanı uşaq təlimatı qavramadısa, ona sınaq üçün daha bir neçə fiqur veririk və bu fiqurlar qiymətləndirməyə daxil olmur. Bir fiqur 1 balla hesablanır.

Təqdim olunan material (Şəkil 1.13):




**Şəkil 1.13. Subtest 11, Stimul A**

*8 yaşdan yuxarı olanlar.*

Testin b) variantı təqdim olunur. Təlimat və qaydalar eynidir. Lakin sınaq üçün beş yox, yeddi fiqur təqdim olunur. Testin həlli üçün ayrılmış vaxt 120 saniyədir. Bir yazılmış işarə 1 bal deməkdir.

Təqdim olunan material (Şəkil 1.14):




**Şəkil 1.14. Subtest 10, Stimul B**

### 12-ci subtest – Labirint

*Yaşı 8-dən aşağı olan və intellektual inkişafının gedişatında şübhələndiyimiz uşaqlar*

Testi nümunə ilə başlamaq lazımdır.

*Təlimat:*

“Bax burada oğlan (qız) var. O, bu evin içindədir və dörd tərəfi divardır (qara xətləri göstərin). Burada isə (birinci çıxışı göstərin) divar yoxdur və buradan keçmək olar. Burada isə (labirintin çıxışını göstərin) divar yoxdur və həyətə çıxmaq olar. Bax oğlan (qız) çölə necə çıxa bilər? (psixoloq, qələmi kağızdan ayırmadan, düz xətt ilə divarlara toxunmadan labirintdən çıxış yolunu çəkməlidir). İndi sən də belə edəcəksən. Ancaq yol çəkdiyin zaman divarları keçmək olmaz və qələmi kağızdan ayırmaq olmaz. Çalış dalana toxunma. Əgər dalana keçsən, cəld geri qayıt. Gəl indi cəhd edək. Qələmin ucunu buraya qoy (“A” labirintinin mərkəzini göstəririk) başla, çalış, və cəld ol”, deyib saniyəölçəni qoşuruq. Əgər uşaq “A” labirintini həll edə bilmirsə, ona düzgün yolu göstəririk və növbəti labirintə keçirik. Ardıcıl 2 səhvdən sonra test dayandırılır.

*8 yaş və daha böyük olan və intellektual inkişafın normal gedişatında olan uşaqlar üçün*

“C” labirintinə başlayırıq. Təlimatlar eynidir. Əgər düz həll edərsə (bir səhv buraxmaq olar, vaxt limitindən çıxmaq şərti ilə) “A” və “B” labirintləri üçün avans olaraq 4 bal veririk. Yox, əgər “C” tapşırığını keçə bilmirsə (2 və daha çox səhv buraxır, vaxt limitini keçir), “A” və “B” labirintləri keçirilməlidir. Ardıcıl 2 tapşırığı səhv həll etdiyi zaman test dayandırılır.

*Ümumi qaydalar:*

Vaxt limiti keçdikdə, yaxud vaxtdan asılı olmayaraq səhvlər limiti keçdikdə (bir tapşırıqda 2 səhvdən çox etdikdə) tapşırıq yerinə yetirilməmiş hesab olunur. Səhvlər aşağıdakılardır:

1. Qələmin kağızdan ayrıldığı hər dəfə (istisna – buraxılmış səhvi düzəltmək üçün)
2. Divarları keçdikdə (toxunduqda).
3. Dalana girdikdə.

Stimul materialın nümunəsi (Şəkil 1.15)

Qeyd: Uşaq hər dəfə qələmi kağızdan ayırdıqda, ona “qələmi kağızdan ayırma” deyirik. Divarı keçdikdə isə, yalnız bir dəfə irad tuturuq.




**Şəkil 1.15. Subtest 12, Stimul A1**

| Test haqqında ümumi məlumat | |
|---|---|
| Testin adı | Raven testi |
| Diaqnostik istiqaməti | Qeyri-verbal intellektin qiymətləndirilməsi |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | 5-11 yaş<br>12 |
| Tələb olunan vaxt | 10-25 dəq. |
| Keçirilmə forması | Fərdi |

Raven testinin rəngli versiyası 5-11 yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Bu testin ağ-qara versiyası da mövcuddur. Bu versiya böyüklər üçün nəzərdə tutulub. Raven testi qeyri-verbal testlərə aiddir. Raven testi 3 seriyadan ibarətdir: A-1, AB və B. Hər seriyada 12 matris mövcuddur.

**Təlimat:**

İzahat A-1 tapşırığının materialına əsaslanaraq aparılır: "Bax, üst şəkildə bir rənglənməmiş boşluq var (hissəcik, fraqment, parça). Aşağıda 6 ədəd eyni ölçüdə olan hissə çəkilmişdir. Onlardan sadəcə biri üst şəkildəki boşluğa uyğundur. Məsələn: birinci və ikinci hissələrin lazım olan ölçüsü var, lakin şəklə bənzəmir. Altıncı hissə isə demək olar ki, şəklə uyğundur, lakin onda da müəyyən çatışmazlıqlar var. Verilənlərdən sadəcə bir hissə tamamilə uyğundur. Onu göstər". Əgər uşaq sərbəst şəkildə lazımi elementi tapa bilmirsə, psixoloq uşağın tapşırığın mahiyyətini tam başa düşdüyünə əmin olana qədər izah etməyə davam etməlidir. Növbəti tapşırığa keçərək, psixoloq deyir: "İndi isə bu fiqurdan çıxarılmış hissəni göstər". Əgər uşaq A-2 tapşırığı yerinə yetirə bilmirsə, psixoloq birinci tapşırığa qayıtmalıdır və yenidən izah etməlidir. Əgər məsələ düzgün həll edilibsə, psixoloq ardıcıl olaraq uşağa tam şəkildə A, AB, B tapşırıq dəstini təqdim edir (tapşırıqların verilmə ardıcıllığını dəyişmək olmaz). O hallarda ki, uşaq bir neçə uyğun gələn element göstərir, cavab olaraq sonuncu qərar verdiyi variant qeydə alınır ("Bəs hansı hissəcik daha çox uyğun gəlir?"). Uşaq səhv etdiyi halda belə psixoloq düzgün olanı göstərməli deyil.

Bütün digər tapşırıqlar üçün təlimat eynidir: "Diqqətli ol, ancaq bir hissə şəklə tamamilə oxşayır. Cavabı vermədən əvvəl düşün". Təlimat lazım olanadək təkrar edilir.

Stimul materialın nümunəsi (Şəkil 1.16):




**Şəkil 1.16. Raven testi, Seria A**

| Test haqqında ümumi məlumat | |
|---|---|
| Testin adı | Dembo-Rubinşteyn "Özünüqiymətləndirmə" metodikası |
| Diaqnostik istiqaməti | Özünüqiymətləndirmənin müəyyənləşdirilməsi |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | +5 |
| Tələb olunan vaxt | 5-7 dəq. |
| Keçirilmə forması | Fərdi |

**"Özünüqiymətləndirmə" metodikası**

Bu metodika özünəqiymətin öyrənilməsi üçün 1962-ci ildə T.V. Dembo tərəfindən tərtib olunmuşdur və 1970-ci ildə isə S.Y. Rubinşteyn tərəfindən əlavələr edilərək bugünkü vəziyyətə çatdırılmışdır. İlk zamanlar T.V. Dembo bu testi xoşbəxtlik anlayışını öyrənmək məqsədilə hazırlayırdı. Lakin daha sonra Rubinşteyn testi modifikasiya edib, onun metodik məqsədini dəyişmişdir.

***Kiçik məktəblilər üçün təlimat:***

Metodikanın blankı 7 vertikal, eyni uzunluqda (10 sm) olan paralel xətlərdən ibarətdir. Xətlərin yuxarı və aşağı hissələri tire ilə işarələnir, orta hissələri isə nöqtə ilə qeyd olunur. Hər xəttin həm yuxarı, həm də aşağı hissəsinin adı var. Bu adlar aşağıdakı cütlükləri təşkil edir (Şəkil 1.17).



**Şəkil 1.17. Dembo-Rubinşteyn stimul materialı**

Sözə qulaq asan – sözə qulaq asmayan, yaxşı şagird – pis şagird, coxlu dostları var – az dostu var, güclü – zəif, yaraşıqlı – yaraşıqsız, müəllimə təərifləyir – müəllimə təərifləmir, özündən razı – özündən narazı.

Bax yuxarıda ən sağlamlar, ortada arabir xəstələnənlər, aşağıda isə daim xəstələnənlər yer alır. Bəs səncə, sən haradasan? Olduğun yeri xəttin üzərində işarə ilə qeyd et. Bu təlimat hər cüt üçün eyni qaydada verilir. Daha sonra anamnezin məlumatlarına uyğun olaraq, uşağın problemli hesab etdiyimiz zonasına aid olan insanların adından da bu testləri keçirmək lazımdır.

**Təlimat:**

Bax biz bu tapşırıqları bir daha həll edəcəyik, lakin bu dəfə sən ananın adından cavab verəcəksən. Anana görə sən sağlamlıq xəttində harada yerləşmiş olarsan?

| **Test haqqında ümumi məlumat** | |
|---|---|
| Testin adı | Göz-motor geştalt-test<br>(V.V. Lebedinski) Bender Metodikası |
| Diaqnostik istiqaməti | Perseptiv və motor fəza təşkil etmə sahəsində bacarıqlarını öyrənməsi |
| İstif də üçün nəzərdə tutulmuş yaş aralığı | 5.5-7 |
| Tələb olunan vaxt | 10-15 |
| Keçirilmə forması | Fərdi |

L.Benderin təklif etdiyi metodika (1938) uşağın perseptiv və motor fəza təşkil etmə sahəsində bacarıqlarını öyrənməyə yönləndirilib. Təklif edilən həndəsi fiqurların təkrar etmə metodikası ümumi intellektual inkişaf ilə fəza təsvirinin inkişaf səviyyəsinin arasında

olan uyğunsuzluqları müəyyən edir (Şəkil 1.18).

**Metodikanın təsviri**. Sınaq olunan həndəsi fiqurların 5 modeli verilir. Onların hər biri 10x15 sm ölçülü kartda çəkilir. Sınaq olunana standart ölçüdə ağ vərəq və yaxşı yonulmuş qələm verilir.

**Sınaq olunan üçün təlimat:** "Mən səndən bu şəkilləri təkrarlamağını xahiş edəcəm, çalış bu tapşırığı bacardığın qədər dəqiq yerinə yetir". İlk şəkil verilir: "Bu birincisidir, ümumi 5 dənədir, buradan başla (təcrübəçi uzununa qoyulan vərəqin yuxarı sol küncünü göstərir). Beləliklə bütün şəkillərə yer çatacaq". Sınaq olunan təlimata uyğun hərəkət etmədikdə təcrübəçi prosesə müdaxilə etmədən digər 4 fiqur olan kartları təqdim edir. Sınaq olunan nəticədən razı deyilsə və yenidən çəkmək istəyirsə, ona icazə verilir, lakin birinci çəkilən şəkillər qiymətləndirilir.



**Şəkil 1.18. Bender metodikası, nümunə**

| **Test haqqında ümumi məlumat** | |
|---|---|
| Testin adı | Xarakterin aksentuasiyası metodikası A.S.Leonqard və Q.Şm şek |
| Diaqnostik istiqaməti | Şəxsi e osional sfera |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | Yeniyetmələr |
| Tələb olunan vaxt | 10-15 dəq. |
| Keçirilmə forması | Fərdi |

K.Leonqardın fikrincə, aksentuasiya hər insanda rast gələ bilinəcək bəzi xasiyyət və individual xüsusiyyətlərin qabarıq şəkildə ifadəsidir. Aksentuasiyalar insanlarda həm müsbət, həm də mənfi sosial nəaliyyətlərə səbəb ola bilər. Testin məqsədi şəxsin xarakterinin aksentuasiyalarının xüsusiyyətlərini və temperamentini müəyyən etməkdir. Test 88 sualdan ibarətdir. Test nəticəsində müəyyən edilən aksentuasiyalar aşağıda təqdim olnub.

Mənbəyindən aslı olaraq aksentuasiyaları iki kateqoriyaya bölmək olar.

| **Test haqqında ümumi məlumat** | |
|---|---|
| Testin adı | Basa-Darki testi |
| Diaqnostik istiqaməti | Aqressiyanın səviyyəsini müəyyən etmək üçün |
| İstifadə üç n nəzərdə tutulmuş yaş aralığı | +14 |
| Tələb olunan vaxt | 7-15 dəq. |
| Keçirilmə forması | Fərdi, qrup |

Bu test 1957-ci ildə tərtib olunmuşdur. Testin məqsədi aqressiya səviyyəsini müəyyən etməkdir. Test 75 sualdan ibarətdir və cavablar 8 şkala üzrə qiymətləndirilir. Test +14 yaş üçün nəzərdə tutulub.

**Təlimat:** Razı olduğunuz halların qarşısına «bəli», razı olmadığınız halların qarşısına isə «xeyr» cavabını qoyun.

Stimul materialından nümunələr[1]:

1. Mən asanlıqla qıcıqlanır, lakin tez də sakitləşirəm.
2. Əgər kimsə məni birinci vurarsa mən ona cavab verməməyə üstünlük verirəm.

Testin stimul materialı əlavə faylda təqdim edilib

| Test haqqında ümumi məlumat | |
|---|---|
| Testin adı | "Dost seçmə motivi" metodikası |
| Diaqnostik istiqaməti | Dost motivi |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | 7-18 yaş |
| Tələb olunan vaxt | 5-15 dəq. |
| Keçirilmə forması | Fərdi, qrup |

Metodika 2009-cu ildə uşaq və yeniyetmələrdə dost seçmə motivini müəyyənləşdirmək üçün işlənilib hazırlanmışdır. Anketin əhəmiyyəti səmimi şəkildə sualları cavablandırmaqdan ibarətdir.

Sorğunun hər bir iştirakçısı anket götürür. Tədqiqatın məqsədindən asılı olaraq tədqiq olunana bir neçə anket verilə bilər. Anketin sayı dostların sayından asılıdır (Cədvəl 1.5).

**Təlimat:** Sənin dostun var. Anketdə onun adını yazın. Bu real və ya şərti ad ola bilər. Nə üçün sən onunla dostluq edirsən? Aşağıda verilən siyahıdan bir neçə səbəbi seçib yanında işarə qoyun.

Dostunuz adı (real və ya şərti)________________________________

| № | S allar | № | Suallar |
|---|---|---|---|
| 1. | Çünki o şəndir və onunla ünsiyyət qurmaq xoşdur. | 8. | Çünki çox bilir. |
| 2. | Çünki o tamahkar deyil. | 9. | Çünki dərsdə mənə kömək edir və ev tapşırıqlarını bir yerdə edirik. |
| 3. | Çünki yaxınlıqda yaşayırıq. | 10. | Çünki kitablarımızı dəyişirik. |
| 4. | Çünki məşğələlərə birlikdə gedirik. | 11. | Çünki birlikdə kompüter oynayırıq. |
| 5. | Çünki çoxdandır bir məktəbdə oxuyuruq. | 12. | Çünki çox güclüdür və məni qoruyur. |
| 6. | Çünki yayda bir yerdə istirahət etmişik. | 13. | Çünki o mənim xoşuma gəlir. |
| 7. | Çünki onunla çox maraqlıdır. | 14. | Çünki mənə belə dost lazımdır. |

**Cədvəl 1.5. Dost seçmə anketi**

[1] Testin stimul materialı əlavə faylda təqdim edilib

| Test haqqında ümumi məlumat | |
|---|---|
| Testin adı | Temprament düsturu A. Belov |
| Diaqnostik istiqaməti | Şəxsi emosional sfera |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | Yeniyetmələr |
| Təl b olunan vaxt | 10-15 dəq. |
| Keçirilmə forması | Fərdi, qrup |

Təlimat: Testə verilmiş 80 hökmün hər biri ilə tanış olun. Özünüzə aid etdiyiniz hökmlərin qarşısında + işarəsi qoyun. Daha sonra ən çox + qoyduğunuz bölməni müəyyən edin.

Stimul materialından nümünələr:

1. Kinsiz;
2. Qarşıya qoyulan məqsədlərə nail olmaqda inadkar;
3. Sakit və boş yerə danışmağı xoşlamayan.

Testin stimul materialı əlavə faylda təqdim edilmişdir.

| Test haqqında ümumi məlumat | |
|---|---|
| Testin adı | Sosial frustrasiya səviyyəsinin diaqnostikası L.İ.Vasserman V.V.Boykon |
| Diaqnostik istiqaməti | Şəxsi emosional sfera |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | Yeniyetmələr |
| Tələb olunan vaxt | 10-15 dəq. |
| Keçirilmə forması | Fərdi |

Aşağıda həyat fəaliyyətinin əsas aspektlərində sosial nailiyyətlərin qeyri – təminatı dərəcəsini qeydə alan sorğu kitabçası təqdim olunur (Cədvəl 1.6)

Hər bir sualı oxuyun və daha məqbul cavabı onun arasından taparaq seçin.

1 - Tamamilə təmin olunmuşdur;
2 - Yəqin ki təmin olunmuşdur;
3 - Cavab verməkdə çətinlik çəkirəm;
4 - Yəqin ki təmin olunmamışdır;
5 - Tamamilə təmin olunmamışdır.

| | | | | |
|---|---|---|---|---|
| Siz təmin o unmusunuzmu | 1 | | 3 | 4 |
| Öz təhsili ilə | 1 | 2 | 3 | 4 |
| İşdə həmkarları ilə qarşılıqlı münasibəti | 1 | 2 | 3 | 4 |
| İşdə inzibati strukturlar ilə qarşılıqlı münasibəti | 1 | 2 | 3 | 4 |
| Peşəkar fəaliyyətinin subyektləri ilə qarşılıqlı münasibəti (pasiyentlər, tələbələr, müştərilər) | 1 | 2 | 3 | 4 |
| Ümumilikdə işinin təminatı ilə | 1 | 2 | 3 | 4 |

| | | | | |
|---|---|---|---|---|
| Peşəkar fəaliyyətin şərtləri ilə (tədris prosesi) | 1 | 2 | 3 | 4 |
| Cəmiyyətdə mövqeyi ilə | 1 | 2 | 3 | 4 |
| Maddi durumu ilə | 1 | 2 | 3 | 4 |
| Mənzil – məişət şəraiti ilə | 1 | 2 | 3 | 4 |
| Həyat yoldaşı ilə münasibəti | 1 | 2 | 3 | 4 |
| Övladı ilə qarşılıqlı münasibəti | 1 | 2 | 3 | 4 |
| Validenyləri ilə qarşılıqlı münasibəti | 1 | 2 | 3 | 4 |
| Cəmiyyətdə (dövlətdə) tutduğu mövqeyi ilə | 1 | 2 | 3 | 4 |
| Dostları, tanışları ilə qarşılıqlı münasibəti | 1 | 2 | 3 | 4 |
| Xidmət və məişət xidməti sahəsi ilə | 1 | 2 | 3 | 4 |
| Tibbi xidmət sahəsi ilə | 1 | 2 | 3 | 4 |
| İstirahət saatlarının həyata keçirilməsi ilə | 1 | 2 | 3 | 4 |
| İstirahətini keçirmək imkanı ilə | 1 | 2 | 3 | 4 |
| İş yerinin seçim imkanı ilə | 1 | 2 | 3 | 4 |
| Ümumilikdə həyat tərzi ilə | 1 | 2 | 3 | 4 |

**Cədvəl 1.6. Sosial frustrasiya**

| **Test haqqında ümumi məlumat** | |
|---|---|
| Testin adı | "Suisid riski kartı" metodikası L.B.Şpeyder |
| Diaqnostik istiqaməti | Yeniyetmədə suisid riski faktorunun təzahür dərəcəsinin müəyyən etmək |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | Yeniyetmələr |
| Tələb olunan vaxt | 10-15 dəq. |
| Keçirilmə forması | Fərdi |

Bu kart müşahidə və anamnez məlumatları üzərində doldurulur. Nəticədə suiqəsdin risk ehtimalı müəyyən edilir.

Testin stimul materialı əlavə faylda təqdim edilib.

### 1.3.4. Proektiv metodikalar

| **Test haqqında ümumi məlumat** | |
|---|---|
| Testin adı | "Ailə rəsmi" testi Q.T. Homentauskas |
| Diaqnostik istiqaməti | Şəxsi emosional sfera |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | Məktəbəqədər və kiçik məktəbli yaş dövrləri |
| Tələb olunan vaxt | 5-15 dəq. |
| Keçirilmə forması | Fərdi |

Tarixi olaraq "Ailə rəsmi" testinin istifadə olunması "proyektiv psixologiyanın" ümumi inkişafı ilə bağlıdır. Rəsm testlərinə marağın artması K.Maxoverin (Machover, 1949) və C.Bukun (Buck, 1948) fundamental test monoqrafiyalarının işıq üzü görməsi ilə əlaqəlidir. Rəsm testləri keçən əsrin 50-60-ci illərin praktik psixoloqları arasında çox məhşur idi, onlardan biri – K.Maxoverin insan rəsmi testi (Machover, 1949) – ABŞ klinika və xəstəxanalarında istifadə olunma sıxlığına görə təkcə Rorşaxın ləkə testindən geri qalırdı.

Hal-hazırda şəxsiyyətlərarası münasibətləri araşdırmaq üçün "Ailə rəsmi"-nin istifadə olunmasında "pioneri" müəyyən etmək çətindir. 60-ci illərdə bu test klinik psixoloqların arasında geniş yayılmışdır, və müxtəlif coğrafi regionlarda onun istifadə olunma üstünlüyü müxtəlif adlarla bağlıdır (ABŞ-da – V.Xyuls, Fransada – İ.Minkovskiy, M.Poro və s.).

**Diaqnostika proseduru**

Tədqiqat üçün asağıdakılara ehtiyac vardır:

- Ağ kağız vərəqi (21x29 sm);
- Altı rəngli qələm (qara, qırmızı, göy, yaşıl, sarı, qəhvəyi);
- Pozan.

Uşağa təlimat verilir: "Zəhmət olmasa, öz ailəni çək". Heç bir halda "ailə"-nin nə məna verdiyini başa salmaq olmaz, çünki bununla tədqiqatın məzmunu korlanır. Əgər uşaq nə çəkməli olduğunu soruşursa, psixoloq sadəcə təlimatı təkrar edir. Tapşırığın edilmə vaxtına məhdudiyyət qoyulmur (çox vaxt bu 35 dəqiqədən çox çəkmir). Tapşırığı yerinə yetirən zaman protokolda aşağıdakıları qeyd etmək lazımdır:

- Detalların təsvir edilmə ardıcıllığı;
- 15 saniyədən çox olan fasilələr;
- Detalların pozulması;
- Uşağın spontan şərhləri;
- Emosional reaksiyalar və onların çəkilən məzmunla əlaqəsi.

Tapşırığı yerinə yetirdikdən sonra verbal yolla maksimum məlumat əldə etməyə çalışmaq lazımdır. Çox vaxt aşağıdakı suallar verilir:

- Burda kim çəkilib?
- Onlar hardadır?
- Onlar nə edir? Bunu kim fikirləşib?
- Onlar sevinir yoxsa üzülür? Niyə?
- Çəkilən insanlardan hansı daha xoşbəxtdir? Niyə?
- Onlardan hansı ən bədbəxtdir? Niyə?

Son iki sual uşağa hislərini açıq müzakirə etməyə sövq edir, buna isə hər uşaq meyilli deyil. Buna görə də əgər uşaq bu suallara cavab vermirsə və ya formal cavablar verirsə, açıq-aşkar cavablara uşağı məcbur etmək lazım deyil. Sorğu zamanı psixoloq uşağın təsvir etdiklərinin mənasını öyrənməyə çalışmalıdır: fərdi ailə üzvlərinə qarşı olan hislər; niyə uşaq hər-hansı bir ailə üzvünü təsvir etməyib (əgər belə bir hal varsa); rəsmin bəzi

detallarının uşaq üçün nə mənası var (quşlar, heyvanlar və s.). Eyni zamanda birbaşa suallardan, cavab verməkdə təkid etməkdən qaçmaq lazımdır, çünki bu təşviş müdafiə reaksiyalarına səbəb ola bilər. Çox vaxt proyektiv suallar produktiv olur ("Əgər quşun yerinə insan təsvir olunsaydı, bu kim olardı?", "Qardaşın və sənin aranda olan rəqabətdə kim qalib gələrdi?", "Anan özü ilə kimi aparar?" və s.).

Sorğudan sonra uşağa həll etməsi üçün 6 vəziyyət təklif edirik: onlardan üçü ailə üzvlərinə qarşı olan mənfi hisləri müəyyən etməlidir, üçü isə müsbət:

1. Təsəvvür et ki, sənin sirkə iki biletin var. Sən özünlə kimi aparardın?
2. Təsəvvür et ki, sənin bütün ailən qonaq gedir, amma ailədən bir nəfər xəstələnib və evdə qalmalıdır. Bu kimdir?
3. Sən konstruktorla ev tikirsən (kukla üçün kağızdan donlar kəsirsən) və səndə alınmır. Kimi köməyə çağırardın?
4. Səndə maraqlı kinoya "N" sayda bilet var (ailə üzvlərinin sayından 1 ədəd az). Kim evdə qalacaq?
5. Təsəvvür et ki, sən kimsəsiz adaya düşmüsən. Orada kiminlə yaşamaq istərdin?
6. Sənə maraqlı loto hədiyyə ediblər. Bütün ailə oturub oynayır, ancaq loto biletlərinin sayı hamının oynaması üçün yetərli deyil. Kim oynamayacaq?

İnterpretasiya üçün bunları da bilmək vacibdir:

- Araşdırılan uşağın yaşı;
- Onun ailəsinin tərkibi, bacı və qardaşlarının yaşı;
- Əgər mümkündürsə, uşağın ailədə, uşaq bağçasında və ya məktəbdə davranışı haqqında məlumat almaq.

| **Test haqqında ümumi məlumat** | |
|---|---|
| Testin adı | "2 çiçək" proyektiv metodikası |
| Diaqnostik istiqaməti | Şəxsi maraqla ın müəyyənləşdirilməsi |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | Məktəbəqədər və kiçik məktəbli dövrləri üçün |
| Tələb olunan vaxt | 5-10 dəq. |
| Keçirilmə forması | Fərdi |

Tələb olunan materiallar: A4 vərəqi, qırmızı və qara karandaş (Şəkil 1.19):



**Şəkil 1.19. 2 Çiçək metodikası, nümunə**

**Təlimat:** Uşağın qarşısında A4 vərəqi horizontal şəkildə qoyulur. Uşaqdan sol tərəfdə qırmızı, üç yarpaqlı çiçək çəkilir. Uşağa deyirik ki - ”Gəl səninlə təsəvvür edək ki, bu gül sehirlidir və ləçəklərində sənin ən çox istədiyin üç arzunu yazmaq olar. Yazaq?” Uşağı tələsdirmədən onu dinləyirik. Əgər uşaq arzularını ləçəklərə özü yazmaq istəsə ona mane olmuruq. Arzuları yazdıqdan sonra vərəqin sağ tərəfindən qara qələm ilə “pis” (üç ləçəkli çiçək) çəkirik. Uşağa deyirik – “Bu gülün ləçəklərinə isə, biz sənin heç istəmədiyin şeyləri yazacayıq.

Bəzən müayinə zamanı uşaqlar 3-dən daha çox arzu deyirlər. Bu zaman psixoloq vurğulamalıdır ki, gülün cəmi 3 ləçəyi var və uşaq arzuları içində ən vacib hesab etdiklərini seçməlidir.

| **Test haqqında ümumi məlumat** | |
|---|---|
| Testin adı | **«İki ev» metodikası ( İ.Vandvik, P.Ekblad)** |
| Diaqnostik istiqaməti | Şəxsi emosional sferanın diaqnostikası |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | Məktəbəqədər və kiçik məktəbli yaş dövrləri üçün |
| Tələb olunan vaxt | 5-10 dəq. |
| Keçirilmə forması | Fərdi |

Psixoloq əvvəlcədən üfüqi yerləşən vərəq üzərində iki ev çəkir: soldan – düz qırmızı ev, sağdan isə – düz olmayan, damı uçmuş qara ev və ya damı sağ tərəfə meyillənmiş qara ev. Hər ev bir neçə mərtəbədən, üç və ya dörd mənzildən (gözdən) ibarət olmalıdır (Şəkil 1.20).




**Şəkil 1.20. “İki ev” metodikasının tətbiqi**

Psixoloq uşağa növbəti təlimatı verir: "Bax sənin qarşında iki ev var.(qırmızı evi göstərir), bu ev xüsusi olaraq sənin üçün tikilmişdir. Bax o necə gözəldir. Orada sən yaşayacaqsan. Hansı otaqda yaşayacağını göstər". Uşaq yaşayacağı yeri işarə etdikdən sonra psixoloq onun adını həmin xanaya yazır. Daha sonra eksperimentator uşaqdan kimin onunla yaşayacağını soruşur ("Bəs sən kimi özünlə bu evə almaq istəyərsən? Sən öz evinə kimi istəsən yerləşdirə bilərsən, axı bu sənin evindir".) Psixoloq uşaqdan həmin sakinin hansı otaqda yaşayacağını müəyyənləşdirir. Eksperimentator həmin sakinin adını işarə edilmiş xanaya yazır və onun kim olduğunu soruşur.

Uşağın qırmızı evə istədiyi hər kəsi yerləşdirdikdən sonra psixoloq qeyd edir: "Bir də ikinci ev var. Axı orada da kimsə yaşamalıdır. Sən oraya yerləşdirəcəksən?". Bu zaman ikinci ev üçün "qara", "pis" və ya hər hansı başqa cür xarakteristika vermək olmaz. Metodikanın proyektiv olmasından irəli gələrək, ehtimal olunur ki, şəkil simvol rolunda çıxış edir və uşaq özü hansı evin "yaxşı", hansının isə "pis" olduğunu müəyyən edəcəkdir. İkinci evlə də bənzər prosedur keçirilir.

| Test haqqında ümumi məlumat | |
|---|---|
| Testin adı | "Mövcud olmayan heyvan" metodikası |
| Diaqnostik istiqaməti | Şəxsi emosional sfera |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | +4 |
| Tələb olunan vaxt | 7-15 dəq. |
| Keçirilmə forması | Fərdi |

**Təlimat:** Uşağa hər hansı aydınlıq gətirilmədən, mövcud olmayan heyvan şəkli çəkmək təklif edilir (Şəkil 1.21).

Ləvazimat: Ağ vərəq, sadə karandaş və pozan (karandaş orta yumşaqlıqda olmalıdır, flamasterdən istifadə etmək olmaz).



**Şəkil 1.21. "Mövcud olmayan heyvan" metdoikasının tətbiqi nümunəsi**

| Test haqqında ümumi məlumat | |
|---|---|
| Testin adı | Əl testi (Hand test) metodikası ildə B.Brayklin, Z.Piotovski, E.Vaqner |
| Diaqnostik istiqaməti | Aqressiyanı dəyərləndirmək üçün |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | +4 |
| Tələb olunan vaxt | 5-7 dəq. |
| Keçirilmə forması | Fərdi |

**Stimul material:** 9 müxtəlif vəziyyətdə olan əl şəklindən və 1 boş ağ kağızdan (10x14 sm) ibarətdir. Burada tədqiq olunan şəxs istənilən formanı çəkə bilər. Şəkillər ardıcıl olaraq tədqiq olunana təqdim olunur.

Stimul materialın nümunəsi (Şəkil 1.22 və Şəkil 1.23):



**Şəkil 1.2 . Əl testi, stimul 1**



**Şəkil 1.23. Əl testi, stimul 2**

**Təlimat:** Tədqiq olunana belə bir təlimat verilir ki, şəkillərdəki hərəkətlər nəyi bildirir. Və yaxud da bu cür ələ sahib olan insan nə edə bilər. Hər bir şəkil üçün bir neçə variant hərəkət demək lazımdır.

| **Test haqqında ümumi məlumat** | |
|---|---|
| Testin adı | "Mən kiməm?" metodikası M.Kuna və T.Makpartlenda |
| Diaqnostik istiqaməti | Şəxsi sfera |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | Yeniyetmələr |
| Tələb olunan vaxt | 5-10 dəq. |
| Keçirilmə forması | Fərdi, qrup |

"Mən" konsepsiyasının xüsusiyyətlərini göstərmək üçün "Mən kiməm?" metodikasından istifadə edilir. Yeniyetmənin "Mən kiməm?" sualına cavabı azad şəkildə özü haqqında fikirlərdən ibarətdir, hansı ki, bu cavablarda özünün şəxsi xarakter xüsusiyyətləri və özünün bu və ya digər qrupa mənsubluğu haqqında məlumat əks olunur.

| Test haqqında ümumi məlumat | |
|---|---|
| Testin adı | Tamamlanmamış cümlələr metodu[2] |
| Diaqnostik istiqaməti | Konfliktli sahələrin aşkarlanması |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | Kiçik məktəblilər, yeniyetmələr |
| Tələb olunan vaxt | 7-15 dəq. |
| Keçirilmə forması | Fərdi |

***Təlimat***: "Sizə 60 tamamlanmamış cümlə təqdim olunub. Onları oxuyub, ağlınıza gələn ilk həmin cümləni tamamlayın. Mümkün qədər tez işləyin. Əgər hər hansı cümləni tamamlaya bilmirsinizsə, onun nömrəsini dairəyə alın və növbəti cümləyə keçin. Vaxtınız qalsa yarımçıq cümlə ilə məşğul ola bilərsiniz".

Stimul materialından nümunə:

Zənnimcə mənim atam nadir hallarda______________________________________________.

İstərdim ki, __________________________________________________ qorxmaqdan çəkinim.

Hesab edirəm ki, anaların çoxu _____________________________________________.

| Test haqqında ümumi məlumat | |
|---|---|
| Testin adı | Məktəb həyəcanı səviyyəsinin diaqnostikası Fillips |
| Diaqnostik istiqaməti | Kiçik və orta məktəb yaşlı uşaqlarda məktəb ilə əlaqədar həyəcanın xarakterinin və səviyyəsinin öyrənilməsi. |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | Kiçik və orta məktəbl |
| Tələb olunan vaxt | 8-15 dəq. |
| Keçirilmə forması | Fərdi, qrup |

**Təlimat:** Test məktəblilərə oxunan və ya yazılı şəkildə təqdim olunan 58 sualdan ibarət olur. Hər bir suala birmənalı şəkildə "Bəli" və "Xeyr" deyə cavab vermək tələb olunur. Burada doğru və ya səhv, yaxşı və ya pis cavab olmur. Sualların üzərində çox düşünməmək lazımdır. Suala cavab verərkən onun nömrəsini yazıb, razı olduğu halda "+", razı olmadığı halda isə "-" işarəsini qoyulmalıdır.

Stimul materialından nümunə[3]:

1. Səni cavab vermək üçün yazı taxtasına çağıran zaman ayaqların əsirmi?
2. Sən sinif yoldaşlarına oxşayırsanmı?

Tanış olduğumuz müxtəlif diaqnostik istiqaməti olan 13 metodik vasitə fərdin psixodiaqnostika müayinəsini keçirmək üçün tələb olunan minimal metodik bazadır. Bu

[2] Testin stimul materialı əlavə faylda təqdim edilib
[3] Testin stimul materialı və açarı əlavə faylda təqdim edilmişdir

bazaya əsaslanaraq, müayinə proqramı tərtib etmək mümkündür. Bəzən tələbələrdə belə bir sual yaranır. Nəyə görə psixodiaqnostikanı keçirmək üçün ümumi şablon müayinə proqramı tətbiq etmək mümkün deyil? Cavab isə çox sadədir. Aktiv inkişaf dövründə hər bir uşağın inkişaf trayektoriyası digərlərindən fərqli və təkrar olunmazdır. Bunun bir neçə səbəbi var: uşağın genofondu, böyüdüyü mühit və aldığı tərbiyə. Bu üçlük sonsuza qədər çoxluqlar təşkil etdiyi üçün psixodiaqnostika zamanı şablon müayinə proqramının tətbiqi bizə problemin əsl səbəbini aşkar etməkdə heç bir şəkildə köməklik göstərə bilməz. Yalnız valideynlərlə söhbətdən sonra kifayət qədər anamnez topladıqda, biz hər bir uşaq üçün fərdi qaydada (onun yaşı, sağlamlıq vəziyyəti və s. amilləri nəzərə alaraq) şikayət və psixoloqun ilkin hipotezlərinə əsasən müayinə proqramı tərtib edirik. Müayinə proqramı psixodiaqnostikanın əsas prinsipinə əməl edilərək qurulmalıdır.

***Nümunə:***

Bir çox ibtidai sinif şagirdlərinin müəllim və valideynləri uşaqlarda diqqət dağınıqlığını müşahidə edir. Valideynlərlə söhbət zamanı oxşar şikayətlərlə rastlaşırıq. Fərdi psixodiaqnostika müayinəsi zamanı oxşar şikayətlərin arxasında dura biləcək səbəblərin fərqliliyini aşkar edirik. Diqqət dağınıqlılığı problemi ilə müraciət edənlərin bir çoxunda məktəb dezadaptasiyası aşkarlansa da, bir sıra fərqli səbəblər də müəyyən olundu. Bəzi uşaqlarda yüksək həyəcanlılıq, bəzilərində kiçik beyin dizfunksiyası, orqanik tipli problemlər və valideyn-uşaq münasibətlərində problemlər aşkar olundu. Bu nümunə bizə oxşar şikayətlərə səbəb olan fərqli səbəblərin çoxluğunu nümayiş etdirir. Əgər biz fərdi psixodiaqnostikanın kompleks prinsipinə riayət etmədən keçirsəydik, o zaman oxşar problemin əsl səbəblərini aşkar etmək mümkün olmazdı.

Müxtəlif təhsil müəssisələrində fərdi psixodiaqnostikanın keçirilməsi, uşaqların hərtərəfli sağlam böyüməsi üçün mühüm əhəmiyyət daşıyır. Problemin səbəbi aşkarlandığı halda, problemin həll olunma ehtimalı daha yüksəkdir. Uşaqda keçirilən düzgün müayinə onun dərslərini yaxşı qavraması və həmyaşıdları ilə ünsiyyət problemlərinin aradan qaldırılması yolunda atılan ilk addımdır.

### 1.3.5. Uşağın məktəbə psixoloji hazırlıq səviyyəsinin diaqnostikası üçün seçilmiş metodlar

Praktik psixoloqun fəaliyyətində bu istiqamət nisbətən yeni sayılır. Bəs belə diaqnostikaya ehtiyac necə yaranır? 20-ci əsrin ortalarına qədər psixoloqlar bu istiqamət üzrə aktiv işlər aparmırdılar, lakin 20-ci illərin ortasında bütün dünyada erkən inkişaf və bu tipli yeni təhsil istiqamətləri yaranmağa başladı. Nəticədə isə 1-ci sinfə qəbul yaş qrupunda gözəçarpan dəyişikliklər baş verdi. Valideynlər övladlarının bir çox intellektual bacarıqlarını əsas gətirərək, uşaqları məktəb həyatına daha tez qatılmasını istəyiblər. 1-ci sinfə gedən uşaqların yaş həddi 5-7 yaş arası dəyişirdi. Lakin nədənsə gözəl saymaq, misalları həll etmək və oxumağı bacaran 5-6 yaşlı uşaqların əksəriyyəti məktəbdə öz biliklərini nümayiş etdirməkdə çətinlik çəkirdilər. Onlarda kəskin məktəb dezadaptasiyası müşahidə olunurdu. Bununla yanaşı, bu illər ərzində səhiyyə işçiləri kiçik məktəblilərin ümumi sağlamlıqlarının kəskin pisləşməsi faktını aşkar ediblər. Araşdırmalar zamanı məlum olub ki, məktəbə

hazırlığın 4 əsas aspekti var. Onlar aşağıdakılardır:

- İntellektual;
- Kommunikativ;
- Emosional-motivasiya;
- İradi.

İntellektual hazırlığa aiddir: Perseptiv yetkinlik (fondan fiquranı seçə bilmək), diqqətin konsentrasiyası, analitik təfəkkür (hadisələr arasında əsas əlaqələri dərk edə bilmək), məntiqi yaddaş, sensomotor koordinasiya, nümunəni köçürmək bacarığı, kiçik motorikanın inkişafı. Bu formada qəbul olunan intellektual yetişkinlik özündə beyn strukturlarının funksional yetişkinliyini əks etdirir. Bu isə məktəb üçün zəruri olan fizioloji yetişkinlik anlamına gəlir.

Kommunikativ hazırlığa aiddir: uşaqda həmyaşıdları ilə ünsiyyətə tələbat və öz davranışının daxil olduğu uşaq qrupunun qaydalarına tabe etmək bacarığı, məktəbdə təlim zamanı məktəbli rolunu icra etməyi bacarmalıdır. Həmyaşıdları ilə yanaşı, məktəbə ilk qədəmlərini atan şagird, eyni zamanda sosial əhəmiyyət daşıyan, lakin qohum olmayan böyüklər ilə ünsiyyətə hazır olmalıdır.

Emosional-motivasiya hazırlığına aiddir: Məktəbəqədər yaş dövrünün əhəmiyyətli yeni törəməsindən biri motivlərin iyerarxiyasının formalaşmasıdır. Uşaq hansı motivlərin daha mühüm olduğunu seçməyi bacarmalıdır.

Uşağın motivasiya sferasında yeni motivlərin əmələ gəlməsi bu sferanın inkişafından xəbər verir. Yeni motivlər şagirdin tədris prosesində davranışını müəyyən edir. Bu yeni motivlərin işləyə bilməsi üçün onlar daha öncədən mövcud olan situativ motivlərdə daha güclü olmalıdırlar. Əks halda situativ motivlərin üstünlüyü uşağa dərs prosesinin yiyələnməsinə maneə törədəcəkdir. Bu səbəbdən motivasiya sferasının yalnız yeni motivlərin yaranması ilə deyil, həmçinin mövcud motivlərin inkişaf şəraitinə uyğun olaraq əhəmiyyət dərəcəsinə görə bölünməlidir (iyerarxiyası yaradılmalıdır). Yeni əhəmiyyətli motivlər dominant motivlər olacaq və bu motivlərə uyğun olaraq uşaq öz davranışını tənzimləyəcəkdir. Bu tip davranışa “iradi davranış” deyilir və bizə uşağın məktəbə iradə cəhətdən hazır olduğunu göstərir.

Böyük şəxsi əhəmiyyət daşıyan tələbatların ödənilməsi ilə birbaşa bağlı olan motivlər dominant kateqoriyasına keçir və məktəblidə yeni biliklərə olan tələbatdan formalaşan tədris motivləri yaranır. Bu zaman uşaq ona çox da maraqlı gəlməyən, lakin aktual tələbatını ödəyən fəaliyyətlə məşğul olur.

Sadalanmış parametrlər əsasında məktəbdə psixoloji hazırlıq səviyyəsinin müayinəsi üçün müxtəlif tipli testlər yaradılmışdır. İntellektual komponentin diaqnostikası üçün istifadə olunan metodikalara aşağıdakılar aiddir:

| Test haqqında ümumi məlumat | |
|---|---|
| Testin adı | Dördüncü artıqdır metodikası |
| Diaqnostik istiqaməti | İntellektual sferanın qiymətləndirilməsi |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | Məktəbəqədər və kiçik məktəbli yaş dövrləri üçün |
| Tələb olunan va t | 5-10 dəq. |
| Keçirilmə forması | Fərdi |

Bu metodika şəkillərdən ibarətdir və uşaqlarda yüksək marağa səbəb olur. İnkişaf zamanı uşaqda 3 tipli ümumiləşdirmə olur. Ən primitiv ümumiləşdirmə sinkret ümumiləşdirmədir. Bu zaman əşyalar təsadüfi əlamətə görə qruplaşdırılır. Əşyaların eyni zaman və ya məkana təsadüf etməsi, xüsusilə balaca uşaqlarda sinkretin yaranmasına əsas ola bilər. Daha mürəkkəb və genetik olaraq daha sonra yaranan ümumiləşdirməyə isə kompleks ümumiləşdirmə deyilir. Bu ümumiləşdirmənin əsasında duran meyarlara qeyri-stabillik, dəyişkənlik və orta-əhəmiyyətlilik aiddir.

Əgər qələm, dəftər, kitab və qəzet sırasında dördüncü artıq kimi "kitab" seçilərsə, bu seçimin əsaslandırılmasını "dəftər və qəzetdə yazmaq olar, kitabda isə yazmaq olmaz" formasında verilərsə, bu halda biz kompleks ümumiləşdirməni müşahidə etmiş oluruq. Əgər bu nümunədə dördüncü artıq kimi "qələm" seçilərsə və uşaq öz seçimini "bu kağızdan hazırlanmayıb ki" ifadəsi ilə əsaslandırsa, bu halda biz mənaya görə ümumiləşdirməni müşahidə etmiş olarıq. Bu tip ümumiləşdirmə uşağın məktəb fəaliyyəti üçün çox əhəmiyyətlidir.



**Şəkil 1.24. Dördüncü artıqdır metodikasının stimul materialı**

Stimul materialın nümunəsi (Şəkil 1.24):

| Test haqqında ümumi məlumat | |
|---|---|
| Testin adı | **"Labirint" metodik vəsaiti** |
| Diaqnostik istiqaməti | Əyani- sxematik təfəkkürün formasının müəyyən edilməsi |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | 6-8 yaş |
| Tələb olunan vaxt | 5-10 dəq. |
| Keçirilmə forması | Fər i |

Bu metodikanın əsas məqsədi əyani-sxematik təfəkkürün formalaşmasını müəyyən etməkdir (uşağın şəkil və sxem vasitəsilə vəziyyətdə oriyentasiyası). Vəsait 6-8 yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur.

Materiallar: Hər biri ayrı-ayrılıqda A4 vərəqində çap olunmuş labirint sxemi. İlk 2 (A və B) labirint sınaq üçündür.

***Testin gedişatı***

İlk olaraq A və B labirintləri təqdim olunur. Daha sonra isə sıra ardıcıllığı ilə 1-dən 10-a qədər labirintlər təqdim olunur.

***Təlimat:***

"Bax sənin qarşında bir tala və bu talada yollar var. Hər yolun sonunda isə ev var. Bu evlərin birinə sən (dovşan) məktub çatdırmalısan. Düzgün evi tapmaq üçün burda (vərəqin aşağı hissəsini göstəririk) bizim üçün xəritə qoyulub. Gəl bu xəritəyə baxaq. Məktubu düzgün çatdırmaq üçün ilk öncə biz otu keçməliyik. Sonra şam ağacını keçməliyik və daha sonra göbələyi keçib lazım olan evə gəlib çıxmış olarıq. Gəl bu evi tapaq". Psixoloq diqqətlə uşağı izləyir. Uşaq çətinlik çəkdiyi zaman ona düzgün cavabı tapmaq üçün yolu barmağı ilə izlənməsi təklif olunur. Növbəti nümunədə isə psixoloq deyir:

"Bax bu yeni taladır. Burada da 2 ev var. Lakin məktub təcilidir. Gəl indi bu məktubun evini tapaq". Psixoloq ehtiyac yarandığı zaman uşağa eyni qaydada köməklik göstərir. Daha sonra isə əsas misallar təqdim olunur.

***1 və 2-ci tala üçün təlimat:*** "Xəritəyə diqqətlə bax. Burda hara getmək, hansı tərəfə dönmək göstərilib. Otdan irəliləməyə başla. Tələb olunan evi tap və işarələ."

***3-cü tala üçün təlimat:*** "Bu xəritəyə diqqətlə bax. İlk öncə sən otdan keçirsən. Daha sonra gülü, göbələyi, ağacı və sonda şam ağacını keçib, düzgün evə çatmış olursan. Evi tap və işarələ".

***4-cü tala üçün təlimat:*** "Diqqətlə bax. Otdan irəliləməyə başla. Ağacı, göbələyi, şam ağacını və sonda masanı keçib evə çatmış olursan. Evi tap və işarələ".

***5 və 6-cı talalar üçün təlimat:*** Çox diqqətlə xəritəyə bax və tələsmədən lazım olan evi tapıb işarələ.

***7-10-cu talaları üçün təlimat:*** Diqqətlə xəritəyə bax. Burda yolun əvvəli, istiqaməti və döngələri göstərilib. Düzgün evi tap və işarələ.

Aşağıda stimul materialının nümunəsi verilir (Şəkil 1.25):



**Şəkil 1.25. "Labirint"metodikanın stimul materialı**

| Test haqqında ümumi məlumat | |
|---|---|
| Testin adı | Məktəb kamilliyinin istiqamət testi A. Kern - Y. Irasek |
| Diaqnostik istiqaməti | Psixomotor inkişafın müəyyən edilməsi |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | 6-7 yaş |
| Tələb oluna vaxt | 5-10 dəq. |
| Keçirilmə forması | Fərdi |

Testin məqsədi: psixomotor inkişafın səviyyəsini müəyyən etmək; göz və əl koordinasiyasını müəyyən etmək; nümunəni köçürmək bacarığı; bir müddət diqqət yayınmadan cəlbedici olmayan tapşırığı yerinə yetirmək bacarığı; intellektual səviyyəsini müəyyən etmək.

***Materiallar:***

A4 vərəqini götürüb kitab formasında qatlayırıq. Alınan kitabçanın 1-ci səhifəsinin yuxarı hissəsində uşaq haqqında məlumatlar yer almalıdır (ad, soyad, tam yaş). 2-ci səhifədə yazı nümunəsi yer alır. 3-cü səhifə uşaq üçün təmiz saxlanılır. 4-cü səhifənin sol hissəsində nöqtələrdən ibarət olan tapşırıq yerləşdirilir. Vərəqin sağ tərəfi isə uşaq üçün təmiz saxlanılır.

***Gedişat:***

Bu metodika vasitəsilə 5.5-7 uşaqlar müayinə olunur. Müayinə həm qrup, həm də fərdi şəkildə ola bilər. Test, 3 subtestdən ibarətdir.

1-ci subtest – Kişi şəklini çək.

***Təlimat:***

Burada (uşağa 1-ci səhifə göstərilir) bacardığın qədər bir kişi şəkli çək. Bu tapşırıqda başqa heç bir şərh və ya əlavə məlumat verilmir. Uşağı sadəcə izləyirik. Səhv və çatışmazlıqları düzəltmirik. Əgər uşaq çoxlu aydınlaşdırıcı suallar verirsə, o zaman ona sadəcə "bacardığın kimi çək" cavabını vermək olar. Əgər uşağın çəkməyə başlamamasını və ya tərəddüd etdiyini müşahidə etsəniz, o zaman ona dəstək verin – "Çək səndə hər şey alınacaq". Bəzən uşaqlar kişi deyil, qadın şəkli çəkmək istəyir. Bu zaman onlara demək lazımdır ki – "Hamı kişi çəkir, sən də kişi çəkməlisən". Əgər uşaq artıq qadın çəkməyə başlayıbsa, uşağı dayandırmırıq və o bitirdikdən sonra qadının yanında bir kişi çəkməsini istəyirik. Bu tapşırıq bitdikdən sonra növbəti səhifə açılır.

2. subtest – Yazılı hərflərlə yazı.

2-ci səhifənin ortasında yazı nümunəsi verilir.

***Təlimat:***

"Bax, burada yazı var. Mən bilirəm, sən hələ yazmağı bacarmırsan. Amma çalış bu yazıların eynisini buraya (əl ilə sol tərəfi göstərir) köçür. Əgər uşaq yazarkən hansısa sözü səhifəyə yerləşdirə bilmədisə, o zaman ona bu sözü yuxarıda və ya aşağıda yazmasını deyə bilərik".

Nümunə kimi "Ayna yemək yedi" cümləsi istifadə oluna bilər.

***1-ci və 2-cə subtestlər üçün əlavə qeyd:***

Praktika onu göstərir ki, çox vaxt uğursuz nikahdan olan uşaqlar kişi şəklini çəkməkdən imtina edirlər. Bu hal baş verdikdə, psixoloq bunu dəftərində qeyd etməlidir və daha sonra bu uşaqla fərdi diaqnostika keçirilməsi arzuolunandır.

2-ci subtestin nümunəsi sağ tərəfdə yerləşdiyi üçün çox vaxt solaxay uşaqların nəticələri bu vəziyyətdə daha pis olur. Müayinədən öncə uşağın aparıcı əlinin hansı olduğunu müəyyənləşdirmək lazımdır və solaxay uşaqlar üçün bu nümunənin sol tərəfdə verilməsi məqsədəuyğundur. 3-cü subtest – nöqtələri köçürmək.

***Təlimat:***

Bax, burada nöqtələr çəkilib (sol tərəfi göstəririk). Çalış sən də burada (boş sağ tərəfi göstəririk) eyni cür çək. Uşağı müşahidə edirik. Qeydlər aparırıq:

- Karandaşı hansı əldə saxlayır.
- Qələmi bir əldən digər ələ keçirirmi?
- Uşaq necə oturur? (rahat və ya hərəkətli)
- Qələmi yerə salıb onu yerdə axtarırmı?
- Ona işarə verilən yerdə çəkməyə başlayır, ya nümunəni qaralayır?
- Yaxşı çəkdiyindən əmin olmaq istəyirik və s.

| Test haqqında ümumi məlumat | |
|---|---|
| Testin adı | “Hə” və “yox” ”bəli” və “xeyr” demə oyun metodikası |
| Diaqnostik istiqaməti | İradi kontrolun səviyyəsini  müəyyənləşdirilməsi |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | Məktəbəqədər və kiçik məktəbli yaş dövrü |
| Tələb olunan vaxt | 5-8 dəq. |
| Keçirilmə forması | Fərdi |

Məqsəd: 6-7 yaşlı uşaqların oyunun qaydalarını yaddaşda saxlamaq, cavablarını idarə etmək, “hə” və ya “yox” cavablarını vermək istəyini dayandırmaq, eyni zamanda alternativ cavab düşünmək.

Materiallar: 2 variantda tərtib olunmuş 25 sual. Hər sual siyahısında 5 neytral sual mövcuddur.

***Təlimat:***

“Biz indi səninlə oyun oynayacayıq. Mən sənə müxtəlif suallar verəcəm. Sən isə mənə cavab verəcəksən. Amma gəl belə danışaq. ”Hə”, ”yox”, ”bəli”, ”xeyr” cavablarını istifadə etmək olmaz.

***Testin gedişatı:***

Suallar mülayim formada verilir. Uşağın reaksiyası və pauzaları qeydə alınır. Səhv cavab verdiyi zaman ona – “sən səhv buraxdın” kimi iradlar bildirmirik. Sadəcə pauza buraxırıq. Əksər vaxtlarda uşaqlar öz səhvlərini anlayırlar. Əgər uşaq səhvini anlamayıb və növbəti sualı gözləyirsə, psixoloq bunu özü üçün qeyd etməlidir. Uşaq nə qədər çox suala

düzgün cavab versə, bir o qədər göstəricisi yüksək hesab olunur (ən azı 7-8 sual). Bu oyunun qaydalarına riayət edə bilməyən uşaqların əksəriyyəti məktəbdə böyük problemlərlə üzləşirlər və dərsin ümumi gedişatına maneə törədirlər.[4]

Stimul materialından nümunələr:

1. Dondurmanı sevirsən?
2. Əllər üstə gəzməyi bacarırsan?
3. Sən uçmağı bacarırsan?
4. Gecə günəşi görə bilərik?

| **Test haqqında ümumi məlumat** | |
|---|---|
| Testin adı | **Psixososial yetkinliyi ölçmək testi** |
| Diaqnostik istiqaməti | Sosial bacarıqların inkişafı |
| İstifadə üçün nəzərdə tutulmuş yaş ar lığı | 5-7 yaş |
| Tələb olunan vaxt | 7-15 dəq. |
| Keçirilmə forması | Fərdi |

Bu metodika uşağa yönləndirilmiş suallardan ibarətdir. Bu cür söhbət məktəbəqədər yaş dövründə olan və 1-ci sinifdə oxuyan uşaqlar ilə aparıla bilər. Sorğu zamanı uşaqların cavabının daha dolğun olması üçün diktafondan istifadə oluna bilər.

Stimul materialından nümunə[5]:

Adını, soyadını, atanın adını söylə________________________________________

Neçə yaşın var? 1 ildən sonra neçə olacaq? 2 ildən sonra neçə olacaq?______________

Hansı daha böyükdür: Qoyun, yoxsa inək? Quş, yoxsa arı? Hansının ayaqları daha çoxdur: İtin yoxsa, xoruzun? ________________________________________

| **Test haqqında ümumi məlumat** | |
|---|---|
| Testin adı | Məktəbəqədər və 1-ci sinif şagirdləri üçün təlimə motivasiyasının tədqiqat metodikası M.P Qinzburq |
| Diaqnostik istiqaməti | Şagirdin dominant mot vasiyasının öyrənilməsi |
| İstifadə üçün nəzərdə tutulmuş yaş aralığı | 6-7 yaş |
| Tələb olunan vaxt | 7-10 dəq. |
| Keçirilmə forması | Fərdi |

Eksperimental material və qiymətləndirmə sistemi Qinzburq tərəfindən təqdim olunmuşdur.

Məqsəd: Məktəbəqədər və 1-ci sinif şagirdlərində olan dominant motivasiyanın öyrənilməsi.

---

[4] Testin stimul materialı və açarı əlavə faylda təqdim edilmişdir

[5] Testin stimul materialı və açarı əlavə faylda təqdim edilmişdir.

Materiallar: Hekayə və 6 şəkil (Şəkil 1.26).

***Təlimat:***

İndi mən sənə hekayə oxuyacağam. Diqqətlə qulaq as (hər hekayə oxunduqdan sonra uşağın qarşısında hekayəyə uyğun şəkil qoyulur).




**Şəkil 1.26. Qinzburq testin stimul materialı**

Stimul materialın nümunəsi:

1-ci hekayə: Oğlanlar (qızlar) məktəb haqqında danışırdılar. Birinci oğlan (qız) dedi: Mən məktəbə anam istədiyi üçün gedirəm, anam deməsə, mən heç məktəbə getməzdim (uşağın qarşısına 1 nömrəli şəkil qoyulur və növbəti hekayəyə keçid alınır).

2-ci hekayə: İkinci oğlan (qız) dedi: Mən məktəbə dərs öyrənməyi sevdiyim üçün gedirəm. Hətta məktəb olmasaydı belə mən yenə də dərs öyrənərdim (uşağın qarşısına 2 nömrəli şəkil qoyulur və növbəti hekayəyə keçid alınır).

Daha sonra uşağa aşağıdakı suallar verilir:

Səncə, uşaqlardan hansı daha çox haqlıdır? Niyə? (Seçim "a")

Bəs bunlardan hansı ilə sən oynamaq istərdin? Niyə? ( Seçim "b")

Kimlə birgə oxumaq istərdin? Niyə? ( Seçim "c")

Uşaq növbə ilə 3 şəkil seçir (suallara cavab olaraq). Bu seçimlərin təsadüfi olmamasından əmin olmaq üçün hekayəni oxuyan zaman uşağın diqqətini toplamaq çox önəmlidir. Hər seçimdən sonra uşağa kontrol sual verilir - "Bəs bu uşaq nə demişdi?" Uşağın cavabları cavab kartına daxil edilir.

### 1.3.6. Peşə maraqlarının və bacarıqlarının psixodiaqnostikası

Yuxarı sinif şagirdləri ilə aparılan psixoloji işin mühüm bir hissəsi bu mövzuya həsr

olunmuşdur.

Peşəyönümlü adaptasiya nədir? Müxtəlif metod vasitələri ilə yeniyetmələrin maraq, bacarıq və imkanlarına uyğun olan, eyni zamanda cəmiyyətdə tələbat duyulan peşələrin seçiminə yönəlmiş psixoloji konsultasiyanın bir növüdür.

Peşə oriyentasiyasının məqsədləri bunlardır: məktəbliyə gələcək peşəni şüurlu şəkildə seçim etməsində köməklik göstərmək, seçim etmək üçün psixoloji hazırlığı formalaşdırmaq və seçim zamanı individual xüsusiyyətləri nəzərə almaq, karyera planlaşdırılması sahəsində təhsil alanların səriştələrinin artırılması.

Peşə oriyentasiyası zamanı ümumi vəzifələr:

- Öz istək və imkanlarını dərk etmək.
- Öz bacarıq, maraq, intellektual və individual xüsusiyyətlərinin araşdırılması.
- Peşə seçimi və karyera planlaşdırılmasında istifadə olunan ümumi prinsiplər ilə tanışlıq.
- Əmək bacarıqlarının müasir xüsusiyyətləri ilə tanışlıq.
- Seçilmiş peşənin tələbləri ilə öz imkanlarını müqayisə etməkdə köməklik.
- Peşəkar məqsədlərə nail olunmasının qarşısında duran çətinlikləri dərk etməkdə və onları aradan qaldırmaqda professional köməklik.
- Müxtəlif tipli peşə fəaliyyətlərinin praktikası üçün şəraitin yaradılması.

Konsultasiya zamanı aşağıdakı prinsiplər qorunmalıdır:

- Dərk edilmiş seçim prinsipi.
- Edilmiş seçimin maraq, bacarıq və ictimayyətin tələbatına uyğun olmaq prinsipi.
- Aktivlik prinsipi – şagird özü aktiv peşə seçir.
- İnkişaf prinsipi – peşə insanın inkişafı üçün imkanlar yaratmalıdır.

Peşəyönümlü konsultasiya zamanı istifadə olunan metodlar:

- Biliklərin mühazirə formasında ötürülməsi
- Psixodiaqnostik tipli şəxsiyyətin müayinəsi.
- Sosial-psixoloji treninqlər, qrup diskussiyaları, təlim məqsədli oyunlar

Psixoloqun məktəbdə peşəyönümlü fəaliyyəti bir neçə mərhələdə keçirilir (Cədvəl 1.7):

| Siniflər | Metod | Məqsəd |
|---|---|---|
| 5-7 | Professional istiqamətin formalaşması, peşə seçimində ictimai əhəmiyyət daşıyan motivlərin formalaşması, peşə seçiminə dərk edilmiş marağın formalaşması | Peşələrlə məqsədyönlü tanışlıq, regionda kadr tələbatı ilə tanışlıq, professional maraqların müəyyənləşdirilməsi və inkişafı, özünütərbiyə və özünüdərketmə problemlərinin formalaşması, müəyyən əmək bacarıqlarına yiyələnmək |

| | | |
|---|---|---|
| 8-9 | Özünü professional cəhətdən anlamağın formalaşması | Düzgün peşə seçiminin əsasları ilə tanışlıq, seçilmiş peşəyə tələb olunan keyfiyyətlərin uyğunluğunun inkişafı, peşə seçiminin düzgün korreksiyası üçün şagirdin şəxsiyyətinin daha dərin öyrənilməsi, maksimal dərəcədə peşəkar əmək fəaliyyətinə oxşar bir mühitdə müxtəlif əmək fəaliyyətlərinin reallaşdırılması üçün şəraitin yaradılması. |
| 10-11 | Sosial peşə statusunun dəqiqləşdirilməsi, edilmiş seçimin düzgünlüyündən əminliyin formalaşması, | Müəyyən peşə üzrə bilik və bacarıqların formalaşdırılması, seçilmiş i tisasa özünün hazırlıq proqramının korreksiyası, professional inkişaf üçün yolların axtarılması. |

**Cədvəl 1.7. Məktəbdə peşə yönümlü fəaliyyətin əsas istiqamətləri**

Yeniyetmələrlə peşə seçimi istiqamətində işləyən psixoloqların əsas vəzifələrindən biri də yeniyetmələrdə öz talelərinə qarşı aktiv mövqeni formalaşdırmaqdır, çünki bir çox insan öz gələcəyinin planlaşdırılmasını vaxt itkisi kimi qiymətləndirir və əksər hallarda öz gələcəyinə qarşı passiv mövqe tutaraq üçüncü şəxslər tərəfindən qurulmuş müxtəlif həyat ssenarilərindən yararlanmağa çalışır. Beləliklə, psixoloq ilk növbədə yeniyetmələri aktiv pozisiyaya cəlb etməlidir və tədricən yeniyetmələrdə dərk edilmiş özlərinə məxsus həyat planının yaradılması üçün daxili hazırlıq vəziyyətini təmin edir.

Bəs aktiv mövqe nədir?

- Problemi görməyə hazırlıq.
- Sərbəst şəkildə bu problemi həll etmək cəhdi.
- Öz təşəbbüsü ilə professional konsultanta müraciət etməyə hazırlıq.
- Professional konsultant ilə qarşılıqlı fəaliyyətin tələblərinə riayət etməsinə hazırlıq.
- Psixoloqun məsləhəti ilə konsultasiya görüşlərindən kənar, məqsədəuyğun fəaliyyətlərin sərbəst şəkildə yerinə yetirilməsinə hazır olmaq.
- Özünün cəmiyyətdə olan mövqeyinə yeni bucaq altında baxmağa hazır olmaq (müəyyən cəsarət tələb edir).
- Professional konsultant ilə qarşılıqlı fəaliyyət zamanı və müstəqil şəkildə konkret peşə məqsədlərinə nail olduqda müəyyən daxili kompromislərə getməyə hazırlıq. Məsələn, böyük məqsədlər üçün hər hansı istək və digər məqsədlərdən imtina etmək.

Lakin təəssüflər olsun ki, əksər yeniyetmələr bu mövqeyə hazır deyillər və bu zaman təhsil psixoloqunun qarşısında duran ilk vəzifə onları passiv formadan aktiv formaya keçirməkdir. Bu cür aktivləşmənin ümumi sxemi belədir:

1. Müştəri (şagird) ilə etibarlı, emosional kontaktın qurulması. Çox önəmlidir ki, bu tip kontaktın şagirdlərdə metodik vəsaitə və psixoloqun şəxsiyyətinə olan münasibəti səhv salınmasın.
2. Məktəblinin problemlərini birgə fəaliyyət müddətində dəqiqləşdirmək.
3. Müştəri ilə problemlərin qarşılıqlı həlli: konsultant, müştəriyə problemin həllini görməyə imkan yaradan metodlardan istifadə edərək imkan daxilində müştərinin bu metodlardan sərbəst şəkildə istifadəsinə nail olmaq.
4. Yekun işlərin birgə aparılması. Yeniyetmələr üçün əlçatan və aydın metodlardan istifadə arzuolunandır.
5. Yeniyetməyə öz problemini sərbəst həll etməsi üçün imkan yaratmaq məqsədi ilə vaxtında konsultant-psixoloqun aktivliyinin azalması.

Yeniyetmənin aktivləşməsinin əsas mahiyyəti yalnız məktəblini peşə seçimində həvəsləndirmək deyil, eyni zamanda ona müstəqil şəkildə peşə seçimi tipli problemlərin həlli üçün lazım olan texnikaları ilə təchiz etməkdir. Bu zaman ilk mərhələlərdə peşə konsultantı daha çox aktivliyin inisiatoru kimi çıxış edir. Müştəri ilə iş zamanı psixoloq, problemin həll yolunu nümayiş etdirir, daha sonra psixoloq bu texnikanı müştəriyə ötürüb, onun istifadəsinə nəzarət edir. Beləliklə, müştəri yavaş-yavaş tanış olduğu texnikanı öz problemlərinin həlli üçün də istifadə etməyə uyğunlaşdırır. Aktivlik sanki psixoloqdan müştəriyə ötürülür. Nəticədə belə bir sxem alınır: psixoloqun aktivliyi, psixoloq ilə birgə fəaliyyət, məktəblinin aktivləşməsi, məktəblinin şəxsi aktivliyi. Beləliklə, aktivləşmə aşağıdakıları nəzərdə tutur:

1. Passiv yeniyetməni aktivə çevirmək. Gələcək həyat haqqında yeniyetmənin maraq, düşüncə, fikirlərini və gələcək həyata dair gözləntilərini dəqiqləşdirməsi üçün təhrik etmək.
2. Yeniyetmənin aktivliyini təşkil etmək – peşə seçimi ilə bağlı məqsədyönlü olmayan və xaotik hərəkətlər dərk edilir və məqsədli şəkil alır.

Peşə konsultasiyası çərçivəsində aktivləşdirmə metodikası. Bu metodika oyun tipli metodikalara yaxın olsa da, müəyyən özəllikləri mövcuddur:

1. Məktəblilər üçün maraqlı prosedurdur.
2. Metodikada sözü gedən sualların hər biri məktəbli üçün şəxsi əhəmiyyət kəsb edir. Əgər sözü gedən metodikanın sualları uşaqlar üçün böyük maraq kəsb etmirsə, bu suallara marağın artırılması məqsədi ilə ilk öncə başqa metodika keçirmək məsləhət olunur. Məsələn, məktəblilər ilə ünsiyyətin gücləndirilməsi üçün metodik oyun və ya daha sadə problemlərin müzakirəsi.
3. Məktəblilərin bu prosedurda könüllü iştirakı (psixoloq əks halda mənfi reaksiyalar ilə qarşılaşa bilər).
4. Hərəkətlərin iki planlılığı. Bir tərəfdən real hərəkətlərin planı (real emosiyalar, söhbətlər, hərəkətlər), digər tərəfdən uydurulmuş fəaliyyət planı. Məsələn, peşə konsultantı və məktəbli təsəvvürdə müxtəlif vaxt və situasiyalara keçid ala bilərlər. Bu zaman psixoloq və məktəbli arasında real söhbət qurulur. Bu cür söhbətlərin

aparılması (problemli məsələlərin həlli) şagirdin real aktivləşməsi üçün əsas yaradır. Qeyd edək ki, peşə konsultasiyasında əksər hallarda xəyali obyektlər ilə iş görülür. Bu, bir növ xəyali eksperimentin bir formasıdır (müştəri gələcək həyatını planlaşdırsa və həyatının gedişatını tam dəqiqliklə təxmin edə bilməz). Psixoloq nəzərə almalıdır ki, məktəbdə bu cür təxəyyül əsaslı aktivləşməyə hazır olmayan şagirdlər ola bilər. Deməli ki, aktivasiya metodunu seçərkən, auditoriyanın ümumi inkişaf səviyyəsini nəzərə almaq lazımdır. Məsələn, əgər bir sinifdə uşaqların əksəriyyəti xəyali eksperimentə hazır deyillərsə, o zaman psixoloq daha çox real plana əsaslanan oyun metodlarını seçmək məcburiyyətindədir. Daha sonra uşaqlarda maraq yaratdıqda, psixoloq yavaş-yavaş daxili planı aktivləşdirən metodikalara keçid ala bilər.

5. Peşəyönümlü problemlərə psixoloq və məktəbli ilə baxılması:
   - İşin ümumi məqsədləri. Əgər psixoloq və müştərinin məqsədlər haqqında fikirləri fərqli olsa, konsultativ nəticə almaq qeyri-mümkün olar.
   - Qeyd olunmuş problem və məqsədlərin həlli üçün hər kəsə əlçatan olan vasitələrdən istifadə (konsultant elə metod və vasitələr seçməlidir ki, məktəbli onları rahat anlaya bilər və psixoloq ilə eyni qaydada problemin həlli üçün istifadə edə bilər) olunmalıdır.
   - Tədricən problemin həlli yolları xarici plandan daxili plana keçirilir, yəni konsultant yalnız nümunəni göstərmir, o, bir növ nümunənin problemin sərbəst həlli zamanı düzgün istifadəsini öyrədir.
   - İdeal vəziyyətdə psixoloq məktəblini peşəyönümlü problemlərin həlli üçün individual planın qurulmasını istiqamətləndirir.

Beləliklə, aktivləşdirilən metodika yalnız müştəri üçün maraqlı anlar ilə kifayətlənməməlidir, bu tip metodikaların ilk növbədə təyinatı müştərinin sərbəst fəaliyyət zamanı rahat istifadəsini təmin edir. Gəlin bu metodikaların bir neçəsi ilə tanış olaq.

Aktivizasiya metod və formaları:

- İndividual konsultasiya;
- Treyninqlər;
- Peşəyönümlü oyun və tapşırıqlar;
- Xüsusi təşkil olunmuş diskussiyalar;
- Aktiv seminarlar;
- Aktivləşdirici sorğu kitabçası (gələcək ilə bağlı planların düşünülməsinə təhrik edən suallar);
- Sinif (şagird ) ilə müxtəlif keys tipli məsələlərin həlli.

Aktivləşdirmə metodları:

1. "Heyranlıq". Bu metod aşağıdakı sxem üzrə həyata keçirilməlidir: İlk olaraq psixoloq auditoriyanı öz bilik, bacarıq və səmimiyyəti ilə ələ alıb onlarda heyranlıq hissi yaradır (yeni psixoloji fenomenlər təqdim edir). Bundan sonra şagirdlər

heyran olduqları psixoloqun fikir və məsləhətlərini böyük həvəslə qəbul edirlər. Heyranlıq effekti sərbəst aktivləşdirməyə çox cüzi təsir edir, çünki bu metod zamanı sərbəst düşünmə və müştərinin hisləri üçün yer ayrılmayıb.

2. “Çətin məsələ”. Uşaqların həlli üçün tapşırıq verilir. Görkəmi sadə, lakin həlli çətin olan bir məsələ seçilməlidir. Tapşırığı həll edən zaman uşağın psixoloqa kömək üçün müraciət etməsi gözlənilir. Psixoloq isə əvvəlcədən hazırlanmış və çox sadə olan ipucuları vasitəsilə uşağı düzgün həlli istiqamətində yönəldir. Bu sxemin uğurla həyata keçməsi, şagirdlərdə yüksək aktivləşmə effektinə səbəb olur. Burada əsas məqsəd düzgün ipucu sistemini qurmaqdır.
3. “Bitirilməmiş fəaliyyət”. Psixoloq yeniyetmə ilə birgə fəaliyyət zamanı müəyyən problemli məsələni həll etməyə çalışır (karyera planı üzrə) və ən maraqlı anda yeniyetmə çətinliyin həllini tapdığı məqamda konsultasiya süni şəkildə dayandırılır. Artıq peşə seçimi fəaliyyətinə daxil olmuş yeniyetmə, bu fəaliyyəti konsultativ görüşdən ayrı zamanda davam etdirir. Bu metodda yüksək aktivləşmə effekti müşahidə olunur. Əsas odur ki, konsultasiyanın dayandırılması üçün düzgün vaxt seçilsin.
4. Sosial cəhətdən hazırlanmış diskussiya.

İlk öncə psixoloq uşaqları müəyyən problem ilə maraqlandırmalıdır, yəni bu mövzunu müzakirə etmək istəyi yaratmalıdır. Ancaq spontan bir şəkildə başlanılan müzakirələr çox vaxt xaosa çevrilir (xüsusilə yeniyetmələr qrupunda). Bu səbəbdən bu sxemin reallaşması üçün ilk öncə müzakirələr zamanı istifadə olunacaq ümumi qaydaları yerində müəyyən edirik. Bu sxemin həyata keçirilməsi üçün digər vacib bir məsələ daha mübahisəli məqamları və fərqli fikirləri (qrupda təşviş yaradan məqamlar) qeyd olunmalıdır. Bununla yanaşı diskussiya iştirakçılarının xüsusi hazırlığı vacibdir. Bu tip diskussiyalar zamanı psixoloq tam neytral və qərəzsiz mövqe tutmalıdır. Özünün gedən mübahisələrə emosional cəhətdən cəlb olunmasının qarşısını almalıdır. Psixoloqun vəzifəsi, şagirdlərin yalnız birgə düşünmə prosesini düzgün şəkildə təşkil etməkdir. Psixoloq sanki bu prosesin katalizatorudur. Qeyd etmək lazımdır ki, bu cür diskussiyaların məqsədi “həqiqəti” tapmaqdan daha çox, yaşıd uşaqların çətin problem haqqında birgə düşünməsi, öz mövqelərini ifadə etmək və digər mövqelər ilə tanış olmaqdır. Peşə seçiminin aktivləşməsi – fərdin öz peşəkar gələcəyi ilə bağlı laqeyd olmaması, maraqlanması, həmçinin sərbəst və şüurlu şəkildə öz həyat və peşə prespektivlərinə təsir etməyə can atması üçün ümumi psixopedaqoji şərait yaradılması deməkdir. E.A. Klimov tərəfindən peşə seçimini təşkil edən 3 əsas komponent ilə tanış olaq. Onlara peşə seçiminin 3 “balina”-sı da deyilir:

- İstəyirəm (müştərinin istəkləri nəzərdə alınır)
- Bacarıram (müştərinin imkanları nəzərə alınır)
- Lazımdır (əmək bazarının tələbatı nəzərə alınır)

1 və 2-ci komponentlər (“istəyirəm” və “bacarıram”) şərti olaraq 3 səviyyə ilə qiymətləndirilə bilər: yüksək səviyyə, orta səviyyə, aşağı səviyyə. Bu 3 komponentin və onların səviyyələrinin ifadə olunması əsasında 6 növ peşəyönümlüyünü müəyyən etmək

olar. Məsələn, yüksək istəklər, aşağı səviyyədə olan bacarıqlar, yaxud yüksək istək və yüksək bacarıqlar və s. Peşə yönümlü konsultasiya zamanı psixoloq müştərinin istəklərini onun bacarıqlarına nə dərəcədə uyğun olduğunu müəyyən etməyə çalışır. Yəni "istəyirəm" və "bacarıram" komponentləri arasında qarşılıqlı münasibəti aydınlaşdırmağa çalışır. Buna əsasən, ya korreksiya işləri aparır (istək və bacarıqları müəyyənləşdirməyə çalışır), ya da istək və bacarıq arasında olan disbalansın neqativ nəticələrini minimuma endirməyə çalışır. İstək və bacarıqların uyğunlaşdırılması zamanı daha çox aktivləşmə istiqamətində iş nəzərdə tutulur. Burada məktəblilərin cəlb olunması şərtdir. Digər məsələdə isə peşə konsultasiyası daha çox direktiv şəkildə keçir. Bu zaman məktəblini daha uyğun peşə seçimi etməyə razı salır.

***Professional psixodiaqnostikanın metodları:***

1. Bağlı tipli söhbət-müsahibə (öncədən qeyd olunan suallar üzrə).
2. Açıq tipli söhbət-müsahibələr.
3. Peşə motivasiyasının sorğusu. Mütəxəssislər hesab edir ki, bu tip sorğu kütləvi peşə seçənlər ilə həyata keçirilməsi peşəyə uyğunluq testinin keçirilməsindən daha məqsədəuyğundur.
4. Professional bacarıqların sorğusu. Tətbiqinə görə konsultantın xüsusi hazırlığını tələb edir. E.A.Klimov hesab edir ki, bu metod xüsusi əmək şəraiti olan peşələr üçün tətbiq olunmalıdır, çünki əksər peşələr üçün peşə yararlılığı əmək fəaliyyəti zamanı formalaşır.
5. Psixo-fizioloji müayinə.
6. Müştərinin sinif yoldaşları, dostları və müəllimlərindən etik qaydalara uyğun olaraq əlavə məlumatların toplanılması.
7. Peşəkar sınaqlar. Xüsusi qaydada keçirilən təhsil prosesində "F-test" tipli metod Yaponiya professoru Fukuyana (1992-ci il) tərəfindən hazırlanmışdır. Bu metod çox effektiv olsa da, çox böyük vəsait xərcləri tələb edir.
8. Kart oyun texnologiyası. Bu oyunda müxtəlif həyat mərhələləri oynanılır.
9. Həyat xətti metodikası və s.

Fərdi və qrup şəklində peşə maraqların müəyyənləşdirilməsi üçün aşağıdakı testlərdən də istifadə etmək mümkündür

Peşə seçiminin əsas faktorlarının "8 bucağı"

1. "Tərəflər və əkslər – 1"
2. "Yadplanetlilər" peşəyönümlü oyunun keçirilməsi.
3. "Hazır ol" sorğusu
4. "Peşə zənciri"
5. "Avtoportret" və s.

**«Peşə seçməyin əsas amillərinin səkkizbucağı» (E.A. Klimov)**

Metodika şagirdlərin peşə seçiminin əsas amilləri ilə tanış etmək, həmçinin öz müqəddəratının təyinetmə vəziyyətlərini müstəqil olaraq qiymətləndirmə qabiliyyətlərini

formalaşdırmaq üçün hazırlanmışdır. Metodikanı 8-9 və hətta daha böyük siniflər üçün istifadə etmək olar. Metodun ümümi ardıcıllıgı:

1. Əvvəlcə aparıcı sinfə müraciət edir və şagirdlərdən soruşur: “Bir peşə seçərkən nələri nəzərə almaq lazımdır?” Adətən yeniyetmələr müxtəlif amilləri düzgün ayırırlar (istək, qabiliyyətlər, sağlamlıq vəziyyəti və s.) Aparıcı bütün bunları lövhədə qısaca yazır. Ancaq şagirdlər çox tez təkrarlamağa başlayırlar və ya sadəcə susurlar. Beləliklə, şagirdlərin bu problemə qoşulduqları görünür.
2. Sonra aparıcı deyir: “Psixoloqlar peşə seçiminin ən vacib amillərini müəyyənləşdirdilər. Belə səkkiz amil var və onları "səkkizbucaqlı" şəklində təqdim etmək olar.” Sonra aparıcı tez bir "səkkizbucaq" çəkir və bu amillər barədə qısaca izahat verir (Şəkil 1). İşin bu mərhələsində çəkilmiş "səkkizbucaqlıq" əksəriyyət tərəfindən hələ tam başa düşülməmişdir, buna görə dərhal öz müqəddəratını təyinetmə vəziyyətlərini təhlil etmək üçün necə istifadə olunacağını dərhal nümunələrlə göstərməliyik.
3. Aparıcı şagirdlərə birinci tapşırığı-situasiyanı oxuyur (Tapşırıq – situasiya 1): “Doqquzuncu sinif şagirdi Vova B. hüquqşünas olmağa hazırlaşır. Onun babası, təqaüdçü əməkdar hüquqşünas, nəvəsinin niyyətini təqdir edir. Vovoçka özü idmanı sevir. Futbol bölməsinə gedir, şərq – təkbətək döyüş qrupuna getməyə hazırlaşır və radiotexnika ilə maraqlanır, evdə hərdən lehimləməklə məşğul olur. Məktəbdə üç qiymətinə oxuyur, ancaq böyük sinifdə repetitor tutulacağını və əlaçı şagird olacağını deyərək özünə haqq qazandırır və məktəbdən sonra rahatlıqla Moskva Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olacaqdır. “Hüquqşünas” peşəsinin onu niyə cəlb etdiyini soruşanda, bunun "çox pullu və hörmətli bir peşə" olduğunu cavablandırır. Vova bəzən dostlarına onun hüquqşünas-babasının işində fədakarlıqları barədə danışmağı sevir, amma yoldaşlar onu bir növ səssizcə dinləyirlər..."[1]
4. Sinifdəki şagirdlər Vova'nın peşəsini nə qədər düşüncəli seçdiyini qiymətləndirməyə dəvət olunurlar. Bunu etmək üçün fərdi peşə perspektivin necə qurulduğunu anlamaq lazımdır - FPP (gələcək planların qurulmasında bütün digər amillər nəzərdə tutulurmu). Əgər FPP hansısa bir amil nəzərə alınmaqla qurulursa, onda onlar arasında bir xətt çəkilir, əgər amil nəzərə alınmırsa, boş yer qalır. Bəzən bu amilin qeydi (və ya qeyd edilməməsi) ilə bağlı birmənalı olmayan qiymətləndirmə mövcud olur, bu halda FPP və amil kəsik xətti ilə bağlanır (Şəkil 1-dəki nümunəyə bax).
5. Nəhayət, peşə perspektivin uğurla qurulub-qurulmaması ümumiyyətlə qiymətləndirilir. Məsələn, Vova B. ilə yuxarıdakı misalda FPP valideynlərin fikirlərini və iddiaların səviyyəsini nəzərə alaraq qurulmuşdur, bazarın hüquqşünaslara olan ehtiyacları və Vova B.-nın seçilmiş peşə mövzusunda bilikləri bəzi şübhələr doğurur, qaldı ki meyilləri, qabiliyyətləri və yoldaşlar tərəfindən belə bir seçimin təqdir edilməsi həmin vəziyyətdə bu bir növ səslənmədi.

6. Bəzən möhkəmləndirmək üçün (sxemi daha yaxşı başa düşmək üçün) sinfə ikinci daha mürəkkəb tapşırıq-situasiya təklif oluna bilər, məsələn (Tapşırıq-situasiya 2): "Doqquzuncu sinif şagirdi Larisa T. həkim-terapevt olmaq istəyir. Dörd və beş qiymətləri ilə oxuyur. Ən sevdiyi fənlər ədəbiyyat və tarixdir. Evdə tikməyi və xarici ədəbiyyat oxumağı sevir. Larisa zəriflik və incəlik iddiaları ilə sakit və dinc bir qızdır. Sinifdə hörmətlidir, ancaq valideynləri onun həkim olmaq niyyəti ilə maraqlanmırlar. Valideynləri (mühəndislər) qızının texniki universitetə daxil olmağının daha yaxşı olduğuna inanaraq niyyətini təqdir etmirlər. Larisanın özü 11-ci sinifdən sonra dərhal tibb universitetinə girməyə ümid edir və əgər qəbul olmasa, bir il tibb bacısı kimi işləyəcək və yenidən hazırlaşacaq və artıq iş təcrübəsi olaraq və hətta kiçik bir təcrübə..." Məsələn, bu situasiyada aydındır ki, Larisa valideynlərinin və sinif yoldaşlarının fikirlərini nəzərə almır, həqiqi meyillərini nəzərə almır, onun peşə biliyi və nüfuzlu tibb universitetinə qəbul olmaq üçün çətin rəqabətdən keçməyə hazır olması ilə bağlı şübhələr var, baxmayaraq ki, iddiaların səviyyəsi və cəmiyyətin tələbləri baxımından olduqca ağlabatan seçimdir.

**Qeyd edək ki,** bu cür tapşırıqları-vəziyyətləri yeniyetmələrlə işləyən hər hansı bir müəllim və ya psixoloq tərəfindən asanlıqla tərtib edilə bilər. Əsas odur ki, bu vəziyyətlərdə peşə seçməyin əsas amilləri öz əksini tapsın. Bu tapşırıqlar-vəziyyətlər o qədər də çətin olmamalıdır.

Təbii ki, bu tapşırıq-situasiyaları təhlil edərkən aparıcı əvvəlcə sinfə çevrilir və şagirdlərdən yalnız sonda fikirlərini bildirmək şərti ilə hər amil üçün danışmağı xahiş edir.




7. Aparıcı şagirdlərin əksəriyyətinin "səkkizbucaqlı"-nın başa düşdüyünü hiss etdikdə (və bu onların ifadələri ilə hiss olunur), hətta sinfə kiçik bir yoxlama işi təklif etmək olar və bu o halda qiymətlidir ki, həmin məktəbdə peşəyönümü və ya karyeranın planlaşdırılması barədə kurs oxunur. Bunun üçün hər kəs dəftərdən bir vərəq çıxardır, onu imzalayır, tez üç "səkkizbucaqlı" çəkir. Seçim amilləri nöqtə ilə qeyd edilir, sadəcə FPP amilini yazmaq olar, və "səkkizbucaqlı"-lar nömrələnir. Sonra aparıcı iki yeni tapşırıq-situasiyalarını bir-bir oxuyur, şagirdlər isə müstəqil olaraq

öz vərəqlərində onları qiymətləndirirlər, FPP-ni peşə seçimində nəzərə alınan amillərlə bağlandırırlar. Üçüncü "səkkizbucaqlı" öz müqəddəratını təyinetmə vəziyyətlərini qiymətləndirmək üçün istifadə olunur, yeniyetmə onu özü necə təsvir edir. Təbii ki, bu yoxlama işi yalnız ilk iki tapşırığa əsaslanaraq qiymətləndirilir.

Aparıcı psixoloq bu şagird haqqında məlumatı toplamaq və aydınlaşdırmaq üçün üçüncü "səkkizbucaqlı" situasiyasına əsaslanaraq öz təyini-müqəddəratın özünüqiymətləndirməsindən istifadə edə bilər (hansı ki, psixoloq bir siniflə daim işləyərkən, xüsusilə vacibdir, bu həqiqətdir). Məsələn, əgər ilk iki tapşırıq üzrə situasiyalar düzgün qiymətləndirilibsə, psixoloq artıq şagirdin özünüqiymətləndirməsinə belə daha yüksək dərəcədə etibar edə bilər, lakin bu tapşırıqlar üzrə situasiyalar düzgün təhlil olunmayıbsa, çox güman ki, şagird bu sxemi ("səkkizbucaqlı") zəif mənimsəyib və özünüqiymətləndirməsidə doğru deyil.

Müəyyən bir şagirdin bu özünüqiymətləndirməsi peşə üzrə fərdi məsləhətləşmələrdə istifadə edilə bilər, məsələn, bir psixoloq şagirddən öz müqəddəratını təyinetmə vəziyyəti ilə əlaqəli fikirlərini şərh etməsini istəyə bilər və bu söhbət qarşılıqlı faydalı və dəqiq ola bilər.

Təcrübə öz müqəddəratını təyinetmə vəziyyətlərinin təhlili üçün sxemdən istifadə etmək üçün yuxarıda göstərilən metodun optimal olduğunu göstərdi. Məsələn, əgər situasiyaları daha sərt və "səriştəli" şəkildə təhlil etsək, yəni amillərin qarşılıqlı asılılığını və bu amillərin bütün mümkün birləşmələrini nəzərə alsaq sxem özü çox çətin olur və yalnız yeniyetmələr deyil, bir çox böyüklər belə dərhal çaşacaqdır (bu sxemi istifadə etmək istəyəndə əvvəllər belə bir mənzərəni müşahidə etmişdik "daha dəqiq olan metodoloji nəzər nöqtəsindən baxış"- bunu sınayanlar bir neçə dəqiqədən sonra etdiklərinin mənasızlığını dərk edərək özlərinə güldürdülər). Yeri gəlmişkən, E. Klimov özü də sadə metodlara, xüsusən də praktik məsləhət işlərində üstünlük verilməsi barədə dəfələrlə danışdı və yazdı, məsələn: "Peşəkar fəaliyyətin xarici vasitəsi kimi metodikanın nə qədər sadə olması, praktik psixoloqdan daha çox peşəkarlıq tələb edir". Qeyd edək ki, bu səkkizbucaqlı bir yeniyetmə ilə fərdi işlərdə istifadə edilə bilər. Öz müqəddəratını təyinetmə vəziyyətlərinin təhlil sxemi, kliyenti ilə tanışlıq mərhələsində, problemini aydınlaşdırmaq və gələcək iş yollarını birgə göstərmək lazım olduqda çox faydalı ola bilər. "Səkkizbucaqlı" ilə işləməyin psixoloq peşə üzrə məsləhətçi ilə kliyent arasında əsl qarşılıqlı əlaqəni nəzərdə tutduğunu da qeyd edirik, real dialoq təmin edir.

**"Tərəflər və əkslər – 1"**

Metodikanın məqsədləri:

1. Müştəri üçün daha üstün tutulan peşə qruplarını müəyyən etmək (bu daha çox xarici məqsəddir).
2. Peşə seçimi ilə əlaqəli dəyərlər və mənəviyyatla bağlı düşüncələr üçün özünü təyin edə bilən bir müştərini aktivləşdirmək (daxili, metodikanın gizlində qalmış məqsədidir).

Metodikanın istifadə qaydaları:

1. Ümumi təlimat: "Metodika bizə hansı peşə qruplarının sizin üçün ən cəlbedici olduğunu əvvəlcədən təqribən müəyyənləşdirməyə imkan verir."
2. Hamı üfüqi qoyulmuş adi bir dəftər kağızına, metodikanın birinci hissəsi üçün cavab forması çəkirlər (təlimatın bu hissəsində əlavə 1-ə baxın).
3. Psixoloq sualları oxuyur (Əlavə 3 - "Tərəflər və əkslər - 1" üçün suallara bax) və hər bir müştəri bu hərəkətləri işdə yerinə yetirmək istəyini blankın müvafiq hücrələrinə ballar qoyaraq göstərir. 0-dan 5 bala qədər bir miqyas istifadə olunur (daha çox bal, bu hərəkətin daha çox etmək istəyinin göstəricisidir).

**Yadplanetlilər**

Oyunun məqsədi yeniyetməyə əməyi bir dəyər kimi başa düşməyə və əməyin bütün cəmiyyətin və fərdi insanın həyatında olan rolunu anlamağa kömək etməkdir. Oyun dərs çərçivəsində keçirilir və 10-11-ci sinif şagirdləri üçün nəzərdə tutulub.

***Oyunun ümumi sxemi belədir.***

İstəyə əsasən sinifdən "uzaq planetdə qonaq olacaq" 2-3 şagird seçilir. Bu şagirdlər gözlənilməz şəkildə bu şəhərdə və bu məktəbdə peyda olublar. Texniki çətinliklərə görə Yer kürəsində qalma vaxtı 15 qəqiqə ilə məhdudlaşdırıldığı təxmin edilir. Təcili çağırılan "mətbuat konfransı"-nda bu qısa müddət üçün naməlum sivilizasiya ilə mümkün qədər yaxşı tanış olmaq, canlı təmasla bir-birinizi anlamağa çalışmaq lazımdır.

Qonaqlara öz planetləri, mədəniyyətlərinin və istehsalatlarının inkişaf səviyyəsi, həmçinin sakinlərinin əsas fəaliyyətləri haqqında vacib məlumatlar vermək üçün qısa söz veriləcəkdir. Bundan sonra jurnalistlər (sinfin qalan hissəsi) ən vacib sualları verməyə çalışacaqlar.

3-4 dəqiqə ərzində yadplanetlilər dəhlizdə hazırlaşırlar (sivilizasiyaları barədə nə danışacaqlarını, ya da bəlkə lövhədə təsvir oluna biləcək görünüşləri barədə düşünəcəklər). Aparıcı digər iştirakçılara (sinifdəki jurnalistlərə) özlərini konfransda necə aparmaq lazım olduğunu başa salır. Xüsusilə, hər bir jurnalist hansı informasiya agentliyini təmsil etdiyini düşünməlidir və bir sual verməzdən əvvəl mütləq bunu deməyi unutmamalıdır (bu şərt oyun iştirakçılarını nizamlayır və oyunu daha "sanballı" edir, yəni əsl mətbuat konfransı kimi). Təbii ki, suallar qısa və aydın olmalıdır. Suallar həyatın ən müxtəlif tərəflərinə aid ola bilər, lakin ədəbli və nəzakətli şəkildə verilməlidir. Daha sonra sinfə yadplanetlilər dəvət olunur və dərhal oyun başlayır: ilk olaraq qonaqlar qısa formada (3-5 dəqiqə ərzində) öz mesajlarını deyirlər, sonra isə jurnalistlərin suallarına cavab verirlər.

Oyun əsnasında əmələ gələn qarşıdurmanın şəxsiyyətlərarası konflikdə keçmə təhlükəsi yarana bilər. Məsələn, jurnalistlər xarici bir sivilizasiyanın həyat tərzini bəyənməsələr. Bu "istehlakçı cəmiyyət" olduğu halda ("istehlakçı cənnəti", "zövqlər səltənəti" və s.), qonaqlara tez-tez "degeneratlar", "axmaqlar", "donuzlar" kimi zəhərli atmacalar səsləndirilə bilər... Oyunun bu cür inkişafı zamanı aparıcı sinfin "şüurluluğuna" sevinməməlidir və sinfi həvəsləndirməməlidir, əks halda əsl (oyundan kənar) inciklikər qaçılmazdır. Psixoloq müəyyən "mətbuat nümayəndələrinin" yetəri dərəcədə diplomatik

olmamasına görə yadplanetlilərdən üzr istəyə bilər və oyun iştirakçılarına daha hörmətlə davranmağı təklif edə bilər.

15 qədiqə sonra (oyunun Yerdə keçiriləcək vaxtla bağlı olan məhdudiyyətin şərtinə əsasən) qonaqlar "yox olurlar", yəni sinifdə öz yerlərinə əyləşirlər. Aparıcı hər kəsə təcili olaraq agentliklərinə görüşün ilk təəssüratları barədə mesaj yazmağı təklif edir. 5-7 dəqiqə ərzində hər jurnalist və hər yadplanetli ayrıca kağız parçasında sıradakıları yazmalıdır: 1) onların fikrincə, onlar üçün yeni bir sivilizasiyanın ümumi inkişaf səviyyəsi necədir (yadplanetlilər maraqları və suallarını necə verdiklərinə əsaslanaraq Yer sakinləri haqda öz təəssüratlarını yazırlar); 2) yeni bir sivilizasiya ilə əlaqədə olmağa, onunla əməkdaşlığı inkişaf etdirməyə dəyər mi (bəlkə nəyisə öyrənmək üçün bəzi istiqamətlərdə bu cür əməkdaşlığı inkişaf etdirmək, bəzi istiqamətlərdə isə əməkdaşlıq etməmək).

Uşaqlara xəbərdarlıq etmək vacibdir ki, mesajlar qısa olmalıdır - səhifənin üçdə biri qədər. Aktivləşdirilmiş tələbələr bəzən qısa müddətdə 1,5 - 2 səhifə yazmağa hazırdırlar, bu isə gələcəkdə oyunun ümumi dinamikasına mənfi təsir göstərə bilər (nəticələr ümumiləşdirildikdə). Vərəqlərin özlərini öz S.A.A.-nı deyil, agentliyin adını (yadplanetlilər üçün isə öz planetinin adını) yazaraq imzalamaq olar.

Mesaj olan vərəqlər dərhal yığılır və sinfə oxunulur[6]. Bu iş üçün ən passiv şagirdlərdən ikisini təlimatlandırmaq daha yaxşıdır. Oyun iştirakçılarının müxtəlif fikirləri ilə bu cür tanışlıq oyunun əsas müzakirəsinə hazırlıqdır.

Müzakirə zamanı cəmiyyətin əsas inkişaf meyarını müəyyən etmək mütləqdir. Aparıcı şagirdlərin bütün təkliflərini lövhədə yazdıqdan sonra bu təkliflərin hər biri sıra ilə müzakirə olunur. Bəlkə ümumiləşdirərək 2-3 ən vacib meyarı əldə etmək mümkün olacaq, lakin belə bir mürəkkəb məsələdə buna nadir hallarda (böyüklər ilə oynayarkən belə) nail olunur. Sonda aparıcı digər meyarlarla bərabər öz meyarlarını təklif edə bilər. Məsələn, bu cəmiyyət tərəfindən təkcə onun "ən yaxşı" hissəsi olan elita üçün deyil, hər kəs üçün təmin edilən özünüreallaşdırma imkanı ola bilər. Üstəlik, hər bir şəxs üçün özünüreallaşdırma yolu (üsulu) unikaldır və buna görə də qiymətsizdir. Əlbəttə ki, bu, digər insanların özünüreallaşdırma imkanlarının pozulmasını nəzərdə tutmur. Bu cür özünüreallaşdırmanın ideal yolu mövcud peşələrin ümumilikdə qəbul edilmiş (rəsmi və ya "normal") çərçivəsinə sığmayan sərbəst, yaradıcı, ictimai faydalı işdir.

Bir cəmiyyət öz üzvlərinin müəyyən bir hissəsinin özünüreallaşdırma imkanlarını məhdudlaşdırırsa, deməli, öz inkişaf perspektivlərini də məhdudlaşdırır. Cəmiyyət müəyyən insanlardan ibarət olduğundan, bu insanlar passivliyini pis şərtlər, pis hökumət, həmkarları və qohumlarının anlaşılmazlığı və s. ilə əsaslandırmamalı, üzv olduqları cəmiyyətin özünü inkişaf etdirərək özlərini ifadə etmək üçün hərəkət etməlidirlər.

**"Peşə zənciri"**

Çalışma müxtəlif növ işlərdə ümumiliyi vurğulamaq qabiliyyətini inkişaf etdirmək üçün istifadə olunur. Bu bacarıq, insan, əməyin müəyyən xüsusiyyətlərinə diqqət yetirərək, öz seçimini əngəllədiyi hallarda kömək edə bilər. Belə hallar insanın bir-iki bu cür

[6] Böyük bir auditoriya (50 və ya daha çox iştirakçı) ilə bir oyun keçirərkən yalnız təsadüfi seçilmiş bəzi fikirlər oxunur (və ya vasitəçilər tərəfindən tez seçilən ən maraqlı mesajlar).

xüsusiyyətləri olan peşələrdə “ilişib” qaldığı hallardır, ama bu xüsusiyyətlər digər peşələrdə də rast gəlinə bilər.

Çalışmanı dairə şəklində keçirmək daha yaxşıdır. İştirakçı sayı 6-8 nəfərdən 15-20 nəfərə kimi ola bilər. Vaxt 7-10 dəqiqədən 15 dəqiqəyə kimi təşkil edir. Əsas mərhələlər sıradakılardır:

1. Təlimat: “İndi biz dairədə "peşələr zənciri" quracağıq. Mən ilk peşə adını deyəcəm, məsələn, metallurq, növbəti iştirakçı metallurq peşəsinə yaxın bir peşə adı çəkəcəkdir, məsələn, aşpaz. Digər iştirakçı aşpaz peşəsinə yaxın bir peşə adı çəkir və s.. Hər kəsin bu peşələrin oxşar cəhətlərinin nə olduğunu izah etməsi vacibdir, məsələn həm metallurq, həm də aşpaz atəşlə, yüksək temperaturla, soba ilə işləyir. Fərqli peşələr arasındakı bənzərliyi müəyyən edərək, məsələn, iş şəraitində, iş vasitələrindəki oxşarlığı və s., peşənin təhlil sxemini xatırlaya bilərik. (6-cı bölməyə bax. Təhlili sxemi təqdim olunan peşəni tapın)”.
2. Oyun ərzində aparıcı bəzən aydınlaşdırıcı suallar verir, məsələn: "Bizim peşə ilə adı çəkilən peşə arasında oxşarlıq nədir?" Peşənin uğurla adlandırılıb-adlandırılmaması ilə bağlı son qərar qrup tərəfindən verilir
3. Oyunu müzakirə edərkən, ən müxtəlif peşələr arasında bəzən maraqlı oxşar ortaq xüsusiyyətlər tapıla biləcəyini iştirakçıların diqqətinə çatdırmaq vacibdir. Məsələn, əgər zəncirin başlanğıcında metal emalı ilə əlaqəli peşələr adlanırsa (misalımızda olduğu kimi), ortada - motorlu nəqliyyat vasitələri ilə, sonunda isə baletlə[7]. Müxtəlif peşələr arasındakı bu cür gözlənilməz bağlantılar, yalnız bir peşə seçimi ilə məhdudlaşmalı olmamağımızı göstərir. Çox vaxt sizin bir peşədə (yalnız birində!) axtardığınız şeylər, digər daha əlçatan peşələrdə ola bilər...

Təcrübə göstərir ki, ümumiyyətlə, bu oyun iki dəfədən çox oynanmamalıdır, çünki oyunçular bundan bezə bilər.

Bəzən peşələr arasındakı oxşarlıq demək olar ki, yumoristik olur, məsələn, trolleybus sürücüsü və universitetdəki professor arasında oxşar nə ola bilər? - Belə çıxır ki, hər ikisi auditoriya ilə danışmaq imkanına sahibdir və hətta trolleybus sürücüsünün daha çox auditoriyası var (yalnız pik saatlarda nə qədər insan trolleybus salonundan keçir? ...). Məktəblilər peşələr arasındakı bu cür və ya daha çox əyləncəli oxşarlıqlara işarə edirsə, heç bir halda belə yaradıcılıqda günahlandırılmamalıdırlar - bu oyunun yaxşı getməsinin göstəricilərindən biridir.

**“Avtoportret”.**

Oyunun məqsədi oyunçuların insanların xarici xüsusiyyətlərini və obrazlarını müxtəlif peşələrlə əlaqələndirmək qabiliyyətini oyun şəklində inkişaf etdirməkdir.

Çalışma dairə şəklində keçirilir (iştirakçı sayı 7-10 nəfərdən 15 nəfərə kimidir). Vaxt – 20-40 dəqiqə arasında.

[7] Deyilənləri təsdiq etmək üçün bu cür zəncirin nümunəsini gətiririk: metallurq – qəssab – çilingər (o da kəsir, amma metalı) – avtoçilingər – taksi sürücüsü – estrada satiriki (o da diqqət yayındırır) – dram teatr artisti – balet artisti və s.

Metodikanın keçirilmə qaydası:

1. Bütün iştirakçılar hər iki tərəfi boş bir kağız vərəqi çıxarırlar.
2. Tapşırıq: "Hər kəs kağızda özünü çəkməlidir (özünün portretini). Rəsmdə bütün səhifədə, ortada, yalnız üz çəkilməlidir. Rəsmi tez – "bir nəfəsə" çəkmək məsləhətdir. Vərəqi imzalamağa ehtiyac yoxdur". İştirakçılardan biri rəsm çəkməyi bilmədiyini bəyan edərsə, hər hansı bir insanın, xüsusən də uşaq və ya yeniyetmənin rəsminin dahiyanə olduğunu söyləyə bilərik (böyük rəssamların dediyi kimi). Kimsə özünü çəkməkdən qəti şəkildə imtina edərsə, deməli, onu məcbur etmək lazım deyil, amma onların sayının çox olması (iki və ya üç nəfərdən çox) ortaya çıxarsa, oyunu keçirməmək daha məsləhətdir.
3. Aparıcı tez-tez portret vərəqələrini toplayaraq nümayişkaranə şəkildə qarışdırır, sanki onların üzərində kimin çəkildiyinə əhəmiyyət vermədiyini göstərir.
4. Aparıcı dərhal oyunçulara vərəqələri təsadüfi qaydada paylayır.
5. Yeni tapşırıq: "Rəsmə diqqətlə baxın, bu şəxsin nəcə insan olduğunu, nəyə qadir olduğunu başa düşməyə çalışın, amma burada kimin təsvir olunduğunu anlamağa çalışmayın. Avtoportretdə, kağızın arxa (təmiz) tərəfində, sizin fikrinizcə, təsvir olunan şəxsə daha çox uyğun gələn bir peşə yazın. Bundan sonra vərəqi sağdakı qonşuya verin, soldakı qonşudan isə yeni bir vərəq götürün və eyni şeyi edin. Öz portretiniz olan vərəqi aldıqda, ona uyğun bir peşə yazın. Beləliklə, bütün vərəqələr bir dairədən keçməlidir. Eyni vərəqdəki peşələr təkrarlana bilər.
6. Sonra, aparıcı tez bir zamanda vərəqləri toplayır, qarışdırır və nəticələri ümumiləşdirməyə başlayır. İlk vərəq götürülür. Oyun iştirakçılarına onun üzərindəki şəkil göstərilir və vərəqin arxa tərəfində yazılan, bu avtoportretə uyğun peşələr oxunulur. Təcrübə göstərir ki, çalışma kifayət qədər əyləncəlidir və iştirakçılar aparıcını kifayət qədər maraqla dinləyirlər.

Heç bir halda, vərəqin kimin olduğunu soruşmaq və hətta müəllifə vermək lazım deyil, çünki uşaqlar görüntülərə gülə bilər. Belə hallarda, hər kəs özünü inamlı hiss edə bilmir. Oyundan sonra vərəqlər sadəcə masaya qoyulur və aparıcı oyunçulara öz portretlərini tapmağı və onları xatirə saxlamağı təklif edir.

Növbəti etik məqam ondan ibarətdir ki, bəzən oyunçular (xüsusəndə yeniyetmələr) əylənmək üçün vərəqin arxa tərəfində ədəbsiz əmək növlərini (məsələn, fahişə, kiçik süpürgəçinin böyük müavini və s.) qeyd edə bilər. Təqdimatçı peşələri oxuyarkən daha diqqətli olmalıdır və ədəbsiz qeydləri heç bir şey olmamış kimi sadəcə nəzərə almamalıdır. Əylənmək üçün "axmaq bir qeyd" edən də özünü "axmaq" hiss edəcək, çünki onun "yaradıcı tapıntısı" nəzərə belə alınmayacaq .

Sonda daha bir məsləhət. Yaxşı olar ki, aparıcı özüdə özünün portretini çəksin və məktəblilərlə birlikdə oynasın. Bu ona nəticələri yekunlaşdırarkən öz obrazından başlamağa imkan verəcəkdir, çünki şəkil və ona uyğun peşələrə, ilk növbədə psixoloqun özündə gülməyə başlayanda daha yaxşıdır. Bu gülüş çox mehriban və səmimi olsa belə. Bu, psixoloqa məktəblilərlə etibarlı münasibətlər qurmaqda əlavə bir vasitə verəcəkdir,

məktəbli uşaqları isə çox əyləncəli olsa belə nəticələrin elanında birinci olmaq riskindən xilas edəcəkdir.

Əlbəttə ki, bu oyun isinmə və əyləncə xarakteri daşıyır, amma məlumdur ki, bir çox zarafatın çox vaxt dərin mənası olur. Məsələn, bu oyunda hər bir rəsm, iştirakçıların özləri haqda olan təsəvvürünün bir növ proyeksiyasıdır və rəsmlərin peşələrlə olan yumoristik əlaqəsi bir peşə obrazını dərk etmək üçün başqa bir addımdır. Bir çox iştirakçının qeyd etdiyi kimi, oyun onları müəyyən şeylər düşünməyə vadar etdi.

## Tələbələr üçün fəaliyyətlər

**Fəaliyyət 1.** 8 yaşlı Aydanın anası uşağın son zamanlar dərsdə fikrinin tez yayılması və gecələr yerini islatmasından şikayət edir. Ailədə iki uşaqdırlar. Ata hərbiçi, ana isə müəllimə işləyir. Dərsdən sonra Aydan nənəsilə vaxt keçirir, valideynləri işdən sonra onu və kiçik qardaşını evə aparır. Ananın dediklərinə görə evdə heç bir problem yaşanmayıb. Bu vəziyyət üçün ilkin fərziyyələr qurun, təxmini müayinə proqramı tərtib edin. Metodik seçimlərinizi əsaslandırın.

**Fəaliyyət 2.** Aynanın 10 yaşı var. O, gimnaziyanın 5-ci sinif şagirdidir. Psixoloqa müraciət Aynanın sinif rəhbəri tərəfindən olunub. Sorğu ondan ibarətdir ki, uşağın qiymətlərə görə həddən artıq məyus olmasının qarşısını necə almaq olar? Sinif rəhbərinin sözünə görə Ayna sinfin sevimlisidir. O, əlaçı, ağıllı, yaxşı və cəld qızdır. Ayna özü istəməsə də bu il onu "sinif nümayəndəsi" seçiblər. Onun liderlik qabiliyyəti olmasa da, o, bu vəzifənin öhdəsindən öz çalışqanlığı və nizam-intizamı ilə gələ bilir. Sinif rəhbəri bildirir ki, gələn il üçün fərqli bir "sinif nümayəndəsi" seçəcəkdir.

Ayna gözel və çox mehriban bir ailədə böyüyür.Onun valideynləri mühəndisdirlər.Uşağa çoxlu diqqət ayırırlar.Şənbə və bazar günləri onu muzey və sərgilərə aparırlar. İlk baxışdan psixoloqa müraciət etmək səbəbi olmasada,müəllimə vurğuluyur ki, Ayna 4 aldığı zaman həddən artıq çox məyus olur,hətta gözləri dolur və kənardan dünyanın ən kədərli uşağı kimi görsənir.

Müəllimlər çalışırlar ki, bu kədəri yumşaltsınlar. Hər dəfə izah edirlər ki, şagird müxtəlif qiymətlər ala bilər. Lakin bu Aynanı yenə də sakitləşdirmir.

Psixoloq tərəfindən məktəbə dəvət olunan Aynanın anası bu dəvətə çox təəccüblənmişdir. Onun fikrincə uşağının heç bir problemi yoxdur və 4 qiymətinə görə məyus olmağa dəyər. Anası qeyd edir ki, evdə qiymətlərinə görə Aynanı danlamırıq, lakin Aynanın əlaçı olmasının bizə zövq verdiyini özünə bildiririk.

Ananı narahat edən yeganə amil Aynanın təkliyə meyilli olmasıdır. O bildirir ki, Aynanın atası ilə onlar məktəb vaxtı olduqca aktiv və ünsiyyətcil insan olublar. Dərsdən sonra bir neçə dərnəklərə gedirmişlər. Lakin Ayna heç bir əlavə dərnəyə yazılmaq istəməyib, valideynleri bu istəklərinə hörmətlə yanaşıblar. Ayna daha çox kitab oxumaq və arada oyuncaqları ilə oynamaqla məşğuldur.

Aydanın keysi üçün ilkin fərziyyələr tərtib edin və buna uyğun olaraq təxmini müayinə proqramını yazın.

**Fəaliyyət 3.** Lamiyə liseyin 6-cı sinif şagirdidir.Psixoloqa Lamiyənin sinif rəhbəri müraciət edib. Müraciətin səbəbi son bir ayda Lamiyənin 2 dəfə sinif yoldaşları ilə münaqişə etməsi olub. Lamiyə 3-cü sinfi adi məktəbdə oxusa da, daha sonra imtahan verərək, lisey məktəbinə keçmişdir. Köhnə məktəbində o, sinfin liderlərindən biri olmuşdur. İbtidai

sinifdə uşağın həm davranış, həm də dərslərində heç bir problem olmamışdır. Dərsdən əlavə, Lamiyə ciddi şəkildə musiqi ilə məşğul olub. Hər zaman dərsə hazırlıqlı olmuşdur. Müəllim və valideynləri Lamiyənin münaqişə etməsinə çox təəccüblənmişdilər. İlk davası sinfin muzeyə getdiyi günə təsadüf etmişdir. Uşaqlar məktəbin həyətində qar topu oynayırmışlar. Lamiyə digər iki qızın ona qarşı birləşdiyini düşünərək qızlardan birinin üzünə yumruqla zərbə vurmuşdur. Bunu görən müəllim dərhal qızları ayırıb. Daha sonra muzeydən qayıdarkən Lamiyə digər qızı itələyib. Dərhal Lamiyə ilə tərbiyəvi söhbətlər aparılıb və hər kəs əmin oldu ki, bir daha belə bir hadisə baş verməyəcək. Lakin qısa müddətdən sonra Lamiyə parta yoldaşı ilə konfilikt yaşamışdır. Dərs vaxtı Lamiyə ondan xətkeş istəmiş, lakin o verməmişdir. Tənəffüs vaxtı Lamiyə onu divara sıxıb və bir neçə dəfə köynəyindən dartmış, nəticədə uşağın başı bir neçə dəfə divara dəymişdir. Lamiyənin anasını məktəbə təcili çağırılmışdır. Direktorun otağında Lamiyə və anası olduqca sakit qalmış, heç kəsdən üzr istəməmişdirlər.

Lamiyənin anası psixoloqla söhbət edərkən aşağıdakı məlumatları bildirmişdir:

Lamiyənin özündən 1 yaş balaca bacısı var. Hər iki uşaq musiqi ilə məşğul olur. Ana bildirib ki, qəsdən qızlarını belə yükləyirmiş ki, onlar asudə vaxtlarını boş keçirtməsinlər. Ananın fikrincə, Lamiyə çox emosional, həssas və açıq sözlüdür. Hətta çox qürurludur. O, daim məktəbdə şagirdlərlə, evdə isə bacısı ilə müsabiqədə olur.Çox nadir hallarda ağlayır, sinif yoldaşlarından şikayət etmir.

Lamiyə keysi üçün ilkin fərziyyələr və təxmini müayinə proqramı tərtib edin və metodik seçimini əsaslandırın.

**Fəaliyyət 4.** Hər bir tələbə 1 nəfər 8-ci sinif şagirdi ilə peşəyönümlü diaqnostika aparır. Müayinə proqramı tələbə tərəfindən müstəqil şəkildə tərtib olunur. Əldə olunan nəticələr təqdimat şəklində hazırlanılır və daha sonra dərs zamanı müzakirə edilir.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Anamnezin nəticələrinə uyğun psixodiaqnostik proses üçün müvafiq metodu müəyyən edir.”**

1. Veksler testinin diaqnostik istiqamətini qeyd edin.
2. Veksler testi neçə subtestdən ibarətdir?
3. Məktəbdə istifadəsi mümkün olan Veksler testinin növünü seçin.
4. Veksler testinin neçə subtestində sekundomerin istifadəsi zəruridir?
5. Raven testinin diaqnostik istiqamətini qeyd edin.
6. Raven testinin mənfi tərəflərindən birini (bir neçəsini) seçin:

A) Şəkillər çoxdur.
B) Yalnız qeyri-verbal tapşırıqlardan ibarətdir.
C) Vaxt məhdudiyyəti yoxdur.
D) Yalnız individual şəkildə istifadə oluna bilər.

7. Bender testinin diaqnostik istiqaməti nədir?
8. Bender testi hansı yaş üçün nəzərdə tutulub?
9. ”İki ev” metodikasının diaqnostik istiqaməti nədir?
10. Dembo-Rubinşteyn metodunun diaqnostik istiqaməti nədir?
11. ”İki gül” metodikasının diaqnostik istiqaməti nədir?
12. Hansı cütlük Dembo-Rubinşteyn şkalasına daxil deyil:

A) Yaxşı şagird-pis şagird;
B) Ağıllı-ağılsız;
C) Gözəl-eybəcər;
D) Sağlam-xəstə.

13. Test və proyektiv metodikaların müsbət və mənfi tərəflərini sadalayın.
14. Məktəbə psixoloji hazırlıq müayinəsi özündə hansı parametrləri cəmləyir?
15. Hansı metodlar vasitəsilə kiçik məktəblilərin diqqətini qiymətləndirmək mümkündür?
16. Hansı metodik vasitələr ilə məktəbəqədər yaş dövründə olan uşağın intellektual səviyyəsini yoxlamaq mümkündür?

# TƏLİM NƏTİCƏSİ 2

# PSİXODİAQNOSTİKANI HƏYATA KEÇİRMƏK

## 2.1. Uşaqla müvafiq qaydada ünsiyyət qurur

Psixoloji müayinəyə başlanan zaman psixoloqun qarşısında duran ilk məsələ uşaq ilə yaxşı ünsiyyətin yaradılmasıdır. Bu mərhələ çox vacibdir və uşaq ilə lazımi qaydada ünsiyyət yaradılmadan müayinə prosesinə keçid edilməsi yolverilməzdir. Müayinə prosesinə keçid edilməsi üçün uşaqda prosedura maraq (motivasiya) və diqqət yaradılmalıdır, əks halda müayinənin nəticələri etibarsız hesab olunur (Şəkil 2.1).



**Şəkil 2.1. Uşaq ilə effektiv ünsiyyət**

Əksər uşaqlar üçün psixodiaqnostik müayinə tanış olmayan bir situasiyadır. İlk dəqiqələrdə uşaqların həyəcan və narahatlıq keçirmələri tez-tez rast gəlinən problemlərdəndir. Uşaq ilə müsbət emosional kontakt yaradılaraq uşağın həyəcanlılığının aradan götürülməsinə nail oluna bilər.

Müayinə otağına yenicə daxil olan uşaqlar əksər vaxtı otağı maraq ilə gözdən keçirirlər. Çox vaxt psixoloqun otağında olan rəngli metodiki vəsait və oyuncaqlar məktəbəqədər və kiçik məktəbli yaş dövründə olan uşaqların diqqətini cəlb edir.

Əgər otağa daxil olan uşaq valideynin arxasında gizlənirsə, o zaman onunla dərhal ünsiyyətə keçməyə tələsmək lazım deyil (Şəkil 2.2). Psixoloq valideyn ilə söhbət etməyə davam etməlidir. Uşağın diqqətini cəlb etmək üçün söhbət zamanı ələ oyuncaq almaq olar. Uşağı izləmək, ona gülümsəmək və bir müddət sonra (normalda məktəbəqədər yaş dövründə 2-3 dəq.) uşağın ətrafa adaptasiya olduğunu gördükdə ona həmin oyuncağı təklif etmək olar. Uşaq oyuncağa yaxınlaşaraq masa arxasında əyləşirsə, bu, kontaktın yaradılmasına ilk işarədir. Əgər uşaq razılaşmır və ünsiyyətə girməkdən imtina edirsə, o zaman uşaq ilə dialoqu ana vasitəsilə qurmaq lazımdır. Uşağa verilməsi nəzərdə tutulan suallar sanki anaya verilmiş kimi təqdim olunmalıdır. Uşağa otağı gəzmə və şkafda olan oyuncaqlarla tanış olma təklif edilməlidir. Psixoloq uşaq və onun valideyni ilə birgə otağı gəzməli, ona maraqlı gələ biləcək əşyaları göstərməli və onları hər şeydən əvvəl anaya, sonra isə uşağa təqdim etməlidir. Bir necə cəhddən sonra əksər uşaqlar anadan əvvəl oyuncağa baxmağa (toxunmağa) çalışırlar. Bunu müsbət bir hal kimi qarşılamaq vacibdir.



**Şəkil 2.2. Ünsiyyətə hazır olmayan uşaq**

Uşaq ilə kontakt qurulan zaman tələsmək lazım deyil. Ona icazəsiz toxunmaq olmaz. Ona yalnız öz adı ilə müraciət etmək, təzyiq göstərməmək və mülayim ton ilə danışmaq lazımdır. Psixoloq mütləq özünü uşağa təqdim etməli və müayinə proseduru haqqında ümumi məlumat verməlidir (xüsusilə, yeniyetmələr ilə konsultasiya zamanı konfidensiallıq prinsipi haqqında məlumat vermək lazımdır).

Müayinə proseduruna keçid almaq üçün uşaqda hazırlığın əlamətləri:

- Uşaqda nevrozluq əlamətləri yoxa çıxır;
- Uşaq lazımi səmtə yönəlir və ünsiyyətə rahat girir;
- Uşaq sakit və maraqla psixoloqu izləyir.

Müayinə zamanı psixoloq uşağı müşahidə edir. Bu cür müşahidə məqsədyönlü olduğu üçün yalnız müəyyən faktların qeydiyyatı aparılır. Psixoloq bilməlidir ki, nəyə xüsusi fikir vermək lazımdır.

**Müayinə zamanı aparılan müşahidənin sxemi:**

1. Uşağın xarici görünüşü:
    - Qeyri-adi və ya arzuolunmayan xüsusiyyətlər (çirkli paltar, uzun dırnaqlar və ya eksentrik geyim);
    - Münasib görünüş;
    - Fiziki görünüşün özəllikləri (aksilirasiya – boyun və çəkinin nisbəti, əgər artıq çəki müşahidə olunursa, onda psixoloq həkimə bu səbəblə bağlı müraciət olunub-olunmaması və uşağın ətrafındakıların buna münasibəti dəqiqləşdirilməlidir).
2. Mimika:
    - Hipomimiya (üz mimikasının donuqluğu (daha çox autist və əqli geriliyi olan uşaqlarda müşahidə olunur);
    - Hipermimiya (üzün hədsiz hərəkətliliyi (emosional sferada ola bilən pozuntuya işarə edilir).
3. Ünsiyyət özəllikləri (məktəbəqədər yaş dövründə uşaq tanımadığı böyük ilə rahat ünsiyyətə girməyi bacarmalıdır):
    - Neqativizim (kontakta girməmə istəyi (uşaq qışqırır, psixoloqu itələyir və ayağını yerə çırpır);
    - Passiv mövqe (uşaq tabe olur və özünə qapanır);
    - Aktiv mövqe (rahatlıqla ünsiyyətə girilir).
4. Diqqət xüsusiyyətləri:
    - Perseverasiya;
    - Yüksək diqqətlilik.
5. Fəaliyyət özəllikləri:
    - Xaotik və məqsədsiz davranış;

- Fəaliyyətin yüksək mütəşəkkilliyi (şəxsi fəaliyyət və davranışın düzgün idarə olunması);
- İmpulsivlik (icra edilir və sonra düşünülür).

6. Fəaliyyətin ümumi istiqaməti (7-8 yaşlı uşaq):
   - Məqsədyönlü şəkildə hərəkət edilməli;
   - Təqdim olunan təlimata uyğunlaşdırılmalıdır. Yüksək iradi kontrol nümayiş etdirilməlidir.

İş qabiliyyəti yüksək olan məktəbəqədər və kiçik məktəbli yaş dövrü qrupuna aid olan uşaqlarla bir seansın müddəti 40-45 dəqiqə təşkil edilə bilər. Bu yaş qruplarına aid olub, lakin iş qabiliyyəti zəif olan, zehni yorğunluq müşahidə olunan və ləng uşaqlarla bir seansın müddəti 30-35 dəqiqə təşkil edilir.

7. Davranış motivasiyasının xüsusiyyətləri

Uşaq tapşırıqlara necə yanaşılır?

- Maraq ilə;
- Böyüyə tabe olaraq;
- Məcburi.

8. Qohum olmayan böyük bir insan ilə ünsiyyətə ümumi marağın olub-olmaması. Nümayiş edilən motivasiyanın növü:
   - İdrak motivasiyası;
   - Ünsiyyət motivasiyası;
   - Oyun motivasiyası;
   - Nail olma motivasiyası.

Psixoloq aşağıdakı sualların cavablarını müayinə protokolunda qeyd etməlidir:

- Tapşırıqlardan xoşun gəldi?
- Tapşırıqlar çətin deyildi?

Həmçinin, görüş zamanı protokolda uşağın istənilən spontan ifadələri də qeyd olunmalıdır.

9. Uşağın öz nəticələrini qiymətləndirməsi:
   - Adekvat qiymətləndirmə;
   - Kritik qiymətləndirmə;
   - Nəticələrə emosional reaksiya.

Nevrotik uşaqlar nəticələrə inanmaya bilərlər. Bu zaman onlarda göz yaşı və ünsiyyətdən imtina etmə kimi reaksiyalar müşahidə olunur. Uşaqların özlərinə edilmiş iradlara qarşı münasibətləri də psixoloq üçün dəyərli diaqnostik faktdır. Emosional fonu düzgün inkişaf edən uşaq iradları qəbul edir və düzəlişlər etməyə çalışır. Əks hal baş verərsə, o zaman psixoloq uşağın emosional sferasını daha dərin müayinə etməlidir.

10. Uşağın ümumi emosional fonu:
    - Müsbət fon;
    - Depressiv fon;
    - Eyforiya – situasiyaya adekvat olmayan və həddən artıq emosional hal;
    - Dezforiya – narazılıq və acılıq.

Həyəcanlı uşaqların müayinəsi zamanı:

- Tapşırığa gec başlanılır;
- Elementar səhvlərə yol verilir;
- Daim sual verilir (təlimat dəqiqləşdirilir);
- Kompensator aktivlik nümayiş etdirilir (Onexofagiya – dırnaq yemə, trixotullomaniya – tük yemə və s.).

Müayinə zamanı müşahidə olunan bütün qabarıq xüsusiyyətlər protokolda qeyd olunur və daha sonra ondan uşağın qiymətləndirilməsində istifadə olunur.

11. Öyrənmə qabiliyyətinin xüsusiyyətləri:
    - Uşağın ona göstərilən köməyi qəbul edə bilməsi və daha sonra həmin köməkdən növbəti tapşırıqlarda sərbəst istifadə edə bilməsi.

Öyrənmə qabiliyyəti dörd kömək növü ilə müəyyən olunur (minimumdan maksimuma):

1. Stimul (emosional kömək) “Özün bax”, “Sən bacaracaqsan” və ”Səndə alınacaq”. Bu tip emosional yardımdan daha çox özünə əmin olmayan uşaqlar üçün istifadə olunur;
2. İstiqamətləndirici kömək (söz ilə izah). Minimal intellektual passivlik müşahidə olunan uşaqlara qarşı istifadə olunur;
3. Kontrol və səhv düzəldici köməklik. Psixoloq həm tapşırığın gedişatı, həm də həll yolunu izləyib uşağa yardım edir;
4. Həll yolunun nümayişi. Psixoloq uşaq ilə birgə (əlindən tutaraq) tapşırığın izahını verib həll edir.

12. Nitqin inkişafının xüsusiyyətləri

Nitqin 2 inkişaf xüsusiyyəti vardır: Ünsiyyət və inkişaf səviyyəsini nümayiş etdirmək:

- Nitqin düzgünlüyü (nitq qüsurlarının olub-olmaması). 1-ci sinifdə nitqin qüsurları olmamalıdır. Əgər uşaqda hər hansı nitq qüsuru müşahidə olunursa, o zaman psixoloq bunu korreksiya etməyə cəhd göstərməməlidir. Bu qüsur görməməzlikdən ortaya çıxır;
- Söz lüğəti. zəngin və ya zəif söz lüğəti. Uşaq özünü rahat və dəqiqliklə ifadə edir və ya nitqi ləngidir. Kəkələmələr – loqonevroz. Yalnız emosional vəziyyətdə və ya daimi kəkələmə;
- Mutizm – nitq ünsiyyətindən imtina. Bütün bu məlumatlar diaqnostik müayinə zamanı müşahidə olunduğu halda dərhal qeydə alınır, əks halda müayinədən

sonra bu faktlar tez unudula və səhv xatırlana bilər. Uşaqla müvafiq qaydada ünsiyyət yaradıldıqda müayinə prosesinə başlana bilər.

Bir daha müayinə zamanı istifadə olunan diaqnostik alətlərin növlərinə nəzər yetirək. İki tip metoddan istifadə olunur – klinik və test. Test tapşırıqları zamanı uşağın emosional vəziyyəti düzgün qiymətləndirilməlidir. Test mülayim şəraitdə keçirilməlidir:

- Testin təlimatı, materialı və vaxt göstəriciləri dəyişilə bilməz;
- Test zamanı uşaq öyrədilə, tənqid və ya tərif edilə bilməz;
- Növbəti tapşırığa keçid almaq üçün neytral şəkildə "Davam et" ifadəsi kifayət edir. Əgər bu şərtlərdən hər hansı birinə əməl olunmayıbsa, o zaman testin nəticələri interpretasiya edilə bilməz.

Klinik yanaşmada individual xüsusiyyətlər, keyfiyyətlər və psixoloji özəlliklərin intensivliyi müayinə olunur. Klinik metod test metodu ilə müqayisədə daha sərbəst və rahat metoddur. Klinik metodun təlimatı daha variativdir. Uşağın müayinəsi zamanı hər iki yanaşmadan istifadə olunur və bu yanaşmaların hər birində uşaqlarla fərdi ünsiyyət tipinin tətbiqi tələb edilir. Uşağın müayinəsi zamanı istifadə olunan metodikalar növündən asılı olaraq uşağa fərqli yanaşma tələb edir.

**Testlərin** keçirilməsi üçün aşağıdakı tələblər irəli sürülür:

1. Heç bir halda testin həlli üçün ayrılmış vaxt, təlimatlar və materiallar dəyişdirilə bilməz. Tapşırıqlar eyni və dəyişilməz təlimatla təqdim olunmalıdır. Hətta təlimatlar verildiyi zaman psixoloqun intonasiyası dəyişməməlidir. Təlimatdan kənar heç bir şərh, sual və ya istiqamətləndirici suallar verilə bilməz. Test keçirildiyi zaman eyni sual dəfələrlə təkrar edilə bilməz. Sınaq şəraitinin bərabərliyinə riayət etməmək və təlimatda dəyişikliklərə yol vermək qətiyyən qadağandır, çünki testdən keçən zaman uşağın yalnız nəticələri deyil, həmçinin müəyyən standart ifadələrə reaksiyası vacibdir. Bu qaydalara riayət olunması üçün yeni başlayan psixoloqlara müayinədən əvvəl təlimatla bir neçə dəfə tanış olmaları məsləhət görülür;
2. İkinci vacib qayda odur ki, test zamanı uşağın öyrədilməsi, təriflənməsi və ya tənqid edilməsi yolverilməzdir. Tənqid olunduğu zaman uşağın motivasiyası və həvəsi kəskin şəkildə azala bilər. Bu cür rəylər uşağın növbəti testlərə münasibətini dəyişə bilər və onların vaxtından əvvəl diqqət və maraqlarının dağılmasına səbəb ola bilər. Uşağın cavablarından asılı olmayaraq psixoloq onları neytral şəkildə qarşılamalıdır. Hesab olunur ki, uşağı yalnız göstərdiyi cəhtlərinə görə tərifləmək olar. Əgər uşaq verdiyi cavabların qiymətləndirilməsini istəsə, onda müayinənin sonunda bunun ediləcəyinə söz verilməlidir;
3. Üçüncü vacib qayda isə uşağın emosional və fiziki durumuna xüsusi diqqət və əhəmiyyətin verilməsidir. Müayinə uşağın yalnız özünü yaxşı hiss etdiyi halda həyata keçirilə bilər.

S. Bert yazırdı ki, psixoloq hər hansı bir intellektual testin, həm də emosional bir test

olduğunu unutmamalıdır. Emosional aspekt görməzdən gəldiyi halda testin nəticələri obyektiv hesab edilə bilməz. Bununla əlaqədar test zamanı uşağın emosional reaksiyalarının xüsusiyyətlərinə diqqət yetirilməlidir. Uşaq misalı həll etdiyi zaman onun sevinc və ya qürur hissi duymağı, tapşırığa maraq və laqeydliklə yanaşması, müayinə zamanı psixoloqa güvənməsi və ya əksinə onda neqativ halların baş verməsi (gərginlik, qorxu, məyusluq, narazılıq və s.) qeyd olunmalıdır. Bu cür məlumatlar alınmış nəticələrin şərhi zamanı nəzərə alınmalıdır. Bir intellektual testin göstəriciləri uşağın müayinə zamanı qeyri-adekvat motivasiyası və ya fiziki yorğunluğu nəticəsində qeyri-kafi ola bilər. Bu halda uşağı daha uyğun bir zamanda testdən keçirmək lazımdır.

Müayinə zamanı təqdim olunan müxtəlif tapşırıqlara diqqət yetirilməlidir. Təqdim olunan test vasitəsilə uşaqda yarana biləcək həyəcan və emosional gərginliyin aradan qaldırmasına nail olunub müayinəyə maraq yaradılmalıdır. Məktəbə qədər və ya kiçik məktəb yaşlarında olan uşaqların müayinəsində rəngli material və şəkilləri olan test tapşırıqlarından başlanması məqsədəuyğun hesab olunur.

Uşaq yalnız eksperimentatorun səsinə öyrəşdikdən sonra ona yaddaş, zəka və digər analoji test tapşırıqları təqdim oluna bilər. Həll zamanı xüsusi diqqət tələb edən testləri müayinənin sonuna saxlamaq olmaz, çünki 30-cu dəqiqədən sonra uşaqlarda zehni yorğunluq müşahidə olunur. Bir psixoloji müayinənin müddəti 40-50 dəqiqədən çox olmamalıdır. Müayinə zamanı uşağı tələsdirmək olmaz və əgər uşaq asta templə işləyirsə, o zaman müayinə prosedurunu bir neçə seansa uzatmaq lazımdır. Müayinə zamanı uşağı yükləmək olmaz.

Konsultasiya zamanı istifadə üçün seçdiyimiz metodik materiallar uşağın görə bilməyəcəyi yerdə yerləşdirilməli və uşağa yalnız ehtiyac olduğu zaman nümayiş olunmalıdır. Masanın üzərində eyni zamanda bir neçə metodik vəsaitin olması uşağın diqqətini yayındıra bilər. Uşağın metodik vəsaitlərin hissələri ilə oynamasına icazə vermək olmaz.

Testoloqlar təkidlə tövsiyə edirlər ki, prosedur zamanı uşağın valideyni və ya digər 3-cü tərəfin otaqda mövcudluğunun qarşısı alınmalıdır. İstisnalar uşağın qətiyyən valideynindən ayrılmaq istəmədiyi hallarda ola bilər. Bu zaman psixoloq nə etməlidir? Valideyn uşağın onu görə bilməyəcəyi tərəfdə əyləşməlidir. Müayinə zamanı uşağın cavablarına hər hansı reaksiyaları vermək və ya müayinə proseduruna müdaxilə etmək qəti qadağandır. Testin keçirilməsinə dair çox saylı qaydaları və tövsiyələri ümumiləşdirdikdə A. Anastaziya 3 əsas tələbi vurğulayır:

1. Standartlaşdırılmış prosedurun ən kiçik detalına belə riayət olunmalıdır;
2. Test zamanı yaranan hər hansı qeyri-standart halları qeyd etmək lazımdır (müayinə zamanı otağa 3-cü tərəfin daxil olması);
3. Testin nəticələrini şərh edərək bütün şərtləri nəzərə almaq lazımdır.

Testin düzgün tətbiqi üçün qoyulmuş ciddi tələblər uşağın konsultativ müayinəsinin imkanlarına böyük məhdudiyyətlər qoyur. Bu baxımdan klinik tipli metodik vəsaitlər daha əlverişlidir.

**Proektiv** metodikaların keçirilməsi zamanı test metodundan fərqli olaraq, psixoloq neytral mövqe tutmur. O daha aktiv və çevik olmalıdır. Klinik metod zamanı psixoloq uşaq ilə qarşılıqlı fəaliyyət prinsipini reallaşdırmalıdır. Test metodunda isə psixoloq neytral-mülayim tərzdə sorğu keçirərək mövcud olan bilikləri aydınlaşdırır. Klinik tipli müayinə zamanı tapşırıq təlimatlarının dəqiqləşdirilməsi, daha geniş və dolğun müzakirəsi nəzərdə tutulub.

Klinik yanaşmada vaxt məhdudiyyətinin aradan qaldırılmasına baxmayaraq, müayinənin müddətinin qeydiyyatı aparılmalıdır. Əgər test zamanı uşağın öyrədilməsi, ona kömək edilməsi və onun tənqid edilməsi qadağan edilirdisə, onda klinik metod zamanı bu texnikaların istifadəsi mütləq və vacibdir. Bu üsulla uşaqların öz səhvlərinə olan münasibətləri, motivasiyaları, özünəqiymət və digər xüsusiyyətləri haqqında məlumat əldə etmiş oluruq. Uşağın ona edilmiş irada olan reaksiyası bizə onun emosional dayanıqlığı haqqında məlumat verir. Testin sərt qadağası və reqlamentini ortadan qaldıran klinik yanaşma psixoloqa uşağın cavablarına çevik reaksiya vermə imkanı verir. Bir çox testin müəyyən hissələrindən (tapşırıqları) klinik yanaşmada istifadə olunur. Bu halda psixoloq kəmiyyət normalarını tətbiq etmə hüququnu əldən versə də, mürəkkəbliyinə görə sıralanan tapşırıqları asanlıqla dəyişə bilmə imkanı əldə etmiş olur. Klinik müayinə zamanı psixoloq yalnız tapşırığın nəticəsini qeyd etmir, həmçinin uşaqda özünü büruzə verən zehni fəaliyyətin müxtəlif keyfiyyətli xüsusiyyətlərini də qeyd etməlidir. Eyni zamanda bir tapşırıq vasitəsilə psixoloq uşağın diqqətinin xüsusiyyətləri, fəaliyyətinin təşkili, iş qabiliyyəti və digər məlumatları aşkar edə bilər. Hərtərəfli analiz imkanı klinik müayinənin üstünlüyünü təşkil edir. Lakin klinik metodun professional şəkildə tətbiqi üçün psixoloqun təcrübəsi və yüksək kvalifikasiyası şərtdir. Uşağın fəaliyyətinin müxtəlif amilləri görülərək onları qeyd etmə bacarığı təcrübə ilə yaranır.

Praktik psixoloqun fəaliyyətində müayinə zamanı həm test, həm də klinik metoddan istifadə olunur. Bu iki metod bir-birini tamamlayır.

**Yeniyetmələr**

Yeniyetmələrlə diaqnostika zamanı düzgün emosional əlaqə qurularaq onların yaş dövründən irəli gələn bəzi çalarların əvvəlcədən nəzərə alınması böyük əhəmiyyət kəsb edir (Şəkil 2.3).



**Şəkil 2.3. Yeniyetmə oğlan psixoloq qəbulunda**

- İlk növbədə, yeniyetmə onu şərtsiz qəbul etdiyini hiss etməlidir;
- Konsultant yeniyetmə ilə empatiya qurmağı bacarmalıdır. Onun problemlər və narahatçılıqlarını anlayışla qəbul etdiyini yeniyetməyə göstərməlidir;
- Psixoloq uyğun davranış nümayiş etdirməlidir. Bir sözlə özü olmalıdır;
- Yeniyetmələrin özləri haqqında qeyri-stabil fikirdə olduğunu nəzərə almalıdır.



Şəkil 2.4. Yeniyetmə qız psixoloq qəbulunda

İlk görüş zamanı yeniyetmədə həyəcan səviyyəsinin əlverişliliyini saxlamaq lazımdır. Əgər yeniyetmə çox həyəcanlıdırsa, o zaman onu sakitləşdirmək lazımdır. Əks halda yeniyetmə çox sakitdirsə, o zaman onu bir qədər həyəcanlandırmaq lazımdır. Həyəcan səviyyəsi orta olduğu halda yeniyetmə diaqnostika prosesində daha aktiv iştirak edəcək və görüşün əhəmiyyətini yüksəldəcək (Şəkil 2.4).

Yeniyetmə ilə ilk görüş zamanı bir-birinizə müraciət formasını da aydınlaşdırmaq zəruridir. Nümunə: "Bir-birimizə necə müraciət edək?" Müayinə zamanı müraciət şəklinin dəyişib-dəyişilmədiyi də izlənilməlidir.

Bəs yeniyetmə ilə söhbəti nədən başlamaq lazımdır? İlk söhbətə 3 fərqli üslubla başlamaq olar:

1. Səni bura gətirən nədir? (Problem sözündən istifadə etmək məsləhət görülmür);
2. Refleksiv variant: "Çox qəmgin görsənirsən" və ya "Başlamaq hər zaman çətindir" (situasiyaya müvafiq olaraq);
3. "Bilirəm ki, bura öz istəyinlə gəlməmisən. Yəqin bu səbəbdən belə əsəbi görsənirsən? ".

Bir qədər sakitlikdən sonra psixoloq yeniyetməyə özü və psixoloji xidməti haqqında zəruri məlumat verir.

Daha sonra yeniyetməyə özü haqqında danışmaq təklif olunur.

Yeniyetmə ilə iş zamanı qeydlər aparılarkən bəzən nəyi qeyd etdiyiniz yeniyetməyə də açıqlanmalıdır.

Yeniyetmə hiss etməlidir ki, sizin bütün diqqətiniz ona yönəlmişdir.

Telefon və ya şəxsi əşyalar göz qarşısına qoyulmamalıdır.

**Yeniyetmə ilə etibarlı ünsiyyətin yaradılması:**

1. Yeniyetmə hiss etməlidir ki, qarşısındakı psixoloq onu tam anlayır, hətta onu ondan daha çox tanıyır. Əgər yeniyetmə psixoloqun onu aldatdığını hiss etsə, o zaman diaqnostikanın nəticələri etibarsız olacaqdır.
   Adətən yeniyetmələr psixoloqa yalan danışmağı əvvəlcədən planlaşdırır. Yalan danışarkən onlar xüsusi diqqətlə seçilmiş sözlərdən istifadə edirlər və intonasiyalarında xüsusi dramatik ton hiss olunur;
2. Müayinə zamanı psixoloq yeniyetmə ilə mübahisə etməməlidir. Onu birbaşa və ya dolayı yolla tənqid etməməli və səhvlərini göstərməyə çalışmamalıdır. Onun fikirləri və inanclarına hörmətlə yanaşmalıdır (hətta onlar sizə zidd olsa belə);
3. Mütəxəssis heç bir halda yeniyetmənin etirafına kəskin reaksiya verməməlidir;
4. Müayinə zamanı psixoloq müəllim rolunda çıxış etməməlidir. Nəyi öyrətmək

psixoloqun işi deyil.

Yeniyetmə ilə görüş zamanı biz aşağıdakı amillərə **nəzər yetirməliyik**:

- Yeniyetmənin ümumi emosional durumu;
- Geyim;
- Hərəkətlər;
- Sağlamlıq durumu (çəki, dərinin rəngi və s.);
- Gərginliyin əlamətləri (tez-tez ətrafa baxılır, əllər sıxılır və s.);
- Səs (temp, əsir və ya əsmir, ton və s.).

Bunların əsasında biz ilkin fərziyyələri formalaşdıra bilərik.

Yeniyetmələrlə ünsiyyət zamanı onları daha yaxşı anlamaq üçün dəqiqləşdirici suallar verə bilərik:

- Elə hiss edirəm ki, sən bu haqda çox fikirləşmisən və bu səni çox əsəbləşdirir;
- Hirsləndiyin üçün özünü günahkar hiss edirsən?
- Hirsləndiyin üçün özünü günahkar hiss edirsən?
- Səni doğru başa düşürəm ki, .....?

Ünsiyyət zamanı psixoloq:

- Minimal həvəsləndirmə ("Baş əymə" və ya "Aha"demək)."Bu haqda daha ətraflı danışa bilərsən?" və "Xahiş edirəm, davam elə";
- Danışılanları ümumiləşdirmə (yeniyetmənin danışdığını yenidən ona psixoloqun öz sözləri ilə təqdim edilməsi). Bu zaman özü də onu düz və ya səhv anladığını təsdiq edə bilər. Əgər yeniyetmə dediyiniz bir fikirlə razılaşmasa, o zaman bu ifadələrdən istifadə edə bilərsiniz:" Şad oldum ki, bunu aydınlaşdırdıq" və ya "İndi səni daha yaxşı anladım";
- Yeniyetmənin hisslərini əks etdirmə. "Bilirəm, indi mənə çox əsəbisən", "Hiss edirəm, bu barədə danışanda çox kədərlənirsən" və s.;
- Periodik səssizlik. Pauzanın yaranmasından çəkinməyin və yeniyetməyə fikirləşmək üçün vaxt yaradın.

**Nəyi etmək qətiyyən olmaz:**

1. Qeyri-səmimi dəstəkləmə ("Əminəm ki, sən bütün çətinliklərin öhdəsindən gələ biləcəksən").
2. İnkar etmə ("Səhv fikirləşirsən, əlbəttdə valideynlərin səni sevir", "İntihar haqqında fikirləşməyə səbəbin yoxdur" və "Hələ gəncsən və həyatın qabaqdadır").
3. Yeniyetməni günahlandırmaq olmaz. "Sən nə etmisən ki, müəllimə səni sinifdən çıxarıb?"
4. Standart cümlələr." Səni anlayıram, mənim də başıma gəlib. Hər şey yaxşı olacaq".
5. Məsləhətlər vermə. "Özünü ələ al, həyata daha nikbin bax və optimist ol" və s..

Uşaq və yeniyetmələrlə effektiv ünsiyyətin diaqnostika boyu saxlanılması üçün onlara

təqdim olunan metodikaların ardıcıllığına da xüsusi diqqət yetirmək lazımdır:

- Məktəbəqədər və kiçik məktəbli yaş qrupu üçün müayinənin ümumi müddəti 40-45 dəqiqədən çox olmamalıdır. Daha balacalar üçün (əqli inkişafında çətinlik müşahidə olunan uşaqlar üçün) bu bənd 25-30 dəqiqə təşkil edir;
- Yeniyetmələrlə bu müddət 1 saata qədər çatdırıla bilər. Yeniyetmələr ilə qrup şəklində işlədikdə isə ümumi qrup işinin müddəti 1.5 saat–2 saata qədər ola bilər.

Müayinə müddəti hər yaş üçün spesifik olan yorulma effektinin müayinə nəticələrinin təsirinin qarşısının alınması üçün təyin olunur. Müayinə zamanı vaxtla yanaşı, eyni zamanda uşağın ümumi emosional vəziyyəti də nəzərə alınmalıdır.

Metodikaların özəlliklərini nəzərə alaraq müayinə zamanı onların təqdim olunma ardıcıllığını əvvəlcədən tərtib etmək şərtdir:

- Müayinəyə intellektual testlər ilə başlamaq məsləhət görülmür, çünki müayinənin əvvəlində uşağın emosional vəziyyəti hələ də qeyri-stabil ola bilər və bu da testin nəticələrinə təsir göstərər. İki ardıcıl intellektual testin təqdim olunması yolverilməzdir;
- Hər bir müayinənin əvvəlində uşağın yaşından asılı olmayaraq düzgün qurulmuş söhbət aparılması məqsədəuyğundur;
- Proektiv metodikalara üz tutulduqda onların ardıcıl tərtib olunması mümkündür.

Aktiv intellektual fəaliyyət tələb edən metodikalar (Bender, Raven və s.) müayinənin sonuna saxlanılmamalıdır. Test və klinik metodların ardıcıl təqdim olunması tövsiyə olunur. Müayinə proqramı tərtib edilərkən metodikaların davamlılıq müddəti nəzərə alınmalıdır. Müayinə proqramı bir görüşə sığmırsa, o zaman görüşlərin sayı artırılmalıdır.

## Tələbələr üçün fəaliyyətlər

1. "İki qardaş" videosunu izləyəndən sonra videoda olan hər iki uşaq üçün müşahidə blankını doldurun. Müşahidə blankının nümunəsi:

| Davranış parametrləri | Böyük qardaş | Kiçik qardaş |
|---|---|---|
| Xarici görünüş (yaş, boy və bədən quruluşu) | | |
| Proksemika | | |
| Kinesika | | |
| Mimika və baxışlar | | |
| Jestikulyasiya (Əl-qol hərəkətləri) | | |
| Nitq | | |

2. Yaxın qohum və ya mütəmadi təmasda olmadığınız 8-9 yaşlı uşaqla "Ailə rəsmi" çəkdirin. Uşaqla müvafiq qaydada ünsiyyət yaradın. Görüşün müşahidə sxemini doldurun. Rastlaşdığınız çətinlikləri qeyd edin. Daha sonra qrup şəklində öz təcrübənizi paylaşaraq müzakirələr aparın;

3. Yaxın qohum və ya mütəmadi təmasda olmadığınız yeniyetməlik yaşında olan bir uşaqla mövcud olmayan heyvan rəsmi çəkin. Görüşün müşahidə sxemini apararkən rastlaşdığınız çətinlikləri qeyd edin. Daha sonra qrup şəklində öz təcrübənizi paylaşaraq müzakirələr aparın;

4. Qohum və yaxın dost olmayan ailədən 6-7 yaşlı uşaq üçün anamnez toplayın, müayinə proqramını tərtib edin və daha sonra bu proqramı qrupda müzakirə edin (bu məlumatlar üzərində 3-cü modulda iş aparın);

5. 9 yaşlı uşağın diaqnostikası üçün aşağıdakı metodları seçin:
   Ailə rəsmi, Raven testi, 2 ev metodikası, Dembo-Rubinşteyn metodikası və tamamlanmamış cümlələr.
   Metodikaların düzgün ardıcıllığını müəyyən edin və cavabınızı əsaslandırın.

6. 14 yaşlı yeniyetmənin diaqnostikası zamanı aşağıdakı metodları seçin:
   Veksler testin analogiya subtesti, Dembo-Rubinşteyn metodikası, "Mövcud olmayan heyvan" metodikası və xarakterin aksentuasiyası testi.
   Metodikaların düzgün ardıcıllığını müəyyən edin və cavabınızı əsaslandırın.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Uşaqla müvafiq qaydada ünsiyyət qurur".**

1. Müayinədən əvvəl uşaq ilə emosional kontaktın yaradılması nə üçün zəruri hesab olunur?

2. Əgər uşaq müayinə otağına daxil olmaq istəmirsə, onda buna səbəb nə ola bilər? Bu problemi aradan qaldırmaq üçün psixoloq hansı addımlar ata bilər?

3. Əgər müayinə otağına daxil olan kiçik məktəbli anasının arxasında gizlənməyə çalışırsa, o zaman psixoloqun hansı addım atmağı daha doğru olar?

A) Uşağı əzizləyərək öpmək və ona sevgi göstərmək;
B) Uşağa irad bildirilmədən ona yaxınlaşaraq yenidən masaya əyləşdirmək;
C) Uşağa özünü təqdim edərək oyuncaqlar ilə tanış olmağı təklif etmək.

4. Müayinə proseduruna uşağın hazır olduğunu təsdiqləyən göstəricilər hansıdır?

5. Kiçik məktəbli müayinə zamanı ayağa qalxarsa, o zaman psixoloq nə etməlidir?

A) Uşağa irad bildirilir ki, yerinə oturmaq lazımdır, yaxud yerindən qalxmaq olmaz;
B) Uşağa irad bildirilmədən ona yaxınlaşılaraq yenidən masaya əyləşdirilir;
C) Uşağın ayağa qalxmasına heç bir reaksiya verilmir, lakin bu fakt müayinə protokolunda qeyd edilir.

6. Uşağın müşahidə sxemi hansı bəndlərdən ibarətdir?

7. Uşaq tapşırığı həll edərkən ona göstərilə biləcək köməyin neçə növü vardır? Hansılardır?

8. Psixoloji müayinə üçün dəvət olunan 11 yaşlı oğlan müayinə otağına daxil olsa da, psixoloqla ünsiyyət qurmaqdan yayınır. Göstərişli şəkildə üzünü yan tərəfə çevirir. Bu zaman psixoloqun hansı addım atmağı daha məqsədəuyğundur?

A) Heç nə olmamış kimi prosedura başlamağa cəhd etmək;
B) Bir müddət fasilə verərək uşaqla birbaşa ünsiyyətə girmədən ona maraqlı gələ biləcək tapşırıqları qarşısına qoymaq (onda maraq oyatmaq);
C) Mülayim şəkildə ona psixoloqun kim olduğunu izah etmək, daha sonra onun keçirdiyi hislər haqqında söhbət açmaq ("Görürəm ki, sən indi nədənsə narazısan və heç keyfin yoxdur. Səbəbini mənimlə bölüşmək istəyərsən?").

9. Müayinə prosedurunun müddəti nədən asılı olur?

A) Metodikaların sayı;
B) Uşağın yaşı;
C) Diaqnostikanın məqsədi;
D) Psixoloqun boş vaxtı.

10. Məktəbə hazırlaşan uşaq üçün müayinə müddəti neçə dəqiqədən çox ola bilməz?

A) 25 dəqiqə;
B) 40 dəqiqə;
C) 1saat.

11. Müayinə proseduruna hansı metodikadan başlamaq daha düzgündür? Hansı səbəblərə görə?

12. İntellektual metodikaları nə zaman təqdim etmək daha uyğun olar?

A) Müayinənin əvvəlində;
B) Müayinənin ortasında;
C) Müayinənin sonunda.

13. Əgər uşaq hər hansı metodikanı yerinə yetirməkdən imtina edərsə (ailə şəkli), o zaman nə etmək lazımdır?

A) Uşağa tapşırığı yerinə yetirmək üçün israr etmək;
B) Daha sonra yenidən təklif etmək;
C) Alternativ metodika təklif etmək və bunu müayinə protokolunda qeyd edərək alternativ metodikanı tətbiq etmək.

## 2.2. Psixodiaqnostika prosedurunu tamamlayır


Şəkil 2.5. Psixoloq qəbulunda

Psixoloji iş zamanı psixoloq valideynlərlə bir neçə dəfə görüş keçirir. Bu görüşlərin həm mühüm, həm də spesifik xüsusiyyətləri var.

Valideynlərlə keçirilən hər görüşün əsas məqsədi uşağın problemini daha dərindən və hərtərəfli öyrənilməsidir. Bu görüş zamanı psixoloq öz tövsiyələrini bildirir və birinci görüşdə edilən şikayətləri əsaslandırır (Şəkil 2.5). Ehtiyac yaranarsa psixoloq bu görüş zamanı problemin korreksiyası üçün bir sıra düzgün psixoloji yanaşmaları nümayiş edə bilər.

Valideynlərlə yekun söhbət bir neçə məqsəddən ibarətdir:

- Uşağın ümumi psixi inkişafının hərtərəfli müzakirəsi. Aşkar edilmiş problemin və çətinliklərin dərəcəsi, xüsusiyyətləri və səbəblərinin müzakirəsi.
- Valideynlə birgə uşaq üçün zəruri olan dəstəkləyici forma və ya korreksiya planının tərtibi.
- Valideynin uşağı ilə bağlı olan çətinliklərin müzakirəsi. Onların uşağın çətinliyinə olan münasibətin müzakirəsi.
- Növbəti görüşlərin planlaşdırılması və ehtiyac olduğu zaman digər profilli mütəxəssisin konsultasiyasına yönləndirməsi.

Bu məqsədlərə çatmaq üçün psixoloji görüşü aşağıdakı ardıcıllıqla yerinə yetirilməsi məsləhət görülür.

**İlk etap**. Psixoloq valideynlərlə uşağın psixoloji sağlamlığının qorunmasının nə qədər əhəmiyyətli olduğunu izah edir. Əksər valideynlər ilk növbədə uşağın fiziki sağlamlığı və dərs müvəffəqiyyəti haqqında maraqlanmağa vərdiş ediblər. Bu səbəbdən valideynlərə psixoloji sağlamlığın ayrı bir əhəmiyyət daşıdığı izah olunmalıdır. Onu da qeyd etmək olar ki, hazırkı cəmiyyətdə qeyri-stabil və stressogen vəziyyətdən ilk olaraq uşaqlar əziyyət çəkir. Yekun görüşü uşağın ümumi psixoloji təsvirindən başlamaq məqsədəuyğundur. Bu görüşə öncədən hazırlaşmaq lazımdır.

Valideynlə görüş zamanı psixoloq həmçinin müəyyən psixoterapeftik yanaşmalara hazır olmalıdır. Müayinənin nəticələrini valideynə açıq və aydın şəkildə təqdim etmək lazımdır. Bu zaman onun verbal və qeyri-verbal reaksiyalarına xüsusi diqqət yetirilməlidir. Əgər valideyndə suallar yaranarsa, onu dinləmək və suallarını aydın şəkildə cavablandırmaq lazımdır. Əgər valideyn təqdim olunan nəticələrlə razı deyilsə, tövsiyələr mərhələsinə keçmək mənasızdır.

**II etap**. Psixoloq uşağın konkret problemləri haqqında söz açır. Bu zaman ən sadə və rahat anlaşılan terminlərdən istəfadə etmək lazımdır. Belə olan halda valideyn öz qeydləri ilə psixoloqun təqdim etdiyi məlumatları daha aydın şəkildə müqayisə edə biləcək. Əgər

uşağın sosial qorxuları varsa, biz valideynə deyə bilərik ki, o böyük summativ işlərdən qorxduğu üçün yoxlamalar zamanı tapşırıqları yerinə yetirmək keyfiyyəti adi vaxtlardan qat-qat daha zəif olur. Eyni tapşırığı uşaq evdə sinifdəkindən daha yaxşı yerinə yetirir. Daha sonra valideynə bu problemi təsdiqləyən digər nüansları yada salmaq təklif olunur. Valideynlərlə yekun söhbət zamanı müayinənin əyani nəticələrini göstərməklə uşağın problemi və çətinlikləri barəsində onlarda daha düzgün təəssüratların yaranmasına nail ola bilərik. Mövcud problemi qəbul edəndən sonra 3-cü mərhələyə keçid alınır. Bu zaman valideyndə niyə sualı yaranır.

**III etap**. “Niyə?” Bu suala cavab verərkən psixoloq valideyndə günahkarlıq hissinin yaranmasından ehtiyat etməlidir. Günahkarlıq hissi yarandıqda psixoloqlar çox vaxt ya valideyn müqaviməti ilə qarşılaşırlar, ya da əksinə valideyn o qədər böyük həvəslə hərəkətə keçir ki, yeni problemlərin yaranmasına istəmədən təkan verir. Bir çox problemlərin obyektiv səbəbləri keçmiş həyat təcrübəsi ilə bağlı olur. Bəs bu səbəblər hansılardır? Əldə olunan nəticələri qəbul etməyən valideyn çox vaxt açıq mübahisədən qaçır. Onlar ilk öncə psixoloqu dinləyirlər və daha sonra dərhal öz interpretasiyalarını bildirirlər (Şəkil 2.6).



**Şəkil 2.6. Valideyinlər psixologun qəbulunda**

Misal üçün, “eynilə atasıdır”, “dayısına oxşayıb”, “mən də uşaq vaxtı belə idim”. Bu ifadələr ilə valideyn sanki mövcud olan problemlə mübarizə aparmağın mənasız olduğuna işarə edir. Buda bir növ məsuliyyəti öz üzərindən atmaq deməkdir. Bəs psixoloqa könüllü şəkildə müraciət edən şəxs niyə belə etsin? Cavabı müraciətin əsl motivində tapmaq mümkündür. Psixoloqa müraciətin motivləri çox fərqlidir. Bəzi valideynlər psixoloqa özlərini kənar kritikadan qorumaq üçün müraciət edirlər (“Bax mən necə diqqətli anayam, uşağımda çətinlik yaranan kimi psixoloqa gedirəm”). Bəzən psixoloqa digər ailə üzvləri (nənə və s.) və ya müəllimlərin təkidi ilə müraciət olunur. Valideyn bunun üçün heç bir əsas görmür. Müəllimlər isə psixoloqa onların üzərində olan məsuliyyəti azaltmaq üçün müraciət etmiş ola bilərlər. Mövcud problemi qəbul etmiş valideyn dərhal problemin potensial səbəblərini sadalayır: valideynlərarası konfliktlər, maddi çətinliklər, yaşayış yerinin tez-tez dəyişdirilməsi, gərgin iş rejimi ilə bağlı uşağa az vaxt ayırmaları və s. Psixoloq bu səbəblərin çox əhəmiyyətli olduğunu vurğulayır və mülayim tərzdə valideynləri problemin əsl səbəbinə yönləndirir. Bu zaman valideynin reaksiyasına diqqət yetirmək çox önəmlidir. Əgər valideyn problemi tam anlamırsa o zaman dayanmaq lazımdır. Problemin həqiqi səbəbinin yarısının belə qəbul olunması, gələcək korreksiya işlərində valideyn müqavimətini və psixoloqa qarşı aqressiyanın yaranmasından daha yaxşıdır.

**IV etap**. Bu mərhələdə nə etmək olar? Vəziyyəti necə düzəltmək olar?

Bu suallardan sonra valideynə mülayim şəkildə bildirilir ki, övladı ilə qurduğu ünsiyyət effektiv deyil və hətta mövcud problemi çətinləşdirir. Bu səbəbdən valideynə uşaq ilə ünsiyyət strategiyası istiqamətində məsləhətlər verilir. Çox zaman yekun görüşdə valideyn əvvəlki görüş zamanı qeyd etmədiyi şikayət və narahatçılıqlarını bildirir. Əgər keçirilən müayinənin nəticələri yeni şikayətlərə cavab vermək üçün kifayət etmirsə, o zaman uşaq ilə yeni görüşün təyin olunması məqsədəuyğun hesab olunur. Hər iki valideynlə söhbətin eyni vaxtda aparılması daha effektiv hesab olunur. Bu zaman həm uşaq haqqında daha obyektiv məlumatlar əldə etmiş oluruq, həm də valideynlərə uşağın gələcəyinə dair məsuliyyətində birgə əhəmiyyət daşıdığını hiss etdirməliyik. Yekun görüş zamanı psixoloq yalnız problem və çətinliklər haqqında deyil, həmçinin müsbət amillərdən də danışmalıdır. Təcrübə onu göstərir ki, valideynlər düzgün tərbiyə strategiyalarını dəstəklədiyi zaman daha aktiv şəkildə psixoloji tövsiyələrə riayət etmiş olurlar.

## Tələbələr üçün fəaliyyətlər

**Fəaliyyət 1.** Tələbələr küçük qruplara (3 nəfərdən ibarət) ayrılır. Qrupdan bir tələbə 7-8 yaşlı uşağın problemini qəbul etməyən valideyn rolunu, 2-ci tələbə onu inandırmağa çalışan psixoloq rolunu canlandırır. 3-cü tələbə isə hadisələri müşahidə edir və qeydlər aparır. Psixoloq-tələbənin vəzifəsi valideyn-tələbəni problemi ilə tanış edib, qəbullanmasını təmin etməkdir. Bu oyuna 10-15 dəq. vaxt verilir. Tələbələr problemin mövzusunu seçməkdə sərbəstdir. Problem kiçik məktəbli yaş dövrü üçün aktual olmalıdır.

**Fəaliyyət 2.** Rollu oyunlar formasında keçirilir. Tələbələr yenidən kiçik qruplara ayrılaraq eyni oyunu davam etdirirlər. Bu dəfəki mövzu yeniyetmələrdə rast gəlinən problemdir. Valideyn rolunu aparan tələbə çox həssas eynilə həyəcanlı valideyn tipini canlandırır. Psixoloq olan tələbənin məqsədi isə valideynin həyəcanını azaltmaq və problemin həll yolunu təyin etməkdir.

**Fəaliyyət 3.** Rollu oyundan sonra ümumi müzakirələr aparılır. Tələbə psixoloqlar qarşılaşdıqları çətinlikləri söyləyir, nəzarətçi psixoloqlar isə tələbə-psixoloqların strategiyalarını müzakirə edirlər.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Psixodiaqnostika prosedurunu tamamlayır”.**

1. Yazılı şəkildə psixodiaqnostika prosedurunun düzgün tamamlanmasının əhəmiyyətini əsaslandırın.
2. Psixodiaqnostika prosedurunun tamamlanma mərhələsində valideynlərdə günahkarlıq hissinin yaradılması nə ilə nəticələnə bilər?
3. Psixodiaqnostik prosedur tamamlanan zaman valideynlərlə aparılan söhbət neçə mərhələdən ibarətdir?

# TƏLİM NƏTİCƏSİ 3

## PSİXOLOJİ DİAQNOZU TƏRTİB ETMƏK

## 3.1. Diaqnostika nəticələrinin kəmiyyət və keyfiyyət təhlilini edir

Artıq psixoloji müayinənin üçüncü və çox əhəmiyyətli mərhələsindəyik. Bu mərhələdə psixoloqun fərdi işi nəzərdə tutulmuşdur. O, əldə etdiyi məlumatları kəmiyyət və keyfiyyət baxımından təhlil edir və psixoloji diaqnozu tərtib edir. Bunun üçün ona aşağıdakı məlumatlar lazımdır:

1. Anamnez;
2. Anamnez toplayarkən valideynlər haqqında əldə olunmuş qeydlər;
3. Uşağın müşahidə blankı;
4. Proyektiv metodikaların nəticələri;
5. Testlərin cavabları.

İstifadə edilən metodik vəsaitlərin təlimata uyğun tətbiq olunması ilə yanaşı nəticələrin düzgün hesablanması psixodiaqnostika proseduru üçün böyük əhəmiyyət daşıyır.

Test və proyektiv metodikaların istifadəsi zamanı irəli sürülən tələb və şərtlərlə artıq hər biriniz tanışsınız. Bu modulda isə həmin metodikaların tətbiqi zamanı əldə olunan nəticələrin düzgün təhlili ilə ətraflı tanış olacaqsız (Şəkil 3.1).



**Şəkil 3.1. Diaqnostikanın kəmiyyət və keyfiyyət təhlili**

### 3.1.1. Veksler test nəticələrinin təhlili

Veksler test 12 subtestdən ibarətdir və hər bir subtest ayrıca təhlil olunur.

**1-ci subtest 30 sualdan ibarətdir.** Hər bir düzgün cavab 1 bal ilə qiymətləndirilir. 8 və daha çox yaşı olan uşaqlar (testi 4-cü tapşırıqdan başlayanlar) əgər testin 4, 5 və 6-cı suallarını düzgün cavablandırıblarsa, onların hesabına avans olaraq 3 bal artırılır. Test üzrə maksimal bal 30.

**2-ci subtest 14 sualdan ibarətdir.** Cavabda bir səbəb qeyd olunubsa 1 balla, əgər iki və daha çox səbəblər qeyd olunubsa 2 balla qiymətləndirilir (Cədvəl 3.1). Subtest üzrə maksimal bal 14.

| Sual | Düzgün cavabın məzmunu | Düzgün hesab etdiyimiz cavab | Qismən düzgün cavab | Səhv cavab |
|---|---|---|---|---|
| 1. Əgər sən barmağını kəssən nə edərsən? | Yaraya sarğı qoymaq, yaranı təmizləmək. | Yod sürtərəm. Bintlə (pambıq) ilə bağlayaram. | Anama deyərəm. Həkimə gedərəm. | Ağlayaram. Evə gedərəm. Heçnə etmərəm. |
| 2. Fərz et ki, sənə oynamaq üçün verilmiş oyuncağı (top, kitab, kukla - uşağın yaşı və cinsindən asılı olaraq) itirmisən. Bu halda sən nə edərsən? | İtkini kompensasiya etmək. | Yenisini alaram. Pulunu ödəyərəm. Özümünkünü verərəm. | Üzr istəyərəm. Anama deyərəm. | Ağlayaram. Tapana qədər axtararam. Deyərəm ki, məndə yoxdur. |
| 3. Mağazaya çörək almaq üçün gəlmisən, ancaq mağazada çörək bitib. Bu halda nə edərsən? | Çörək almaq üçün başqa mağazaya getməlidir. | Başqa mağazaya gedərəm, lavaş alaram. | Evə qayıdıb, evdən soruşaram ki, nə edim? | Evə qayıdıb deyərəm ki, çörək yox idi. |
| 4. Əgər səndən yaşca balaca olan uşaq sənlə dalaşmağa başlasa sən nə edərsən? | Balacalarla dalaşmaq olmaz. | Onu sakitləşdirib başa salaram ki, dalaşmaq olmaz. | Anama deyəcəm və ya kimdənsə onu sakitləşdirməyini istəyəcəm. | İtələyəcəm. Onu geri çəkəcəm. Cavabını verəcəm. |
| 5. Gəl təsəvvür edək: sən görürsən ki, qatar relslərin sınmış hissəsinə yaxınlaşır, bu zaman sən nə edərsən? | Təhlükə haqqında xəbərdarlıq etmək. | Qışqırıb maşinistə əl-qol edərəm. Əlimə parlaq birşey götürüb işarə edərəm. | Stansiyaya qaçıb, ordakılara xəbər edərəm. | Oradan qaçaram. Relsləri düzəltməyə çalışaram. |
| 6. Nəyə görə evin kərpicdən tikilməsi taxtadan tikilməsindən daha yaxşıdır? | Kərpicdən tikilən ev daha uzun ömürlü, dözümlü və bərkdir. | Qeyd olunmuş əsas əlamətlərdən ən azı ikisini vurğulamalıdır. | Qeyd olunmuş əsas əlamətlərdən birini vurğulamalıdır. | Daha gözəl, ucuz və praktikdir. |
| 7. Nəyə görə cinayətkarları həbs edirlər? | İctimai təhlükəsizlik üçün. Cəzalandırmaq üçün. Düzəlsinlər deyə (islah olunsunlar) | Qeyd olunmuş əsas əlamətlərdən ən azı ikisini vurğulamalıdır. | Qeyd olunmuş əsas əlamətlərdən birini vurğulamalıdır. | Onlar pisdir. Qanunları pozmaq olmaz. Onlar cinayətkarlardır. Qaçmasınlar deyə. |

| Sual | Düzgün cavabın məzmunu | Düzgün hesab etdiyimiz cavab | Qismən düzgün cavab | Səhv cavab |
|---|---|---|---|---|
| 8. Nəyə görə gəmi batarkən ilk növbədə qadın və uşaqları xilas etmək lazımdır? | Qadınlar kişilərdən daha zəifdir.<br>Qadınlar uşağa qulluq etməyi daha yaxşı bacarırlar.<br>Uşaqları qarşıda daha uzun ömür gözləyir. | Qeyd olunmuş əsas əlamətlərdən ən azı ikisini vurğulamalıdır. | Qeyd olunmuş əsas əlamətlərdən birini vurğulamalıdır. | Çünki onlar üzməyi bacarmır. Çünki bu belə olmalıdır. |
| 9. Nəyə görə pulları evdə deyil, bankda saxlamaq daha sərfəlidir? | Çünki banklarda faiz hesablanır.<br>Daha təhlükəsizdir.<br>Lazımsız yerə pulları xərcləmək ehtimalı azalır.<br>İqtisadiyyatın inkişafı üçün faydalıdır. | Qeyd olunmuş əsas əlamətlərdən ən azı ikisini vurğulamalıdır. | Qeyd olunmuş əsas əlamətlərdən birini vurğulamalıdır. | Evdə itirmək olar. Belə daha sərfəlidir. |
| 10. Nəyə görə yaşlı və xəstə insanlara təqaüd verilir? | Onlar işləyə bilmirlər.<br>Daha əvvəl öz əməkləri ilə özlərinə təqaüd qazanıblar.<br>Zəiflərə kömək etmək lazımdır. | Qeyd olunmuş əsas əlamətlərdən ən azı ikisini vurğulamalıdır. | Qeyd olunmuş əsas əlamətlərdən birini vurğulamalıdır. | Çünki onlar yazıqdırlar. |
| 11. Nəyə görə universitetə daxil olmaq üçün imtahan vermək lazımdır? | Daha çox bilən, hazırlaşan və istedadı olanları müəyyən etmək üçün.<br>Hərkəs üçün bərabər şərait yaratmaq üçün.<br>Universtitetdə təhsil almaq üçün zəruri biliklərin yoxlanılması üçün. | Qeyd olunmuş əsas əlamətlərdən ən azı ikisini vurğulamalıdır. | Qeyd olunmuş əsas əlamətlərdən birini vurğulamalıdır. | Bilikləri yoxlamaq üçün. Hər kəsi qəbul etmək olmaz. |
| 12. Nəyə görə uşaqlar üçün plastikdən hazırlanan oyuncaqların istifadəsi taxta oyuncaqların istifadəsindən daha yaxşıdır? | Plastik daha ucuzdur.<br>Emalı daha rahatdır.<br>Daha gigiyenikdir.<br>Ağacları qorumaq üçün. | Qeyd olunmuş əsas əlamətlərdən ən azı ikisini vurğulamalıdır. | Qeyd olunmuş əsas əlamətlərdən birini vurğulamalıdır. | Daha gəşəngdir. Daha əlverişlidir. |

| Sual | Düzgün cavabın məzmunu | Düzgün hesab etdiyimiz cavab | Qismən düzgün cavab | Səhv cavab |
|---|---|---|---|---|
| 13. Nə üçün biz millət vəkillərini (deputatları) seçirik? | Dövlətin idarə olunması üçün qanunların qəbul olunması məqsədilə. Seçilən millət vəkilləri insanların maraqlarını təmsil edir. Onların vasitəsilə hakimiyyət həyata keçirilir. | Qeyd olunmuş əsas əlamətlərdən ən azı ikisini vurğulamalıdır. | Qeyd olunmuş əsas əlamətlərdən birini vurğulamalıdır. | İnsanları idarə etmək üçün. Ölkəni idarə etmək üçün. |
| 14. Nəyə görə verilmiş sözü tutmaq lazımdır? | Çünki insanların bir-birinə inanc və etibarı bunun üzərində qurulub. Verdiyimiz sözü tutmadıqda qarşıdakı insana çətinliklər və məyusluq yaşadır. | Qeyd olunmuş əsas əlamətlərdən ən azı ikisini vurğulamalıdır. | Qeyd olunmuş əsas əlamətlərdən birini vurğulamalıdır. | Çünki belə lazımdır. Bu mənəvi məsələdir. Pis hərəkətdir. |

**Cədvəl 3.1. Subtestin sualları və cavab nümunəsi**

**3-cü subtest 40 sualdan ibarət olur.** Hər düzgün cavab 1 balla dəyərləndirilir.

**4-cü subtest.** Analogiya testləri üçün qiymətlər 1-0 şəklində, oxşarlıq testləri üçün isə 2-1-0 şəklində olur. Köməklik göstərilən tapşırıqların balları ümumi nəticəyə əlavə olunmur.

Oxşarlıq tapşırığının həlli zamanı 2 bal ümumiləşdirici sözlərə görə, 1 bal isə əlavə xüsusiyyətlərin sadalanması üçün verilir.

Suallar və cavablar:

1. Limon turşdur. Qənd isə ..... ("şirindir");
2. Ayaq ilə gəzirik. Əllər ilə ..... ("götürürük");
3. Oğlanlar böyüyüb kişi olurlar. Qızlar isə ..... ("qadın", "arvad", "xala", "bibi");
4. Bıçaq və şüşə qırığı ..... ("hər ikisinə iti və kəsicidir" cavabı verərsə 1 bal, "eynidir" cavabına isə 0 bal);
5. Gavalı və gilas ..... ("meyvə", "meyvə ağacıdır" – 2 bal; "onları yeyirlər", "ağacda böyüyür", "budaqdan asılır", "yeməkdir" və ya sadalanan xüsusiyyətlərdən ən azı 2-ni qeyd etdiyi zaman – "tumu var", "nazik qabıqlıdır", "yumrudur", "şirindir" – 1 bal; "rəngləri oxşayır" – 0 bal);
6. Pişik və siçan ..... ("heyvandır", "məməlidir", "canlıdır", "dörd ayaqlıdır" – 2 bal; "onların dörd ayağı var" və ya bu xüsusiyyətlərdən ən azı 2-ni qeyd etdiyi zaman – "gözləri", "quyruqları", "bığları", "qulaqları" – 1 bal; "tez qaçırlar", "cəlddirlər", "boz rəngdədirlər", "ev heyvanıdırlar" – 0 bal);

7. Çay və kofe ..... (“tonuslaşdırıcı içkidir” – 2 bal; “içkidir”, “onları içirlər” – 1 bal; “butulkadadır”, “eyni rəngdədir”, “eyni daddadır” – 0 bal);
8. Piano və skripka ..... (“musiqi alətidir”, “simli alətdir” – 2 bal; “bu alətlərdə ifa edirlər” – 1 bal; “onların səsi var”, “onlar maraqlıdır” – 0 bal);
9. Kağız və kömür ..... (“orqanik mənşəlidir”, “tərkiblərində karbon var” – 2 bal; “orqanik maddələrdir”, “yanırlar”, “ağacdan əldə olunur”– 1 bal; “yanacaqdır” – 0 bal);
10. Kiloqram - metr ..... (“ölçü vahididir”– 2 bal; “onlarla ölçürlər”, “onlar bizə ölçü haqqında məlumat verir”, “onlar uzunluq və çəki haqqında məlumat verir” – 1 bal; 1 kq-da 1000 qram, 1 m-də 1000 mm. var – 0 bal);
11. Qayçı və tava ..... (“metaldan düzəldilir”, “məişət əşyalarıdır” – 2 bal; “evdə istifadə olunur”, “ikisi də parıldayır” – 1 bal; “dəmirdəndir”, “qulpları var” – 0 bal);
12. Dağ və göl ..... (“yer kürəsinin yarıqlarından əmələ gəlir”, “topoqrafik anlayışdır”, “coğrafi addır”, “relyef növüdür”, “relyefin elementidir” – 2 bal; “yer kürəsinin əyrilikləridir”, “torpaq səthinin əyriliyi və ya kələ-kötürlüyüdür”, “peyzajın elementləridir” – 1 bal; “su və torpaqdan ibarətdir”, “həmişə öz yerlərində dayanır”, “təbiətdir” – 0 bal);
13. Duz və su ..... (“kimyəvi maddələrdir”, “orqanik birləşmələrdir”, “həyat üçün əhəmiyyətli olan maddələr”, “qida ərzaqlarının tərkib hissəsidir” – 2 bal; “onları yeyirlər”, “bu maddələr təbiətdə mövcuddur”, “qida kimi qəbul olunur”, “molekullardan ibarətdir”– 1 bal; “kimyəvi elementlərdir”, “hər ikisi okeanda var”, “duzu sudan əldən edirlər”, “onları istifadə edirlər” – 0 bal);
14. Azadlıq və ədalət ..... (“fəlsəfi ,humanizm ,ideoloji, hüquqi bir anlayışdır”, “sosial dəyərdir”, “demokratik hüquqdur” – 2 bal; “hər bir xalqın istəyidir”, “müstəqillikdir”, “insan onlarsız xoşbəxt yaşaya bilməz” – 1 bal; “bərabərlik”, “hər insanın hüququ”, “ədalətsiz azadlıq olmaz”, “kapitalistik dövlətlərdə mövcud olmayan anlayışlar” – 0 bal);
15. Birinci və axırıncı ..... (“hər hansı bir hərəkətin etapları”, “sıranın kənarlarında duranlar” – 2 bal; “yer və sıranı bildirir”, “qıraq nöqtələrdir” və “nəyisə məhdudlaşdırır” – 1; “birinci – başlanğıc”, “axırıncı – son deməkdir”, “birinci olanda sonuncu da olur”, “əvvəl və son”, “rəqəmlər”, “sıra nömrələri”, “sıra” – 0 bal);
16. 49 və 121 ədədləri ..... (“sadə, cüt olmayan ədədlərin kvadratı” – 2 bal; “2-ə bölünmürlər”, “cüt deyillər”, “natural ədədlərdir”, “tam ədədlərdir” – 1 bal; “7 və 11-in kvadratlarıdır” – 0 bal).

**5-ci subtest** 40 sualdan ibarət olur.
Hər düzgün cavab 1 balla dəyərləndirilir (Cədvəl 3.2).

| № | Sözlər | Cavablar |
|---|---|---|
| 1. | Qələm | 2 xal - yazmaq üçün istifadə olunur, yazı yazırsız;<br>1 xal - ucu iti olur, yazar;<br>0 xal - bir çomaq deməkdir. |
| 2. | Top | 2 xal – yumru, oynadığımız şey, oyuncaq;<br>1 xal – oyun oynayaram, plastikdən hazırlanır, içi hava ilə doludur, top oynayırlar;<br>0 - basketbol topu. |
| 3. | Çərpələng | 2 xal – havada uçurulan oyuncaq, oyuncaqdır, havada uçur, kağızdan hazırlanır, uçur, oyuncaq;<br>1 xal – oynayırıq, ip bağlanır;<br>0 - uşaqlar əylənir, uşaqların çərpələngi. |
| 4. | Fənər | 2 xal – qaranlıqda yolu göstərən bir alət, axşam olanda bir yerə gedəndə işıq salır, batareya ilə işləyir, işıq sönəndə fənərdən istifadə edirik, sinfə asdığımız bəzək əşyası;<br>1 xal – lampalar sönəndə lazım olur, qaranlıq yerə tuturuq, işıq alırıq, sinfimizə asarıq. |
| 5. | Dovşan | 2 xal - bir heyvandır, hoppanan ve meşədə yaşayan bir heyvan, iki uzun qulağı vardır, çox sürətli qaçır;<br>1 xal - meşədə ən sürətli gedən, heç kim onu tuta bilməz – meşədə yaşayar, hər şeyi yeyir kök, kələm – ovçular tutur, ətini yeyirik<br>0 xal - ovçular dovşanı vurur |
| 6. | Məktub | 2 xal - yaxınlarımıza yazılan və içində xəbər olan kağız, xəbərləşməyə yarayan şey, yazırsan, zərfin içinə qoyursan, ünvanı yazıb poçt qutusuna atırsan;<br>1 xal - uzaq yerdə birindən ötrü darıxarsansa ona məktub yazırsan, poçtalyonlar gətirir, birindən məktub gəlir oxunur, uzaqda olan birinə bəzi şeyləri bildiririk;<br>0 xal - məktub alırsan, xəbərləmək, məktub yazmaq; |
| 7. | Çalmaq | 2 xal - musiqi aləti çalmaq, piano çalmaq, gitar çalmaq, nağara çalmaq<br>1 xal- ilan çalmaq, zəng çalmaq, nəsə çalmaq; |
| 8. | Saat | 2 xal – vaxtı ölçən, vaxtı göstərən bir şey, saatın neçə olduğunu göstərir;<br>1 xal – anamız bizə saat 5-də gəl desə biz o vaxtda gəlirik, baxırıq ki, saat neçə olubdur, qola taxılan bir şey, dəqiqəni göstərir. |

| № | Sözlər | Cavablar |
|---|---|---|
| 9. | Köçmək | 2 xal - bir insan ölür, o köçməkdir, taxtadan bir daxmanın üstünə bir şey düşsə, çökə bilər, bir yerdən bir yerə köçmək, bir ölkədən başqa bir ölkəyə köçmək;<br>1 xal – quşlar köçür, insan bir yerdə yaşaya bilməzsə köçür, uzaqlara getmək, bir müharibədə vəziyyət pisdisə, başqa kəndə köçürlər;<br>0 xal - köçəri quşlar kimi dağlarda yaşayırlar, dağlarda yaşadığı üçün köçəri deyiblər, quşlar sürətli uçurlar; |
| 10. | Bacarıqlı | 2 xal – hər iş əlindən gələn şəxs, çox bacarıqlı biri, hər şeyi edə bilən, bəzi şeylərin öhdəsindən gələ bilən;<br>1 xal - bir şeyi edə bilənə deyilir;<br>0 xal - afərin deməkdir. |
| 11. | Nizamlamaq | 2 xal – bir şeyi yoluna qoymaq, bəzi işlər qarışar bunu nizamlamaq lazımdır, sıraya qoymaq, düzəltmək, bir şeyi yerli- yerinə qoymaq, dağınıq olan bir şeyi toplamaq, səliqəyə salmaq;<br>1 xal - otağımızı, evimizi səliqəyə salırıq, ətrafda qələm, kitab, kağız varsa onları bir yerə yığırıq, bir oyunu yığmaq. |
| 12. | Xoşbəxt | 2 xal- sevincli, məsud (olan, olmaq), yaxşı bir şey olduğu üçün sevinmək, insanı sevindirən hiss;<br>1 xal – istədiyinə qovuşmuş, əsasən hər kəs bir şey tapıb xoşbəxt olur, insan çöldə su tapdığı vaxt xoşbəxt olar, atası hədiyyə gətirər, uşaq xoşbəxt olar;<br>0 xal - bir şey olanda çox xoşbəxt olarsan, gülərüz insanlara deyirik, xoşbəxt yaşamaq. |
| 13. | Qumar | 2 xal - zövq və ya pul üçün oynanılan bir oyun, böyüklərin oynadığı bir oyun, pulludur, at yarışında mərc;<br>1 xal - bəzi oğlanların oynadığı, kağızla oynanılan oyun, bir növ pis vərdiş, pul itirərsən, oynanılan bir şey;<br>0 xal - günahdır-pisdir-vərdiş-əyləncə. |
| 14. | Xəbərdar etmək | 2 xal - pis bir hadisəni əvvəlcədən o şəxsə xəbər etmək və ondan qorunmağını təmin etmək, bir şeyi xəbər etmək, təhlükəli bir şey varsa, böyüklərimiz bunu bilirsə bizə deyərlər, bizi xəbərdar edərlər, tənbeh eləmək;<br>1 xal - doğru biri səhv bir iş edən adamı xəbərdar edər, bu səhvdir bunu belə eləmə demək (+ kimisə xəbərdar edən);<br>0 xal - yazını yaxşı yaz demək. |

| № | Sözlər | Cavablar |
|---|---|---|
| 15. | Mağara | 2 xal – dağlarda dərin oyuqlara deyilir, bir qayalığın içinə açılan deşik, təbii olaraq yaranmış sığınacaq, qapalı bir yer, qaranlıqdır, içində heyvan yaşaya bilər, qədimdə insanların məskunlaşdığı sığınacaq;<br>1 xal - qədimdə daş dövründə mağaralarda yaşayırdılar, qaranlıq qapalı yer, içi qaranlıq bir yer, üstü daşdan olan bir yer (+ sığınacaq, qorxulacaq bir yer);<br>0 xal - dairəvi bir şeydir, qorxarıq. |
| 16. | Həsrət | 2 xal – darıxma, kimdənsə ötrü darıxmaq;<br>1 xal - bir şeyə uzaq qalarsansa həsrət olar, bir şeyi görməyəndə həsrət qalarıq, həsrət qalmaq, bir şəxsə həsrət qalarıq;<br>0 xal - xatırlamaq, birinə həsrət yəni onu sevir; |
| 17. | Xatirə | 2 xal - keçmiş günləri xatırlama, qocalar bizə xatirələrini danışar, xatirə, keçmişdə qalmış;<br>1 xal – başımızdan keçən hadisələr, bir uşaq əvvəllər Türkiyəyə gedib və indi dostlarına onu danışar, xatirə olardı (hər kəsin xatirələri var);<br>0 xal - kiminsə abidəsi. |
| 18. | Cəhd | 2 xal - güc sərf etmək, bir işi bacarmaq üçün sərf olunan güc, bir şeyi bacarmaq üçün çalışmaq, bir şeyə çox çalışmaq;<br>1 xal - bir şeyi bacarmaq üçün sərf edilən cəhd, bir insan kasıbdı və varlı olmaq üçün cəhd edir (+ çox cəhd etmək);<br>0 xal - bir şeydən bezərsən, səbr edərsən ona cəhd deyərlər, elədiyimiz işə yorulduqdan sonra cəhd deyərlər. |
| 19. | Narahatlıq | 2 xal – bir qorxu, bir əməliyyatda öləcək deyə qorxmaq, insanı gərgin edən şey, həyəcan, gərginlik;<br>1 xal – biri qatarda, çox basa-basdır düşə bilməyəcəm deyə həyəcanlanır, biri getdi gəlmədi narahat olursan, maraq, şübhə (+ birdən bir hissə qapılmaq);<br>0 xal – bəzi davranışlarda görülən fərqlilik. |
| 20. | Planlamaq | 2 xal – planlamaq, əvvəldən nə edəcəyini yazmaq və ya yadda saxlamaq, eləmək üçün düşünmək, əvvəldən bir işi beynində hazırlamaq;<br>1 xal- insanlar bir bankda oğurluq edəcəklər və onlar bunu necə edəcəklərini düşünürlər. |
| 21. | Yüksəltmək | 2 xal - bir şeyi böyütmək, kimisə yüksəyə ucaltmaq;<br>1 xal - uğuru olan birini mükafatlandırmaq, kiməsə təşəkkürnamə vermək, tərifləmək; |

| № | Sözlər | Cavablar |
|---|---|---|
| | | 0 xal - gözəlləşdirmək, etdiyimiz işin bəyənilməsi. |
| 22. | Söz | 2 xal - bir şeylər bildirən mənalı hərf qrupu.<br>1 xal - bir şeyi ifadə etmək üçün istifadə olunur, bəzilərinin mənalarını bilmərik və lüğətdən taparıq, yazdığımız qısa cümlə kimi şey;<br>0 xal - əlifbadakı hərflərdən yaranır, çox vaxt mənası olmayan lüğətdə olan hərf, biri ilə danışmaqdır. |
| 23. | Xain | 2 xal - mərhəmətsiz və qəddar, xəyanət edən, pis niyətli, zalım, bir birli ilə razılığa gəlib casusluq edən şəxs, bir işdə ikiüzlülük etmək;<br>1 xal - vəhşi, insanı aldadan, bəziləri onu təhqir kimi istifadə edir, bir dosta xainlik edər;<br>0 xal – açıqgöz, günahkar, çox zarafatcıl, nadinc; |
| 24. | Varlıq | 2 xal - var olan şey, dünyada (həyatda) olan, bir şeyin var olması, canlı, zənginlik, mal, mülk;<br>1 xal – bir insanı dünyaya Allah gətirir, ona Varlıq deyilir, əşya. Bir insanın tarlası, bağçası var, ona varlıq deyilir. Yaşamaq;<br>0 xal – adam heç ölməz, həmişə yaşayar. |
| 25. | Hiyləgər | 2 xal - müxtəlif hadisələrdən asanlıqla qurtula bilən insan, ağıllı, özünün qazanması üçün beynini işlədən, saman altından su yeridən;<br>1 xal - çox ağıllı, maraqlarını düşünən, ağıllı – tülkü kimi hiyləgər olan, tülkü hiyləgərdir, hiyləgər tülkü;<br>0 xal - hamını incidir, tülkü deməkdir. |
| 26. | Məsum | 2 xal – günahsız, yazıq – qəbahəti olmayan;<br>1 xal – eləmədiyi bir işə görə həbsə girir, eləmədiyi üçün məsum sayılır, məsum dayanan şəxs, yaxşı ürəkli biri, qəmgin, utancaq, keyfi olmayan. |
| 27. | Uyğunlaşan | 2 xal - yaxşı keçinən insan, nadinclik etməyən, sözə qulaq asan, istənilənі edən, hər şeyə razı olan;<br>1 xal - səssiz, sakit, çox davakar olmayan, sözə baxan;<br>0 xal - heyvanlara deyilir, bağlı, soyuqqanlı, düşüncəli. |
| 28. | Nemət | 2 xal - Allahın qullarına verdiyi şey, yaxşı və gözəl olan şey, Allah vergisi;<br>1 xal - çörək nemətdir, dəyərli şey, ruzi, insanlara verilən bəzi şeylər, bərəkət. |
| 29. | Həsr etmək | 2 xal - bir iş olduğu vaxt o iş üçün verilən şey, qurban həsr etmək kimi – bir dilək üstündə verilən şey;<br>1 xal - bir şey diləmək, sinif keçmək üçün həsr edilir. |

| № | Sözlər | Cavablar |
|---|---|---|
| 30. | Yönəltmək | 2 xal - yol göstərmə, bir məqsədə doğru o şəxsi istəkli hala gətirmək – yönləndirmək;<br>1 xal – bir adam maşını sağa, sola çevirir, ona yönəltmək deyilir, yaxşı, ya da pisə getmək, o tərəfə getmək, bir şəxsi başqa bir şey et deyə yönəltmək, pis insanı yaxşılığa yönləndirmək. |
| 31. | Yadigar | 2 xal - böyüklərimizdən qalan xatirə, kiməsə başqa birindən qalan əşya;<br>1 xal - köhnədən qalan bir şey, xatirə;<br>0 xal - hədiyyə, əsər. |
| 32. | İnsaf | 2 xal - mərhəmət, yazığı gəlmək;<br>1 xal – uşağa vuracaqsa, deyirik ki "insaf elə", bağışlamaq, vicdan. |
| 33. | Şərəf | 2 xal – qürur, şərəf, namus;<br>1 xal - hörmət, başqalarının yanında bizi lağa qoyar və şərəfimizə toxunar, bir nəfərdə gözlə görülməyən mücərrəd şey;<br>0 xal – böyük bir şey. |
| 34. | Rəqabət | 2 xal - bir başqa kimsə ilə yarışmaq, iki şəxs arasındakı yarış, iki nəfər arasında keçən böyük mübarizə;<br>1 xal – bir-birinə rəqib olma, kimdənsə qabağa keçmək üçün yoxlanılan yollar, bir adam çox mal satsa ona rəqabət deyilər;<br>0 xal - fərq, qarşı gəlmək, kədər. |

**Cədvəl 3.2. Veksler testin 5-ci subtestin açarı**

**6-cı subtest** 16 tapşırıqdan ibarətdir. Hər tapşırığın zamanında düzgün həlli 1 balla hesablana bilər. Bu subtest üzrə maksimal bal 16.

**7-ci subtest** 20 şəkildən ibarət olur. Hər düzgün cavaba görə 1 bal hesablanılır. Subtest üzrə maksimal bal 20 (Cədvəl 3.3).

| № | Cavab | Qiymət | № | Cavab | Qiymət |
|---|---|---|---|---|---|
| 1. | Diş | 1 | 11. | Üzgəc | 1 |
| 2. | Ayaqlar | 1 | 12. | Dəlik | 1 |
| 3. | Qulaq | 1 | 13. | Bığlar | 1 |
| 4. | Ağız | 1 | 14. | Barmaq | 1 |
| 5. | Bığ | 1 | 15. | Qaşlar | 1 |
| 6. | Qapının ilgəyi | 1 | 16. | Spirt | 1 |
| 7. | Dırnaq | 1 | 17. | Şlyapanın kənarları | 1 |
| 8. | Altı | 1 | 18. | Çətirin ilmələri | 1 |
| 9. | Vint | 1 | 19. | Dırnaq | 1 |
| 10. | Düymələr üçün ara | 1 | 20. | Kölgə | 1 |

**Cədvəl 3.3. Veksler testi, 7-ci subtestin açarı**

**8-ci subtestin** tapşırığını ilk cəhd ilə yerinə yetirən 2 balla, ikinci cəhd ilə yerinə yetirən 1 balla qiymətləndirilir. Psixoloq bu testin interpretasiyası üçün stimul şəkillərin hər birisinin yuxarı sağ küncünə xüsusi diqqət yetirməlidir. Hər şəklin yuxarısında hərf yerləşdirilmişdir. Uşaq testi cavablayarkən psixoloq ardıcıllığı məhz o hərflərin köməyilə qeyd etməlidir.

“A” şəkli üçün “ABC” ardıcıllığı 1 balla qiymətləndirilir.

“B” şəkli üçün “TOY” ardıcıllığı 2 balla, “OYT” ardıcıllığı 1balla qiymətləndirilir.

“C” şəkli üçün “İRON” ardıcıllığı 2 balla, “İR-ON” ardıcıllığı isə 1balla dəyərləndirilir.

“D” şəkli zamanı yeni təlimat verilir. Şəkli “ ABC2 ardıcıllıqla 45 saniyə ərzində düzə biləndə 2 bal hesablanır.

Yanğınsöndürən-“FİRE” ardıcıllıqla düzüləndə-1 balla,

Oğru - “THUG” ardıcıllıqla düzüləndə -1balla,

Fermer - “QRST”, “SQRT” ardıcıllıqla düzüləndə - 1 balla,

Piknik - “EFGH”, “EFGH” ardıcıllıqla düzüləndə -1 balla,

Yatağan - “PERCY” ardıcıllıqla düzüləndə - 1 balla,

Bağban - “FİSHER”, “FSİHER” ardıcıllıqla düzüləndə -1balla,

Yağış - “MASTER”, “MSTEAR” “ASTEMR” ardıcıllıqla düzüləndə -1balla hesablanılır.

**9-cu subtest** 10 tapşırıqdan ibarətdir. Hər düzgün ardıcıllıq 1 balla hesablanır. Eyni zamanda uşağın reaksiyası, hərəkətləri, müvəffəqiyyəti və ya uğursuzluğu ciddi şəkildə qeydə alınaraq təhlil edilir.

**10-cu subtestdə** oğlan fiqurun yalnız ayaqları səhv qoyulubsa, yəni sol və sağ ayaqlar tərs şəkildədirsə və ya dabanları yuxarı baxırsa – 3 bal. Ayaqlar yoxdursa və ya əllərin əvəzinə qoyulubsa – 2 bal. Bədənin yalnız yuxarı hissəsi düz yığılıb – 1 bal.

At, üz, avtomobil: əgər iki element düz birləşibsə - 1 bal. Əgər bir element düz yerləşdirilibsə - 0.5 bal.

Bu subtest zamanı həllindən asılı olmayaraq bütün tapşırıqlar təqdim olunur. Qiymətləndirmə vaxtdan asılı olur (Cədvəl 3.4):

| Ballar | 9 | 8 | 7 | 6 | 5 | 4 | Şəkillər |
|---|---|---|---|---|---|---|---|
| **Vaxt** | -- | -- | 1-10 san | 11-15 san | 16-20 san | 21-120 san | Oğlan |
| **Vaxt** | 1-15 san | 16-20 san | 21-30 san | 31-180 san | | | Üz |
| **Vaxt** | 1-35 san | 36-45 san | 46-70 san | 71-180 san | | | At |
| **Vaxt** | 1-25 san | 26-30 san | 31-45 san | 46-180 san | | | Avtomobil |

**Cədvəl 3.4. 10-cu subtestin vaxt limitləri**

**11-ci subtest**. İlk beş fiqur qiymətləndirməyə daxil deyil. Əgər ilk beş fiqurun həlli zamanı uşaq təlimatı qavramadısa, ona sınaq üçün daha bir neçə fiqur verilir və bu fiqurlar qiymətləndirməyə daxil olmur. Bir fiqur 1 bal verir. *A* variantı üçün vaxt limiti 120 saniyədir.

*B* variantı üçün isə cavablar vaxta uyğun hesablanır (Cədvəl 3.5):

| **Ballar** | 50 | 49 | 48 | 47 | 46 | 45 |
|---|---|---|---|---|---|---|
| **Vaxt** | 70 san. | 71-80 san. | 81-90 san. | 91-100 san. | 101-110 san. | 111-120 san. |

**Cədvəl 3.5. 11-ci subtestin vaxt limitləri**

**12-ci subtestin** hər bir düzgün cavab 1 bal ilə qiymətləndirilir. Subtestin nəticələrinin keyfiyyətinin analizi zamanı 3 əsas problemi aşkar etmək olar:

1. Hərəkətlərin koordinasiyanın pozulması və özünü idarəetmənin zəifliyi (uşaq labirintləri tez keçsə də, çox sayda səhvlərə yol verir);
2. Lənglik, əzələ tonusunun aşağı olması (qoyulmuş vaxt limitinə sığa bilmir);
3. Zəif ekstrapolasiya, fəaliyyəti planlaya bilmir. Cavablardan əlavə psixoloji diaqnostika zamanı uşaqda mövcud olan fərdi keyfiyyətlərin, testin həllində yaratdığı təsiri də şərh oluna bilər. Ən vacib göstəricilər aşağıdakılardır:
   1. Uşağın eksperimentator ilə ünsiyyətə girmə xüsusiyyətləri. Uşaq ünsiyyəti rahat qurur, sual verir, özü haqqında danışır. Əgər uşaq utancaq və özünə qapalıdırsa, o zaman testi qeyri-verbal tapşırıqlardan başlamaq məqsədəuyğun olar. Rəngli şəkillər və kublar uşaqda maraq yaradır və onda olan qorxu hissini aradan qaldırır. Uşaq vəziyyətə adaptasiya olduqdan sonra testin verbal hissəsinə keçmək olar. Utancaq və sıxılan uşaqlardan geniş cavab tələb etmək lazım deyil;
   2. Əksər uşaqlar bu testin tapşırıqlarını maraqla qarşılayır və çox zaman əlavə suallar verir, özləri haqqında məlumat da bölüşmək istəyirlər. Bu hal testin gedişatı zamanı uzadıla bildiyi üçün uşağı mülayim şəkildə dayandırmaq lazımdır ("sən çox maraqlı danışırsan, lakin gəl indi mənim verdiyim suallara cavab verək, testi bitirdikdən sonra isə istəsən səni dinliyə bilərəm");
   3. Motivasiyanın xüsusiyyətləri: tapşırığın uşaqda maraq oyatması, uşağın uğursuzluqlara olan reaksiyası, uşağın öz bacarıqlarının qiymətləndirməsi. Güclü idrak motivasiyası olan uşaqlarda tapşırığın dayandırılması uğursuzluq və ya narazılıq hissi yarada bilər. Əgər uşağın tapşırıqla tanışlığı (oriyentasiyası) uzun çəkirsə, o daha uyğun cavabı axtarırsa və vaxt məhdudiyyətini keçirsə, o zaman onu yarımçıq saxlamaq olmaz. Tapşırığı sona qədər yerinə yetirməsinə imkan yaradılmalıdır. Yekunda isə tapşırığın həll olunmasının xüsusiyyətləri qeyd olunur;
   4. Uşağın fəaliyyət dinamik aspektləri. Bura aiddir: tapşırığın yerinə yetirilmə sürəti, impulsivliyi, ləngliyi;
   5. Diqqətin xüsusiyyətləri: fikrin yayılması, özünüidarəetmənin göstəriciləri;

6. Motorikanın xüsusiyyətləri: tonus, hərəkətlərin dəqiqliyi və s.;
7. Nitqin xüsusiyyətləri: tələffüz çətinlikləri, məzmuna uyğun olmayan sözlərin işlənilməsi və s.

Testin sonunda verbal və qeyri-verbal subtestlər üzrə cavablar toplanılır. Cədvəl 3.6-nın köməyilə verbal, qeyri-verbal və ümumi IQ səviyyəsi müəyyən edilir.

| **Verbal IQ-nun göstəricisi** | | | | **Qeyri-verbal IQ-nun göstəricisi** | | | | **Ümumi IQ-nun göstəricisi** | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Balların cəmi** | **İQ** | **Balların cəmi** | **İQ** | **Balların cəmi** | **İQ** | **Balların cəmi** | **İQ** | **Balların cəmi** | **İQ** | **Balların cəmi** | **İQ** | **Balların cəmi** | **İQ** |
| 6 | 45 | 51 | 101 | 10 | 44 | 51 | 101 | 26 | 46 | 76 | 83 | 126 | 119 |
| 7 | 46 | 52 | 103 | 11 | 46 | 52 | 103 | 27 | 47 | 77 | 83 | 127 | 120 |
| 8 | 47 | 53 | 104 | 12 | 47 | 53 | 104 | 28 | 48 | 78 | 84 | 128 | 120 |
| 9 | 48 | 54 | 105 | 13 | 48 | 54 | 106 | 29 | 48 | 79 | 85 | 129 | 121 |
| 10 | 50 | 55 | 106 | 14 | 50 | 55 | 107 | 30 | 49 | 80 | 85 | 130 | 122 |
| 11 | 51 | 56 | 108 | 15 | 51 | 56 | 108 | 31 | 50 | 81 | 86 | 131 | 123 |
| 12 | 52 | 57 | 109 | 16 | 53 | 57 | 110 | 32 | 51 | 82 | 87 | 132 | 123 |
| 13 | 53 | 58 | 110 | 17 | 54 | 58 | 111 | 33 | 51 | 83 | 88 | 133 | 124 |
| 14 | 55 | 59 | 111 | 18 | 55 | 59 | 113 | 34 | 52 | 84 | 88 | 134 | 125 |
| 15 | 56 | 60 | 113 | 19 | 57 | 60 | 114 | 35 | 53 | 85 | 89 | 135 | 125 |
| 16 | 57 | 62 | 114 | 20 | 58 | 62 | 115 | 36 | 54 | 86 | 90 | 136 | 126 |
| 17 | 58 | 62 | 115 | 21 | 60 | 62 | 117 | 37 | 54 | 87 | 91 | 137 | 127 |
| 18 | 60 | 63 | 116 | 22 | 61 | 63 | 118 | 38 | 55 | 88 | 91 | 138 | 128 |
| 19 | 61 | 64 | 118 | 23 | 62 | 64 | 120 | 39 | 55 | 89 | 92 | 139 | 128 |
| 20 | 62 | 65 | 119 | 24 | 64 | 65 | 121 | 40 | 56 | 90 | 93 | 140 | 129 |
| 21 | 63 | 66 | 120 | 25 | 65 | 66 | 122 | 41 | 57 | 91 | 93 | 141 | 130 |
| 22 | 65 | 67 | 121 | 26 | 67 | 67 | 124 | 42 | 58 | 92 | 94 | 142 | 131 |
| 23 | 66 | 68 | 123 | 27 | 68 | 68 | 125 | 43 | 59 | 93 | 95 | 143 | 131 |
| 24 | 67 | 69 | 124 | 28 | 69 | 69 | 127 | 44 | 59 | 94 | 96 | 144 | 132 |
| 25 | 69 | 70 | 125 | 29 | 71 | 70 | 128 | 45 | 60 | 95 | 96 | 145 | 133 |
| 26 | 70 | 71 | 126 | 30 | 72 | 71 | 129 | 46 | 61 | 96 | 97 | 146 | 133 |
| 27 | 71 | 72 | 128 | 31 | 74 | 72 | 131 | 47 | 62 | 97 | 98 | 147 | 134 |
| 28 | 72 | 73 | 129 | 32 | 75 | 73 | 132 | 48 | 62 | 98 | 99 | 148 | 135 |
| 29 | 74 | 74 | 130 | 33 | 76 | 74 | 133 | 49 | 63 | 99 | 99 | 149 | 136 |
| 30 | 75 | 75 | 131 | 34 | 78 | 75 | 135 | 50 | 64 | 100 | 100 | 150 | 136 |
| 31 | 76 | 76 | 133 | 35 | 79 | 76 | 136 | 51 | 64 | 101 | 101 | 151 | 137 |
| 32 | 77 | 77 | 134 | 36 | 80 | 77 | 138 | 52 | 65 | 102 | 101 | 152 | 138 |
| 33 | 79 | 78 | 135 | 37 | 82 | 78 | 139 | 53 | 66 | 103 | 102 | 153 | 138 |
| 34 | 80 | 79 | 137 | 38 | 83 | 79 | 140 | 54 | 67 | 104 | 103 | 154 | 139 |
| 35 | 81 | 80 | 138 | 39 | 85 | 80 | 142 | 55 | 67 | 105 | 104 | 155 | 140 |
| 36 | 82 | 81 | 139 | 40 | 86 | 81 | 143 | 56 | 68 | 106 | 104 | 156 | 141 |
| 37 | 84 | 82 | 140 | 41 | 87 | 82 | 145 | 57 | 69 | 107 | 105 | 157 | 141 |
| 38 | 85 | 83 | 142 | 42 | 89 | 83 | 146 | 58 | 70 | 108 | 106 | 158 | 142 |
| 39 | 86 | 84 | 143 | 43 | 90 | 84 | 147 | 59 | 70 | 109 | 107 | 159 | 143 |

| Verbal IQ-nun göstəricisi | | | | Qeyri-verbal IQ-nun göstəricisi | | | | Ümumi IQ-nun göstəricisi | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Balların cəmi** | **İQ** | **Balların cəmi** | **İQ** | **Balların cəmi** | **İQ** | **Balların cəmi** | **İQ** | **Balların cəmi** | **İQ** | **Balların cəmi** | **İQ** | **Balların cəmi** | **İQ** |
| 40 | 87 | 85 | 144 | 44 | 92 | 85 | 149 | 60 | 71 | 110 | 107 | 160 | 144 |
| 41 | 89 | 86 | 145 | 45 | 93 | 86 | 150 | 62 | 71 | 111 | 108 | 161 | 144 |
| 42 | 90 | 87 | 147 | 46 | 94 | 87 | 152 | 62 | 72 | 112 | 109 | 162 | 145 |
| 43 | 91 | 88 | 148 | 47 | 96 | 88 | 153 | 63 | 73 | 113 | 109 | 163 | 146 |
| 44 | 92 | 89 | 149 | 48 | 97 | 89 | 154 | 64 | 74 | 114 | 110 | 164 | 146 |
| 45 | 94 | 90 | 150 | 49 | 99 | 90 | 156 | 65 | 75 | 115 | 111 | 165 | 147 |
| 46 | 95 | 91 | 151 | 50 | 100 | | 157 | 66 | 76 | 116 | 112 | 166 | 148 |
| 47 | 96 | 92 | 153 | | | | | 67 | 76 | 117 | 112 | 167 | 149 |
| 48 | 97 | 93 | 154 | | | | | 68 | 77 | 118 | 113 | 168 | 149 |
| 49 | 99 | 94 | 155 | | | | | 69 | 77 | 119 | 114 | 169 | 150 |
| 50 | 101 | | | | | | | 70 | 78 | 120 | 115 | 170 | 151 |
| | | | | | | | | 71 | 79 | 121 | 115 | 171 | 152 |
| | | | | | | | | 72 | 80 | 122 | 116 | 172 | 152 |
| | | | | | | | | 73 | 80 | 123 | 117 | 173 | 153 |
| | | | | | | | | 74 | 81 | 124 | 117 | 174 | 154 |
| | | | | | | | | 75 | 82 | 125 | 118 | 175 | 154 |

**Cədvəl 3.6. Veksler testi, ümumi nəticələr**

**Nümunə:**

11 yaşlı E. Veksler testin qeyri-verbal subtestlər üzrə 67 bal, verbal subtestlər üzrə isə 55 bal toplamıştır.

Cədvəl 3,6-nın köməyilə müəyyən edilir ki, E.-nin qeyri-verbal IQ səviyyəsi 121, verbal IQ isə 113 təşkil edir.

Ümumi IQ səviyyəsi isə bərabərdir: 67+55=122 bal. Buda **116** IQ təşkil edir.

**Veksler testi üzrə IQ göstəricilərinin klassifikasiyası:**

- 130-da yuxarı bal – çox yüksək intellekt, əhalinin 2,2% -də rast gəlinir;
- 120-129 bal arası- yüksək intellekt, əhalinin 6,7% -də rast gəlinir;
- 110-119 bal - yaxşı norma, əhalinin 16,6% -də rast gəlinir;
- 90-109 bal arası- orta intellekt, əhalinin 50%-də rast gəlinir;
- 80-89 bal arası - aşağı norma, əhalinin 16,1% -də rast gəlinir;
- 70-79 bal arası – sərhəd göstəriciləri (norma və patologiya), əhalinin 6,7% -də rast gəlinir;
- 69 və daha az - əqli nöqsan/defekt, əhalinin 2,2% -də rast gəlinir.

### 3.1.2. Raven testi

**Nəticələrinin təhlili:** Uşağın qeyd etdiyi cavablar açar cədvəllə yoxlanılır (Cədvəl 3.7). Düzgün cavabların sayı və faizi hesablanılır. Daha sonra uşağın nəticəsi müvafiq qaydalara uyğun açıqlanılır.

**Misal:** 8 yaşlı Ülvi 32 suala düzgün cavab verir. 32*100/36= 88, 8%

Cədvəl 3.8-ə nəzər yetirdikdə biz müəyyən edirik ki, uşağa aid olan yaş qrupu 2-ci dərəcəyə uyğundur. Acıqlamadan bu nəticəyə gəlirik ki, uşaq qeyri-adi intellektə sahibdir.

Eyni nəticənin IQ ballar ilə hesablanması üçün cədvəl 3,9-də uşağın topladığı bala və yaşına uyğun olan pəncərəni müəyyən edirik. Bu göstərici Ülvi üçün 118 təşkil edir. Cədvəl 3.10-da isə bu nəticənin orta səviyyədən yuxarı olan intellekt göstəricisi olduğunu müəyyənləşdirmiş oluruq.

Testin açarı cədvəl 3.7-də təqdim olunub:

| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **A seriyası** | 4 | 5 | 1 | 2 | 6 | 5 | 1 | 3 | 4 | 2 | 3 | 6 |
| **AB seriyası** | 4 | 5 | 1 | 6 | 2 | 5 | 4 | 3 | 2 | 3 | 1 | 6 |
| **B seriyası** | 4 | 1 | 3 | 6 | 5 | 4 | 1 | 3 | 2 | 5 | 2 | 6 |

**Cədvəl 3.7. Raven testin açarı**

| Faiz | Dərəcə |
|---|---|
| **95 və daha çox** | I dərəcə; Yaş qrupuna uyğun olan intellektin yüksək inkişafı. |
| **75-95** | 2 dərəcə; Bu yaş qrupu üçün qeyri-adi intellekt. |
| **25-74** | 3 dərəcə; Bu yaş qrupu üçün orta nəticə. |
| **5-24** | 4 dərəcə; Orta səviyyədən aşağı intellekt. |
| **5 və az** | 5 dərəcə; İntellektual inkişafın qüsur/defekti. |

**Cədvəl 3.8. İntellektin inkişafının faiz şkalası**

| Ballar | Uşağın yaşı | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 8 | 8,5 | 9 | 9,5 | 10 | 10,5 | 11 | 11,5 | 12 | 12,5 | 13 | 13,5 | 16-30 |
| 1 | 73 | 68 | 65 | 59 | 57 | 53 | 53 | 50 | 48 | 46 | 46 | 46 | - |
| 2 | 74 | 70 | 67 | 61 | 56 | 56 | 54 | 51 | 49 | 49 | 48 | 47 | - |
| 3 | 76 | 72 | 68 | 62 | 60 | 57 | 55 | 53 | 51 | 50 | 49 | 49 | - |
| 4 | 77 | 73 | 70 | 64 | 61 | 59 | 57 | 54 | 52 | 51 | 50 | 50 | - |
| 5 | 79 | 75 | 71 | 65 | 60 | 58 | 55 | 53 | 53 | 52 | 52 | 51 | - |
| 6 | 81 | 76 | 73 | 67 | 64 | 61 | 59 | 57 | 55 | 54 | 53 | 52 | - |
| 7 | 82 | 78 | 74 | 68 | 66 | 63 | 61 | 58 | 56 | 55 | 54 | 54 | - |
| 8 | 84 | 79 | 76 | 70 | 67 | 64 | 62 | 60 | 57 | 57 | 55 | 55 | - |
| 9 | 85 | 81 | 77 | 71 | 69 | 66 | 64 | 61 | 59 | 58 | 57 | 56 | - |
| 10 | 87 | 83 | 79 | 73 | 70 | 67 | 65 | 62 | 60 | 59 | 59 | 57 | 55 |
| 11 | 89 | 84 | 80 | 74 | 72 | 69 | 66 | 64 | 61 | 61 | 61 | 59 | 57 |
| 12 | 90 | 86 | 82 | 76 | 73 | 70 | 68 | 65 | 64 | 62 | 60 | 60 | 58 |
| 13 | 92 | 87 | 83 | 77 | 75 | 71 | 69 | 67 | 64 | 63 | 62 | 61 | 59 |
| 14 | 93 | 89 | 79 | 75 | 73 | 71 | 69 | 68 | 65 | 65 | 63 | 62 | 61 |
| 15 | 95 | 90 | 86 | 80 | 78 | 74 | 72 | 69 | 67 | 66 | 64 | 64 | 62 |
| 16 | 97 | 92 | 88 | 82 | 79 | 76 | 73 | 72 | 68 | 67 | 66 | 65 | 65 |
| 17 | 98 | 95 | 89 | 83 | 81 | 77 | 75 | 72 | 69 | 69 | 67 | 66 | 65 |
| 18 | 100 | 95 | 91 | 85 | 82 | 79 | 76 | 74 | 71 | 70 | 68 | 67 | 66 |
| 19 | 101 | 97 | 92 | 86 | 84 | 80 | 78 | 75 | 72 | 71 | 69 | 69 | 67 |
| 20 | 103 | 98 | 94 | 88 | 85 | 81 | 79 | 76 | 73 | 72 | 71 | 70 | 69 |
| 21 | 104 | 100 | 95 | 89 | 87 | 83 | 80 | 78 | 75 | 74 | 72 | 71 | 70 |

| Ballar | Uşağın yaşı | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 8 | 8,5 | 9 | 9,5 | 10 | 10,5 | 11 | 11,5 | 12 | 12,5 | 13 | 13,5 | 16-30 |
| 22 | 105 | 101 | 97 | 91 | 88 | 84 | 82 | 79 | 76 | 75 | 73 | 72 | 71 |
| 23 | 107 | 103 | 98 | 92 | 90 | 86 | 83 | 81 | 77 | 76 | 74 | 74 | 72 |
| 24 | 108 | 104 | 100 | 94 | 91 | 87 | 85 | 82 | 79 | 78 | 76 | 75 | 74 |
| 25 | 109 | 106 | 101 | 95 | 93 | 89 | 86 | 83 | 80 | 79 | 77 | 76 | 75 |
| 26 | 110 | 107 | 103 | 97 | 94 | 90 | 87 | 85 | 81 | 80 | 78 | 77 | 76 |
| 27 | 112 | 108 | 104 | 98 | 96 | 91 | 89 | 86 | 83 | 82 | 80 | 79 | 75 |
| 28 | 113 | 110 | 106 | 100 | 97 | 93 | 90 | 88 | 83 | 83 | 81 | 80 | 79 |
| 29 | 114 | 111 | 107 | 102 | 99 | 94 | 92 | 89 | 85 | 84 | 82 | 81 | 80 |
| 30 | 116 | 113 | 109 | 103 | 100 | 96 | 93 | 90 | 87 | 86 | 83 | 82 | 82 |
| 31 | 117 | 114 | 110 | 105 | 102 | 97 | 94 | 92 | 85 | 85 | 85 | 84 | 83 |
| 32 | 118 | 115 | 112 | 106 | 103 | 99 | 96 | 96 | 93 | 86 | 86 | 85 | 84 |
| 33 | 120 | 117 | 113 | 108 | 104 | 100 | 97 | 95 | 91 | 90 | 87 | 86 | 86 |
| 34 | 121 | 118 | 115 | 113 | 105 | 102 | 99 | 96 | 92 | 91 | 88 | 87 | 87 |
| 35 | 122 | 120 | 116 | 111 | 107 | 103 | 100 | 97 | 93 | 92 | 90 | 89 | 83 |
| 36 | 123 | 121 | 118 | 112 | 109 | 105 | 102 | 99 | 95 | 93 | 91 | 90 | 90 |
| 37 | 125 | 122 | 119 | 114 | 110 | 107 | 104 | 100 | 96 | 95 | 92 | 91 | 91 |
| 38 | 126 | 124 | 121 | 115 | 112 | 108 | 105 | 102 | 97 | 96 | 94 | 92 | 92 |
| 39 | 127 | 125 | 122 | 117 | 115 | 110 | 107 | 104 | 99 | 97 | 95 | 94 | 94 |
| 40 | 129 | 127 | 124 | 118 | 115 | 112 | 109 | 106 | 100 | 99 | *96* | 95 | 95 |
| 41 | 130 | 128 | 125 | 120 | 117 | 113 | 111 | 108 | 102 | 100 | *91* | 96 | 96 |
| 42 | 133 | 129 | 127 | 121 | 118 | 115 | 112 | 109 | 104 | 102 | 99 | 97 | 97 |
| 43 | 132 | 131 | 128 | 123 | 120 | 117 | 114 | 111 | 106 | 104 | 100 | *99* | 99 |
| 44 | 134 | 132 | 130 | 125 | 121 | 118 | 116 | 113 | 108 | 106 | 102 | 100 | 100 |
| 45 | 135 | 134 | 131 | 126 | 123 | 120 | 118 | 115 | 110 | 109 | 105 | 102 | 102 |
| 46 | 136 | 135 | 133 | 127 | 125 | 122 | 120 | 117 | 112 | 111 | 107 | 105 | 104 |
| 47 | 138 | 136 | 134 | 129 | 126 | 123 | 121 | 119 | 114 | 113 | 109 | 107 | 106 |
| 48 | 139 | 138 | 136 | 130 | 128 | 125 | 123 | 121 | 116 | 115 | 110 | 110 | 108 |
| 49 | 140 | 139 | 137 | 132 | 129 | 127 | 125 | 123 | 118 | 117 | 114 | 112 | 110 |
| 50 | 142 | 141 | 139 | 133 | 131 | 128 | 127 | 124 | 120 | 119 | 116 | 115 | 112 |
| 51 | 143 | 142 | 140 | 135 | 133 | 130 | 128 | 127 | 122 | 121 | 118 | 117 | 114 |
| 52 | 144 | 143 | 142 | 136 | 134 | 132 | 130 | 128 | 124 | 123 | 121 | 120 | 116 |
| 53 | 146 | 144 | 143 | 138 | 136 | 133 | 132 | 130 | 126 | 126 | 123 | 122 | 118 |
| 54 | 147 | 146 | 145 | 139 | 137 | 135 | 134 | 132 | 128 | 128 | 125 | 123 | 120 |
| 55 | 148 | 148 | 146 | 141 | 139 | 137 | 136 | 134 | 130 | 130 | 127 | 127 | 122 |
| 56 | 149 | 149 | 148 | 142 | 142 | 138 | 137 | 136 | 132 | 132 | 130 | 130 | 124 |
| 57 | 151 | 150 | 148 | 144 | 142 | 140 | 139 | 138 | 134 | 134 | 132 | 132 | 126 |
| 58 | 152 | 152 | 151 | 145 | 144 | 141 | 141 | 139 | 136 | 136 | 134 | 134 | 128 |
| 59 | 153 | 153 | 152 | 147 | 145 | 145 | 143 | 141 | 138 | 138 | 137 | 137 | 130 |
| 60 | 155 | 155 | 154 | 148 | 147 | 147 | 144 | 143 | 140 | 139 | 139 | 139 | 130 |

**Cədvəl 3.9. Test balların İQ ballarına keçirilməsi üçün uyğunluq cədvəli**

| İQ göstəriciləri | İntellektin inkişaf səviyyəsi |
|---|---|
| 140-dan çox | Çox yüksək, fərqlənən intellekt |
| 120-dən çox | Yüksək intellekt |
| 110-120 | Qeyri adi, yaxşı intellekt |

| İQ göstəriciləri | İntellektin inkişaf səviyyəsi |
|---|---|
| 100-110 | Normal, orta səviyyədən yuxarı intellekt |
| 90-100 | Orta intellekt |
| 80-90 | Zəif, orta intellektdən aşağı |
| 70-80 | Yüngül əqli zəiflik |
| 50-70 | Ağıldankəmlik |
| 20-50 | İmbesil |
| 0-20 | İdiot |

**Cədvəl 3.10. Əqli qabiliyyət cədvəli**

### 3.1.3. Dembo-Rubinşteyn test nəticələrinin təhlili

Əgər cavabların əksəriyyəti şəkil 3.2 qeyd olunan yaşıl xəttin üzərindədirsə, o zaman uşaqda özünəqiymətin müsbət və yüksək olduğunu qeyd edirik. Əgər cavabların əksəriyyəti narıncı və yaşıl xətlərin arasında yerləşibsə, özünəqiymətin uşaqda orta və müsbət olduğunu qeyd edirik. Əgər cavabların əksəriyyəti narıncı xətdən aşağıda yerləşərsə, o zaman uşaqda özünəqiymətin aşağı və mənfi olduğunu qeyd etmiş oluruq. Yox əgər cavablar fərqli yerlərdə paylaşdırılıbsa, o zaman özünəqiymətin qeyri-stabil olduğunu qeyd edirik (Şəkil 3.3). Əgər cavabların böyük hissəsi şkalanın yuxarı hissəsində yerləşirsə, bu o deməkdir ki, uşağın özünəqiyməti müsbətdir. Əks halda özünəqiymətin aşağı olduğu haqda nəticəyə gəlirik. Analiz zamanı, xüsusilə kənara çıxan cavabları qeyd etmək lazımdır (Şəkil 3.2).



**Şəkil 3.2. Dembo-Rubinşteyn şkalası**



**Şəkil 3.3. Dembo-Rubinşteyn şkalası, qeyri-stabil özünəqiymət**

### 3.1.4. Benderin göz-motor geştalt-test nəticələrinin (V.V. Lebedinski) təhlili

Bu testin köməyi ilə minimal beyin disfunksiyasını təyin etmək mümkündür.
Hər bir şəkil üç parametr üzrə qiymətləndirilir:

1. Bucaqların icrası (fiqur 2 istisna olmaqla);
2. Elementlərin istiqaməti;
3. Elementlərin qarşılıqlı yerləşməsi. Hər bir parametr öz növbəsində 0 baldan 3 baladək qiymətləndirilir.

Fiqur A (maksimal bal – 10) üzrə testin nəticələri aşağıdakı cədvəl 3.11-a uyğun hesablanır:

| **Fiqurun çəkiliş nümunəsi** | **Verilən bal** |
|---|---|
| *Bucaqların icrasına görə* | |
| 3 bal – dörd bucağın dördüdə düz çəkilib, 90º; |  |
| 2 bal – bucaqlar düz deyil; |  |
| 1 bal – fiqur deformasiyaya uğrayıb; |  |
| 0 bal – fiqurun forması təyin olunmayıb. |  |
| *Elementlərin istiqamətinə görə* | |
| 3 bal – ox üfüqidir (iki fiqurun mərkəzlərini birləşdirən üfüqi düz xətt); |  |

| | |
|---|---|
| 2 bal – ox əyilib və ya kvadratın başından keçmir; |  |
| 1 bal – üfüqi xətdən əyilmə bucağı 45º keçir. |  |
| *Elementlərin qarşılıqlı yerləşməsinə görə* | |
| 3 bal – fiqurlar bir-birinə toxunur; |  |
| 2 bal – fiqurlar bir az aralı yerləşirlər, yaxud fiqurlar toxunur, lakin kvadrat səhv istiqamətləndirilib, və ya fiqurların toxunması birinin çəkilməsinin və təhrifinin nəticəsidir; |  |

| | |
|---|---|
| 1 bal – fiqurlar kəsişir və ya fiqurlar kəsişmir, lakin birinin bitdiyi yerdə kəsişmə aydın olunur; |  |
| 0 bal – fiqurlar bir-birlərindən müəyyən dərəcədə aralı yerləşirlər |  |

**Cədvəl 3.11. Fiqur A üzrə test cavablarının hesablanması**

Fiqurların ölçüləri göstərilənə uyğundursa, ümumi nəticəyə 1 bal əlavə olunur. Ölçü prinsipinə əməl olunmamağın nümunəsi şəkil 3.4-də əks olunub:



**Şəkil 3.4. Bender testi, A fiqurun fərqli ölçüləri**

Fiqur 2 (maksimal bal – 8) üzrə testin nəticələri aşağıdakı cədvəl 3.12-ə uyğun hesablanır:

| **Fiqurun çəkiliş nümunəsi** | **Verilən bal** |
|---|---|
| *İstiqamətə görə* | |
| 3 bal – bütün elementlər (element – 3 dairədən ibarət qrup) düzgün istiqamətə malikdirlər (elementlərin sərt paralel olmağı tələb olunmur); |  |
| 2 bal – bir elementdən üç elementə qədər elementlər düz istiqamətə malik deyillər (məsələn, vərəqin üfuqi oxuna perpendikulyardırlar); |  |
| 1 bal – 3 elementdən artıq element səhv istiqamətləndirilib (1 düz element yetər); |  |
| 0 bal – fiqurun bütün elementləri səhv istiqamətə malikdirlər. |  |
| *Elementlərin qarşılıqlı yerləşməsinə görə* | |
| 3 bal – növbəti üç şərti yerinə yetirdikdə: a) bütün elementlərin üfüqi yerləşməsi; b) elementlərin arasında eyni məsafənin olması; c) hər elementdə bütün dairələr eyni oxun üzərində yerləşir; |  |
| 2 bal – sayılan şərtlərdən ikisinə əməl olunur; | |
| 1 bal – bir şərt yerinə yetirilib; | |
| 0 bal – heç bir şərt yerinə yetirilməyib. | |

**Cədvəl 3.12. Fiqur 2 üzrə test cavablarının hesablanması**

Sadalanan şərtlərdən biri yerinə yetirilsə ümumi nəticəyə 1 bal əlavə olunur:

a) Dairələr düz yerinə yetirilir və nöqtələrnən əvəz olunmur (1 bal);

b) Elementlərin sayı maksimaldır – 13, minimal – 9 (modeldə verilən elementlərin sayı – 11). Qiymət – 1 bal.

Fiqur 3 (maksimal bal – 11) üzrə testin nəticələri aşağıdakı cədvəl 3.13-ə uyğun hesablanır:

| Fiqurun çəkiliş nümunəsi | Verilən bal |
|---|---|
| *Bucaqların icrasına görə* | |
| 3 bal – fiqur tam modelə uyğun olaraq yerinə yetirilib; |  |
| 2 bal - fiqurda bir element səhv yerinə yetirilib (bir bucaq və ya tağda yuvarlaqlaşdırma); |  |
| 1 bal – fiqurun iki elementində səhv var (iki bucaq və ya tağda iki yuvarlaqlaşdırma və ya bir bucaq və tağda yuvarlaqlaşdırma); |   |
| 0 bal – yalnız bir bucaq və ya tağda bir yuvarlaqlaşdırma düz yerinə yetirilib. |  |

| *İstiqamətə görə* | |
|---|---|
| 3 bal – fiqurun mərkəzi oxu (a) fiqurun bucağının (b) tənbölənidir; |  |
| 2 bal – yuxarıda sadalanan şərtlər yerinə yetirilmir; |   |
| 1 bal – fiqurların istiqaməti modeldən kəskin şəkildə fərqlənir. |   |
| *Elementlərin qarşılıqlı yerləşməsinə görə* | |
| 3 bal – fiqurların toxunması yerinə yetirilir; |  |

| | |
|---|---|
| 2 bal – fiqurlar bir az aralı yerləşir və ya fiqurların toxunması fiqurlardan birinin təhrifli çəkilməsi ilə nail olunur; |   |
| 1 bal – fiqurlar kəsişir; |  |
| 0 bal – fiqurlar müəyyən dərəcədə aralı yerləşiblər. |  |

**Cədvəl 3.13. Fiqur 3 üzrə test cavablarının hesablanması**

Sadalanan şərtlərdən hər biri yerinə yetirildikdə ümumi nəticəyə hər şərt üçün bir bal əlavə olunur:

1. Əgər iki eyni fiqurun ölçüləri verilən proporsiyalara uyğundursa (1 bal);
2. Arxada yuvarlaqlaşdırmaların istiqaməti düz yerinə yetirilibsə.

Fiqur 4 (maksimal bal – 11) üzrə testin nəticələri aşağıdakı cədvəl 3.14-a uyğun hesablanır:

| **Fiqurun çəkiliş nümunəsi** | **Verilən bal** |
|---|---|
| *Bucaqların icrasına görə* | |
| 3 bal – üç bucaq əks edilib; |  |
| 2 bal – iki bucaq əks edilib; |  |
| 1 bal - bir bucaq əks edilib; |  |
| 0 bal – bucaq yoxdur |  |

| *İstiqamətə görə* | |
|---|---|
| 3 bal – üç bucağın təpəsini birləşdirən ox üfüqidir; |  |
| 2 bal – üç bucağın birləşdirən ox əyilib; üfüqi xətt bir yerdə pozulub |   |
| 1 bal – üfüqi xətt iki yerdə pozulub |  |

| *Elementlərin qarşılıqlı yerləşməsinə görə* | |
|---|---|
| 3 bal – sadalanan şərtlərin yerinə yetirilməsi: a) elementlərin arasında məsafə eynidir və modelə uyğundur; b) elementlərin sayının artması müşahidə olunur; |  |
| 2 bal – yuxarıda sadalanan şərtlərdən biri yerinə yetirilir; |  |
| 1 bal – heç bir şərt yerinə yetirilmir; |  |
| 0 bal – şəkildə inversiya müşahidə olunur. |  |

**Cədvəl 3.14. Fiqur 4 üzrə test cavablarının hesablanması**

Sadalanan şərtlərdən hər birinin yerinə yetirilməsinə görə ümumi nəticəyə 1 bal əlavə olunur:

1. Şəkil yerinə yetirildikdə əks edilmir (1 bal);
2. Nöqtələr dairələr ilə əvəz olunmur (1 bal).

Fiqur 5 (maksimal bal – 10) üzrə testin nəticələri aşağıdakı cədvəl 3.15-a uyğun hesablanır:

| **Fiqurun çəkiliş nümunəsi** | **Verilən bal** |
|---|---|
| *Bucaqların icrasına görə* | |
| 3 bal – bütün bucaqlar düz yerinə yetirilib; |  |
| 2 bal – bucaqlardan biri yoxdur; |  |
| 1 bal – bir bucaqdan artıq bucaqların olmaması; |  |

| | |
|---|---|
| 0 bal – fiqurun forması təhrif olunub. |  |
| *İstiqamətə görə* | |
| 3 bal – hər iki fiqurun istiqaməti düzdür; |  |
| 2 bal – fiqurlardan birinin istiqaməti səhvdir; |  |
| 1 bal – hər iki fiqurun istiqamətində səhv var. |  |

| *Elementlərin qarşılıqlı yerləşməsinə görə* | |
|---|---|
| 3 bal – fiqurların kəsişməsi düzgündür ((a) fiqurunun bucaqları 1 və 2 (b) fiqurunun daxilindədir, (b) fiqurunun bucağı 3 isə (a) fiqurunun daxilindədir); |   |
| 2 bal – fiqurların kəsişməsi səhvdir ((a) və (b) fiqurları kəsişir, lakin yuxarıda sadalanan şərtlər yerinə yetirilmir); |   |
| 1 bal – fiqurlar bir birinə toxunur; |  |
| 0 bal – fiqurlar bir-birindən müəyyən dərəcədə aralı yerləşiblər və ya iki dəfə kəsişirlər. |  |

**Cədvəl 3.15. Fiqur 5 üzrə test cavablarının hesablanması**

Fiqurların düz proyeksiyaları yerinə yetirilirsə, ümumi nəticəyə 1 bal əlavə edilir.

Tədqiqatın sonunda hər verilən 5 fiqur üzrə balların cəmi və bütün fiqurlar üzrə ümumi balların toplamı hesablanır. Cədvəl 3.16-də verilənlərə görə alınan nəticələri yaş normativləri ilə müqayisə etmək olar. Testin nəticələrinin interpretasiyası zamanı aşağıdakıların qeydiyyatı aparılmalıdır:

- Testin həlli üçün sərf olunan ümumi vaxt (adətən bu testi həll etmək üçün 4-8 yaşlı uşaqlara 5-10 dəq. kifayət edir. Bu vaxtdan 2 dəfə artıq vaxt sərf olunduqda, testin interpretasiyası klinik yanaşmanı tələb edir);
- Test zamanı uşağın davranış xüsusiyyətləri, karandaşın yerə düşməsi, uşağın onu axtarması, diqqətin yayınması, kontekstə uyğun olmayan sualların verilməsi;
- Çəkdiyi xətlərin qalınlığı, düzəlişlərin sayı, xətlərin səliqəlilik dərəcəsi;
- Testin gedişatı zamanı nəticələrin pisləşməyə və ya əksinə yaxşılaşmağa doğru dəyişməsi.

Zəif, qırıq-qırıq olan xətlər adətən uşağın zəifliyindən xəbər verir (astenezasiya). Xətlərin qalın, parlaq çəkilməsi isə bizə uşağın olduqca enerjili və aktiv olduğuna işarə edir. Əgər şəkillər vərəqdə səliqə ilə, vərəqin bir hissəsində qruplaşmış formada, bir-birindən ayrılan sıra ilə çəkilibsə, bu halda uşaqda daxili planın formalaşması və fəzada rahat oriyentasiyasının olması qeyd edilir. Əgər şəkillər bir-birinin üstünə çıxır və ümumi ardıcıllıq müşahidə olunmursa, o zaman biz diqqət əskikliyi, daxili planın formalaşmamasını, öz fəaliyyətinin kontrolunun zəifliyi qeyd edilir. Əgər 5 yaşdan yuxarı uşaq testin təkrarlanan elementlərini çəkdiyi zaman hər hansı birində ilişirsə (Fiqur 1-də nöqtələri sıra bitənə qədər çəkir), uşağa xəbərdarlıq edilir. Əgər eyni hal testin gedişatı zamanı yenidən təkrarlanarsa, nəticələrin interpretasiyası üçün klinik müayinə tələb olunur.

| Yaş | Balların cəmi | Dispersiya |
|---|---|---|
| 6 yaş | 26 | 22 – 30 |
| 7 yaş | 29 | 24 – 32 |
| 8 yaş | 33 | 30 – 36 |
| 9 yaş | 35 | 31 – 39 |
| 10 yaş | 38 | 35 – 41 |
| 12 yaş | 40 | 37 – 42 |
| 14 yaş | 42 | 39 – 44 |

**Cədvəl 3.16. Bender testi üzrə bal normaları**

### 3.1.5. Xarakterin aksentuasiyası metodikası (A.S.Leonqard və Q.Şmişek) üzrə test nəticələrinin təhlili

Testin nəticələri aşağıdakı cədvəl 3.17-a uyğun hesablanılır:

| № | Tiplər | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1.** | **Demonstrativ tip (x2)** | | | | | | | | | | | |
| | + | 7 | 19 | 22 | 29 | 41 | 44 | 63 | 66 | 73 | 85 | 88 |
| | - | 51 | | | | | | | | | | |
| **2.** | **İlişib qalan tip (x2)** | | | | | | | | | | | |
| | + | 2 | 15 | 24 | 34 | 37 | 56 | 68 | 78 | 81 | | |
| | - | 12 | 46 | 59 | | | | | | | | |
| **3.** | **Pedantik tip (x2)** | | | | | | | | | | | |
| | + | 4 | 14 | 17 | 26 | 39 | 48 | 58 | 61 | 70 | 80 | 83 |
| | - | 36 | | | | | | | | | | |
| **4.** | **Oyanıq tip (x3)** | | | | | | | | | | | |
| | + | 8 | 20 | 30 | 42 | 52 | 64 | 74 | 86 | | | |
| **5.** | **Gipertim tip (x3)** | | | | | | | | | | | |
| | + | 1 | 11 | 23 | 33 | 45 | 55 | 67 | 77 | | | |
| **6.** | **Distim tip (x3)** | | | | | | | | | | | |
| | + | 9 | 21 | 43 | 75 | 87 | | | | | | |
| **7.** | **Həyəcanlı – qorxaq tip (x3)** | | | | | | | | | | | |
| | + | 16 | 27 | 38 | 49 | 60 | 71 | 82 | | | | |
| | - | 5 | | | | | | | | | | |
| **8.** | **Affektiv – ekzaltiv tip (x6)** | | | | | | | | | | | |
| | + | 10 | 32 | 54 | 76 | | | | | | | |
| **9.** | **Emotiv tip (x3)** | | | | | | | | | | | |
| | + | 3 | 13 | 35 | 47 | 57 | 69 | 79 | | | | |
| | - | 25 | | | | | | | | | | |
| **10.** | **Tsiklotim tip (x3)** | | | | | | | | | | | |
| | + | 6 | 18 | 28 | 40 | 50 | 62 | 72 | 84 | | | |

**Cədvəl 3.17. Xarakterin aksentuasiyası metodikasının açarı**

Alınan nəticəyə uyğun olaraq müvafiq tip təyin edilir.
Tiplərin xarakteristikası aşağıda ətraflı şəkildə təsvir olunur:

1. Demonstrativ tip – nümayişkar davranışa meyli, canlı və hərəkətli, asan əlaqə yaradan. Fantaziyalara, yalançı, saxta, süni əməllərə, artistliyə, sərgüzəştliyə meyilli. Liderliyə, özünü tanıtmağa qəbul etdirməyə, hökmranlığa, təriflənməyə cəhd. Kiminsə tərəfindən diqqətsiz qalmaq fikri belə insanları qorxudur. İnsanlara

asan uyğunlaşır, əhvalı asan dəyişir. Ünsiyyətdə mülayim olsa da intriqalara meyillidir. Yüksək eqosentrizm, başqa insanlara həmdərd olmaq, hörmət etməklə seçilir. Adətən başqalarını onun yanında tərifləyəndə buna dözmür. Müxtəlif kompaniyalara cəhd etməsi isə özünü lider kimi hiss xüsusi yer tutmaq istəyi ilə bağlıdır. Özünüqiymətləndirmədə obyektivlikdən çox uzaqdır. Özünə inamı, yüksək iddiaları ilə ətrafdakıları əsəbiləşdirə bilər. Konfliktləri özü yaradır və çox fəal özünü müdafiə edir. Çox məsum üzlə yalan danışır. Daxilən ya öz yalanını dərk etmir, ya da vicdan əzabı çəkmədən bunu dərk edir. İnsanları öz əməllərinin, təfəkkürünün qeyri-adiliyi ilə təəccübləndirir;

2. İlişib qalan tip - kifayət qədər ünsiyyətlidir. Öyüd-nəsihət verməyi çox xoşlayır. O, özünə qarşı əslində olmayan ədalətsiz münasibətdən əziyyət çəkir. Buna görə də insanlarla münasibətlərində çox ehtiyatlıdır. Onlara etibar etmir, incikliyə çox həssasdır. Kin saxlayır, qisasçılığı ilə fərqlənir. Baş verənləri uzun müddət unutmur, incikliyi uzun müddət yaddan çıxarmır. Özündən çox asanlıqla çıxır. Çox konfliktlərin səbəbkarı olur. Əsas xüsusiyyəti affektə meyli olmasıdır. Həqiqəti, düzlüyü sevir. İnciyən, şübhələnməyə meyilli və qısqancdır. Konfliktlərdə öz maraqlarını inadla, amansızcasına müdafiə etməyə çalışır. İstənilən işdə yüksək nəticələr əldə etməyə çalışır. Məqsədinə çatmaqda inadla səy edir;

3. Pedantik tip - konfliktə çox təsadüfi hallarda girir. Travma vuran hadisələri uzun müddət yaşayır. Konfliktlərdə passiv tərəf kimi çıxış edir. İstənilən intizam pozuntusuna çox kəskin reaksiya verir. İşdə özünü bürokrat kimi aparır. Ətrafdakılara formal tələblər qoyur. Dəqiqdir. Səliqəlidir. Vicdanlıdır. Plana, intizama xüsusi diqqət edir. İşlərin həyata keçirilməsində tələskən deyil. Oturaqdır. İşi keyfiyyətlə yerinə yetirir. Xüsusi səliqə ilə çalışır. Özünü tez-tez yoxlamağa, gördüyü işin düzgünlüyünə şübhə etməyə meyillidir. Böyük həvəslə liderliyi başqalarına güzəştə gedir;

4. Oyanıq tip - yüksək impulsivlik, kobudluq, özünənəzarətin zəifliyi vardır; sərt, qaşqabaqlı, konfliktlərə, ədəbsizliyə, hətta söyüş söyməyə meyillidir. Qəzəblidir. Konfliktlərdə aktiv tərəf olur. Əsəbidir, özündən tez çıxır, tez-tez iş yerini dəyişir. Kollektivdə dolana bilmir, yola getmir. Ünsiyyəti çətin yaradır. Hərəkətləri ağırdır. Gələcəyə etinasızdır. İndiki anda yaşayır, indiki andan istifadə etməyə və əylənməyə çalışır. Əsəbləri çox çətin soyuyur və o, ətrafdakılar üçün çox təhlükəli ola bilər. Ünsiyyət üçün zəifləri seçərək, onlar üzərində hökmranlıq edir;

5. Hipertim tip – çox hərəkətli, ünsiyyətli, çərənçidir. Hərəkətləri çox sərbəstdir, dəcəlliyə, şıltaqlığa meyillidir. Digər insanlara münasibətdə məsafə saxlamağı bacarmır. Söhbətdə əsas mövzudan yayınır. Hər yerdə səs-küyə səbəb olur, yaşıdlarının kompaniyasını sevir, onlara rəhbərlik etməyə meyil edir. Demək olar ki, həmişə əhvalı yaxşı olur. Adətən yaxşı iştahları, sağlamlıqları və yuxuları olur. Qarınquludurlar. Əyləncələrə meyillidirlər. Özlərini olduğundan yüksək qiymətləndiririlər. Şən, yüngülxasiyyət, işgüzar, ixtiraçı, gözəl həmsöhbətdirlər.

İnsanları əyləndirə bilən, enerjili, fəal və təşəbbüskardırlar. Müstəqilliyə böyük meyilləri konfliktə səbəb ola bilər. Qəzəb tutmaları, əsəbiliyə meyil var. Xüsusilə də uğursuzluqla qarşılaşanda. Əxlaqa, mənəviyyata zidd əməllərə, çox əsəbləşməyə meyillidirlər. Öz vəzifələrinə ciddi münasibət bəsləmirlər.

6. Distim tip - ciddilikləri, əzgin əhvalı, astagəllikləri, zəif səyləri ilə fərqlənirlər. Az ünsiyyətli, gələcəyə pessimist münasibət bəsləyir. Özünüqiymətləndirməsi aşağıdır, söhbət zamanı az danışır. Belə insanlar evdə oturmağı sevir, fərdiyyətçidirlər, səs-küylü məclislərdən qaçır, qapalı həyat tərzi sürür. Həyatın qaranlıq tərəflərində ilişib qalır. Onlarla dostluq edənlərə yüksək dəyər verir və onlara tabe olmağa hazırdırlar. Yüksək dərəcədə ədalətlilik hissinə malikdirlər;

7. Həyəcanlı-qorxaq tip – az ünsiyyətcil, qəmgin əhvallı, qorxaq, özünə inamsızdır. Çox vaxt qaranlıqdan, heyvanlardan və tək qalmaqdan qorxur. Dalaşqandır, yaşıdlarından kənar gəzir, çox səs-küylü oyunları sevmir. Utancaqlıq hissi keçirir, yoxlama işlərini, imtahanları çox ağır keçir. Çox vaxt qrup qarşısında cavab verməyə utanır. Böyüklərin himayəsini həvəslə qəbul edir. Böyüklərin öyüdləri onlarda vicdan əzabına, göz yaşlarına səbəb olur. Borc hissi onlarda çox tez formalaşır. Məsuliyyət, yüksək mənəvi, etik tələblər var. Öz qüsurluluq hislərini, qabiliyyətlərini daha yaxşı aça biləcəkləri fəaliyyət sahələrində özlərini təsdiq etməklə pərdələməyə çalışır. Uşaq yaşlarında onlara küsəyənlik, tez inciyənlik istədikləri adamla yaxınlaşmağa mane olur. Onları məsxərəyə qoyanda, onlara şübhə ilə yanaşanda özlərini müdafiə edə bilmirlər. Haqsız yerə günahlandırılarkən haqq uğrunda mübarizə apara bilmirlər. Ətrafdakılarla çox az konfliktlə girir və bu zaman passiv rol oynayırlar, konfliktli situasiyada özlərinə dəstək axtarır. Dostluğu sevən, özlərinə tənqidi yanaşan, öz müdafiəsizliyi nəticəsində çox vaxt başqalarının zarafatlarının, məsxərəsinin hədəfi olur;

8. Affektiv-ekzaltiv tip – şadlanmaq, fərəhlənmək qabiliyyəti, gülərüzlülük, xoşbəxtlik, sevinc hissi duymaq qabiliyyəti müşahidə olunur. Sevindirici xəbərdən şadlanır, kədərli xəbərdən tamamilə kədərlənir. Yüksək ünsiyyətlilik, çox vurulmaq. Belə insanlar tez-tez mübahisə edir, lakin işi açıq konfliktə gətirib çıxarmır. Konfliktli situasiyada həm aktiv, həm də passiv tərəf ola bilər. Dostlarına, yaxınlarına çox bağlıdır, altruistdirlər, başqalarına həmdərd ola bilər, gözəl zövqlüdür, səmimi hislər nümayiş etdirir. Panikyor ola bilər. Ani əhvalın təsirinə tabedir. Şadlıq hissindən asanlıqla kədər hissinə keçə bilər;

9. Emotiv tip - emosional, həssas, həyəcanlı, qorxaqdır. İnsaflı, insansevər, ürəyiyumşaq, başqalarına həmdərd ola bilən, onlara köməyə hazır, insanların uğuruna sevinən, kövrəkdir. Bu tip insanlarda kimisə təhlükə gözləyən filmdən kadrlar, təcavüzkar səhnələr güclü təəssürat yaradır. Yuxuları pozulur, uzun müddət bunu yadlarından çıxartmırlar. Konfliktə təsadüfi hallarda girir. İncikliyi ürəklərində saxlayır;

10. Tsiklotim tip – xarici şəraitdən asılı olaraq əhvalı kəskin dəyişir. Əhvalı pisləşəndə tənbəlləşir, ətrafdakı adamlarla ünsiyyətdən bezir, yoldaşlarından, dostlarından qaçır, əhvalı yaxşı olanda zarafatcıl olur, rastlaşdığı adamlara sataşmağa başlayır. Sevindirici hadisələr onları fəallığa sövq edir. İnsanlarla ünsiyyət manevrləri tez-tez dəyişir.

### 3.1.6. Basa-Darki test nəticələrinin təhlili

Aqressiv və düşmən reaksiyalarının müxtəlif formalarının indeksləri alınan cavabların yekunlaşdırılması ilə müəyyən edilir:

1. Faktiki aqressiya; "bəli" - № 1, 25, 33, 48, 55, 62, 68; "xeyr" - № 9, 17, 41;
2. Vasitəsiz aqressiya; "bəli" - № 2, 18, 34, 42, 56, 63; "xeyr" - № 10, 26, 49;
3. Qıcıqlanma; "bəli" - № 3, 19, 27, 43, 50, 57, 64, 72; "xeyr" - № 11, 35, 69;
4. Neqativizm; "bəli" - № 4, 12, 20, 23, 36;
5. İnciklik; "bəli" - № 5, 13, 21, 29, 37, 51, 58; "xeyr" - № 44;
6. Şübhəlilik; "bəli" - № 6, 14, 22, 30, 38, 45, 52, 59; "xeyr" - № 65, 70;
7. Verbal aqressiya; "bəli" - № 7, 15, 23, 31, 46, 53, 60, 71, 73; "xeyr" - № 39, 74, 75;
8. Vicdan əzabı, günah hissi; "bəli" - № 8, 16, 24, 32, 40, 47, 54, 61, 67.

Fiziki aqressiya, vasitəsiz aqressiya, qıcıqlanma və verbal aqressiya birlikdə aqressiv reaksiyaların ümumi indeksini, inciklik və şübhələnmə – düşmənçilik münasibətlərinin indeksini; düşmənçilik – ətrafdakılara qarşı münasibətdə ümumi neqativlik, qeyri-etibarlılıq mövqeyi indeksini; aqressiya – konkret şəxslərə qarşı münasibətdə xarici fəal aqressiya reaksiyalarının indeksini əmələ gətirir.

Sorğu kitabçası aqressiv və düşmən reaksiyalarının növbəti formalarını ayırd edir:

- Fiziki aqressiya (hücum) – başqa şəxsə qarşı fiziki gücün tətbiqi;
- Vasitəsiz aqressiya – başqa şəxsə yönələn dolayı yollar ilə aqressiya (dedi-qodu, kinli zarafatlar), eləcə də heç kimə yönəlməyən aqressiya (fəryadda təzahür edən qəzəb hissi, ayaqlar ilə çırpma, yumruğun masaya çırpılması);
- Qıcıqlanma – cüzi kobudluq və dözülməzlik zamanı dərhal kəskin reaksiya verilməsidir;
- Neqativizm – avtoritet və rəhbərliyə qarşı yönəlmiş yerli reaksiyalar (passiv müqavimətdən qanun və qaydalar ilə fəal mübarizəyə qədər);
- İnciklik – həqiqi və ya çoxlu sayda əzab – əziyyətlərə görə bütün dünyaya, ətrafdakılara qarşı duyulan qəzəb və kin hissi;
- Şübhəlilik – ətrafdakılardan ziyan gözləmək fikri ilə insanlara qarşı ehtiyatlı münasibət;
- Verbal aqressiya – həm forma (mübahisə, bağırtı, cingilti), həm də şifahi cavabların məzmunu vasitəsilə (iradlar, hədə – qoxu, qarğış, təhqir, ironiya) neqativ hislərin təzahürü;
- Vicdan əzabı, günah hissi – adətən cəmiyyətin normaları vasitəsilə qadağan olunan

davranış formalarının təzahürü ilə bağlı günah hissini ifadə edirlər. Burada yanlış hərəkətlər törədən hər hansı bir şəxs müzakirə obyektinə çevrilir.

### 3.1.7. "Dost seçmə motivi" metodikası üzrə test nəticələrinin təhlili

Fərdi konsultasiya zamanı anket sorğusu keçirildikdən sonra keyfiyyət təhlili aparılır. Təhlil zamanı uşaq dost seçimi edərkən hansı kriteriyalara üstünlük verdiyi aşkarlanır. Daha sonra uşaq ilə sərbəst söhbət zamanı seçimlər müzakirə edilir.

### 3.1.8. Temperament düsturu (A. Belov) metodikası üzrə test nəticələrinin təhlili

Əgər bu və ya digər tipli temperament pasportunda müsbət cavabların sayı 16-20 olarsa, deməli, həmin şəxsdə bu temperamentin növü həddən artıq parlaq şəkildə ifadə olunmuşdur.

Əgər cavabların sayı 11-15 olarsa, deməli, bu temperamentin keyfiyyəti həmin şəxsə əhəmiyyətli dərəcədə xasdır.

Əgər müsbət cavabların sayı 6-10 olarsa , o zaman bu növün keyfiyyəti həmin şəxsə cüzi dərəcədə xasdır.

Temperamentin düsturu aşağıdakı şəkildədir:

$Ft=((X \times Ax)/A \times 100\%)+((S \times As)/A \times 100\%)+((F \times Af)/A \times 100\%)+((M \times Am)/A \times 100\%)$

Burada:

- FT – temperament düsturu;
- X – xolerik temperament;
- S - sanqvinik temperament;
- F - fleqmatik temperament;
- M - melanxolik temperamentdir;
- A – bütün tiplər üzrə müsbət işarələrin ümumi sayı;
- Ax – xolerikin pasportunda müsbət işarələrin sayı;
- Af - fleqmatikin pasportunda müsbət işarələrin sayı;
- As - sanqvinikin pasportunda müsbət işarələrin sayı;
- Am - melanxolikin pasportunda müsbət işarələrin sayı.

Yekun nəticədə temperament düsturu aşağıdakı şəkil alır:

$FT = 35\% \times X + 30\% \times S + 14\% \times F + 21\% \times M.$

Bu temperament növünün 35% xolerik, 30% sanqvinik, 14% fleqmatik, 21% melanxolik temperament növü olması deməkdir. Əgər hər hansı bir tip üzrə müsbət cavabların nisbi nəticəsi 40% və daha çox təşkil edirsə, o zaman temperamentin bu növü dominant olub, 30 – 39% temperamentin bu növündə daha parlaq şəkildə ifadə olunaraq, 20 – 29% bu temperament növünün keyfiyyəti orta səviyyədə ifadə olunaraq, 10 – 19% təşkil etdikdə bu temperamentin keyfiyyəti daha cüzi səviyyədə ifadə olunur.

### 3.1.9. Sosial frustrasiya səviyyəsinin diaqnostikası (L.İ.Vasserman V.V.Boykon) üzrə test nəticələrinin təhlili

Hər bir bəndə əsasən frustrasiya səviyyəsi müəyyən olunur. O, 0 baldan 4 bala qədər variasiya edə bilər. Cavabın hər bir variantına ballar verilir (Cədvəl 3.18):

| Bal | Cavab |
|---|---|
| 0 bal | tamamilə təmin olunmuşdur |
| 1bal | yəqin ki, təmin olunmuşdur |
| 2 bal | cavab verməkdə çətinlik çəkirəm |
| 3 bal | yəqin ki, təmin olunmamışdır |
| 4 bal | tamamilə təmin olunmamışdır |

**Cədvəl 3.18. Frustrasiya testin cavabların variantı**

Əgər metodika respondentlərin qrupunda göstəricinin aşkar olunması üçün istifadə olunursa, o zaman;

1. Cavaba uyğun olan bal ilə bu və ya digər cavabı seçən respondentlərin sayı ayrı-ayrılıqda seçilir;
2. Burada ümumi məbləğ hesablanmalıdır;
3. Bu bəndə cavab verən ümumi məbləğ bölünməlidir.

Sosial frustrasiya səviyyəsinin orta yekun indeksini müəyyən etmək mümkündür. Bunun üçün bütün bəndlər üzrə frustrasiya göstəricilərini hesablamaq və alınan kəmiyyəti bəndlərin sayına bölmək lazımdır.

Kütləvi müayinələr zamanı konkret bənd üzrə cavabın bu və ya digər variantını seçən şəxslərin faizi daha mötəbər olmuşdur.

**Nəticələrin interpretasiyası:** Sosial frustrasiyanın səviyyəsi haqqında nəticələr hər bir bənd üzrə balın cəmini nəzərə almaqla həyata keçirilir (Cədvəl 3.19). Bal nə qədər çoxdursa, sosial frustrasiyanın səviyyəsi də bir o qədər yüksəkdir.

| Ballar | Göstəricilər |
|---|---|
| 3,5 – 4 bal | çox yüksək frustrasiya səviyyəsi |
| 3,0 – 3,4 bal | yüksək frustrasiya səviyyəsi |
| 2,5 – 2,9 bal | bərabər frustrasiya səviyyəsi |
| 2,0 – 2,4 bal | qeyri-müəyyən frustrasiya səviyyəsi |
| 1,5 – 1,9 bal | aşağı frustrasiya səviyyəsi |
| 0,5 – 1,4 bal | çox aşağı frustrasiya səviyyəsi |
| 0 – 0,5 bal | frustrasiya səviyyəsinin yoxluğu |

**Cədvəl 3.19. Frustrasiya testin açarı**

Psixikanın yorğunluğu rejimində yanlış qaydada təşkil olunan emosional durum kimi distimiyanı, depressiyanı, apatiyanı, hipotomiyanı, çaşqınlığı, həyəcanı, qorxunu, sayıqlama əhval-ruhiyyəsini sadalamaq mümkündür.

Frustrasiyanın aşağıdakı kimi xüsusiyyətləri vardır:

- Məzmununa görə çox müxtəlif və bir sıra əlamətlərə malik olan emosional durumdur;
- Şəxsiyyət praktiki olaraq yanlış emosional durumda olduğu kimi xarici təsirlərə başqa cür reaksiya verir. Hər bir halda şüur və iradə insana emosional durumların qeyri-adekvatlığını sürətlə və uğurla dəf etməyə, onlara daha kommunikal forma verməyə yardım etmir;
- Emosional normanın bərpası üçün isə vaxt, sakitlik, ətrafdakıların köməyi, o cümlədən də müalicə tələb olunur. İstənilən yanlış şəkildə təşkil olunmuş emosional durum normanın həddində təzahür edərək psixi pozğunluq, yəni psixopatoloji forma şəklini ala bilər. Sonuncu yardımçı amillərin varlığı zamanı meydana çıxır.

Psixopatoloji pozğunluq halları sinir-psixi tonusun ümumi dəyişikliyi ilə xarakterizə olunur. Öz növbəsində sinir-psixiki tonusun sabit dəyişikliyi isə:

- Beynin üzvi şəkildə zədələnməsi adlanır. Belə olan təqdirdə pozğunluq daha geniş və dərin olur;
- Sinir sisteminin qüsurları/defektləri adlanır. Adətən o, xəstəliklərin, psixi travmaların təsiri altında daha da zəiflənir;
- Xarici səbəblər adlanır. Onların arasında bu cür amillər psixi sarsıntı, intoksikasiya, travma doğurur;
- Somatik xəstəlik adlanır. Bu və ya digər orqanın xəstəliyi isə beyin, sinir sistemi, maddələr mübadiləsi sahəsinin pozulmasına səbəb olaraq reallığın emosional şəkildə dəyişilməsinə və ya əksər hallarda intelektual qaydada əksini tapmasına səbəb olur.

Təzahürünə görə müxtəlif pozuntu halları çox güman ki, eyni mexanikaya malik olur, yəni intellekt ilə emosiyalar arasında normal əlaqə yoxdur. İntellekt nədənsə xarici və daxili təsiri layiqincə qiymətləndirmir və onların şəxsiyyət üçün əhəmiyyətini də açıqlamır. Onun idarəedici komandaları adekvat emosional proqramlardan və işlənmiş emosional davranış streotiplərindən ibarət olmur. Adekvat emosional proqramlardan və işlənmiş emosional davranış streotiplərin əvəzinə şəxsiyyətə xas olan eyni streotip qüvvəyə minir. Onun davranışı qeyri-adekvat olub görünən səbəblər ilə şərtləşdirilmir.

### 3.1.10. “Suisid riski kartı” metodikası üzrə test nəticələrinin təhlili

Yeniyetmələrdə risk faktorunun təzahür dərəcəsini müəyyən etmək üçün riyazi hesablamalar aparılır və alınan nəticə aşağıdakı qəbul edilən nəticələrlə uyğunlaşdırılır (Cədvəl 3.20):

- 9 baldan az - suisid riski kiçikdir;
- 9-15,5 bal - suisid riski var;
- 15,5-dən çox bal - suisid riski əhəmiyyətlidir.

Suisidə cəhdin müəyyənləşdirilməsi üçün nəzərdə tutulmuş “risk kartı”nın köməyilə

yeniyetmələri daim nəzarətdə saxlamaq lazımdır. Onun davranış və rəftarındakı ən xırda dəyişikliyi belə qeydə almaq zəruridir. Alınmış bal kritik əhəmiyyəti üstələyirsə və ya davranışında problemi göstərən işarət varsa, psixoloqa, yaxud psixiatra müraciət etmək zəruridir.

| № | Risk faktorları | Təzahür etməyən | Zəif təzahür edən | Güclü təzahür edən |
|---|---|---|---|---|
| **I. Bioqrafiq məlumatlar** | | | | |
| 1. | Daha əvvəl suisidə cəhd olunub | -0.5 | +2 | +3 |
| 2. | Valideynlərində suisidal davranış | -0.5 | +1 | +2 |
| 3. | Boşanma və ya valideynlərindən birinin ölümü | -0.5 | +1 | +2 |
| 4. | Ailədə istiliyin çatışmaması | -0.5 | +1 | +2 |
| 5. | Tam və ya qismən etinasızlıq | -0.5 | +0.5 | +1 |
| **II. Aktual konfliktli situasiya** | | | | |
| **A-konfliktin növü** | | | | |
| 1. | Böyüklərlə (müəllim, valideynlə) konflikt | -0.5 | +0.5 | +1 |
| 2. | Eyni vəziyyətdə olan şəxs ilə konflikt, qrupdan rəddedilmə | -0.5 | +0.5 | +1 |
| 3. | Dostlar və ya yaxın insanlarla uzun sürən konflikt | -0.5 | +0.5 | +1 |
| 4. | Daxili konflikt, güclü daxili gərginlik | -0.5 | +0.5 | +1 |
| **B-konfliktli situasiyada rəftarı** | | | | |
| 5. | Suisid təhdidli ifadələr | -0.5 | +2 | +3 |
| **V- konfliktli situasiyanın xarakteri** | | | | |
| 6. | Oxşar konfliktlərin əvvəl olması | -0.5 | +0.5 | +1 |
| 7. | Həyatın digər sferalarındakı (təhsil, sağlamlıq, rəddedilmiş sevgi) uğursuzluqlarla əlaqəli konflikt | -0.5 | +0.5 | +1 |

| | | | | |
|---|---|---|---|---|
| 8. | Əvvəlcədən bilinməyən konfliktli situasiyanın yaranması və onun nəticəsini gözləmək | -0.5 | +0.5 | +1 |
| **Q-konfliktli situasiyanın emosional çalarları** | | | | |
| 9. | Hirslilik, özünə acıma | -0.5 | +1 | +2 |
| 10. | Yorğunluq, sevinc, apatiya (xəyal qırıqlığı) hissi | -0.5 | +1 | +2 |
| 11. | Kənar edilə bilinməyən konfliktli situasiya, ümidsizlik | -0.5 | +0.5 | +2 |
| **III. Şəxsiyyətin xarakteristikası** | | | | |
| **A-şəxsiyyətin iradi sferası** | | | | |
| 1. | Müstəqillik, qərar qəbulunda asılılığın olmaması | -1 | +0.5 | +1 |
| 2. | Qətiyyətlilik | -0.5 | +0.5 | +1 |
| 3. | Sabitlik | -0.5 | +0.5 | +1 |
| 4. | Məqsədinə çatmaq üçün təzahür edən güclü istək | -1 | +0.5 | +1 |
| **B-şəxsiyyətin emosional sferası** | | | | |
| 5. | İztirablı mənlik, tez təsirlənən | -0.5 | +0.5 | +2 |
| 6. | Sadəlövh | -0.5 | +0.5 | +1 |
| 7. | Emosional toxluq (sıxıntılarında “ilişib qalmaq”, yetərsizlik | -0.5 | +1 | +2 |
| 8. | Emosional qətiyyətsizlik | -0.5 | +2 | +3 |
| 9. | İmpulsivlik | -0.5 | +0.5 | +2 |
| 10. | Emosional asılılıq, yaxınlarla emosional kontaktda olmağa ehtiyac | -0.5 | +0.5 | +2 |
| 11. | Müdafiə mexanizmlərinin yaranması üçün qabiliyyətin aşağı olması | -0.5 | +0.5 | +1.5 |
| 12. | Uzlaşmamaq | -0.5 | +0.5 | +1.5 |

**Cədvəl 3.20. Suisid riski sorğu kartı**

### 3.1.11. "Ailə rəsmi" test (Q.T. Homentauskas) nəticələrinin təhlili

Rəsmin interpretasiyası şərti olaraq 3 hissəyə bölünür:

1. "Ailə rəsmi"-nin quruluşunun analizi;
2. Ailə üzvlərinin təsvir olunmasının qrafik xüsusiyyətləri;
3. Rəsm çəkmə prosesinin analizi.

**Təsvir olunmuş və real ailənin tərkibinin müqayisəsi əsasında olunan "Ailə rəsmi" analizi** (Şəkil 3.5)



**Şəkil 3.5. Ailə rəsmi (nümünə)**

Emosional durumu yüksək olan uşağın bütöv ailənin çəkməsi gözlənilir. Məlumatlara əsasən normal intellektə malik, ailəsi ilə birgə yaşayan, 6-8 yaşlı uşaqların 85 faizi ailəni bütöv təsvir edir. Real ailə tərkibinin təhrif olunması hər zaman diqqət tələb edir, çünki bir çox hallarda bunun arxasında emosional konfliktlər, ailə vəziyyəti ilə narazılıq dayanır. Fövqəladə variantı sıradakı rəsmlər təşkil edir:

1. İnsanlar heç təsvir olunmayıb;
2. Təkcə ailə ilə əlaqəsi olmayan insanlar təsvir olunub.

Tapşırıqdan bu cür müdafiəli qaçış uşaqlarda nadir hallarda rast gəlinir. Bu reaksiyaların fonunda sıradakılar gizlənir:

1. Ailə ilə bağlı travmatik hislər;
2. Uzaqlaşdırılma, tərk olunma hissi (buna görə də bu cür rəsmlər çox vaxt ailədən internata yeni gəlmiş uşaqlar üçün xarakterikdir);
3. Autizm;
4. Təhlükə hissi, yüksək təşviş səviyyəsi;
5. Araşdırılan uşaqla psixoloqun zəif kontaktı.

Praktik iş zamanı çox vaxt real ailə vəziyyətində daha az ifadə olunmuş kənara çıxmalara rast gəlinir. Uşaqlar onlar üçün daha az emosional cəhətdən cəlbedici, konflikt münasibətləri olan insanları çəkməyi unudaraq ailə tərkibini azaldırlar. Uşaq onları çəkməyərək, sanki ailədə olan qəbulolunmaz emosional atmosferi yüngülləşdirir, müəyyən insanlarla əlaqəli olan emosiyalardan qaçır. Çox zaman rəsmdə qardaş və ya bacılar təsvir olunmaya bilər, bu da ailədə müşahidə olunan rəqabətlə bağlıdır. Bu yolla uşaq əksik olan valideyn sevgisini və diqqətini "monopollaşdırır". Niyə bəzi ailə üzvlərinin təsvir olunmamasına verilən cavablar bir qayda kimi müdafiəvi olur: "Yer qalmadığı üçün çəkməmişəm"; "O, gəzməyə gedib" və s. Ancaq bəzən qeyd olunan suala uşaqlar daha emosional cəhətdən zəngin cavablar verir: "İstəmədim – o dalaşır"; "İstəmirəm ki, o bizimlə yaşasın", və s..

Bəzi hallarda uşaq ailə üzvləri yerinə balaca heyvanlar, quşlar çəkir. Uşağı onları

kiminlə identifikasiya etməsini psixoloq hər zaman dəqiqləşdirməlidir (çox vaxt uşaq ailədə təsirini azaltmağa çalışdığı qardaş və ya bacılarını bu cür təsvir edir). Məsələn, 8 yaşlı, adı İ. olan qız yanında bir dovşan ilə özünü çəkib. O öz rəsmini belə izah etdi: "İndi yağış yağacaq, mən qaçacam, dovşan isə orda qalıb islanacaq. O gəzə bilmir." "Bu dovşan sənə kimi xatırladır?" sualına qız cavab verir ki, dovşan onun hələ bir yaşı bitməmiş və hələ gəzə bilməyən bacısına bənzəyir. Beləliklə, çəkdiyi rəsmdə İ. öz bacısını dəyərsizləşdirir, ona qarşı simvolik aqressiya nümayiş etdirir. Elə olur ki, uşaq real ailə yerinə heyvanların ailəsini təsvir edir. Məsələn, uzaqlaşdırılma, frustrasiya hiss edən, yaxın emosional kontakta ehtiyacı olan 7 yaşlı, adı N. olan oğlan, rəsmdə təkcə ana və atasını təsvir edib, yanında isə öz ailə tərkibi ilə eyni olan dovşan ailəsi çəkib. Beləliklə, uşaq rəsmdə uzaqlaşdırılma hissini təsvir edərək (özünü çəkməyib), isti emosional kontakta, ümumilik hissinə olan ehtiyacını əks etdirmişdir (dovşan ailəsinin yaxın kontaktını təsvir edib). Uşağın özünü çəkmədiyi və ya ailəsinin yerinə təkcə özünü təsvir etdiyi rəsmlər böyük maraq kəsb edir. Hər iki halda uşaq özünü ailə tərkibinə aid etmir, bu da ümumilik hissinin olmamasını göstərir. Rəsmdə "Mən"-in olmaması, uzaqlaşdırılma, qəbuledilməmə hissi olan uşaqlar üçün xarakterikdir. Rəsmdə təkcə "Mən"-in təsvir edilməsi, rəsmin digər xüsusiyyətlərinin tərkibindən asılı olaraq müxtəlif psixi tərkiblərə işarə edə bilər. Əgər qeyd olunan təsvirə özünüçəkmədə müsbət konsentrasiyaya məxsusdursa (bədənin çox sayda detalları, rəngləri, paltarın bəzədilməsi, fiqurun böyük həcmi), o zaman bu formalaşmamış ümumilik hissi ilə yanaşı, müəyyən eqosentriklik, şəxsiyyətin isteroid əlamətlərinə işarə edir. Əgər öz rəsminə kiçik həcm, sxematiklik məxsusdursa, rəsmdə başqa detallarla və rənglərlə mənfi emosional fon yaranıbsa, onda uzaqlaşdırılma, tək qalma hissinin, bəzən autistik tendensiyaların varlığını güman etmək olar.

Ailə tərkibinin çoxaldılmasıda informativ xarakter daşıyır. Bu ailədə olan qarşılanmamış psixoloji ehtiyaclarla bağlıdır. Ailədə tək olan uşaqların rəsmlərini misal kimi göstərmək olar. Onlar daha çox kənar şəxsləri ailə rəsminə əlavə edirlər. Ailə üzvlərinə əlavə olaraq təsvir olunan eyni yaşda uşaq (əmi, dayı uşaqları, qonşunun qızı və s.) rəsmi bərabər hüquqlu, kooperativ əlaqələrə olan ehtiyacın təzahürü ola bilər. Daha kiçik uşağın təsvir olunması qarşılanmamış affiliativ ehtiyaclara, digər uşaqlara qarşı mühafizəçi, valideynlik, idarəedici pozisiyaları tutmaq istəyinə işarə edir (bu məlumatı ailə üzvlərindən başqa çəkilən itlər, pişiklər və s. verə bilər).

Valideynlərdən başqa (və ya onların yerinə) təsvir olunan, ailə ilə əlaqəsi olmayan böyüklər ailənin inteqrativliyinin qavranmasına, uşağın yaxın emosional kontakt ehtiyacını qarşılaya biləcək insanın axtarışına işarə edir. Bəzi hallarda isə ailənin bütövlüyünün simvolik dağıdılmasına, uzaqlaşdırılma, lazımsızlıq hissinə görə valideynlərə qisası işarə edir.

**Ailə üzvlərinin yerləşdirilməsi**

Bu, ailədə olan münasibətlərin bəzi psixoloji xüsusiyyətlərinə işarə edir. Yerləşdirilmənin analizinin öz məzmunu ilə bir qrup insanın proksemik qiymətləndirməsindən bir fərqi var: bu yaradılma və quruluş verilməsi bir insandan – rəsm müəllifindən – asılı olan simvolik situasiyadır. Bu vəziyyət (digər aspektlərdə olduğu kimi)

rəsmin nə əks etdirdiyini – subyektiv real olanı (dərk ediləni), arzu ediləni, yoxsa uşaq qorxduğunu, qaçdığını və s. ayırmağı vacib edir.

Ailə birliyi, ailə üzvlərinin birləşmiş əllərlə təsviri, onların birgə fəza ilə birləşməsi psixoloji rifahın, ailənin inteqrativliyinin dərk edilməsinin, ailənin bir hissəsi olmağın indikatorudur.

Bir-birinə əks xarakteristikalı rəsmlər (ailə üzvlərinin ayrı-ayrı yerləşdirilməsi) emosional əlaqələrin aşağı səviyyədə olmasına işarə edə bilər (Şəkil 3.6).



**Şəkil 3.6. Ailə rəsmi (Vasif, 7 yaş 3 ay)**

Fiqurların yaxın yerləşdirilməsi ailə üzvlərini məhdud fəzada (qayıq, kiçik ev və s.) yerləşdirilməsi ilə əsaslandığı zaman interpretasiyada ehtiyatlı olmaq lazımdır. Bu zaman yaxın yerləşdirmə uşağın ailəni birləşdirmək, birlik yaratmaq istəyindən bəhs edə bilər (bu məqsədə çatmaq üçün uşaq öz cəhdinin nəticəsiz olduğunu düşündüyü üçün xarici hallara əl atır).

Ailənin bir hissəsi bir qrupda, bir və ya bir neçə üzvü uzaqda yerləşən rəsmlər psixoloji cəhətdən daha maraqlıdır. Əgər uzaqda uşaq özünü çəkirsə, bu uzaqlaşdırılma hissinə işarə edir. Digər ailə üzvünün uzaqlaşdırılmasını isə uşağın ona qarşı olan mənfi münasibətilə, bəzən isə ondan gələn təhlükə ilə izah etmək olar. Çox vaxt belə təsvir ailə üzvünün real olaraq uzaqlaşması, uşaq üçün az məna kəsb etməsi ilə bağlıdır. Rəsmdə ailə üzvlərinin qruplaşdırılması bəzən psixolji mikrostrukturların, koalisiyaların müəyyən edilməsində yardımçı ola bilər. Məsələn, 6 yaşlı R. adlı qız özünü anasının yanında və ayrıca qrupda – atası, qardaşı ilə birgə təsvir edərək, "kişilik" və "qadınlıq" rollarının uyğunlaşmaması əsasında olan ailədəki konfrontasiyaları əks etdirmişdır.

Əvvəl qeyd olunduğu kimi rəsmdə uşaq fiziki məsafələr vasitəsilə emosional əlaqələri əks etdirə bilər. Ailə üzvlərinin obyektlər vasitəsilə bir-birindən ayrılması, rəsmin ailə üzvləri içərisində yerləşdirilən yuvacıqlara bölünməsi eyni mənaya gəlir. Bu təsvirlər şəxsiyyətlərarası müsbət əlaqələrin zəifliyini təsvir edir.

Təsvir edilmiş fiqurların analizi. Fərdi ailə üzvlərinin qrafik təsvirinin xüsusiyyətləri daha böyük diapazonda məlumat verə bilər: uşağın fərdi ailə üzvünə qarşı olan emosional münasibəti, uşağın onu necə qəbul etməsi, uşağın "Mən-obraz"-ı, onun cinsi identifikasiyası və s.

Uşağın ailə üzvlərinə qarşı olan emosional münasibətinin qiymətləndirilməsi zamanı sıradakı qrafik təsvirlərin xüsusiyyətlərinə diqqət yetirmək lazımdır:

1. Bədən detallarının sayı: baş, saçlar, qulaqlar, gözlər, göz bəbəkləri, kirpiklər, qaşlar, burun, yanaqlar, ağız, boyun, çiyinlər, əllər, ovuclar, barmaqlar, ayaqlar, pəncələrin varlığı;

2. Bəzədilmə (paltar detalları və bəzəklər): papaq, yaxa, qalstuk, bantlar, ciblər, kəmər, düymələr, saç düzümünün elementləri, paltarın mürəkkəbliyi, bəzəklər, paltarda naxışlar və s.;
3. Rəsmdə istifadə olunan rənglərin sayı.

Bir qayda olaraq, insanla olan yaxşı emosional münasibətlər onun təsvirində müsbət konsentrasiya ilə müşayiət olunur, bu da nəticədə bədən detallarının böyük sayında, bəzədilməsində, müxtəlif rənglərin istifadəsində öz əksini tapır. İnsana olan mənfi münasibət isə onun qrafik təsvirinin daha çox sxematikliyinə, natamamlığına gətirib çıxarır. Bəzən rəsmdə mühüm bədən hissələrinin (baş, əllər, ayaqlar) ötürülməsi insana qarşı mənfi münasibətlə yanaşı, ona qarşı olan aqressiv niyyətə işarə edə bilər.

Uşaqlar, bir qayda olaraq, ən böyük ana və atalarını təsvir edirlər ki, bu da reallığa uyğundur. Ancaq bəzən təsvir olunmuş fiqurların həcmi ailə üzvlərinin real nisbəti ilə uyğun gəlmir – 7 yaşlı uşaq öz valideynlərindən hündür və enli təsvir oluna bilər və s. Bu onunla izah olunur ki, uşaq üçün (qədim misirli üçün olduğu kimi) fiqurun həcm gücü, üstünlüyü, vacibliyi, dominantlığı ifadə etmək üçün olan vasitədir. Məsələn, 6 yaşlı N. adlı uşağın rəsmində ana 1/3 qədər atadan və iki dəfə digər ailə üzvlərindən böyük təsvir olunub. Bəzi uşaqlar özlərini valideynlərindən hündür və ya onlarla eyni həcmdə təsvir edirlər. Bizim təcrübədə bu sıradakılarla bağlı idi: a) uşağın eqosentrikliyi; b) valideyn sevgisi üçün digər valideynlə yarışaraq, uşaq özünü əks-cinsli valideyn ilə eyni tərəziyə qoyur və bununla da rəqibi xaric edir və ya kiçildir.

Özlərini digər ailə üzvlərindən əhəmiyyətli dərəcədə kiçik təsvir edən uşaqlar sıradakılardır:

1. Özlərinin vacibsizliyini, lazımsızlığı və s. hiss edirlər;
2. Öz valideynləri tərəfindən himayə, qayğı tələb edirlər.

6,5 yaşında Y. adlı oğlanın rəsmi bu fikrin təsviri ola bilər. Ailə rəsmində o özünü qeyri-təbii şəkildə, digər rəsmlərdən iki dəfə balaca təsvir edib. Analoji transformasiya onun davranışı üçün də xarakterikdir. Burda o öz ağlamağını, köməksizliyini diqqət cəlb etmə vasitəsi kimi istifadə edir. Ümumiyyətlə, fiqurların həcminin interpretasiyası zamanı psixoloq yalnız mühüm təhriflərə diqqət etməlidir, fiqurların həcminin qiymətləndirilməsi zamanı isə həcmlərin real nisbətinə əsaslanmalıdır (məsələn, 7 yaşlı uşaq öz valideynindən ortalama 1/3 qədər alçaqdır).

Fiqurların mütləq həcmi də informativ ola bilər. Böyük, bütün vərəqi əhatə edən fiqurları impulsiv, özünə əmin, dominantlığa meyilli uşaqlar çəkir. Çox kiçik fiqurlar təşviş, təhlükə hissi ilə əlaqədardır.

Ailə üzvlərinin təsvirinin xüsusiyyətlərinin analizi zamanı fərdi bədən hissələrinin təsvir olunmasına da diqqət yetirmək lazımdır. Məsələ bundadır ki, fərdi bədən hissələri müəyyən fəaliyyət sahələri ilə bağlıdır, ünsiyyət, nəzarət, hərəkət və s. vasitəsi kimi çıxış edir. Onların təsvir xüsusiyyətləri onlarla bağlı müəyyən cismani məzmuna işarə edə bilər. Bu nəzərdən ən informativ olan bədən hissələrini analiz edək:

- Əllər dünyaya əsas təsir, digərlərinin hərəkətlərinə fiziki nəzarət vasitələridir. Əgər

uşaq özünü əlləri yuxarı vəziyyətdə, uzun barmaqlarla təsvir edirsə, o zaman bu onun aqressiv istəkləri ilə əlaqədardır. Bəzən bu cür rəsmləri daxilən sakit, yumşaq uşaqlar da çəkir. Təxmin etmək olar ki, uşaq ətrafdakılara qarşı düşmənçilik hissi duyur, ancaq onun hisləri susdurulmuşdur. Özünü bu cür təsviretmə uşağın öz zəifliyini, güclü olmaq arzusunu, başqaları üzərində hökmünü, kompensasiya etmək istəyini göstərə bilər. Bu interpretasiya o zaman daha etibarlıdır ki, uşaq "aqressiv" əllərlə yanaşı enli çiyinlər və digər atributlar, "kişilik" və güc simvolları çəkir. Bəzən uşaq bütün ailə üzvlərini əlləri ilə təsvir edir, ancaq özünə əl çəkməyi unudur. Bundan başqa uşaq özünü qeyri-mütənasib şəkildə kiçik təsvir edirsə, o zaman bu çarəsizlik, ailədə özünün vacibsizliyi, ətrafdakıların onun aktivliyini boğmaq və ona hədindən artıq nəzarət etmək hissinə işarə edə bilər. Bir ailə üzvü uzun qollarla, böyük barmaqlarla təsvir olunan rəsmlərdə maraqlıdır. Çox zaman uşağın bu insanı punitiv, aqressiv kimi qəbul etməsini göstərir. Eyni məlumatı ailə üzvlərinin tamam əlsiz təsvir olunması da verə bilər. Bu yolla uşaq simvolik üsullarla onun aktivliyini məhdudlaşdırır;

- Baş – "Mən"-in, intellektual və perspektiv fəaliyyətin lokallaşma mərkəzidir; üz – ünsiyyət zamanı bədənin ən mühüm hissəsidir. 3 yaşlı uşaqlar artıq başı, müxtəlif bədən hissələrini mütləq şəkildə çəkir. Əgər 5 yaşdan (normal intellekt yaşından) böyük uşaqlar rəsmdə üz hissələrini (gözlər, ağız) ötürürlərsə, bu, ünsiyyət sahəsində mühüm pozuntular, qapanma, autizmdən xəbər verə bilər. Əgər digər ailə üzvlərini təsvir edən zaman baş, üz cizgiləri ötürülürsə və ya bütün üz qaralanırsa, çox vaxt bu həmin insanla olan konflikt və düşmən münasibətin göstəricisidir.
- Təsvir olunmuş insanların üz ifadələri uşağın onlara qarşı olan hislərinin indikatoru ola bilər. Ancaq nəzərə almaq lazımdır ki, uşaqlar gülən insanları çəkməyə meyillidir, bu onların rəsmində olan özünəməxsus möhürdür, ancaq bu o demək deyil ki, uşaqlar ətrafdakıları məhz belə qavrayır. Ailə rəsminin interpretasiyası üçün üz ifadələri yalnız bir-birindən fərqli olduğu halda əhəmiyyət kəsb edir. Bu halda təxmin etmək olar ki, uşaq şüurlu və ya şüursuz olaraq üz ifadələrini təsvir vasitəsi kimi istifadə edir. Bu, böyüklər üçün xarakterikdir. Məsələn, 9 yaşlı R. adlı oğlan, ailədə sonuncu uşaqdır, öz qardaşlarından fərqli olaraq fiziki qüsura malikdir və onlar kimi deyil, dərslərində və idmanda uğurludur, rəsmdə öz inamsızlıq hissini özünü xeyli kiçik və dodaqları aşağı sallanmış bir şəkildə təsvir edərək ifadə etmişdir. "Mən"-in bu təsviri digər ailə üzvlərinkindən açıq-aydın fərqlənirdi. Onlar böyükdürlər və gülürlər.
- Qızlar oğlanlardan daha çox üzün təsvirinə diqqət ayırır, daha çox detal çəkirlər. Onlar analarının üz qulluğuna, kosmetikaya çox vaxt ayırdığını görür və yavaş-yavaş özləri də böyük qadınların dəyərlərini mənimsəməyə başlayır. Buna görə də üzün çəkilməsində olan konkretizasiya qızın yaxşı cinsi identifikasiyasına işarə edə bilər.
- Oğlanların rəsmində bu an onların öz fiziki gözəlliyi ilə bağlı olan narahatlıq, fiziki qüsurların konpensasiyası, qadın davranışlarının stereotiplərinin yaranması ilə əlaqədər ola bilər.

- Dişlərin təsviri və ağzın qeyd olunması oral aqressiyaya meyilli uşaqlarda daha tez-tez müşahidə olunur. Əgər uşaq bu şəkildə özünü yox digər ailə üzvünü təsvir edirsə, bu çox vaxt qorxu hissi ilə, bu insanın qavranan düşmənçiliyi ilə əlaqəlidir.

Yaşları artdıqca uşaqların rəsmləri daha yeni detallarla zənginləşir. 3,5 yaşında uşaqlar çox vaxt "baş-ayaq" çəkirlər, 7 yaşında isə bədənin zəngin sxemini təsvir edirlər. Hər yaş üçün müəyyən detallar xarakterikdir və rəsmdə onların ötürülməsi onların hər hansı bir fəaliyyətinin inkarı ilə, konflikt ilə bağlıdır. Məsələn, 7 yaşlı uşaq bu detallardan birini çəkmirsə: baş, gözlər, burun, ağız, əllər, bədən, ayaqlar, o zaman buna diqqət yetirmək lazımdır. 7 yaşlı Q. adlı uşağın rəsmlərini misal gətirmək olar. O, heç vaxt bədənin aşağı hissəsini çəkmirdi. Valideynlərlə söhbət zamanı məlum oldu ki, Q.-nın cinsi orqanlarına olan marağı onları narahat edirdi. Bir neçə dəfə o, bu cür idraki fəaliyyətə görə cəza da alıb, çünki valideynləri bunu masturbasiya kimi qəbul edirdi. Valideynlərin bu cür davranışı uşaqda günahkarlıq hissi, bədənin aşağı hissələrinin fəaliyyətinin inkarına gətirib çıxardı, bu da onun "Mən obrazına" təsir göstərir.

5,5-6 yaşdan böyük uşaqların rəsmlərində müxtəlif cinslərə aid olan fərdlərin təsvirinin iki müxtəlif sxemi mövcuddur. Məsələn, kişinin bədəni oval şəklində, qadının isə - üçbucaq şəklində çəkilir və ya cinsi fərqliliklər başqa yollarla təsvir olunur. Əgər uşaq özünü digər eyni cinsdən olan fiqurlar kimi təsvir edirsə, bu zaman adekvat cinsi identifikasiyadan danışmaq olar. İki fiqurun (məs: oğul və atanın) təsvirində analoji detal və rənglərin istifadə olunması oğulun ataya oxşamağa çalışdığını, onunla identifikasiyasını, yaxşı emosional kontaktını göstərir.

**Rəsm çəkmə prosesinin analizi**

Rəsm çəkmə prosesinin analizi zamanı bunlara diqqət yetirmək lazımdır:

a) Ailə üzvlərinin təsvir edilmə ardıcıllığı;

b) Detalların təsvir edilmə ardıcıllığı;

c) Pozulma;

d) Artıq təsvir olunmuş obyektlərə, detallara, fiqurlara qayıdış;

e) Fasilələr;

f) Spontan şərhlər.

Rəsm çəkmə prosesinin interpretasiyasını, təsvirin dinamik xarakteristikalarının arxasında fikir dəyişiklikləri, hislərin aktuallaşması, gərginlik, konfliktlər dayanır, onlar rəsmin müəyyən detallarının uşaq üçün vacib olmasını əks etdirir. Rəsm çəkmə prosesinin interpretasiyası psixoloqun bütün praktik təcrübəsinin, onun intuisiyasının yaradıcı şəkildə cəlb edilməsini tələb edir. Qeyri-müəyyənliliyin yüksək səviyyəsinə baxmayaraq, analizin məhz elə bu səviyyəsi çox vaxt məzmunlu, dərin, vacib məlumat verir.

Ümumi tendensiyalar belədir:

- Uşaqların 38% ilk növbədə analarının fiqurunu çəkir, 35% – özünü, 17% – atasını, 8% - qardaş və bacılarını. Hekayə danışarkən uşaq necə ilk olaraq əsasdan başlayır, rəsmdə də ilk növbədə ən mühüm, əsas və ya emosional cəhətdən ən yaxın insanı

çəkməyə başlayır. Bu ardıcıllıq bəlkə də mədəniyyətimizdə ananın tez-tez ailənin əsasını təşkil etməsi, ailədəki ən vacib funksiyaları yerinə yetirməsi, başqalarına nisbətən uşaqlarla daha çox vaxt keçirməsi və onlara diqqət yetirməsi ilə əlaqədardır. Uşaqların birinci özlərini təsvir etmələrini onların yaşının xarakter cəhətlərindən olan eqosentrizmlə əlaqələndirmək olar. Buna əsasən demək olar ki, rəsmi çəkmək ardıcıllığı o hallarda informativdir ki, uşaq birinci özünü və anasını deyil, digər ailə üzvünü çəkir. Çox vaxt bu, uşaq üçün ən vacib şəxsdir və bağlı olduğu insandır.

- Uşağın anasının sonda çəkdiyi hallar maraq kəsb edir. Çox vaxt bu ona qarşı olan mənfi münasibətlə bağlıdır.
- Ailə üzvlərinin təsvir edilmə ardıcıllığı fiqurların qrafik təsvirinin xüsusiyyətlərinin analizi məzmununda daha dəqiq interpretasiya oluna bilər. Əgər ilk çəkilən fiqur ən böyükdürsə, ancaq sxematik, bəzəksiz təsvir olunubsa, o zaman bu təsvir bu şəxsin uşaq üçün vacibliyini, gücünü, ailədə dominantlığını göstərir, ancaq uşağın ona qarşı olan müsbət hisləri haqda məlumat vermir. Əgər birinci fiqur qüsursuz, bəzəkli təsvir olunubsa, o zaman düşünmək olar ki, bu uşağın saydığı və oxşamaq istədiyi ən sevilən ailə üzvüdür.
- Bir qayda olaraq, uşaqlar ailə çəkmək tapşırığını alan zaman ailə üzvlərini təsvir etməyə başlayır. Bəzi uşaqlar isə ilk olaraq müxtəlif obyektləri, təməl xəttini, günəşi, mebeli və s. təsvir edirlər və yalnız axırıncı növbədə ailə üzvlərini təsvir etməyə başlayırlar. Tapşırığın bu ardıcıllıqla yerinə yetirilməsi uşağın xoş olmayan tapşırığı sonraya saxlamasına yardım edən özünəməxsus müdafiə mexanizmi olduğunu deməyə əsas verir. Bu, çox vaxt ailə rifahı aşağı səviyyədə olan uşaqlarda müşahidə olunur, o cümlədən uşağın psixoloqla olan zəif kontaktının nəticəsi də ola bilər.
- Eyni ailə üzvləri, obyektlər, detallara yenidən qayıdılması onların uşaq üçün vacibliyini bildirir. Necə ki, insanın qeyri-ixtiyari hərəkətləri bəzən onun psixikasının aktual məzmununu göstərir, eləcə də rəsmin eyni elementlərinə qayıdış fikrin hərəkətinə, uşağın münasibətinə və rəsmin müəyyən detallarıyla əlaqəli olan, əsas üstünlük təşkil edən hislərə uyğundur.
- Müəyyən detalların, ailə üzvlərinin təsvirindən öncə olan fasilələr çox vaxt konflikt münasibətlərlə bağlıdır və motivlərin daxili dissonansının xarici təzahürü kimi çıxış edir. Şüursuz səviyyədə uşaq mənfi emosiyalarla əlaqəli detalı və ya insanı çəkib çəkməməsi barədə qərar verir.
- Təsvir olunanın, pozub yenidən çəkilməsi təsvir olunan ailə üzvünə qarşı həm mənfi, həm də müsbət emosiyalarla əlaqədar ola bilər. Həlledici mənanı rəsmin son nəticəsi kəsb edir. Əgər pozmaq və yenidən çəkmək daha yaxşı qrafik təsvirə gətirib çıxarmırsa – uşağın bu insana qarşı olan konfliktli münasibətindən danışmaq olar.

Spontan şərhlər çox vaxt təsvir olunan məzmunun uşağa aydın olmasını təmin edir. Ona görə də onlara diqqətlə qulaq asmaq lazımdır. Eyni zamanda nəzərə almaq lazımdır ki, uyğunsuz gələn şərhlər daxili gərginliyin zəifləməsi üçün bir üsuldur və onların səslənməsi

rəsmin ən emosional cəhətdən "zəngin" yerlərini göstərir. Bu, təsvirdən sonrakı sualları və interpretasiya prosesini yönləndirməyə kömək edir.

### 3.1.12. "2 çiçək" proyektiv metodikası üzrə test nəticələrin təhlili

Testin analizi həm mətn, həm də uşağın davranışına əsasən aparılır. İlk növbədə arzuların hansı sferaya aid olduğunu müəyyən etmək lazımdır. Bu yaşlar üçün arzuların bir qismini oyuncaq və oyunlara aid olması normal hesab olunur.

Nümunə 1. 7 yaş 11 aylıq Kamranın 3 arzusu bunlar idi:

1. Rəqsə getmək;
2. Qardaşımın mənə əzab verməməsi;
3. Qardaşım qədər ağıllı olmaq istəyirəm.

Bu kiçik test vasitəsilə aşağıdakı məlumatlar əldə edilmiş olur: uşağın böyük qardaşına qarşı ambivalent hisləri; qardaş tərəfindən mütəmadi incidilməsi; rəqslə bağlı arzusunu dəqiqləşdirəndə isə məlum oldu ki, uşaq rus bölməsində oxuduğu üçün və ailədə hamı yalnız rus dilində danışdığı üçün Azərbaycan dilini zəif bilir və bu hal onu narahat edir. Daha əvvəl rəqsə getdiyi müəllimi isə dərsi Azərbaycan dilində aparırdı və orada bütün uşaqlar yalnız Azərbaycan dilində danışırdı. Kamran rəqsə getdikdə həm rəqs etməyi, həm də Azərbaycan dilini öyrənirdi. Getdiyi rəqs yeri təmirə bağlandığı üçün rəqs məşqləri dayandırılmışdı. Kamran məşğələlərin davam etməsini səbirsizliklə gözləyirdi. Bu test vasitəsilə uşağın iki əsas problemli sahələri müəyyən olundu: böyük qardaşı ilə münasibətlər, Azərbaycan dilində ünsiyyət. Bu metodika vasitəsilə bu cür dolğun məlumatlar əldə etmək heç də asan deyil, çünki ilk öncə psixoloq uşağın etibarını qazanıb, onunla düzgün ünsiyyət qurmalıdır. Əks halda cavablar sıradan olacaq.

Nümunə 2. 6 yaş 4 aylıq 1-ci sinif şagirdi Aynanın üç arzusu aşağıdakılardır:

1. Mən istəyirəm böyük "barbi" evim olsun;
2. Nənəgildə qalmaq istəyirəm;
3. Anam mənə çamadanda "LOL" alsın.

Uşağın 2 arzusunun oyuncaq ilə bağlı olduğu müşahidə olunur və bu hal 6 yaş 4 aylıq uşaq üçün normal hesab olunur. Çünki bu yaş üçün aparıcı fəaliyyət – oyundur. Digər arzuya aydınlıq gətirdikdə məlum olur ki, Ayna nənəsigildə qalanda məktəbə getmir. Anamnezin materiallarından da məlumdur ki, Ayna dərslə bağlı böyük çətinliklər çəkir. Məktəbə olan bu cür münasibətin dəqiq səbəbini araşdırmaq üçün Ayna ilə məktəbdə psixoloji hazırlığın müayinəsininin keçirilməsi zəruridir.

### 3.1.13. «İki ev» metodikası (İ.Vandvik, P.Ekblad) üzrə test nəticələrinin təhlili

Ənənəvi olaraq bu metodikanın nəticələri növbəti üsul ilə interpretasiya olunur:

- Uşaq qırmızı evdə yerləşdirdikləri uşaq üçün qiymətlidir və o onlarla yaxşı münasibətdədir və ya olmaq istəyir;
- Qara evə yerləşdirilənlər isə-qəbul edilməyənlərdir.

Bu cür səthi analiz sosial əlaqələrin sayını və onların emosional xarakterini görməyə imkan verir (uşağın neçə şəxs qeyd etdiyinin və hansı evdə daha çox olduğunun üzərində əsaslanır). Bundan az vacib olmayan göstərici şəxslərin adlandırılmasının ardıcıllığıdır – uşaq kimi birinci qeyd edibsə, onlar subyektiv olaraq daha çox qiymətli qəbul olunur. Bundan başqa uşağın hansı şəxsi evinə aldığına yox, onu hansı xanaya yerləşdirdiyinə diqqət yetirmək lazımdır. Bəzi şəkillərdə uşağın eyni xanada həm özünü, həm də valideynlərini yerləşdirdiyini görürük. Bəzi şəkillərdə isə uşağın özünü ən yuxarı, valideynlərini isə ən aşağı mərtəbədə yerləşdirdiyini görürük. Ehtimal etmək olar ki, uşaq üçün daha çox qiymətli olan şəxslər özünə yaxın yerləşdiriləcəkdir. Əgər uşaq hər hansısa ailə üzvünü qeyd etməyi ötürərsə, bu kimi hallara xüsusi diqqət yetirmək lazımdır. Məktəbəqədər yaşlı uşaq bütün sakinləri evlərə "yerləşdirdikdən" sonra psixoloq buraxılmış ailə üzvünə işarə edib deyə bilər: "Ay, bəs (buraxılmış şəxsin adı) biz unutmuşuq! Bəs o, harada yaşayacaq?" Bu sualı uşağa vermək vacibdir, çünki bəzən məktəbəqədər yaşlı uşaq özünü bu və ya digər xanaya yerləşdirərək anası ilə olduğunu qeyd edir. Bundan başqa uşağın başqa bir şəxslə münasibətini öyrənmək lazımdırsa, metodika əlavə şəxsi (məsələn, müəllimi) daxil etməyə imkan verir.

### 3.1.14. "Mövcud olmayan heyvan" metodikası üzrə test nəticələrinin təhlili

Metodikanın tətbiqi nəticəsində mövcud olmayan heyvanın rəsmdə yerləşməsi müəyyən məlumatlar verir:

- Əgər şəkil vərəqin yuxarısında sağ tərəfdədirsə – bu, həqiqi məqam və ya gələcək dövr, müsbət emosiyalar ilə əlaqədar olur.
- Əgər şəkil vərəqin aşağısında sol tərəfdədirsə – bu keçmiş məqamlar, mənfi emosiyalar və passivlik ilə əlaqədardır.
- Şəkil vərəqin yuxarı kənarına nə qədər yaxındırsa, cəmiyyətdə özünə verilən qiymət və vəziyyətindən narazılıq da bir o qədər çox olub ətrafdakılar tərəfindən kifayət qədər tanınmama da bir o qədər də çox olub özünütəsdiqə və irəliləməyə dair iradlar da bir o qədər yüksək olur.
- Əgər şəkil vərəqin aşağı hissəsindədirsə – özünə inamsızlığın, cüzi özünəqiymətin, qətiyyətsizliyin təzahürüdür.
- Əgər heyvan fiqurunun başı sağ tərəfə çevrilibsə – insan tərəfindən həyata keçirilən və planlaşdırılan fəaliyyətin əlamətidir.

- Əgər baş sol tərəfə çevrilibsə – bu cür şəkli çəkən insana düşünmə təmayülü xas olub rəylərin yalnız cüzi hissəsi realizə olunaraq bəzən o fəal hərəkətlərin qarşısında qorxunu ifadə edir (Şəkil 3.7).
- "Fas" vəziyyəti, yəni baş eqosentrizm kimi şərh olunaraq onu çəkən insana ismarlanır.




**Şəkil 3.7. Mövcud olmayan heyvan rəsminin nümunəsi**

Başın detallarının əhəmiyyəti:

- Qulaqlar – informasiyaya olan maraq, ətrafdakı insanların sənin haqqında fikirlərinin əhəmiyyəti, insan bəzən davranışını dəyişməkdə çətinlik çəkdiyi üçün özü haqqında fikirlərə emosional şəkildə cavab reaksiyası verir;
- Bir qədər açıq ağız – donquldamaq əlaməti olub dodaqlar ilə uzlaşmada həssaslıq deməkdir. Açılı ağız dodaqlar və dəli olmadan təhlükə, qorxu və inamsızlıq əlaməti olur. Dişlər ilə ağız verbal aqressiya əlaməti olub kobudluğa və acı sözlərə yol verir;
- Gözlər. Əgər gözlər xüsusilə seçilirsə bu, insana xas olan qorxu rəmzidir. Kipriklər davranışda isteroidli-demonstrativ cəhətlərin təzahürü, ətrafdakı insanların xarici gözəlliyə və geyim tərzinə olan heyranlığı və marağı, ona böyük əhəmiyyətin verilməsidir.

Heyvanın başında əlavə detallar da ola bilər:

- Buynuz – aqressiya, dırnaqlar, iynələr ilə birlikdə bu aqressiyanın xarakteri, müdafiə – cavab xarakteri kimi müəyyən edilir;
- Lələklər – özünü bəzəməyə və özünə bəraət qazandırmağa, nümayiş etdirməyə olan meyildir;
- Tük, yun – həssaslıq, cinsi mənsubiyyətinin və seksual rolunun vurğulanmasıdır.

Heyvanın ayaqları və əlləri: əzələlər, pəncələr. Burada həmin hissələrin fiqurun tam ölçüsünə və formasına nisbətən uyğun ölçüdə (nisbətdə) olmasına diqqət yetirmək lazımdır. Belə ki, uyğun ölçü qərar qəbul edərkən düşünməyi, səmərəli yol tapmağı, informasiyanın mövcud mənasına, vəziyyətinə əsaslanmağı göstərir. Əksinə olduqda isə bu mülahizənin üzdən olmasını, xüsusən ayaqlar olmadıqda əsassız nəticə çıxarmağı bildirir.

Ayaqların bədənlə birləşməsinə fikir vermək lazımdır: dəqiqdirmi yaxud zəif birləşdirilib, yoxsa heç birləşdirilməyib. Ayaqların, bədənin digər dayaq hissələrinin eyni istiqamətdə, eyni formada olması mülahizə və fikirlərin konformluluğuna, bayağılığa işarədir. Həmin hissələrin yerləşməsində müxtəliflik sosial yönəlmələrin, mülahizə və fikirlərin orijinallığını, özünəməxsusluğunu, müstəqilliyini göstərir.



Şəkil 3.8. Mövcüd olmayan heyvan rəsminin nümunəsi

Fiqurdan yuxarıda duran hissə: əgər bu hissələr funksionaldırsa bu qanad və qarmaq olur. Bu insanın müxtəlif həyat sahələrini ifadə etmək, özünə mövqe tapmağın təzahürü olub, başqalarını sıxışdırır və bu zaman cəsarət, enerji, özünə inam hissi meydana çıxır.

Detalları bəzəyən hallar: lələklər, bantlar, qıvrım saçlar – nümayişkaranəliyin, diqqəti özünə tərəf yönəltməyin təzahürüdür (Şəkil 3.8).

Quyruqlar: yuxarıya tərəf meyilli quyruq – insanın hərəkətlərini və qərarlarını müsbət şəkildə qiymətləndirməsi; aşağıya tərəf meyilli quyruq – özündən razı qalmama, peşmançılıq deməkdir. Sağa meyilli quyruq – insanın hərəkətlərinə və ya davranışına qarşı münasibətini ifadə etməsi, sola meyilli quyruq isə fikirlərə və qərarlara münasibət deməkdir.

Fiqurun konturları: çanaqların və qalxanların varlığı – ətrafdakılardan müdafiə olunmaqdır. İynə, iti bucaqlı çanaq – aqressiyadır. Kontur xətlərinin kölgədə qalması, ikiqat xətlər həyəcan, qorxu və şübhə hissinin təzahürüdür. Məkan mövqeyinə müvafiq olaraq bu cür müdafiənin istiqaməti yuxarıya meyilli olduqda valideynləri, müəllimləri və rəisləri, aşağıya meyilli olduqda zarafatlardan müdafiəni, mühakimə olunmaq qorxusunu, kiçiklərdə nüfuzun yoxluğunu, yana doğru meyillilik isə müxtəlif vəziyyətlərdə istənilən qaydalı özünümüdafiəyə hazırlığı ifadə edir.

Şəklin, xəttin güclü şəkildə sıxılması, hətta vərəqin əks tərəfindən də görünərək kəskin həyəcan hissini ifadə etməyə qadirdir.

Heyvanın ümumi qiyməti: qorxulu və ya neytral heyvan – şəxsi "mən"inə münasibət olub dünyada tutduğu mövqeyi haqqında təsəvvürləri formalaşdıraraq özünü əhəmiyyətinə görə eyniləşdirməyə qadirdir. Belə olan təqdirdə şəkli çəkilən heyvan onu çəkən şəxsi təmsil edir.

Dairənin fiquru adətən heç nə ilə doldurulmursa - qapalılıq, daxili aləmin qapalılığı, testə məruz qalmamaq arzusunu və tendensiyasını simvolizə edir.

Mexaniki hissələrin havanın toxumasına bitişdirilməsi – heyvan fiqurunun tanka qoyulması, propellerə, naqillərə, dəstəklərə, antenalara və s. qurğulara bərkidilməsi şizofreniya halların və ya bu xəstəliyə meylin təzahürüdür.

Adlar. Əgər adda məna hissələrinin səmərəli şəkildə birləşməsi əksini tapırsa, o zaman rasionallıq, adaptasiya qabiliyyəti də diqqətdən yayınmır. Elmi çalarlı adlar intellektin və erudisiyanın nümayişidir. Heç bir dərkolma olmadan səs ilə bağlı adlar yüngülbeyinliyin, təhlükə siqnallarını nəzərə almamağın təzahürüdür. İroniyalı adlar ətrafdakılara ironiyalı münasibətin təzahürüdür. Uzun adlar isə müdafiə tendensiyalarının, müdafiə qaydalarının xəyal edilməsinə meylin təzahürüdür.

### 3.1.15. Əl testi (Hand test) nəticələrinin təhlili

Cavablar 11 kateqoriya üzrə fərqləndirilir və hesablanır (Cədvəl 3.21):

| № | Əlamətlər | Interpretasiyası |
|---|---|---|
| 1. | Aqressiya | Barmaq dominant kimi təsir bağışlayır. Nəyəsə xətər yetirmə, aktiv şəkildə hər hansı bir obyekti cəlb edir. |
| 2. | Göstərici | Əl aparıcıdır, nəyəsə istiqamətlənib, nəyəsə mane olur, insanların üzərində hökmranlıq etmək istəyir. |
| 3. | Qorxu | Əl digər insana istiqamətlənmiş aqressiv yaşantısı kimi özünü büruzə verir, yaxud da kimisə fiziki təsirdən kənarlaşdırmağa çalışır. Həm də insanın özünə qarşı təsadüfi zərər kimi nəzərdən keçirilir. |
| 4. | Bağlılıq (məhəbbət) | Əl sevgi, digər insanlara müsbət emosiyanı ifadə edir. |
| 5. | Kommunikasiya | Əllərin ünsiyyət qurmağı və ya əlaqə qurmağa can atmağı. |
| 6. | Asılılıq | Əl digər insana sanki asılılıq ifadə edir. |
| 7. | Eksqibisionizm | Əl müxtəlif üsullarla özünü cəlb edici göstərir. |
| 8. | Şikəstlik | Əl deformasiya olunub, xəstədir, hər hansı bir fəaliyyətə hazır deyil. |
| 9. | Aktiv simasızlıq | Əl sanki fəaliyyətdədir. Nəyisə bitirmək istədikdə digər insanın köməyi tələb olunmur. Belə ki, əlin fiziki yerdəyişməsi üçün güc təklif edir. |
| 10. | Passiv simasızlıq | Hər hansı bir işin sonlandırılması üçün digər bir insanın iştirakı tələb olunmur. Ancaq belə bir vəziyyətdə əl öz vəziyyətini dəyişmir. |
| 11. | Təsvir | Olmayan bir əl şəklinin təsviri. |

**Cədvəl 3.21. Əl testin interpretasiyası**

Açıq aqressiyanın göstəricisi aşağıdakı düstur üzrə hesablanır:

***Aqressiya =(aqressiya + göstərici) – (qorxu + bağlılıq + kommunikasiya + asılılıq).***

Aqressiv davranışın motivini dəqiqləşdirmək üçün ən çox hansı profildə cavab çoxdursa həmin profil üzrə analiz aparmaq lazımdır.

### 3.1.16. "Mən kiməm?" metodikası (M.Kuna və T.Makpartlenda) üzrə test nəticələrinin təhlili

Tədqiqatdan alınan nəticələrin interpretasiyada iki kateqoriya yaradılır. Bunlardan biri şəxsiyyət keyfiyyətlərini, digər isə sosial identifikliyi əks etdirən kateqoriyadır.

"Mən kiməm?" metodikasının xüsusiliyi hazırki tədqiqatda kontent-analiz prosedurasından istifadə etməkdir. Burada təkrarlıq prinsipi, müxtəlif fikirlərinin tezliklərinin semantik və formal elementlərinə (anlayış, hökmlər, təsvir (obraz) və s.) əsaslanır.

Əldə olunan kateqoriyalar şəxsi (personal) və sosial identifiklik məzmununu əks etdirir:

1. Seksual əlamətlər (oğlan, qızcığaz, ad, oğlan uşağı, qız, gənc oğlan, kişi cinsi);
2. Maraqlar, cazibələr (heyvanları sevirəm, gül bəsləməyi sevirəm, icad etməyi sevirəm, texnologiyanı sevirəm, yaxşı oynayıram, gitarada çalıram, yazmağı (şeir, hekayə və s.) sevirəm və s.;
3. Yaş (dövr) (gənc, mənim 15 yaşım var, yeniyetmə);
4. Ailəvi və dostluq rolları (yetim, qardaş, nəvə, mənim anamın qızı, yaxşı rəfiqə, gələcək həyat yoldaşı, oğul, bacı, qardaş, bacı qızı, dayı, etibarlı dost);
5. Etnik əlamətlər;
6. Professional rollar (şagird, gələcək tələbə, atlet, rəssam, balıqçı, məktəbli qız, gələcək sürücü, məktəb məzunu, musiqiçi, direktor olmaq istəyirəm və s.);
7. Rədd etmək, qəbul etməmək (qəddarlara nifrət edirəm, təkliyə nifrət edirəm, yalana nifrət edirəm, xəyanəti sevmirəm, həkimlərə nifrət edirəm, düşmənlərə nifrət edirəm və s.);
8. İntellektual qabiliyyətlərlə bağlı şəxsi keyfiyyətlər (ağıllı, qabiliyyətli, istedadlı, səfeh, əlaçı və s.);
9. Ətrafdakılarla qarşılıqlı əlaqəylə bağlı şəxsi keyfiyyətlər (nəzakətli, kaprizli, həmişə öz dostlarımın köməyinə gəlirəm, iti yaddaşlı, ünsiyyətcil, xeyirxah, dostlarıma hörmət edirəm və s.);
10. Xarici görünüş (gözəl, qəhvəyi rəngli, göygöz, arıq, zərif, yaraşıqlı, dəbdəbəli, uzun dırnaqlı, model, ağ dərili və s.);
11. Fəlsəfi fikir (insan, xəyalpərəst, tənqidçi, strateq, şəxsiyyət, romantik, müstəqil insan, gözə çarpan insan, pessimist, ağıllı insan və s.);
12. Cəmiyyətdə rolu (müsabiqə iştirakçısı, cəmiyyətin hissəsi, kollektivin üzvü və s.);
13. Özünə münasibəti (özümü sevirəm, mən heçəm, mən özümü sevmirəm və s.);
14. Davranış xüsusiyyətləri (zərərli, siqaret çəkmək, qiybətcil, ekstrimi sevirəm, xuliqan və s.);
15. Fiziki forma (sağlam, zəif və s.).

### 3.1.17. “Tamamlanmamış cümlələr” test nəticələrinin təhlili

Cümlələrin analizi zamanı cədvəldən istifadə edərək şəxsiyyətin konfliktli zonaları aşkar edilir (Cədvəl 3.22). Testin keçirilməsi zamanı pauzalara, qeyri-verbal işarələrə xüsusi diqqət yetirmək lazımdır.

| Cümlələr qrupu | Cümlələrin № | | | |
|---|---|---|---|---|
| Ataya münasibət | 1 | 16 | 31 | 46 |
| Özünə münasibət | 2 | 17 | 32 | 47 |
| Reallaşmamış imkanlar | 3 | 18 | 33 | 48 |

| Cümlələr qrupu | Cümlələrin № | | | |
|---|---|---|---|---|
| Tabeçiliyindəkilərə münasibət | 4 | 19 | 34 | 49 |
| Gələcəyə münasibət | 5 | 20 | 35 | 50 |
| Özündən yuxarıdakılara münasibət | 6 | 21 | 36 | 51 |
| Qorxular və ehtiyat etdiyi şeylər | 7 | 22 | 37 | 52 |
| Dostlara münasibət | 8 | 23 | 38 | 53 |
| Öz keçmişinə münasibət | 9 | 24 | 39 | 54 |
| Əks cinsə münasibət | 10 | 25 | 40 | 55 |
| Seksual münasibətlər | 11 | 26 | 41 | 56 |
| Ailəyə münasibət | 12 | 27 | 42 | 57 |
| Əməkdaşlığa münasibət | 13 | 28 | 43 | 58 |
| Anaya münasibət | 14 | 29 | 44 | 59 |
| Günahkarlıq hissi | 15 | 30 | 45 | 60 |

**Cədvəl 3.22. Tamamlanmamış cümlələr metodikasının açarı**

Problemli sahələr haqqında cümlələr olanda uşağın pozası dəyişir və çöz vaxt pauzalar əmələ gəlir.

### 3.1.18. Məktəb həyəcanı səviyyəsinin diaqnostika (Fillips) nəticələrinin təhlili

Nəticələrin işlənib hazırlanması zamanı cavabları testin açarı ilə uzlaşmayan sualları seçirlər (Cədvəl 3.23). Uşaq 57 suala "hə" deyə cavab versə də, açarda bu sualın mənfi cavabı qeydə alınır.

Açar ilə uyğunluq təşkil edən cavablar – həyəcanın təzahürü deməkdir (Cədvəl 3.24). Onların işlənib hazırlanması zamanı isə növbəti göstəricilər hesablanır:

1. Bütün mətnə əsasən uyğun olmayan cavabların ümumi sayı. Əgər o, 50%-dan çoxdursa, o zaman burada söhbət uşağın həyəcanlanmasından, əgər 75%-dan çoxdursa, o zaman yüksək səviyyəli həyəcanlanmadan gedir.
2. Mətndə ayırd edilən 8 həyəcan amilinin hər birinə görə uyğunluq təşkil edən cavabların sayı. Həyəcanlanma səviyyəsi birinci halda olduğu kimi müəyyən edilir. Məktəblinin ümumi daxili emosional durumu təhlil edilərək bir çox hallarda bu və ya digər həyəcan sindromlarının varlığı və ya onların miqdarı ilə müəyyən edilir.

| Amillər | Sualların № |
|---|---|
| Məktəbdə ümumi həyəcanlanma | 2, 3, 7, 12, 16, 21, 23, 26, 28, 46, 47, 48, 49, 50, 51, 52, 53, 54, 55, 56, 57, 58; cəmi = 22 |
| Sosial sarsıntı ilə bağlı həyəcan | 5, 10, 15, 20, 24, 30, 33, 36, 39, 41, 44; cəmi = 11 |
| Nailiyyətin əldə olunmasında tələbatın frustrasiyası | 1, 3, 6, 11, 17, 19, 25, 29, 32, 35, 38, 41, 43; cəmi = 13 |
| Özünü ifadə etmək qorxusu | 27, 31, 34, 37, 40, 45; cəmi = 6 |
| Biliklərin yoxlanması vəziyyəti ilə bağlı qorxu | 2, 7, 12, 16, 21, 26; cəmi = 6 |

| Amillər | Sualların № |
|---|---|
| Ətrafdakıların ümidlərini doğrultmamaq qorxusu | 3, 8, 13, 17, 22; cəmi = 5 |
| Sarsıntıya qarşı cüzi fizioloji müqavimət | 9, 14, 18, 23, 28; cəmi = 5 |
| Müəllimlər ilə münasibətlərdə problemlər və qorxular | 2, 6, 11, 32, 35, 41, 44, 47; cəmi = 8 |

**Cədvəl 3.23. Fillips testin amillərinin açarı**

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 - | 7 - | 13 - | 19 - | 25 + | 31 - | 37 - | 43 + | 49 - | 55 - |
| 2 - | 8 - | 14 - | 20 + | 26 - | 32 - | 38 + | 44 + | 50 - | 56 - |
| 3 - | 9 - | 15 - | 21 - | 27 - | 33 - | 39 + | 45 - | 51 - | 57 - |
| 4 - | 10 - | 16 - | 22 + | 28 - | 34 - | 40 - | 46 - | 52 - | 58 - |
| 5 - | 11 + | 17 - | 23 - | 29 - | 35 + | 41 + | 47 - | 53 - | |
| 6 - | 12 - | 18 - | 24 + | 30 + | 36 + | 42 - | 48 - | 54 - | |

**Cədvəl 3.24. Məktəb həyəcanı səviyyəsinin diaqnostikası üzrə sualların açarı**

Nəticələr:

1. Hər bir amil üzrə işarələrin uyğunsuzluğu. Burada 50% - 75% nisbəti qeydə alınır. Hər bir respondent üçün;
2. Bu məlumatların fərdi diaqramlar şəklində təqdimatı;
3. Bütün sinif üçün hər bir ölçü vahidinə görə uyğunsuzluqların sayı - 50% - 75% nisbəti qeydə alınır;
4. Bu məlumatların diaqram şəklində təqdimatı;
5. Müəyyən amil üzrə uyğunsuzluqlara yol verən şagirdlərin sayı - 50% - 75% nisbəti qeydə alınır;
6. Tormozlanma hallarının təkrarlanması zamanı müqayisəli nəticələrin təqdimatı;
7. Hər bir şagird haqqında tam informasiya.

Hər bir sindromun (amilin) məzmunlu xarakteristikası:

1. Məktəbdə ümumi həyəcanlanma – uşağın məktəbin həyatına qoşulmasının müxtəlif formaları ilə əlaqədar uşağın ümumi emosional durumu;
2. Sosial sarsıntı ilə qarşılaşma – uşağın sosial əlaqələrinin inkişaf etməsi fonunda uşağın ümumi emosional durumu;
3. Nailiyyətə nail olma zamanı tələbatın frustrasiyası – uşağın tələbatlarını, yüksək nəticələrə nail olmaq bacarığını inkişaf etdirməyə imkan verməyən əlverişsiz psixi fon;
4. Özünü ifadə qorxusu – özünüaçıqlama, özünü başqalarına təqdim etmə, imkanlarının nümayişi zərurəti ilə uzlaşan neqativ emosional həyəcan durumu;
5. Biliklərin yoxlanması zamanı yaşanan qorxu hissi – biliklərin, nailiyyətlərin və

imkanların yoxlanması kimi vəziyyətlərdə neqativ münasibət və həyəcan hissi ilə qarşılaşma;

6. Ətrafdakıların ümidlərinə cavab verməyən qorxu hissi – nəticələrin, əməllərin və fikrin ətrafdakılar tərəfindən qiymətləndirilməsi, neqativ qiymətlərin gözlənməsi prosesində başqalarının nə qədər əhəmiyyət kəsb etmələrinə doğru oriyentasiya;
7. Sarsıntıya qarşı cüzi fizioloji müqavimət – uşağın sarsıntılı vəziyyətlərə uyğunlaşması ehtimalını azaldan, mühitin həyəcan amilinə qarşı qeyri-adekvat, destruktiv reaksiyanın nümayişi ehtimalını artıran psixofizioloji təşkil xüsusiyyətləri;
8. Müəllimlərinə münasibətdə yaşanan problemlər və qorxu hissi – məktəbdə uşağın uğurlu təhsili imkanını azaldan və müəllimlər ilə münasibətdə ümumi neqativ emosional fon.

### 3.1.19. "Dördüncü artıqdır" metodikası üzrə test nəticələrinin təhlili

Bu test vasitəsilə uşağın ümumiləşdirmə səviyyəsi müəyyən edilir. Uşağa 8 şəkil dəsti təqdim olunur. Nəticəyə əsasən ümumiləşdirmə səviyyəsi müəyyən edilir.

Ümumiləşdirmənin 3 səviyyəsi var:

1. Sinkret;
2. Kompleks;
3. Konseptuallıq.

**Sinkret**- yəni " əsassız əlaqələndirmə" bir qrup əşyanın təsadüfi seçilmiş səbəbə əsasən birləşdirilməsinə deyilir. Bu tip ümumiləşdirmə kiçik yaşlı uşaqlarda mövcuddur.

**Kompleks** - vizual əlamət ümumiləşdirməyə deyilir. Bu tip ümumiləşdirmə məktəbəqədər yaş dövründə olan uşaqlarda mövcuddur.

**Konseptuallıq** - Əsaslı əlaqələrin abstraklaşdırılması yolu ilə həyata keçirilən ümumiləşdirmədir.

Birinci sinfə gedən uşaqlarda konseptual ümumiləşdirmənin olması şərtdir, əks halda onlar məktəb proqramını qavramaqda böyük çətinliklərlə rastlaşa bilərlər.

Nümunə: Əgər uşaq top, avtomobil, oyuncaq ayı və alma şəkillərindən artıq olan almanı seçir və səbəbini digər 3 əşyanın oyuncaq olması ilə əlaqələndirirsə, o zaman uşaqda ümumiləşdirmə qabiliyyətinin məktəb tədrisinə uyğun səviyyədə (konseptuallıq səviyyəsi) olduğunu qeyd etmiş oluruq.

Test zamanı bir neçə stimul material istifadə edilməlidir.

### 3.1.20. "Labirint" metodikası üzrə test nəticələrinin təhlili

Testin nəticələri aşağıdakı qaydada qiymətləndirilir:

- 1-6-cı misallarda hər düzgün yerinə yetirilmiş döngə üçün "+1" bal hesablanır;
- Hər tapşırıqda 4 döngə olduğu üçün bir tapşırığın maksimal nəticəsi 4 baldır;
- 7-10-cu misallarda hər düzgün yerinə yetirilmiş döngə üçün "+2" bal hesablanır;

- 7 və 8-ci misalların hər birində 2 döngə olduğuna görə bu testin hər biri üçün maksimal nəticə 4 baldır;
- 9 və 10-cu misalların hər birində 3 döngə olduğuna görə bu testin hər biri üçün maksimal nəticə 6 baldır.

Sonda uşağın bütün məsələlər üzrə balları toplanılır. Bu metodika üzrə maksimal nəticə 44 baldır.

Nəticələrin qiymətləndirmə kriteriyaları aşağıdakılardır:

1. 0-13 bal – 1-ci səviyyə, əyani-sxematik təfəkkürün inkişafı aşağı səviyyədədir;
2. 14-22 bal – 2-ci səviyyə, əyani-sxematik təfəkkürün inkişafı orta səviyyədən aşağıdır;
3. 23-28 bal – 3-cü səviyyə, əyani-sxematik təfəkkürün inkişafı orta səviyyədədir;
4. 29-36 bal – 4-cü səviyyə, əyani-sxematik təfəkkürün inkişafı orta səviyyədən yuxarıdır;
5. 37-44 bal – 5-ci səviyyə, əyani-sxematik təfəkkürün inkişafı yüksək səviyyədədir.

### 3.1.21. Məktəb kamilliyinin istiqamət test (A. Kern – Y. Irasek) nəticələrinin təhlili

Nəticələrin qiymətləndirməsi bal vasitəsilə aparılır.

**1-ci subtest**

1-ci subtest üçün 1 bal – çəkilmiş kişi rəsmində baş, bədən, əllər və qollar var (Şəkil 3.9). Baş bədəndən kiçikdir və onlar boyun vasitəsilə birləşiblər. Başda saçlar (kepka və ya şlyapa) var. Qulaqları var. Üzdə göz, burun, ağız var. Əllər beş barmaqlıdır. Ayaqların sonunda pəncə ayrılır. Fiqurda kişiyə uyğun paltarlar çəkilib. Rəsm bütövdür, yəni görünür ki, şəkildə əl və ayaqlar bədənlə eynidir və bədəndən ayrı çəkilməyib.




**Şəkil 3.9. İnsan şəkli nümunəsi**

2 bal – 1 ballıq tələblərdə sadalananların əksəriyyətinə riayət olunur. Bunlardan başqa bədən üzvləri ayrı-ayrı detallar kimi çəkilir, boyun, saç və ya hər əldə bir barmaq olmaya bilər. Üzün hər bir hissəsinin olması şərtdir.

3 bal – Fiqurun başı, bədəni, əl və qolları var. Əl və ya qollar 2 xətt ilə çəkilib. Boyun,

saçlar, qulaqlar, paltar, ayağın pəncələri və ya əl barmaqları olmaya bilər.

4 bal – Primitiv rəsm. Baş və bədəni var. Əl və ayaqlar bir xətt ilə çəkilib.

5 bal – Qaralama. Bədən, əl və ayaqlar aydın təsvir olunub.

**2-ci subtest**

1 bal – Verilmiş nümunə aydın və başa düşülən şəkildə köçürülür (Şəkil 3.10). Yazılmış hərflərin ölçüsü nümunədən 2 dəfə böyük deyil. Cümlənin baş hərfi seçilir. Hərflər aydın şəkildə 3 sözə birləşiblər. Köçürülmüş cümlə horizontal xətdən 30 dərəcədən çox əyilməyib.



**Şəkil 3.10. 2-ci subtest nümunəsi**

2 bal – Cümləni oxumaq olur. Hərflərin ölçüləri nümunəyə yaxındır. Hərflərin qaməti önəmli deyil. Horizontal xətt 30 dərəcədən çox əyilib.

3 bal – Cümlə aydın şəkildə 3 hissəyə bölünür və yazıda ən azı 4 hərf başa düşülür.

4 bal – Nümunə ilə ən azı 2 hərf uyğun gəlir və yazıya oxşayır.

5 bal – Qaralama.

**3-cü sübtest**

1 bal – Demək olar ki, nümunənin mükəmməl surətidir (Şəkil 3.11). Nöqtələr dairələrlə əvəz olunmayıb. Horizontal və vertikal simmetriya qorunub. Bir nöqtənin sütundan və sətirdən çıxması yol veriləndir. Nümunəni balacalaşdırmaq olar. Lakin 2 dəfədən çox böyütmək olmaz. Şəkil nümunəyə paralel olmalıdır.




**Şəkil 3.11. 3-cü subtestin nəticə nümunəsi**

2 bal – Nöqtələrin sayı və yerləşdirilməsi nümunəyə uyğundur. 3 nöqtəyədək sütun və ya sətirdən çıxması yol veriləndir.

3 bal – Şəkil ümumilikdə nümunəyə uyğundur. Eni və uzunluğu nümunədən 2 dəfə çox deyil. Şəklin bütün simmetriyasının pozulması mümkündür. Nöqtələrin sayı nümunəyə uyğun olmaya bilər, lakin onlar 7-dən az 20-dən çox olmamalıdır. Fiqurun dönməsi (hətta 180 dərəcə) mümkündür.

4 bal – Şəklin konturu nümunəyə uyğun deyil, lakin yenə də nöqtələrdən ibarətdir. Nöqtələr qrup şəklində yerləşir. Şəklin ölçüsü və nöqtələrin sayı önəmli deyil. Nümunədə verilmiş ümumi fiqurun digər formaları ilə dəyişilməsi yol verilməzdir.

5 bal – Qaralama.

Nəticələrin emalı: hər subtestin hər biri 5-ballıq sistemlə qiymətləndirilir (ən böyük – 1, aşağı isə – 5)

Subtestlər üzrə nəticələr cəmlənir.

Nəticələr:

1. 3 – 5 bal – Psixomotor inkişaf yetkin səviyyədədir;
2. 6 – 7 bal – Psixomotor inkişaf yetişmək prosesindədir. Müsbət proqnoz verilir;
3. 8 – 9 bal – Psixomotor inkişaf yetişmək prosesindədir. İndividual müayinə tələb olunur;
4. 10 – 15 bal – Psixomotor inkişafın qeyri-kafi səviyyəsidir. Bu səviyyədə əqli gerilik müşahidə oluna bilər.

Testin nəticələrinə görə orta və orta səviyyədən yüksək nəticə göstərən uşaqlar məktəbə tez adaptasiya olurlar. Orta səviyyədən aşağı nəticə göstərən uşaqlar isə məktəbə adaptasiya problemi yaşayırlar və onlarda yazı problemləri müşahidə olunur. Lakin 2-ci sinfin ortalarında onlardan bir çoxu "ana dili" və "riyaziyyat" dərslərindən müvəffəqiyyətlər qazanmağa nail olur.

### 3.1.22. ""Hə" və "yox", "bəli" və "xeyr" demə" oyun metodikası üzrə test nəticələrinin təhlili

Oyun testində nəticələr cavab formasından asılıdır. Uşaq əgər oyunun qaydalarına tam əməl edir və suallara verbal cavab təqdim edirsə, o zaman uşağın davranışını iradi şəkildə idarə etməsinin yaxşı səviyyədə olduğunu göstərir. Uşaq əgər oyunun qaydalarına əməl edir, lakin cavabını verbal olaraq deyil, baş hərəkətləri ilə verirsə, o zaman davranışın iradi idarə edilməsi kafi səviyyəsindədir. Əgər uşaq oyunun qaydalarına əməl edə bilmir və cavab verərkən " hə" və "yox" sözlərindən istifadə edirsə, deməli onda iradi keyfiyyətlər yetərincə inkişaf etməmişdir.

### 3.1.23. Psixososial yetkinliyin ölçülməsi, test nəticələrinin təhlili

Hər düzgün cavaba görə 1 bal əlavə olunur. Düz, lakin tam olmayan cavablara görə 0.5 bal əlavə olunur. Məsələn, "Atam həkimdir" cavabı 1 bal ilə qiymətləndirilir. "Anam işləmir, atam işdə işləyir" cavabı isə 0.5 bal ilə qiymətləndirilir.

5, 8, 15, 22-ci suallar kontrol üçündür və onların qiymətləndirilməsi aşağıdakı qaydaya uyğun olaraq aparılmalıdır:

- 5-ci sual. Əgər uşaq yaşını düz deyirsə, cavab 1 bal ilə qiymətləndirilir. Əgər uşaq doğum tarixini deyirsə (il, ay) bu cavab 3 bal ilə qiymətləndirilir;
- 8-ci sual. Şəhər və tam ünvan dedikdə cavab 2 bal ilə qiymətləndirilir. Ünvan tam deyilmədikdə isə cavab 1 bal ilə qiymətləndirilir;
- 15-ci sual. Sualın hər bəndi üzrə düzgün cavaba görə 1 bal əlavə olunur;
- 22-ci sual. Düzgün cavab 2 bal ilə qiymətləndirilir.

Sonda uşağın nəticələri toplanılır və yekun bal hesablanır. Nəticələr aşağıdakı kimi şərh olunur:

- 24-29 bal – psixososial yetkinlik yüksək səviyyədədir;

- 20-24 bal – psixososial yetkinlik orta səviyyədədir;
- 15-20 bal – psixososial yetkinlik aşağı səviyyədədir.

### 3.1.24. Məktəbəqədər və 1-ci sinif şagirdləri üçün təlimə motivasiyasının tədqiqat metodikası (M.P Qinzburq) üzrə test nəticələrinin təhlili

Motivlərin seçiminə görə ballar əlavə olunur:

- Nömrə 1. Xarici motiv – 0 bal;
- Nömrə 2. Öyrənmə motivi – 5 bal;
- Nömrə 3. Oyun motivi – 1 bal;
- Nömrə 4. Pozisiya motivi – 3 bal;
- Nömrə 5. Sosial motiv – 4 bal;
- Nömrə 6. Qiymət motivi – 2 bal.

Protokola uyğun olaraq hər motiv üzrə bal toplanır. Testin nəticələri həm kəmiyyət, həm keyfiyyətə görə emal tələb edir.

Nümunə №1. 7 yaş 2 aylıq 1-ci sinif şagirdinin nəticələri (Cədvəl 3.25):

| | 1-ci şəkil (xarici motiv) | 2-ci şəkil (öyrənmə motivi) | 3-cü şəkil (oyun motivi) | 4-cü şəkil (pozisiya motivi) | 5-ci şəkil (sosial motiv) | 6-cı şəkil (qiymət motivi) |
|---|---|---|---|---|---|---|
| Seçim a) | X | | | | | |
| Seçim b) | | | | X | | |
| Seçim c) | | | | | X | |

**Cədvəl 3.25. Qinzburq testin cavab nümunəsi 1**

Uşağın təlim motivasiyası haqqında rəy:

- Şagirdin toplam balı 7 bal təşkil edir. Şagirdin təlim motivasiyasının təlim situasiyasına daha az uyğun olduğu müəyyən olundu. Seçimlər arasında əsas sayılan öyrənmə motivi yer almayıb.

Nümunə №2. 6 yaş 8 aylıq 1-ci sinif şagirdinin nəticələri (Cədvəl 3.26):

| | 1-ci şəkil (xarici motiv) | 2-ci şəkil (öyrənmə motivi) | 3-cü şəkil (oyun motivi) | 4-cü şəkil (pozisiya motivi) | 5-ci şəkil (sosial motiv) | 6-cı şəkil (qiymət motivi) |
|---|---|---|---|---|---|---|
| Seçim a) | | | | | X | |
| Seçim b) | | | | | | X |
| Seçim c) | | X | | | | |

**Cədvəl 3.26. Qinzburq testin cavab nümunəsi 1**

Uşağın təlim motivasiyası haqqında rəy:

- Şagirdin toplam balı 10 bal təşkil edir. Şagirdin təlim motivasiyasının təlim situasiyasına adekvat olduğu müəyyən olundu. Seçimlər arasında əsas sayılan öyrənmə motivi yer alıb.

## Tələbələr üçün fəaliyyətlər

1. Leyla Keysi ilə tanış olun. Məlumatlara əsasən aşağıdakı cədvəli doldurun.

Psixoloqa Leylanın anası müraciət etmişdir. Leyla ailədə ortancıl uşaqdır. Onun 10 yaşı var. Böyük qardaşının 17, kiçik qardaşının isə 1 yaşı var. Müayinənin əvvəlində ana psixoloqa bildirdi ki, kiçik övladı hal-hazırda evdə təkdir, o yatır və təxminən iki saat da artıq yatacaq. Lakin hər ehtimala qarşı o, uşağının yatağında onun üçün butulkada ılıq süd qoyub. Leyla 4-cü sinifdə oxuyur və ananın sözlərinə görə oxumağı bacarmır (üzündən oxuma). Bu səbəbdən o, ev tapşırıqlarını və sinif dərslərini yerinə yetirməkdə çətinlik çəkir. Sinifdəki uşaqlar ona gülür. Ananın sözlərinə görə Leyla hərfləri tanıyır, lakin sözləri bütöv oxuya bilmir.

***Anamnez***

Hamiləlik və doğuş normal keçib. Uşaq doğularkən iri və sağlam olub. Lakin erkən uşaqlıq çağında Leyla 20 dəqiqədən artıq yata bilmirdi. Axşam yeməyindən sonra uzağı 2 saat və yalnız ananın yatağında yuxuya gedirdi. Qalan bütün vaxtlarda isə Leyla ağlayırdı. Anası onu heç cür sakitləşdirə bilmirdi. Uşaq ana südü ilə qidalanırdı. 1 yaşa qədər su içməkdən və əlavə yeməklərdən imtina edirdi. Bu vəziyyət ananı tamamilə haldan salmışdı. Bir çox həkimlərə müraciət etməsinə baxmayaraq, onların heç biri narahatçılıq üçün bir səbəb tapmırdılar. 2 yaş ərəfəsində vəziyyət birdən düzəldi. Leylanın yuxusu normaya düşdü.

Leyla erkən inkişaf edib, 8 ayında gəzməyə başlayıb və 1 yaş 3 ayında isə danışmağa başlayıb. Konstruktiv oyunları heç vaxt bacarmayıb. Piramidanı yığa bilməyib, leqoya maraq göstərməyib.

3 yaşında Leyla böyük həvəslə bağçaya getməyə başlayıb. O, çox ünsiyyətcil və sosial idi. Məktəbə hazırlıq zamanı ən çox riyaziyyat və rəsmdə müvəffəqiyyətlər əldə edirdi. Lakin oxumağı öyrənə bilmirdi. O zaman ana bu problemə çox əhəmiyyət vermirdi və fikirləşirdi ki, məktəbdə öyrənəcək. Lakin məktəbdə də öyrənə bilmədi. Bundan sonra çətinliklər başladı. Sinif yoldaşları ona güldüyü üçün Leyla indi məktəbə getmək istəmir. Vəziyyəti çətinləşdirməmək üçün müəllimə sinifdə Leyladan dərs soruşmur. Ananın çox işi olduğu üçün qızının ev tapşırıqları ilə məşğul ola bilmir. Həmçinin bu onun prinsiplərinə ziddir- (“ .... mən uşaqlarımı sərbəst böyüdürəm. Özün bacara biləcəyin hər bir şeyi özün edirsən. Bəyəm 4-cü sinfin ev tapşırıqlarını yerinə yetirmək bu qədər çətindir?” ) Ev tapşırıqlarını ana heç vaxt yoxlamır. Ananın sözlərinə görə ata uşaqlarını heç sevmir və onlara maraq göstərmir. Ailə boşanmaq üzrədir. Ana ata haqqında söhbəti davam etdirmək istəmir. Onun sözlərinə görə həyat yoldaşı uşaqların gözündə onu alçaldır. Dəfələrlə uşaqların gözü qarşısında onu danlayıb və əl qaldırıb. Onlar yarım ilə yaxındır ki, ayrı yaşayırlar. Hal-hazırda o, başqa bir kişiylə ailə həyatı qurmağa hazırlaşır. İlin əvvəlindən Leyla nitq patologiyaları mərkəzinə məşqə gedir. Həftədə qrup şəklində 2 dəfə dəstək alır. Oraya nevroloqun göstərişi əsasında yazılıb. Anasının sözlərinə görə həkimlər konkret diaqnoz qoymayıblar. Leylanın şifahi nitqi yaxşı inkişaf edib. O, daima audi kitablara qulaq asır və

dinlədiyini çox yaxşı yadında saxlayır. Evdə mətn oxumaq məcburiyyəti qarşısında qalmamaq üçün anası Leylaya dərsi daha diqqətlə dinləməyi tövsiyə edir. Leyla aktiv uşaqdır. Daim sinif yoldaşları ilə teatr, kino və ekskursiyalara gedir. Gəlinciklərə özü paltar tikir və yemək bişirməyi bacarır. Həmçinin o, uzun müddət üzgüçülük ilə məşğul olurdu. İndi dərslərini çatdıra bilmədiyi üçün üzgüçülüyə getməyi dayandırıb. Anası Leylanın dəftərlərini göstərir. Leylanın xətti gözəl və dəftəri olduqca səliqəli idi. Məktəbdəki müvəffəqiyyətsizlik Leylanı çox narahat edirdi. Bu səbəbdən o, çoxlu yeyir və kökəlməyə başlayıb. Dərsdən tez-tez ayaq yoluna getmək üçün icazə alır.

| Şikayətlər | Risk faktorları | İlkin fərziyyələr |
|---|---|---|
| -<br>-<br>- | -<br>-<br>- | -<br>-<br>- |

2. Təqdim olunmuş Keys nümunəsinə uyğun olaraq müayinə proqramını tərtib edin.

3. Sona Keysi ilə tanış olun. Məlumatlara əsasən aşağıdakı cədvəli doldurun.

Psixoloqa Sonanın anası Elnarə xanım müraciət etmişdir. Ailədə iki uşaq var. Sonanın 9 yaşı var. Onun qardaşı Davud isə 2 yaş 6 aylıqdır. Onlar həyət evində yaşayırlar. Sona gimnaziyanın 3-cü sinfində oxuyur. Evdən məktəbə, məktəbdən evə sürücü ilə gedib-gəlir. Hər gün məktəbdə 5-6 dərs olur. Məhəllələrində Sonanın həmyaşıd dostları yoxdur. Məktəbdən sonra yalnız öz həyətlərində vaxt keçirir. Məktəbi daha çox digər uşaqlarla ünsiyyətdə olmaq imkanına görə sevir. Ana iş adamıdır. Ananın sözlərindən elə çıxır ki, evi o dolandırır, evin əsas maddi yükü onun üzərindədir. Elnarə səhərdən axşama qədər işdə olur, axşam o, evə qayıdanda Sona adətən yatmış olur. Qızının problemləri haqqında olduqca işgüzar üslubda danışır, qıcıqlandığını gizlətməyə çalışır.

Şikayətlər: dərsdə müvəffəqiyyətsizlik, Sona demək olar ki, heç ev tapşırıqlarını etmir, oxumaq istəmir, "mən sənin üçün oxuyuram" deyir, kiçik qardaşına qarşı aqressivdir, hətta onu başından da vura bilər. Evdə işləyən xadiməyə qarşı hörmətsiz davranır, kobud danışır, əmrlər verir. Ana isə vurğulayır ki, özü heç vaxt bu tərzdə xadimələrlə danışmayıb. "Yox" sözü nədir bilmir, çox tərbiyəsizdir, tələb edir ki, ona qulluq etsinlər, arxasınca yığışdırsınlar. Ananın fikrincə, bu kobudluğu Sona əvvəl evdə çalışan dayədən və sinifdəki bəzi uşaqlardan götürüb. Özünü uşaq kimi aparır (uşaq kimi düşünür), gəlinciklərlə oynayır, tez-tez anasını bu oyunlara dəvət edir, tək oynamağı sevmir.

***Anamnez***

Hamiləlik ağır keçib. O zamanlar kirayədə yaşadıqları mənzilin sahibi ilə fikir ayrılığı yaşanmışdır. Elnarə çox əsəbi idi və tez-tez ağlayırdı. Doğuş vaxtında və təbii üsulla həyata keçib. Lakin doğum evində Sonaya infeksiya keçib və o, antibiotiklə müalicə olunub. Uşaq vaxtı kəllədaxili təzyiq olub, müalicə alıb və 5 yaşında isə diaqnoz qaldırılıb. 9 ayda gəzməyə başlayıb, 1 yaş yarımda danışıb, uşaq vaxtı asanlıqla şerlər öyrənib, 6 ayında tualet vərdişi formalaşdırılmışdı, lakin sonralar bu vərdiş yox olmuşdur. Doğuşdan iki həftə sonra

ana işə çıxır. Uşağın qulluğu dayəyə həvalə olunur. Gün ərzində ana evə bir neçə dəfə gələrək uşağa süd verirdi. Sona anası üçün darıxırdı və hər zaman ayrılanda isterika yaşayırdı. Ana iki aydan sonra bu hallara dözməyib işdən ayrıldı. Lakin qısa müddətdən sonra yenidən iş həyatına başladı. 2 yaşda Sonanı bağçaya qoydular. Bağçada daim müəllimlər tərəfindən şikayətlər gəlməyə başladı. Sona bağçaya getməkdən imtina edirdi və isterikaya düşürdü. 2 yaşdan 4 yaş 6 aya qədər Elnarə ailəsi ilə Qazaxıstanda yaşayıb, orada işləyib. Orada da Sonanı bağçaya yerləşdirmişdilər. Müəllimə çox ciddi olsa da dərslərini maraqlı keçirdi. Onlar Sona ilə çox məşğul olurdular və müəllimə Sonanın gözəl estetik zövqünü daim vurğulayırdı.

O zamanlar Sona bağçaya böyük həvəslə gedirdi. 5 yaşında Sonanı məktəbəqədər hazırlıq kursuna göndərmək qərarı verildi. Lakin məşğələlər uğursuz keçirdi. Qısa müddətdən sonra: qulaq asmır, eşitmir, maraq göstərmir və digər şikayətlər gəlməyə başladı. 1-ci sinifdə də bu şikayətlər gəlməyə davam edirdi. Müəllim vurğulayırdı ki, uşağı məktəbə tez qoyublar o, hələ hazır deyil. Dərs müvəffəqiyyəti stabil deyildi: "5" də ala bilərdi, "2" də. Ürəyi istəməyəndə sinifdə tapşırıqları yerinə yetirmir. Ev tapşırıqlarını müəllim ilə əlavə məşğələlərdə yerinə yetirirdi. Lakin 3-cü sinfin əvvəlində anası bu məşğələləri dayandırdı: "Qoy özü oxusun!" Qiymətlərin səviyyəsi kəskin şəkildə aşağı endi. Sona demək olar ki, ev tapşırıqlarını heç yerinə yetirmirdi.

Qardaşının dayəsinin pedaqoji təhsili olsa da Sona onun sözünə qulaq asmırdı. Dayə məcbur qalıb Sonanın anasına zəng vururdu və yalnız ananın danlamasını eşidəndən sonra o, ev tapşırıqlarını edirdi. Sona anasının sözündən çıxmırdı. Qardaşının əvvəlki dayəsi Sonaya görə işdən çıxmışdı. Sona hər gün saat 2-dən 8-ə qədər dərslərini etməyə çalışır (o da dava-dalaş və isterika ilə). Tez-tez fikri yayınır. O, energetik vampirdir. Keçən il dərslərini etməyə Sonaya babası kömək edirdi. Bu kömək yarım il davam etdi daha sonra Sonanın əsəbləri dözmədi. O, çox şeyi böyüklərin acığına edirdi.

Bütün şikayətlərə baxmayaraq müəllimlər daima Sonanın güclü potensiala malik olduğunu qeyd edirdilər. Çox yaxşı yaddaşı var. Dərs zamanı ona diqqətsizlik mane olur. Diqqətsizlik ev tapşırıqlarında da özünü göstərir. Qaralamadan dəftərə köçürəndə çoxlu sayda səhvlər edir. Məktəbdə uşaqlar Sonaya dəyər verirlər və onunla dostluq etmək istəyirlər. Tez-tez ad günlərinə dəvət olunur. Lakin daimi rəfiqəsi yoxdur. Sona anasından tez-tez diqqət və hədiyyələr tələb edir. Onun üçün anası idealdır. Sona da anası kimi işləyərək çox pul qazanıb, müstəqil olmağı arzulayır. Son zamanlar ana evə daha tez gəlməyə çalışır. Məktəbə səhərlər hazırlaşmağa isə atası kömək edir. Elnarə şənbə və bazar günlərini ailəsi ilə keçirməyə çalışır. Dediklərinə görə uşaqları ilə çoxlu oynayır və gəzir.

Sona qardaşını qısqanır: "Ana, sən onu daha çox sevirsən" deyir. Çox acıqlı olanda isə ona qarğış edir: "Kaş ölərdin" deyir. Başından vura bilər. Elnarə fikirləşir ki, Sona balaca qardaşını ağlatmaqdan zövq alır. Bəzi vaxtlar öz pulu ilə qardaşına hədiyyə alır.

Sonanın ayrı otağı var. Lakin o, otağını yığışdırmır. Əslində isə o, səliqəni və təmizliyi çox sevir. Otağı səliqəli olanda xoşuna gəlir, lakin özü heç nə etmir. Dişlərini fırçalamır, tualetdən çıxanda su axıtmır, çirkli paltar ilə yatağa girir. Gigiyenik prosedurlarını yalnız

anasının yanında edir. Hətta bir dəfə Sona evdəki böyük güldanı tualet əvəzi istifadə etmişdir. Niyəsini soruşanda isə o, cavab verə bilməmişdi.

Müayinə nəticəsi: Sonanın xoş xarici görünüşü var, ünsiyyətcildir, gülərüzdür.

Məktəb haqqında düşüncələri: “Məktəb çox ciddidir, iki dənə “2”-yə görə məktəbdən qovurlar. Müəllim bütün günü uşaqları danlayır. Öyrənmək mənə maraqlıdır. Riyaziyyat, rus dili, idman və texnologiya dərslərini çox sevirəm. Musiqidən isə qəti xoşum gəlmir. Mahnılar çox gülməlidir və dərs müddəti gülməkdən yoruluram. Sinifdə çoxlu tərbiyəsiz uşaqlar var. Onlar fikrimi yayındırırlar”. Qardaşı haqqında isə deyir ki, ona görə həmişə danlanılır. “O məni itələyir, mən də onu. Atam isə yalnız məni danlayır. Amma mən onu asta itələyirəm. Anam isə sanki qardaşım doğulandan sonra məni unudub” - bu sözləri deyərkən Sonanın üzündə dərin küskünlük ifadəsi əks olunur.

| Şikayətlər | Risk faktorları | İlkin fərziyyələr |
|---|---|---|
| -<br>-<br>- | -<br>-<br>- | -<br>-<br>- |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Diaqnostika nəticələrinin kəmiyyət və keyfiyyət təhlilini edir”.**

1. Uşaq haqqında düzgün və hərtərəfli psixoloji rəyin müəyyənləşdirilməsi üçün psixoloqda hansı məlumatların olması zəruridir?

2. Verilmiş metodikalardan hansı daha çox kəmiyyət cəhətdən təhlil olunur?

A) Dembo-Rubinşteyn metodikası;
B) Veksler testi;
C) “İki ev” metodikası.

3. Verilmiş metodikalardan hansının yalnız keyfiyyət cəhətdən təhlili mümkündür?

A) Raven testi;
B) “Mövcud olmayan heyvan” rəsmi;
C) “2 gül” metodikası.

4. Verilmiş metodikalar arasında hansının (hansılarının) həm kəmiyyət, həm də keyfiyyət cəhətdən təhlili aparıla bilər?

A) Raven testi;
B) Ailə rəsmi;
C) Əl testi.

5. Mövcud olmayan heyvan rəsmini təhlil edin.

Məlumat: 5-ci sinif şagirdi, qadın cinsi



6. Mövcud olmayan heyvan rəsmini təhlil edin.

   Məlumat: 10-cu sinif, kişi cinsi



7. Ailə rəsmini təhlil edin.

   Məlumat: 11-ci sinif, qadın cinsi.




8. Ailə rəsmini təhlil edin.

   Məlumat: 4-cü sinif, kişi cinsi.



9. Ailə rəsmini təhlil edin.

   Məlumat: 2-ci sinif, qadın cinsi.



## 3.2. Psixoloji diaqnozu qaydalara uyğun tərtib edir

### 3.2.1. Psixoloji müayinənin əsasında psixoloji rəyin tərtibi

Psixoloji rəy uşağın və yeniyetmənin müayinəsi zamanı əldə edilən əsas nəticələrin vahid toplusunu (qısa formada) təşkil edir (Şəkil 3.12).



**Şəkil 3.12. Sənədlərin vahid toplusu**

Psixoloji rəy heç bir halda ayrı metodik vəsaitlər vasitəsilə əldə edilmiş nəticələrin siyahısına bərabər tutulmamalıdır. Lakin alınan bütün nəticələrin cəmi psixoloq qarşısında qoyulan sualların cavabları və mütəxəssisin tərtib etdiyi tövsiyələr də bu sənəddə mütləq yer almalıdır. Bu sənəd olduqca vacib sənəddir və müvəffəqiyyətlə yazılması üçün böyük təcrübə tələb edir.

Psixoloji rəyin yazılı şəkildə tərtibi həm psixoloq, həm valideyn üçün faydalıdır. Bu sənəd valideynlərə psixoloqun tövsiyələrini yerinə yetirə bilməsi üçün və uşağın gələcək inkişafının müstəqil təhlili zamanı dəyərli dəstək kimi istifadə oluna bilər. Psixoloji rəydə uşağın psixoloji xüsusiyyətləri və problemləri barədə sistematik təsvir əks olunur.

Psixoloji konsultasiyaların təlimatlarında psixoloji rəyin yazılması üçün standart və vahid formanın olmadığı vurğulanır. Məzmun və üslub baxımından psixoloji rəyin mətni aşağıdakı amillərdən asılı olaraq dəyişilə bilər:

- Kim üçün nəzərdə tutulub? (uşağın valideyni, məktəb rəhbərliyi, məhkəmə və s.);
- Nə üçün? Məqsəd? (məktəbəhazırlıq, inkişafın profilaktik monitorinqi, öyrənmə çətinliklərinin səbəbi). Beləliklə, psixoloji rəylər həm təqdimat üslubu, həm həcm, həm də mahiyyət baxımından fərqlənir. Lakin psixoloji rəyin tərtibi üçün bəzi ümumi məntiqi və təsviri qaydalar mövcuddur. Aşağıda nümunə olaraq psixoloji rəyin ətraflı tərtibi üçün zəruri hissələrin ümumi ardıcıllıq və məzmununun qısa təsviri təqdim olunur:

1. Uşaq və onun ailəsi haqqında ümumi məlumatlar. Psixoloji rəy müstəqil bir sənəd olduğu üçün bu tip məlumatları əks etdirmək çox önəmlidir. Müayinə günü üçün uşağın məlumatları qeydə alınır: ad, soyad, ata adı, doğum tarixi və yaşı (dəqiq olaraq yaş və ay). Məktəbəqədər təhsil haqqında, məktəbə dair, ailə tərkibi və valideynlər haqqında qısa məlumatlar (yaş və məşğuliyyət);
2. Müayinənin səbəbi: bu bənddə psixoloqa kim tərəfindən müraciət olunduğunu göstərmək mütləqdir. Əsas şikayət və valideynlərin gözləntilərini qeyd etmək lazımdır. Məsələn, “uşaqda qorxu və həyacanın səbəbini müəyyən etmək” və ya “yeniyetmə ilə etimadlı münasibət qurmağa köməklik göstərmək”. Təşəbbüs müəllim, məktəb rəhbərliyi və ya valideynin özü tərəfindən irəli sürülə bilər. Lakin heç bir halda psixoloq unutmamalıdır ki, valideynin yazılı razılığı olmadan uşaqla

müayinənin keçirilməsi qanuna ziddir;

3. Uşağın inkişafının qısa anamnezi. Adətən bu hissədə uşağın inkişafının gedişatına dair ən vacib məqamlar qeyd olunur. Buraya həm perinatal və postnatal dövr aiddir. Perinatal dövrə aid olan məqamlar: hamiləliyin gedişatı, hamiləlik dövründə ananın psixoloji və fizioloji durumu, hamiləlik zamanı ailənin sosial-iqtisadi vəziyyəti və s. Postnatal dövrə aid məqamlar: uşağın keçirdiyi xəstəliklər, inkişafın sosial situasiyasına aid məqamlar və s.;
4. Psixoloji müayinənin məzmunu və nəticələrin qısa təsviri. Bu bölmədə aydın şəkildə psixoloqun müayinə zamanı uşaq ilə hansı müayinə prosedurunun keçirilməsi açıqlanmalıdır. Bu bölmədə istifadə olunan metodik vəsaitlər və müayinə üsulları sadalanmalı və onlar vasitəsilə əldə olunan nəticələr açıqlanmalıdır. Burada yalnız test və metodikaların nəticələri deyil, eyni zamanda müşahidə və sərbəst söhbətlərin qısa məzmunu da qeydə alınmalıdır. Ehtiyac yarandığı zaman bu bölmədə digər profilli mütəxəssislərin rəyləri də yer ala bilər;
5. Psixoloji diaqnoz. Bu bölmədə uşağın psixoloji inkişafı haqqında tam məlumat yer almalıdır. “Uşağa nə olub?” sualına cavab bu bölmədə açıqlanmalıdır.

Psixoloji diaqnoz 3 komponentdən ibarətdir:

1. Yaş normaları çərçivəsində uşağın ümumi-psixi inkişafının dəyərləndirilməsi (Şəkil 3.13);
2. Uşağın fərdi psixoloji xüsusiyyətlərinin təsviri. Bu tip xasiyyətnamənin əsasında müayinə zamanı aparılan müşahidələr, uşağın motivasiya və emosional reaksiyaları, diqqət və fəaliyyətin təşkili, motor bacarıqları (utancaqlıq və ya ünsiyyətçillik, aktivlik və ya passivlik) kimi xüsusiyyətləri aşkar etmək olar. Bu zaman uşağı həmyaşıdlarından fərqləndirən xüsusiyyətlər vurğulanmalıdır (Şəkil 3.14);
3. Xasiyyətin psixoloji kvalifikasiyası, müşahidə olunan çətinliklərin dərəcəsi, uşağın problemləri (aşağı özgüvən və zəif tədris motivasiyası).



**Şəkil 3.13. Normanın paylanma qrafiki**


**Şəkil 3.14. Uşaqların fərqli xüsusiyyətləri**

4. Psixoloji diaqnozun 3 komponentlik prinsipi uşağın həm zəif tərəfləri, həm də güclü tərəfləri daxil olmaqla inkişafın ümumi mənzərəsini əks etdirir. Korreksiya zamanı biz həmin güclü cəhətlərə söykənərək uşaq üçün düzgün korreksiya planı tərtib edə bilərik. Nəticələrin etibarlılıq dərəcəsini göstərmək lazımdır. Bir-birinə zidd məlumatlar olduqda onları mütləq izah etmək lazımdır;
5. Müəyyən olunmuş çətinlik və pozuntuların səbəbləri. Bu bölümdə psixoloq müəyyən olunmuş çətinliklərə səbəb olan amilləri qeyd edir. Uşaqda müəyyən olunmuş çətinliklərin mənşəyi haqqında nəticələr yalnız hərtərəfli məlumatların emalından sonra almaq mümkündür.
6. Proqnoz. Psixoloji problemin səbəbini aşkarladıqdan sonra onun gələcək inkişafının mənzərəsini valideynlərə təqdim etmək məqsədəuyğun sayılır. Psixoloji rəydə yer alan proqnoz "şərti-variativ proqnoz" adlanır və 3 əsas suala cavab verir:
   - Mövcud vəziyyətə müdaxilə olunmasa uşağın gözlənilən inkişaf istiqaməti nədir?
   - Mövcud vəziyyət nə kimi amillərlə ağırlaşdırıla bilər?
   - Mövcud çətinliklər aradan qaldırıldıqda uşağın inkişafı üçün əlverişli seçim hansıdır?
6. Tövsiyələr. Adətən bu bölmədə psixoloji yardımın əsas istiqamətləri göstərilir, uğurlu təhsil və təlim ilə bağlı qısa tövsiyələr verilir. Korreksiya işlərinin aparılması üçün istiqamətlər təklif olunur. Həmçinin zəruri hallarda müxtəlif tipli təşkilati tədbirlərin həyata keçirilməsinə dair tövsiyələr yer ala bilər;
7. Tarix;
8. İmza.

Ümumi olaraq verilmiş sxem bir çox konsultativ məsələlərdə əsas kimi götürülə bilər. Lakin konkret hallardan asılı olaraq və ən əsası kimə ünvanlandığından asılı olaraq rəyin detalları, ayrı-ayrı hissələrin məzmunu və mətnin stilistik üslubu dəyişə bilər. İlk olaraq vurğulamaq lazımdır ki, psixoloji rəyi tərtib edərkən psixoloq etik prinsiplərə, xüsusən müayinə nəticələrinin məxfilik prinsipinə ciddi riayət etməlidir. Yalnız valideyn və ya qəyyum uşaq haqqında tam məlumatı əldə etmək hüququna malikdir. Bu tip məlumata aiddir: psixoloji diaqnoz, proqnoz, inkişaf proqnozu.

Uşağın tərbiyəsi, təhsili və taleyinin müəyyənləşdirilməsi ilə məşğul olan digər şəxslərə (müəllimlər, təhsil rəhbərləri, məhkəmə və digər instansiyalar) ünvanlanan psixoloji rəy forması yalnız onların sorğusuna uyğun olaraq tərtib olunmalıdır. Məsələn, tədris çətinliklərinin aradan qaldırılması üçün tədbirlərin təyin edilməsi üçün rəy. Bu kimi məhdudiyyət uşaqların maraqlarının müdafiə olunması və sui-istifadə hallarının qarşısının alınması məqsədini daşıyır. Nəzərdə saxlamaq lazımdır ki, zərurət yaransa belə, valideyn olmayan şəxsə ünvanlanan psixoloji rəydə şəxsi məlumatların açıqlanması yalnız uşaq və ya yeniyetmənin valideyninin razılığı ilə mümkündür.

Psixoloji rəy tərtibi zamanı sadə və anlaşılan cümlələrdən istifadə olunmalıdır. Peşəkar terminologiyadan istifadə edilməsi arzuolunan deyil.

## Tələbələr üçün fəaliyyətlər

1. “Sona keysı” üçün yazılı şəkildə psixoloji rəy tertib edin.
2. Daha öncə 3-cü sinif şagirdləri ilə aparılmış diaqnostikanın nəticələrinə əsasən psixoloji rəy tərtib edin.
3. Tanıdığınız 6-7 yaşlı uşaq üçün psixoloji rəy tərtib edin. Nəticələri təqdimat şəklində hazırlayın və müəllim ilə birgə müzakirə edin.



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Psixoloji diaqnozu qaydalara uyğun tərtib edir”.**

1. Psixoloji rəy nəyə deyilir?
2. Hansı səbəblərə görə psixoloji rəyi yazılı formada tərtib etmək vacibdir?
3. Psixoloji rəydə hansı məlumatlar mütləq şəkildə yer almalıdır?
4. Psixoloji rəy neçə bənddən ibarətdir? Onlar hansılardır?
5. Psixoloji proqnoz nə üçün lazımdır?
6. Aşağıdakılardan kim uşaq haqqında tam məlumatı əldə edə bilər?

A) Rəsmi qurumlar;
B) Müəllimlər;
C) Valideynlər.

## 3.3. Valideyn, müəllim və tərbiyəçilərə müvafiq qaydada tövsiyələr verir



Şəkil 3.15. Məktəb psixoloqu

Bu gün cəmiyyətdə psixoloq ixtisasına sahib olan şəxslər haqqında bir çox miflər və yanlış fikirlər mövcuddur (Şəkil 3.15).

Müəllimlərin məktəb psixoloqu haqqında düşündükləri:

- “Psixoloqun məsləhətinə heç ehtiyacım yoxdur”;
- “Biz universitetdə psixologiya dərsi keçmişik”;
- “Yaxşı olardı ki, psixoloq sinifdəki dəcəl uşağı başqa sinfə keçirməyə yardım etsin, digər problemləri özümüz həll edərik”.

Valideynlər məktəb psixoloqu haqqında aşağıdakı fikirdə olurlar:

- “O bizim uşaq haqqında hər şeyi bilir”;
- “Psixoloqa müraciət edən kimi o, dərhal bütün problemləri həll etməlidir”;
- “Psixoloq övladımızı biz istədiyimiz kimi dəyişəcək: uşaq əlaçı, sözəbaxan olacaq, ev işlərində kömək etməyə başlayacaq, kobudluq etməyəcək və ən yaxşı universitetə daxil olacaq”.

Şagirdlər məktəb psixoloqu haqqında daha çox bu fikirdə olur:

- “O, psixləri müalicə edir və çox istəyir ki, biz ona özümüz haqqında hər şeyi danışaq”;
- “Bəzən öz bezdirici testləri ilə gəlir və fikirləşir ki, hamıdan ağıllıdır”. Bu miflərin mövcud olduğu iş mühitində psixoloqun effektiv fəaliyyət aparması bir qədər çətindir. Bir çox hallarda psixoloqa müraciət edən valideyn düşünür ki, psixoloq mövcud olan problemi birbaşa həll edəcək. Lakin uşaqlar ilə aparılan psixoloji işlər zamanı psixoloq sadəcə bir vasitəçidir. Psixoloq problemi müəyyən edir və düzgün istiqamət verir. İstiqamətləndirmə daha çox rəy və tövsiyələr şəklində həyata keçirilir.

Psixoloqun tərtib etdiyi tövsiyələr ümumi xarakter daşımalıdır. Psixoloq hər hansı seçimlə bağlı məsləhətlər verə bilməz. Məsələn, valideyn uşağın məktəbini dəyişməsilə bağlı psixoloqa müraciət edərkən psixoloq bu suala birbaşa olaraq “hə”, yaxud “yox” cavabını verə bilməz (Şəkil 3.16).




**Şəkil 3.16. İnsan və seçimləri**

Bu sualı cavablandırarkən psixoloq yalnız uşağı digər məktəbə keçirilib-keçirilməyəcəyi təqdirdə onun rastlaşa biləcəyi potensial mənfi və ya müsbət amillərini sadalaya bilər.

Valideynə verilə biləcək məsləhətləri 3 böyük qrupa bölmək olar:

1. Qeyri-spesifik məsləhətlər;
2. Spesifik məsləhətlər;
3. Uşağın yaş xüsusiyyətlərinə dair məsləhətlər.

**Qeyri-spesifik məsləhətlər** uşağın ümumi psixoloji vəziyyətinin yaxşılaşdırılması üçün verilən tövsiyələrdir. Qeyri-spesifik məsləhətlərə aşağıdakı istiqamətlərdə olan məsləhətlər aiddir:

- Özünü və başqalarını sevə bilmək bacarığının formalaşdırılmasına yardım etmək;
- Şəxsi refleksiya inkişafına yardım etmək;
- Özünü inkişaf etdirmək tələbatını formalaşdırmaq;
- Yaş yeni törəmələrin inkişafına şərait yaratmaq;
- Əsas sosial vəzifələrin uşaq tərəfindən icrasına dəstək vermək.

*Özünü və başqalarını sevə bilmək bacarığının formalaşdırılmasına yardım etmək*. Əksər valideynlər düşünür ki, uşaqların özlərinə olan sevgisi anadangəlmədir və onları buna öyrətməyə ehtiyac yoxdur. Əslində isə vəziyyət başqadır. Özünəsevgi aşağıdakı komponentlərdən ibarətdir:

- Özünüqəbuletmə;
- Özünə müsbət münasibət;
- "Mən" konsepsiyası.

Özünəsevgi öz imkanları və unikallığına inam deməkdir. Uşağın özünü sevməsinə nail olmaq elə də asan deyil. Artıq 3-4 yaşlı uşaqlarda özünüsevmə bacarığını müşahidə etmək olar. Onlar öz unikallıq və dəyərlərini dərk etmirlər. Buna səbəb odur ki, uşaq ilə ünsiyyət zamanı böyüklər daha çox davranışın mənfi amillərinə fikir yetirirlər və neqativ sözlərdən ibarət müraciətlərdən istifadə edirlər: "Sən özünü pis aparırsan, yenə hər yeri dağıtdın". Bunun nəticəsi olaraq hətta məktəbəqədər yaş dövründə olan uşaqlar da öz nöqsanlarını çox yaxşı bilsələr də, onların əksəriyyəti öz yaxşı cəhətlərini bilmir. Uşaqlar düşünür ki, onlar yalnız yaxşı oxuyanda və ya sözə baxanda sevilirlər.

Psixoloq valideynlərə uşağın yaşından asılı olmayaraq ona şərtsiz sevginin göstərilməsinin nə qədər əhəmiyyətli olduğunu izah etməlidir. Uşaq hiss etməlidir ki, ona olan sevgi heç bir şeydən asılı deyil və o, uğursuzluqla qarşılaşanda belə sevilir. Məsələn, ana övladını şərtsiz sevir, lakin gərgin iş qrafiki ilə çalışdığı üçün uşağa öz sevgisini tam şəkildə göstərə bilmir. Bu vəziyyətdə uşaq özünü tam qəbul edilməmiş kimi düşünə bilər. Ana öz sevgisini göstərə bilmirsə, bu zaman köməyə atanı dəvət etmək lazımdır.

Qeyri-spesifik məsləhətlərin digəri isə *uşaqda refleksiyanın inkişafına dəstək verməkdir*. Yəni uşaq özünün və kənar şəxslərin hislərini və emosiyalarını anlayır, ayırd edə bilir. Bundan başqa etdiyi hərəkətlərin səbəb-nəticə əlaqələrini qura bilir. Refleksiyanın inkişafına 3-4 yaşdan başlamaq olar. Uşaqla ünsiyyət zamanı valideynlər onun keçirdiyi emosiyalara xüsusi fikir verməlidir: "Mən hiss edirəm, sən çox sevinclisən", "Görürəm, çox əsəbisən". Nağıllar oxuyarkən, birgə film seyr edərkən valideynlər personajların hərəkət və emosiyalarını müzakirə etməlidir: "Səncə, o qorxur?", "Necə fikirləşirsən, o nə edir?" və s.
Hisslərlə yanaşı uşaqlarda, xüsusilə yeniyetmələrdə öz həyat təcrübəsini analizetmə bacarığının inkişafı vacibdir. Uşaq ilk növbədə uğursuzluqlardan nəticə çıxarmağı bacarmalıdır. "Bu misalı həll edə bilmədiyin üçün aldığın "2" sənə nə öyrətdi? Bəlkə misalın şərtlərini daha diqqətli oxuyasan və ya başqa nəsə edəsən?"

Yeniyetmələr ilə müntəzəm şəkildə keçən günün analizini aparmaq məsləhət edilir. Bu zaman həm uşaq, həm valideynin gün ərzində rastlaşdığı çətinliklər haqqında məlumat mübadiləsi aparılır, bunların səbəbləri müzakirə olunur və təxmini çıxış yolları hədəflənir.

Digər məsləhətlər isə *uşaqda özünüinkişaf tələbatının yaradılması* ilə bağlıdır. Bu mərhələ, xüsusilə bu haqda heç düşünməyən ana və ata üçün çətin hesab edilir. Psixoloq valideynlərə düzgün şəkildə uşağın özünüinkişaf istiqamətində olan cəhdlərinin əhəmiyyətini izah etməlidir. Bəs bu inkişaf hansı istiqamətlərdə olmalıdır? Uşağın ünsiyyət, təhsil, yaxınlarına qayğı və s. kimi sahələrdə özünüinkişafı mümkündür. Uşağın bu cəhdləri qarşısında böyük maneələr çıxacaq. Bu səbəbdən çox önəmlidir ki, uşaq kifayət qədər səy

göstərdiyi təqdirdə məqsədlərinə nail olacağına inansın.

*Yaş yenitörəmələri ilə bağlı məsləhətlər* yeniyetməlik dövründə çox vacibdir. Yeniyetməlik dövrünün normativ krizisini yaşamayan yeniyetmələrə bu krisizin aktuallaşmasında köməklik göstərmək lazımdır. İlk növbədə bunun nə qədər əhəmiyyətli olduğu haqqında valideyni maarifləndirmək lazımdır. Krizisi yaşamayan yeniyetmə çox sakit və sözəbaxan olduğu üçün valideynlər bu vəziyyətin mənfi tərəflərini görmür. Valideynləri inandırmaq üçün psixoloq tutarlı arqumentlər göstərməlidir.

Sosial vəzifələr ilə bağlı məsləhətlər. 1,5 və 9-cu sinifdə uşaq yeni sosial vəzifələri mənimsəməlidir (Şəkil 3.17). Kiçik məktəbli, orta məktəbli və yuxarı sinif şagirdinin vəzifələri uşağın müstəqillik və özünənəzarətin səviyyəsinə görə fərqlənir. Valideynin qarşısında duran əsas məsələ övladlarının yeni vəzifələrinə adaptasiya olması üçün şərait yaratmaqdır.



**Şəkil 3.17. 1-ci sinif şagirdləri**

**Spesifik məsləhətlər** isə uşaqda müəyyən olunmuş problemin həlli istiqamətində olan tövsiyələrdir. Spesifik tövsiyələr tərtib edilərkən aşağıdakı amillər nəzərə alınmalıdır:

- Uşağın böyüdüyü iqtisadi-sosial vəziyyət;
- Valideyn-uşaq və valideynlərarası psixoloji mühit;
- Uşağın inkişaf yaşı;
- Uşağın yer aldığı cəmiyyətin qoyduğu tələbləri;
- Uşağın fizioloji xüsusiyyətləri;
- Uşağın emosional xüsusiyyətləri;
- Uşağın fərdi istəkləri.

Verilən fərdi tövsiyələr yalnız yuxarıda sadalanan amillər nəzərə alındıqda öz təsirini göstərir. Məsələn, müdafiə aqressiyası müşahidə olunan uşaqların valideynlərinin fiziki cəzalardan tamamilə imtina etməyə razı salınması vacibdir. Eyni zamanda fiziki zorakılıq əlaməti olan oyun və filmlərin baxılmasına qadağa qoymaq lazımdır. Valideynlər gün ərzində övladları ilə müsbət fiziki ünsiyyət (sığallamaq, öpmək və s.) yaratmalıdır. Bu tip cəhdlər ilk zamanlar yeniyetmələrdə aqressiv reaksiyalar yarada bilər. Lakin yeniyetmələrin fiziki hüdudlarına hörmətlə yanaşıldığını onlara hiss etdirdikdə bu tip aqressiv reaksiyaları aradan qaldırmaq mümkün olacaqdır. Məsələn, valideyn övladını qucaqlamadan öncə öz istəyini bildirməlidir: "Elə səni qucaqlamaq istəyirəm ki!" və ya " Səni qucaqlaya bilərəm?"

Qorxu problemi olan uşağın valideynləri ilə iş zamanı ilk olaraq uşağın yuxu rejimi müzakirə olunmalıdır. Yuxu öncəsi uşağın həddən artıq çox həyəcanlanması yolverilməzdir. Şiddət və qorxulu film və multfilmlərin əvəzinə xoş sonluq ilə bitən nağılların yer alması vacibdir. Yaxşı olar ki, valideynlər uşağın yanında özlərinin rastlaşdığı təhlükəli vəziyyəti

müzakirə etməsinlər. Əgər uşağın qorxuları evdə olduğu zaman büruzə verərsə (evdə tək qalmaqdan, tək yatmaqdan qorxar), valideynlərə bildirmək lazımdır ki, bu situasiyalarda "qorxulu heç nə yoxdur və ya bax otaqda heç nə yoxdur" ifadələri tamamilə yararsızdır. Uşağı qorxduğuna görə mühakimə etmək yolverilməzdir. Qorxunun hamıya tanış və normal bir hiss olduğunu izah etmək lazımdır. Qorxu müvəqqəti hissdir. Valideynlərə bildirmək lazımdır ki, uşaqlıq qorxuları 5-6-cı siniflərdə aktuallaşa bilər.

**Uşağın yaş xüsusiyyətlərinə** əsasən valideynlərə tövsiyələrin tərtibi

Yaş krizisləri ilə bağlı şikayətlərə tez-tez rast gəlinir. Müraciət üçün səbəblər fərqli olsa da, onların arasında yaş böhranlarını ayırd etmək və müvafiq tədbirlər görmək lazımdır. Əksər valideynlər yaş böhranının spesifikası ilə tanış deyillər və adətən ayrı-ayrı xarici amillərə diqqətlərini yönəldirlər. Məsələn, yeniyetmə məktəbdə yemək istəmir. Bu, yeniyetməlik dismorfobiyasının nümunəsidir. Yaş böhranları əksər insanlar tərəfindən mənfi hal kimi qiymətləndirilir. Valideynlər bu səbəbdən övladının böhran yaşadığını inkar edir.

Məktəb dövründə 2 əsas böhran qeyd edilir:

- 6-7 yaş böhranı;
- Yeniyetməlik böhranı.

Birinci böhran praktikada və nəzəriyyədə az işıqlandırılsa da, ikinci qədər böyük əhəmiyyət daşıyır. Böhran inkişaf üçün vacib prosesdir.

Böhranla bağlı olan problemlər:

- Böhranın təxirəsalınması. Uşaq daxili konflikt yaşamır, vacib olan yaş yenitörəmələri formalaşmır. Məsələn, əgər yeniyetmə valideynlərin sözünə baxmağa davam edir, müstəqil şəkildə qərar verə bilmir və valideynlərə arxalanır;
- Böhranın yaşanmasından qaçır. Bu zaman xəstəlik və ya davranış reqressiyası müşahidə edilir. Yeniyetmə infantil olur. Məsələn, əgər ingilis dili dərsində çətinlik çəkən şagird axşamdan başağrısından şikayətlənməyə başlayır;
- Ətrafdakılara proyeksiya. Yeniyetmə öz uğursuzluq və çətinliklərinin məsuliyyətini kənar şəxslərdə görür. Məsələn, "Dərsdə 2 aldım, çünki müəllimə məni sevmir";
- Böhranda ilişmə (uşaq böhranı normadan artıq və gərgin keçirir). Məsələn, əgər 4-cü sinif şagirdi hələ də dərslərini anası ilə edir.

Yaş böhranları ilə rastlaşan valideynə ilk olaraq böhranın nə olduğunu, hansı səbəblərdən irəli gəldiyi və hansı funksiyaları icra etdiyi izah olunmalıdır. Daha sonra hər böhrana uyğun olaraq normativ məsləhətlər tərtib edilir. Valideyni məlumatlandırmaq lazımdır ki, hər böhran 3 mərhələdən ibarətdir:

1. Dağıtma mərhələsi. Köhnə davranış modelləri dağıdılır, yeniləri isə hələ ki, seçilməyib;
2. Hazırlıq mərhələsi. Yeni davranış modelləri seçilir;
3. Yaradıcı mərhələ. İlk pozitiv davranış modelləri yaranır.

Valideynlər tərəfindən imkan yaradılmalıdır ki, yeniyetmə köhnə davranış modellərini

dağıtsın. Əks halda valideyn-uşaq münasibətləri gərginləşə bilər və ya uşaq böhrandan çıxmağı bacarmaz. Bu söhbət əsnasında valideyn müvəqqəti çətinlikləri və övladının böyüdüyünü qəbul etməlidir. Valideynlər tərəfindən yeniyetməlik böhranı olduqca çətin qəbul edilir. Bir çox valideynlər övladlarının böyüdüyünü qəbul etmək istəmir. Qeyd etmək lazımdır ki, yeniyetməlik böhranı eyni zamanda valideyn ilə övlad arasında emosional bağın qurulması üçün sonuncu imkan yaradır.

Hər bir yaş üçün spesifik davranış pozuntuları müşahidə oluna bilər. Məsələn, 6-cı sinif şagirdləri daha çox qeyri-normativ leksikaya meyil göstərir. Hər bir psixoloq bu pozuntular üzərində özünümütaliə apararaq, onların müsbət tərəflərini taparaq valideynlərə ötürməlidir. Bir çox halda valideyn məktəb psixoloquna müraciət edərkən bu haqda sinif rəhbəri də məlumatlı olur. Etik prinsiplərə əsasən uşağın psixoloji diaqnozu və digər şəxsi məlumatları kənar şəxslərə ötürülə bilməz. Bu səbəbdən müəllim üçün tərtib olunan tövsiyələrdə neytral terminlərdən istifadə edilməlidir. Məsələn, "müayinələr nəticəsində uşaqda hiperaktivlik və diqqət defisiti müəyyən edilmişdir" - müəllimə tövsiyələri verərkən bu termindən istifadə etmək olmaz. Əvəzində demək olar ki, "O, çox aktivdir və diqqətini toplamaqda əziyyət çəkir".

Məktəbdə şagirdlərin psixi sağlamlığının qorunması üçün 3 əsas şərt gözlənilməlidir:

1. Bütün müəllimlərin ümumi dəyərlərinin və metodoloji yanaşmalarının vahid olması (bu zaman uşaqlara olan təsir və yanaşma ziddiyyətsiz olur);
2. Pedaqoqlar tərəfindən şagirdlərin idrak üslublarının fərdi xüsusiyyətlərinin nəzərə alınması;
3. Psixoloji sağlamlıq problemləri yaşayan uşaqların qavrama spesifikasının tanınması və nəzərə alınması.

Hər şagird gün ərzində məktəbdə 6-7 dərsdə iştirak edir. Bir dərsdə pedaqoq yalnız biliklərə önəm verir və uşaqlardan əzbərlənmiş mətnlər tələb edir. Digər müəllim qrup işlərdən aktiv istifadə edir. Başqa müəllim isə daha ciddi nizam-intizam tələb edir. Bu tip fərqli yanaşmalar şagirdlərdə ciddi emosional yorğunluğa səbəb olur. Eyni zamanda sinfin nizam-intizamına mənfi təsir edir, şagirdlərin motivasiyasını və tədris prosesinin effektivliyini azaldır. Bu istiqamətdə müəllimlərə müvafiq tövsiyələr verildikdə həm tədris prosesi təkmilləşir, həm də şagirdlərin psixoloji sağlamlığı müsbət qalır.

Təlim tempi, vasitələr və üsullar elə seçilməlidir ki, sinfin bütün şagirdlərinin effektiv təhsil fəaliyyətini təmin etsin. Bu proses potensial imkanlarından daha zəif oxuyan şagirdlərin inkişafı üçün böyük əhəmiyyət daşıyır. Bu tip uşaqlar daimi uğursuzluqlarla rastlaşdığı üçün onların psixoloji vəziyyətinin pisləşə bilməsi ehtimalı daha yüksəkdir. Onlarda daha çox davranış, diqqət, yaddaş və kommunikativ problemlərə rast gəlinir. Bu tip məlumatlar psixoloji müayinənin nəticəsində individual şəkildə aşkar edilməlidir.

Hər bir uşağın aparıcı qavrayış kanalı mövcuddur. Bu kanalların xüsusiyyətindən istifadə edərək tədrisin effektivliyini artırmaq mümkündür. Vizual kanaldan daha çox məlumat qəbul edən uşaqlar üçün şəkillər, qrafiklər, sxemlər və təsviri təfəkkür metodlarından istifadə etmək effektivdir. Audio kanallardan daha çox məlumat əldə edən uşaqlar üçün dinləmək və səsli təkrarlama metodları effektivdir. Kinestetik kanallardan

daha çox məlumat qəbul edən uşaqlar üçün toxunmaq, yer dəyişmək, kəsmək və digər üsullar effektiv hesab edilir.

Sinir sistemi xüsusiyyətlərinə görə 6 tipə bölünür. Bu tiplər haqqında müəllimlər məlumatlandırıldıqda onların dərs prosesində uşaqlara yanaşmalarının effektivliyi artırmış olur. Sinir sisteminin tipləri və onlara müvafiq verilən tövsiyələr aşağıda təqdim olunur:

- Zəif sinir sistemi olan uşaqlara istirahət üçün zaman ayırmaq, mənəvi dəstək olmaq önəmlidir;
- Güclü sinir sisteminə sahib olan uşaqlarla iş zamanı monotonluqdan qaçmaq və özünəkontrolu formalaşdırmaq vacibdir;
- Dinamik sinir sistemlərinə sahib olan uşaqlarla iş zamanı uşaqlara hərəkət etməyə icazə vermək lazımdır;
- Yüksək iş qabiliyyətinə sahib olan uşaqları dərs zamanı bərabər yükləmək məsləhət görülür;
- Zəif iş qabiliyyətinə sahib olan uşaqlardan tapşırıqları dərsin əvvəlində soruşmaq, həftənin ilk günlərində daha aktiv fəaliyyətlərə cəlb etmək, çətin və asan tapşırıqları sıralamaq;
- Sıçrayışlı iş qabiliyyətinə sahib olan uşaqların tədris nəticələrinin enib-qalxmasını normal hal kimi qiymətləndirmək lazımdır.

Nəzərə almaq lazımdır ki, dərs zamanı müəllim bir neçə fərqli siniflərlə işlədiyi üçün bütün şagirdlərin individual xüsusiyyətlərini nəzərə alınmasını mümkünsüz hesab edə bilər. Bu səbəbdən onlar üçün sinfin ümumi profilini xarakterizə edən xəritənin tərtibi məqsədəuyğundur. Eyni zamanda müəllimlərə periodik olaraq uşağın yaş xüsusiyyətlərindən irəli gələn problemlərinə dair maarifləndirmə işinin aparılması müəllim-şagird münasibətlərində öz effektivliyini göstərir.

Müəllimlər üçün şagirdlərlə bağlı aşağıdakı kimi ümumi məsləhətlər verilə bilər (Şəkil 3.18):

- Uşaqlar ilə zarafat etməkdən çəkinməmək;
- Növbəti həftəni şagirlərlə əvvəlcədən planlaşdırmaq;
- Xüsusilə yeniyetmələr ilə məktəbdənkənar asudə vaxtının keçirilməsi öz müsbət təsirini göstərir. Bu zaman şagirdlərlə dərs haqqında deyil, fərdi mövzular haqqında söhbətlər aparmaqdan çəkinməmək;
- Hər bir insanda, hadisədə müsbət amillər tapmağa çalışmaq;
- Dərs zamanı daim danışmağa can atmamaq;
- Hər dərs zamanı özü üçün qısa fasilələr etmək. Bu fasilələr zamanı müəllim dinləyir, şagirdlər isə öz fikirlərini bölüşür;
- Əgər dərs müəllimə sıxıcı gəlirsə çox güman ki, uşaqlar da sıxılır. Dərsin proqramını qurarkən əyləncəli məqamları da düşünmək vacibdir. Dərs prosesindən zövq almaq üçün özünə münbit şərait yaratmaq;
- Müəllim şagirdləri sevmək məcburiyyətində deyil, lakin onların müsbət və mənfi

tərəfləri ilə qəbul etməsi çox vacibdir;

- Şagirdlərdən minnətdarlıq hissini gözləməmək. Bəzən heç böyüklər belə bunun nə olduğunu bilmirlər;
- Öz şagirdlərini pis, sözə baxmayan və zəif hesab etməmək. Əslində onlar zirək və aktivdirlər. Müəllim isə bu aktivliyi düzgün yönəltməyi bacarmalıdır;
- Dərs prosesi zamanı daim müsbət əhval-ruhiyyəni qorumaq;
- Şagirdləri hiss etməyə çalışmaq. Məsələn, əgər öncəki dərsdən şagirdlərin əksəriyyəti mənfi qiymət alıbsa və bu hal onların əhval-ruhiyyəsində öz əksini tapıbsa, dərsə başlamazdan əvvəl bir müddət onların narahatlığı ilə bağlı söhbət aparmağa hazır olmaq;
- Ən zəif şagirdlər daxil olmaqla hər zaman şagirdləri tərifləmək. Əgər bunun üçün tutarlı səbəb yoxdursa, o səbəbi yaratmaq;
- Tənqiddən uzaq olmaq.




**Şəkil 3.18. Müasir müəllim**

## Tələbələr üçün fəaliyyətlər

1. Valideynlərə tövsiyələrin verilməsi prinsiplərini sxem şəklində tərtib edin.
2. Valideynlər üçün hər yaş böhranına aid məsləhətlər tərtib edin.
3. Verilmiş "Sona keysi" əsasında valideyn və müəllim üçün müvafiq məsləhətlər tərtib edin.
4. Aqressiv davranışın profilaktikasına uyğun gələn 3 nağıl tapın və seçiminizi əsaslandırın.
5. Tərbiyəçilər üçün 1 və 3 yaş böhranına aid məsləhətlər tərtib edin.
6. 6-7 və yeniyetməlik yaş böhranları ilə bağlı müəllimlər üçün müvafiq məsləhətlər tərtib edin.
7. Rollu oyun. Tələbələr 2-2 qruplara ayrılır. Tələbələrdən biri valideyn, digəri isə psixoloq rolunu canlandırır. Valideyn-tələbə yaşı qeyd etmədən öncə seçdiyi böhranın əlamətlərini sadalayır. Psixoloq-tələbə aydınlaşdırıcı sualların köməyilə hansı böhranın olduğunu tapmağa çalışır. Böhranı müəyyən etdikdən sonra psixoloq-tələbə müvafiq məsləhətlər verir.
8. Rollu oyun. Tələbələr 3 qrupa ayrılır. 1-ci qrup uşaq, 2-ci qrup valideyn, 3-cü qrup isə müşahidəçi rollarını canlandırır. Hər qrupdan müvafiq rolu canlandırmaq üçün 1 nəfər seçilir. Birinci qrupdan seçilən tələbə əvvəlcədən müəyyən edilmiş böhranı canlandırır. İkinci qrupdan seçilən tələbə böhran zamanı düzgün valideyn davranışı strategiyasını tətbiq etməyə çalışır. Üçüncü qrupun müşahidəçiləri isə valideynin doğru və yanlış davranış strategiyalarını qeyd edir.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Valideyn, müəllim və tərbiyəçilərə müvafiq qaydada tövsiyələr verir”.**

1. Valideynə verilə biləcək məsləhətlərin neçə növü var?
2. Qeyri-spesifik məsləhətlər hansılardır? Onları sadalayın.
3. Spesifik məsləhətlər nəyə əsasən tərtib edilir?
4. Neçə yaşlı uşağın refleksiyasının inkişafına başlamaq olar?
5. Uşaqlar üçün şərtsiz sevginin əhəmiyyətini izah edin.
6. Məktəbdə şagirdlərin psixi sağlamlağının qorunması üçün əsas 3 şərt hansılardır?
7. Yaş böhranının əhəmiyyətini izah edin.

## CAVABLAR

| **Təlim nəticəsi 1 üzrə düzgün cavablar** | |
|---|---|
| Qiymətləndirmə meyarı 1 | |
| Sual 4 | B |
| Sual 6 | B |
| Sual 7 | A |
| Sual 8 | B |
| Qiymətləndirmə meyarı 2 | |
| Sual 4 | B |
| Sual 6 | B |
| Qiymətləndirmə meyarı 3 | |
| Sual 6 | B və D |
| Sual 12 | C |
| **Təlim nəticəsi 2 üzrə düzgün cavablar** | |
| Qiymətləndirmə meyarı 1 | |
| Sual 3 | B |
| Sual 5 | C |
| Sual 8 | C |
| Sual 9 | B |
| Sual 10 | B |
| Sual 12 | B |
| Sual 13 | C |

| **Təlim nəticəsi 3 üzrə düzgün cavablar** | |
|---|---|
| Qiymətləndirmə meyarı 1 | |
| Sual 2 | B |
| Sual 3 | B |
| Sual 4 | A və C |
| Qiymətləndirmə meyarı 2 | |
| Sual 6 | C |

# ƏDƏBİYYAT SİYAHISI

1. Anastasi A. Psychological testing. – New York, 2009
2. Bandura A. Social learning theory.
3. Акимов М.К. Психологическая диагностика. – М. 2005
4. Бурменская Г.В., Захарова Е.И. Возрастно - психологический подход в консультирование детей и подростков. - М. 2006
5. Бурменская Г.В. Обследование детей дошкольного- младшего школьного возраста. – М.2003
6. Бурменская Г.В. Хрестоматия по детской психологии / От младенца до подростка. – М. 2003
7. Гуткина Н.И. Психологическая готовность к школе. М.,2009.
8. Дубровина И.В., Данилова Е.Е., Прихожан А.М. Психология. – М. 2003
9. Дубровина И.В. Практическая психология образования. – П. 2004
10. Карабанова О.А. Возрастная психология / Конспект лекций. – М. 2005
11. Смирнова О.Е. Детская психология. – М. 2013
12. Craick R.I.M., Salthouse T.A. the handbook of againg and cognition.
13. Семаго Н. Детский рисунок / Этапы развития.
14. Давыдов В.В., Слободчиков В.И., Цукерман Г.А. Младший школьник как субъект школьной деятельности // Вопросы психологии. 1992. №3-4.
15. https://psylab.info/%D0%93%D0%BB%D0%B0%D0%B2%D0%BD%D0%B0%D1%8F_%D1%81%D1%82%D1%80%D0%B0%D0%BD%D0%B8%D1%86%D0%B0